AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT: MİLLİ KİMLİK VƏ MƏNƏVİ ZƏNGİNLİK

## II KİTAB

BAKI – 2020

**Kitab AMEA Rəyasət Heyətinin 14 mart 2018-ci il tarixli, 7/3 №-li qərarı ilə təsdiq olunmuş "İdeya-estetik tərbiyədə ədəbiyyat və incəsənətin rolu: milli kimlik və mənəvi zənginlik" elmi-tədqiqat proqramı çərçivəsində nəşr olunur.**

**REDAKTOR: Muxtar KAZIMOĞLU – İMANOV**
*AMEA-nın həqiqi üzvü*

**Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik (II kitab).** Bakı, Elm və təhsil, 2020, 284 səh.

folklor.az

Ə 4603000000 Qrifli nəşr
N-098-2020

© Folklor İnstitutu, 2020

**Muxtar KAZIMOĞLU-İMANOV**
**akademik, AMEA Folklor İnstitutu**

# MƏNƏVİ ZƏNGİNLİK BAXIMINDAN MİFOLOJİ DÜŞÜNCƏ VƏ YAZILI SƏNƏT ƏLAQƏLƏRİ

XÜLASƏ

Ədəbiyyat və incəsənətdə mənəvi zənginlik məsələsini araşdırmağın mühüm yollarından biri yazılı sənətin arxaik köklərini, mifoloji düşüncə tərzi ilə bağlılığını öyrənməkdir. Araşdırmalar göstərir ki, qədim dövrlərdə musiqi müqəddəsləşdirilir və musiqiyə magik güc mənbəyi kimi baxılır. Arxaik təsəvvürə görə, magik güc mənbəyi olan musiqinin başlıca funksiyası ilahi qüvvələrlə əlaqə yaradıb təbiət hadisələrinə təsir göstərməkdən ibarətdir. Rəqs və musiqi vasitəsilə yerlə göy arasında əlaqə yaratmaq istəyən şamanlar və kahinlər kimi, sufi dərvişləri də oyun və muğam vasitəsilə profan aləmlə sakral aləm arasında əlaqə yaratmaq istəyirlər.

Arxaik musiqi və rəqsin ilahi qüvvələrlə əlaqələndirilməsi eynilə arxaik söz sənətinə də aiddir. Bir çox hallarda musiqi və rəqsdən ayrılmaz olan arxaik söz sənəti bu günün özündə ilkin mahiyyətini müəyyən qədər qoruyub saxlayır. Mif və yazılı sənət əlaqələrində diqqəti cəlb edən əsas meyillərdən biri arxaik düşüncə tərzini, xüsusən təbiətin insana xas əlamətlərlə təqdim edilməsi prinsipini başlıca çıxış nöqtəsi kimi götürməkdə, predmet və hadisələri mif modelləri ilə əks etdirməkdə özünü göstərir.

***Açar sözlər:*** arxaik incəsənət, magik funksiya, mif, mifoloji model, yazılı sənət

# СВЯЗИ МИФОЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ И ПИСЬМЕННОГО ИСКУССТВА В АСПЕКТЕ ДУХОВНОГО ОБОГАЩЕНИЯ

РЕЗЮМЕ

Одним из важных способов исследования проблемы духовного обогащения в литературе и искусстве является изучение архаических корней письменного искусства и мифологического мышления. Исследования показывают, что в древние времена музыка обожествлялась и рассматривалась как источник магической силы. По архаическим представлениям, основной функцией музыки, которая являлась источником магической силы, заключалась в том, что вступив в связь с божественными силами, повлиять на природу. Подобно шаманам и прорицателям, которые являлись посредниками между небом и землей посредством танца и музыки, суфийские дервиши также желали посредничать между профанским и сакральным миром посредством игры и мугама.

Связь архаической музыки и танца с божественными силами так же, относиться и к архаическому словесному искусству. Во многих случаях архаическое словесное искусство, неотделимое от музыки и танца, все еще в определенном смысле сохраняет свою первоначальную сущность. Одной из основных тенденций привлекающих внимание в связях мифа и письменного искусства, является использование архаического мышления, в особенности принципа представления природы антропоморфными чертами и отражение предметов и событий в мифических моделях.

***Ключевые слова:*** архаическое искусство, магическая функция, миф, мифологическая модель, письменное искусство

# MYTHOLOGICAL THINKING AND WRITTEN ART RELATIONS ACCORDING TO THE SPIRITUAL WEALTH


SUMMARY

One of the important ways to investigate the problem of spiritual wealth in literature and art is to study the archaic roots of the written art, its connection with the mythological way of thinking. The investigations show that in the ancient times the music was sacred and music is viewed as a source of the magical power. According to the archaic imagination, the main function of music which was a source of the magical power was to connect with the divine forces and influence to the nature events. As the shamans and magicians willing to create the connection between the sky and the ground with the help of the dances and music, the Sufi dervishes also want to create a connection between the profane world and the sacred world with the help of the games and the Mugham. The main theme of the Mugham performed by the Sufis is the love. According to the Sufi outlook the love is the main way to join Allah.

The connection of the archaic music and dance with the divine forces is also related to the archaic word art. In many cases the art of archaic vocabulary, which is inseparable from music and dance, protects its original essence in the certain form. One of the main trends that attract the attention in the relations of myth and written art shows itself in taking the archaic thinking, especially the principle of presenting nature with the human-specific signs as the main outlet, reflecting subjects and events with myth models.



***Key words:*** archaic art, magical function, myth, mythological model, written art

Mifoloji düşüncənin yazılı ədəbiyyatdakı yerini və təzahür formalarını üzə çıxarmağın başlıca yolu bu düşüncə tərzinin folklordakı ümumi istiqamətlərini nəzərə almaqdan keçir. Nəzərə almaq lazım gəlir ki, folklor nümunələri ifa prosesində ortaya çıxan nümunələrdir və bu proses əksər hallarda ayin və mərasimlərin tərkib hissəsi kimi təzahür edib. Söz sənətinin, bütövlükdə incəsənətin ilkin yaranma çağlarına, ötəri də olsa, baş vursaq, görərik ki, estetik zövq məsələsi həmin çağlarda sənətin arxa planda qalan məsələlərindən biri olub. Həmin çağlarda əsas diqqət sənətin ayrı-ayrı ifadə vasitələri ilə təbiətə, o cümlədən torpağa, ağaca, heyvana, quşa təsir göstərməyə yönəlib. Qədim dövrlərin insanı sözlə, musiqi ilə, rəqslə təbiətə ovsunlayıcı təsir göstərib ki, aclıqdan, susuzluqdan, buna bənzər fəlakətlərdən yaxa qurtara bilsin. Şifahi ifa prosesində sözlə vəhdət yaradan musiqinin yaranma tarixini yada salsaq, magik funksiyanı ilkin musiqinin başlıca funksiyası kimi görərik. Əgər söz, rəqs və musiqi qədim insanın nəzərində magik güc daşıyıcısı olubsa, bu o deməkdir ki, bəşər övladı qədim çağlarda bu sənət vasitələrinin müqəddəsliyinə sidqi-ürəkdən inanıb.

Mifoloji düşüncə və folklor əlaqələrinin təməl prinsiplərinə aydınlıq gətirmək üçün musiqinin arxaik köklərinə ümumi nəzər salaq.

Görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib musiqinin arxaik köklərindən bəhs edərək yazır: "Dünyanın əksər xalqlarında, o cümlədən bizimlə müxtəlif şəkildə yaxın olmuş İran, ərəb, yunan, Misir, Çin, Orta Asiya və Zaqafqaziya xalqlarında musiqinin, təğənni və şeirin, yəni

sinkretik sənətin göylərlə, səyyarələrlə əlaqədar olduğuna, xariqüladə qüvvələr tərəfindən təlim edildiyinə çox möhkəm etiqad olduğu məlumdur. Bunlardan xüsusilə ərəblər onu cinlərlə, qədim İran divlərlə, klassik Yunanıstan muzalarla və s. bağlı görmüşlər.

Bizdə isə çalmaq, oxumaq, şeir demək məharətinin "vergi" olduğuna etiqad hələ indi də xalqın müəyyən təbəqələri içərisində yaşamaqdadır…

Böyük Füzuli də öz "Yeddi cam"ında hər bir musiqi alətini müəyyən bir səyyarə, bir işıq mənbəyi ilə bağlamış, Azərbaycan musiqisinin ən görkəmli nümayəndəsi, bəstəkar – alim, akademik Ü.Hacıbəyov isə "Pifaqorun ixtira" eləmiş olduğu yeddi məqamın yeddi səyyarə ilə uyğunluğunu göstərən cədvəl tərtib etmişdir" (1, 39). Qədim çağlarda musiqinin müqəddəs sayılmasının mühüm göstəricilərindən biri dini kitablarda ayrı-ayrı musiqi alətlərinin adının çəkilməsidir. Məsələn, Bibliyada bir neçə dəfə arfanın adı çəkilir. Tövratda və Bibliyada yeri gəldikcə dəfdən bəhs olunur. Dəf haqqında məlumatlar Peyğəmbər hədislərində də öz əksini tapır. Məsələn, hədislərin birində deyilir ki, "Həzrəti-Əbubəkr (r.a.) qızı Aişənin çadırına girdi. Aişə validəmizin yanında iki cariyə vardı – dəf çalırdılar. Həzrəti-Peyğəmbər (s.ə.s.) əlbisəsinə bürünüb yatırdı. Bu mənzərəni görən Həzrəti-Əbubəkr (r.a.) cariyələrə acıqlandı. Bu əsnada Həzrəti-Peyğəmbər (s.ə.s.) üzündən pərdəni qaldırıb belə buyurdu: Ay Əbubəkr, burax onlar istədiyini etsinlər. Bu günlər bayram günləridir…

Dəf aləti haqda Həzrəti-Peyğəmbərin (s.ə.s.) buyurduqlarına başqa hədislərdə də rast gəlirik. Məsələn, hədis-

lərin birində Həzrəti-Peyğəmbər (s.ə.s.) belə buyurur: Nikahı məclislərdə kəsin və nikah mərasimində dəf çalın" (2, 298-299).

Musiqi alətlərinin müqəddəsləşdirilməsi xalq ədəbiyyatında qabarıq şəkildə əks olunur. "Dədə Qorqud" dastanında qopuzdan, "Koroğlu" dastanında sazdan qeyri-adi musiqi alətləri kimi söhbət açılır. "Dədə Qorqud" dastanında Oğuz igidləri, üstündə qopuz gördükləri hər hansı bir adama əl qaldırmağı günah sayırlar. "Koroğlu" dastanında Koroğlu yaxşı tanımadığı hər hansı bir adamın mərd və ya namərd olmağını həmin adamın saza münasibətinə görə, saz havasından təsirlənib-təsirlənməməsinə görə müəyyənləşdirir. Dini kitablarda və Peyğəmbər hədislərində musiqi alətlərindən xüsusi rəğbətlə bəhs edilməsi, xalq ədəbiyyatında musiqi alətlərinin müqəddəsləşdirilməsi musiqinin mənşəyini öyrənməkdə açar rolu oynayır. Məlum olur ki, musiqi alətlərinin müqəddəsləşdirilməsi qədim çağlarda musiqinin nəzərdə tutulmuş ilkin funksiyası ilə birbaşa bağlıdır. Arxaik təsəvvürə görə, musiqinin başlıca funksiyası ilahi qüvvələrlə əlaqə yaradıb təbiət hadisələrinə təsir göstərməkdən ibarətdir. Bu məqsədlə qədim insan sehrkarlığa üz tutur, təbiətə magik təsir göstərmək üçün müxtəlif vasitələrə əl atır. Musiqinin arxaik mahiyyəti üzrə xüsusi araşdırma müəllifi olan Deyn Radyarın sözləri ilə desək, magik gücün ifadəsində səs əsas vasitəyə çevrilir. Qədim insan öz avazı və musiqi alətlərinin köməyi ilə təbiətdəki müxtəlif səsləri – küləyin səsini, heyvanların, quşların səsini təqlid etməyə çalışır. Mifoloji təsəvvürə görə, səsini təqlid edib roluna girdiyin istər külək, is-

tər heyvan, istərsə də quş hamisinin könlünü ala və ona müsbət təsir göstərə bilərsən ki, sənə yardımçı olsun (3). Deməli, insanın avazla oxumasının və müxtəlif alətlərdə musiqi səsləndirməsinin kökündə mifoloji dünyagörüş və həmin dünyagörüşdən irəli gələn rituallar durur. Təsadüfi deyil ki, dünyanın ayrı-ayrı xalqlarının folklorunda musiqinin magik təsiri ilə bağlı müxtəlif süjetlər var: Şi Da adlı Çin arfaçısı öz çalğısı ilə küləyin və şiddətli istinin qarşısını ala və məhsuldarlıq üçün münbit şərait yarada bilir; skandinav eposunun qəhrəmanları oxumaq və gözəl musiqi ifa etməklə təbiəti özlərinə ram edə bilirlər; şərqi slavyan mifologiyasının qəhrəmanlarından biri olan Boyan öz səsi və rəqsi ilə ətraf aləmi ovsunlaya bilir (4, 20). Türk xalqlarının folklorunda musiqinin möcüzəli təsiri ilə bağlı səciyyəvi əfsanələrdən biri Qorqud Ata haqqındadır: Ölümdən xilas olmaq istəyən Qorqud Ata suyun üzünə xalı sərib onun üstündə oturur və ara vermədən qopuz çalır. Neçə ki, qopuz çalınır, ölüm Qorqud Ataya yaxın düşə bilmir. Elə ki, Qorqud Ata qopuz çalmağına ara verib uyumaq istəyir, onda ölüm ilan cildinə girib onu çalır (5, 32-33). Bu əfsanədə qopuz musiqisini ölümsüzlüyün, əbədiyyətin rəmzi kimi görürük.

Musiqinin müqəddəsləşdirilməsi və bir çox hallarda əbədiyyət və yenidən doğulma rəmzi kimi təsəvvür edilməsi, heç şübhəsiz, muğam sənətinə də aiddir. Muğamla bağlı bu cür mifoloji təsəvvürə əsaslanan xalq şairi Bəxtiyar Vahabzadə "Muğam" poemasında deyir:

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə məni bir gün oyandırdı muğam (6, 601).

Bəxtiyar Vahabzadənin dirilik rəmzi kimi təqdim etdiyi muğamın yaranma tarixi ilə bağlı elmi fikirlərə nəzər salsaq, bu sənətin qədim Şumer, Misir və İrandakı kahin musiqisi ilə müqayisə olunmasına diqqət yetirməliyik. Muğam sənətinin kahin musiqisi ilə müqayisə olunması o deməkdir ki, tədqiqatçılar muğamın mənşəyini, mərasimlər zamanı ilahi qüvvələr şərəfinə oxunan qədim nəğmələrlə əlaqələndirirlər. Muğam tədqiqatçısı, sənətşünas Rafiq İmrani yazır: "Kahinlər musiqini, onun psixoloji amil kimi gücünü yaxşı bildikləri üçün ondan geniş istifadə edirdilər. Kahinlər öz Allahlarının şərəfinə duaları xüsusi avazla oxuyardılar və dini mərasimlərin keçirilməsində Allahlara ithaf himnləri səsləndirərdilər. Məqsəd ibadətə gələn insanları oxunan himnlər, nəğmələr vasitəsilə Allaha yaxınlaşdırmaq idi… Elə hesab edirdilər ki, Allah ilə insanlar arasında əlaqəni musiqi səsləri, dualar və nəğmələr vasitəsilə yaratmaq olar" (7, 239). Araşdırmalar göstərir ki, musiqi ilə müşayiət olunan qədim mərasimlərdə musiqi əksər hallarda rəqslərlə vəhdət təşkil edib. Bizim eradan əvvəl Misir məbədlərində kahinlərin rəqsi buna misal ola bilər. Kahinlər günəşin rəmzi olan mehrabı məbədin mərkəzində yerləşdirib, rəqs edə-edə mehrabın ətrafında dolanırmışlar. Təbii ki, kahin musiqisi kimi, kahin rəqslərinin də ifasında göylərlə əlaqə məqsədi güdülürmüş. Kahin mərasimlərində musiqi ilə rəqsin bu cür funksiya eyniliyi tədqiqatçıların diqqətini istər-istəməz sufi məclislərinə yönəldir. Sənətşünas Aydın Talıbzadə mövləvi məclislərində həm rəqsə, həm də muğama meydan verilməsinə əsaslanıb muğam sənətinin sufizm fəlsəfəsi baxımından arxaik ma-

hiyyətini açmağa çalışır. O belə hesab edir ki, mövləvilərin səma məclislərində dairə boyu rəqs edən və “Rast” üstündə muğam oxuyan dərvişlər (səmazənlər) “sakral aləmlə profan aləmi birləşdirmək funksiyasını yerinə yetirməklə mediatora (vasitəçiyə) çevrilmiş olurlar” (8, 290).

Başlıca funksiyası sakral aləmlə profan aləm arasında əlaqə yaratmaqdan ibarət olan dərvişlikdə zərdüştiliklə, buddizmlə, antik Yunanıstandakı kinizmlə, slavyan mədəniyyətindəki “örodstvo” adlı divanəlik cərəyanı ilə üst-üstə düşən cəhətlər müşahidə olunur. Dərvişlikdə saçın, saqqalın, bığın və qaşın qırxılması, o cümlədən dilənçilik buddizmlə, odun ətrafında rəqslər etmək zərdüştiliklə üst-üstə düşürsə, ümumən sərbəstliyə can atmaq həm də yunan kinizmi və slavyan divanəliyi ilə üst-üstə düşür. Təsadüfi deyil ki, arxaik slavyan mədəniyyətinin tədqiqatçılarından olan A.M.Pançenko slavyan divanəliyi və müsəlman dərvişliyi arasında tipoloji paralellik görür. Bu paralellik, tədqiqatçının fikrincə, nəfsin öldürülməsində və daxili sərbəstliyin qazanılmasındadır (15, 80). Daxili sərbəstliyə can atan insan istər-istəməz cəmiyyətdəki davranış normalarından kənara çıxmalı olur. Ağlı üstündə olan insanın isə mövcud davranış normalarından kənara çıxması çətin məsələdir. Ona görə özünü dəliliyə vurmaq, özünü dəli kimi göstərmək zərurəti meydana çıxır. Özünü dəliliyə vurub dünyanı lüt-üryan dolananlar ruslarda “divanə” mənasını verən “юродивый” adını, bizdə də “dəli” mənasını verən “abdal” adını qazanırlar: Abdal Musa, Qayğısız Abdal, Abdal Məhəmməd, Abdal Murad, Abdal Qasım... Qışın soyuğunda, yayın istisində bir qarnı ac, bir qarnı tox

gəzib-dolanmağın əziyyəti azadlıq adlı bir nemətin qabağında heçə dönür. Azadlıq dediyimiz o nemətin dərviş leksikonundakı adı, təbii ki, eşqdir – Allah eşqi. Şəms Təbrizini – Şərqin böyük sufi şairi Cəlaləddin Ruminin ustadını qanadlı bir quşa döndərib göylərə qaldıran və ona Pərrəndə (pərvaz edən) adını qazandıran məhz bu eşqdir. "Eşq camından içən kimsənə huşyar olmaz" misrası S.Ə.Nəbatinin, eləcə də onun kimi neçə-neçə idrak sahibinin dərviş olub, tərki-vətən qılmasının başlıca səbəbini göstərən bir nümunədir (9, 41-42).

Sufi fəlsəfəsində Allahla kamil insan arasında əlaqə yaratmağın və bu əlaqənin ən yüksək mərtəbəsi olaraq Allaha qovuşa bilməyin başlıca yolu eşqdir. Sufi dərvişləri muğam sənətinə ilahi eşqi ifadə etməyin mühüm vasitələrindən biri kimi baxıblar və muğam sənətində öz izlərini, nişanələrini qoyublar. Belə izlər, nişanələr muğama aid adlar sırasında da özünü göstərir. Məsələn, belə güman olunur ki, "Baba Tahir" muğam guşəsi X əsrdə yaşayıb qələndərlik təriqətinin əsasını qoymuş Həmədanlı sufi şair Baba Tahir Üryanın adı ilə bağlıdır. Faktlar göstərir ki, dərviş zikrlərində muğam xüsusi akt kimi nəzərdə tutulur. "Musiqiyə bağlılığı ilə fərqlənən zikr ayinləri bu və ya digər dərəcədə belə bir ümumi prinsipdən çıxış edir: zikr dərvişlərin diqqətini tədricən ətraf gerçəklikdən tamamilə təcrid olunmağadək dərinləşən öz daxili halına yönəltməyi tələb edir. Son mərhələsində tam özünə qapanma (trans) halına çatan bu proses getdikcə artan emosional gərginliklə səciyyələnir. Zikrin zirvə nöqtəsində emosional gərginlik vəsf halına çevrilir ki, bu da dərvişlər tərəfindən Alla-

hın yaxınlığının əlaməti, ondan gələn vəhy kimi qiymətləndirilir" (10, 357-358).

Muğam ifa edən sufi dərvişlərinin mediatorluq funksiyasından bəhs edərkən sufizm və şamanizm səsləşməsinə, ümumi şəkildə olsa da, toxunmaq lazım gəlir. Ona görə ki, dərviş məclislərində mühüm yer tutan oyun və musiqi kimi aktların bir kökü məhz şamanlığa gedib çıxır. Dərviş əlindəki dəfin (qavalın) proobrazını şaman əlində görürük. Şaman mərasimlərini dəfsiz (davulsuz) təsəvvür etmək mümkün deyilsə, onda musiqinin, o cümlədən muğam sənətinin arxaik köklərini öyrənmək baxımından şamançılıqla bağlı bəzi vacib nöqtələri xatırlatmağa ehtiyac var. Araşdırdığımız mövzu baxımından vacib saydığımız nöqtələrdən biri şaman davulunun mənşəyinə aid mifoloji təsəvvürdür. Məlumdur ki, dünya xalqlarında məşhur musiqi alətlərini hazırlayıb ərsəyə gətirməyi ilahi mənşə ilə bağlamaq etiqadı var. Belə etiqadın bir təzahürüdür ki, qədim ozan – baxşı qopuzları "qutlu" ağacdan düzəldilir (11, 23). Həmin etiqadın izləri bu günün özünə belə gəlib çıxdığından saz musiqi alətinin düzəldilməsində müəyyən mistik şərtlərin gözlənilməsinə xüsusi diqqət yetirilir: "Elat müdriklərinin söz-sovuna görə, saz ilin-ayın son çərşənbəsi axşamı (20-21 martda) el-obada Allah adamı kimi tanınmış, pak, ağzı dualı, nuranə-piranə şəxs tərəfindən Ay doğandan sonra, saat 12 radələrində, aydınlıq gecədə ağaca su üfürüb, oyadandan sonra kəsilməlidir. Saz üçün qara tut ağacını kəsən nuranə-piranə adam üzü qibləyə deməlidir:

– Birdi-bir olan... Allahın pak adı ilə! Bu tut ağacından düzələn saz qoy Allahın köməyi ilə müqəddəs olsun,

səsi aşığın sinəsində ötkəm avazlı olsun. Duasını biz verdik, səs-sədasını birdi-bir olan Allah versin" (12, 499).

Qopuzun "qutlu" ağacdan düzəldilməsi, sazın düzəldiləcəyi ağac kəsilərkən xüsusi "ayin"in keçirilməsi şaman davulunun ərsəyə gəlməsi yolları ilə səsləşməkdədir. Şaman davulunun sağanağını düzəltmək üçün ağacın necə seçilməsində müxtəlif yollar var. Yollardan biri budur ki, şaman əlində balta, gözlərini yumub meşəyə girir və qarşısına ruhların iradəsi ilə hansı ağac çıxsa, davul üçün o ağacı seçir. Başqa bir yol ildırım vurmuş ağacın seçilməsidir. Davul düzəltmək üçün şaman axtarıb məhz ildırım vurmuş ağacı tapır. Davul üçün ağacın seçilməsində ən səciyyəvi yollardan biri şamanın birbaşa ruhlardan göstəriş alıb harda, hansı meşədə, hansı ağacın kəsiləcəyini müəyyənləşdirməsidir. Fransız etnoloqu Mirça Eliade bütün bu faktları xatırladıb belə qənaətə gəlir ki, şaman davulu üçün seçilən ağac "mahiyyətcə adi ağac olmaqdan çıxıb Dünya ağacının işarəsinə çevrilir" (13, 96). Məlumdur ki, Dünya ağacı mifologiyada yerlə göyü birləşdirən sakral bir ağacdır. Üstünə heyvan dərisi çəkilməklə davula dönən bu ağac çalınıb xüsusi əks-səda verməklə şamanı göylər aləminə aparmalıdır. Əlinə davul götürüb xüsusi avazla oxuyan şamanın başlıca məqsədi məhz vəcdə gəlib göylərə yüksəlmək və ruhlar aləmi ilə əlaqə yaratmaqdır. Əlinə qaval götürüb muğam ifa edən sufi dərvişinin də başlıca məqsədi gözünü yumub xəyalən profan dünyadan ayrılmaq və Haqqın dərgahına ucalmaqdır.

Konfusi belə hesab edir ki, musiqi yerlə göy, cəmiyyətlə dövlət arasında harmoniya yaradan bir vasitədir (14,

142). Çin mütəfəkkirinin musiqidən danışarkən göy və dövlət anlayışlarını yan-yanaşı işlətməsinə təbii hal kimi baxmaq lazımdır. Məsələ burasındadır ki, arxaik dünyagörüş sistemində dövlət göylərin, göylərdə qərar tutan ilahi qüdrətin yerdəki təmsilçisidir.

Bəşər tarixində ilkin musiqinin ilahi qüvvələrlə əlaqələndirilməsi, sakral aləmlə profan aləm arasında əlaqə yaratmağın mühüm vasitəsi sayılması, təbii ki, eyni dərəcədə ilkin rəqs və söz sənətinə də aiddir. Bir çox hallarda musiqi və rəqsdən ayrılmaz şəkildə özünü göstərən arxaik söz sənəti bu günün özündə ilkin mahiyyətini müəyyən qədər qoruyub saxlayır. Şifahi xalq ədəbiyyatının elə janrları vardır ki, bu gün belə arxaik ifa kontekstinə yaxın bir kontekstdə ortaya çıxmaqda davam edir. Bayatı belə janrlardan biridir. Bu gün bayatıların xüsusi avazla yas mərasimlərində, musiqi sədaları altında toy mərasimlərində ortaya çıxmasına təsadüfi hal kimi baxmaq mümkün deyil. Təsadüfi hal olsaydı, xalq lirikasının görkəmli tədqiqatçıları həmin məsələyə xüsusi diqqət yetirməz, bayatıların musiqi və mərasimlərlə bağlılığına geniş yer verməzdilər. Azərbaycan xalq lirikasının ilk və ən görkəmli tədqiqatçılarından olan Əmin Abidin bu sahədəki araşdırmalarına nəzər salsaq, bayatı və musiqi, bayatı və mərasim məsələlərinin daha çox diqqət mərkəzində saxlanmasının şahidi olarıq. Əmin Abid ayrı-ayrı türk xalqlarındakı öləng, cır, türkü, eşulə və s. şeir nümunələri kimi bayatıların da musiqi ilə oxunmasını əsaslandırmaq üçün "bayatı" sözünün muğam adlarında (Bayatı Kürd, Bayatı Qacar, Bayatı İsfahan, Bayatı Şiraz şəklində) öz əksini tapmasını xatırla-

dır və bu faktı bayatı və musiqi bağlılığının mühüm göstəricilərindən biri sayır (16, 197). Bayatı və musiqi bağlılığının başqa mühüm əlamətini Əmin Abid bayatı mətnlərinin quruluşunda görür. Bayatıların birinci və ikinci misralarının bir çox hallarda üçüncü və dördüncü misralarda ifadə olunan əsas məzmundan uzaq düşməsində əsas səbəb, Əmin Abidin qənaətinə görə, bayatının bəstəsi, havacatıdır: əsas məzmundan uzaq ilk misraları söyləməklə və həmin misraların ahəngi üstündə sonuncu (və əsas) misraları düzüb-qoşmaqla "saz şairi" öz funksiyasını yerinə yetirir, yəni "bəstə ilə bədahətən" bayatı ifa etmiş olur (16, 228). Bayatı ifaçılığının digər mühüm cəhətini mərasimlərlə bağlılıqda görən Əmin Abid həmin mərasimlərdən üçü üzərində xüsusi olaraq dayanır: fala baxmaq mərasimləri, matəm mərasimləri və toy mərasimləri. Əmin Abid bayatı və mərasim əlaqələrindən bəhs edərkən həmin əlaqələrin 1920-30-cu illər arasında xalq tərəfindən canlı şəkildə yaşadılmasını diqqətə çatdırır, hətta İçərişəhərdə məşhur olan Kəblə Rübaba, Qızana, Kəblə Umuzaman kimi yedəkçilərin (ağıçıların) adını çəkir (16, 235-237). Bayatı vasitəsilə fala baxmaq mərasimləri tədricən öz işləkliyini itirsə də, bügünkü yas mərasimlərimizi bayatılarsız-ağılarsız təsəvvür etmək çətindir. Bugünkü bayatılarımızda, xınayaxdı və nişan mərasimlərimizdə keçirilən Gülümey və Haxışta deyişmələrində bayatı üstündə nəğmələrin oxunması adi bir haldır. Çağdaş insanın nəzərində yasda qəm-qüssəni, toy-nişanda sevinci ifadə etməyin bir forması olan bayatılar qədim insanın təsəvvüründə fövqəltəbii qüvvələrə təsir göstərməyin bir vasitəsidir. Yəni ilkin

yaranış mərhələsində bayatılar, eləcə də şifahi xalq ədəbiyyatının digər janrları arxaik düşüncə tərzini, mifoloji görüşləri qabarıq şəkildə əks etdirir.

Şifahi bədii söz ən qədim çağlarda mifoloji düşüncənin məhsulu, ayin və mərasimlərin tərkib hissəsi kimi meydana gəlibsə, şifahi söz sənətinin genezisində mif və ritual mühüm rol oynayıbsa, onda bu məqamı diqqət mərkəzində saxlamaq zərurəti ortaya çıxır. Zərurət yaranır ki, şifahi xalq ədəbiyyatına məxsus bədii-poetik sistemdə ritual-mifoloji əsaslardan irəli gəlib zaman-zaman outruşmaqda olan cəhətlər mühüm istinad nöqtəsinə çevrilsin. Əvvəla, ona görə ki, ritual-mifoloji amillər şifahi söz sənətinin poetikasını doğru-düzgün anlamaqda mühüm əhəmiyyət daşıyır. İkincisi, ona görə ki, yazılı ədəbiyyat nümunələrini bu və ya digər dərəcədə folklora bağlayan başlıca səbəblərdən biri üzə çıxmış olur. Tədqiqatçılar yazıçıların folklora üz tutmasının başlıca səbəblərindən birini bu cür müəyyənləşdirməkdə haqlıdırlar: yazılı ədəbiyyata qədərki bədii sözə qayıtmaq (17, 5). "Yazılı ədəbiyyata qədərki bədii söz" ifadəsində "bədii" təyini əslində şərti olaraq işlədilən bir təyindir. Başqa sözlə desək, bu bədiilik, yəni mifin tərkibindəki bədiilik çağdaş insanın baxış bucağından görünən və mənalandırılan bir bədiilikdir. Hadisələri bədii uydurma yox, real gerçəklik kimi təqdim edən mifdə məcazilik axtarmaq məhz çağdaş insanın işidir. Bu gün məcazi mənada başa düşdüyümüz bir sıra dil faktlarının qədim dövrlərdə müstəqim məna daşımasına diqqət yönəldən dilçilər mifoloji sözün mahiyyətini doğru-düzgün qiymətləndirməkdə bizə tutarlı dəlillər verirlər. Aka-

demik Kamal Abdullanın bu istiqamətdəki elmi araşdırmaları xüsusi maraq doğurur.

Özünü təbiətdən ayırmayan, özündə təbiətin, təbiətdə özünün əlamətlərini görən qədim insan ən mücərrəd anlayışları belə cisim timsalında qavrayır. Belə qavrayışın əlamətlərini Kamal Abdulla "Dədə Qorqud"da tapa bilir. Onun qənaətinə görə, dastandakı "şivən girdi", "qırğın girdi", "eşqi gəldi", "uyqusu (yuxusu) gəldi", "gözüm döndü", "könlüm getdi", "şərabın istisi başına çıxdı", "yatan dağ", "soylamış görəlim, nə soylamış" kimi nümunələrdə ibtidai mifoloji dövrə məxsus bədii poetiklik var və bu bədii poetiklik fellərin məcazi yox, müstəqim məna bildirməsində, gözə görünməsi mümkün olmayan əşyanın görümlü təqdim edilməsindədir. Kamal Abdulla yazır: "Təbiətə xas əşyaların canlandırılması ilə yanaşı, müxtəlif psixoloji hadisələrin adları da ayrı-ayrı boylarda cismaniləşdirilir. Məsələn, "şivən" sözünə bu mənada diqqət yetirək. Mətn deyir: "Babasına, anasına haber oldı, ap alaca ordusuna şivən girdi". "Şivənin girməsi" müstəqim mənanın tam şəkildə özünü göstərməsidir. "Şivən"i gedən, gəzən, harasa girən, hardansa çıxan canlı məxluq kimi təsvir etmək ona insana xas xüsusiyyətlər verməkdir. Onu hərəkətdə görməkdir. Onu canlı təsəvvür etmədir. Deməli, onun bədiipoetiklik potensialını canlandırmaqdır... Beləliklə, deyə bilərik ki, bu şəkildə müstəqimliyin nümayişi qədim insanın obrazlı düşüncə tərzinə malik olmasının işarəsidir. Onu təkcə gördüyünü deyil, görmədiyini də mətnə salmaq yönündən səciyyələndirir... Dağın yatması, sözün görünməsi, şivənin, qırğının harasa girməsi, eşqin gəlməsi, şəra-

bın başa çıxması və bu kimi başqa cismanilәşdirilmә mә-qamlarının “Kitabi-Dәdә Qorqud” mәtninin mifoloji qatına (bәdiipoetik dәyәrlәr sisteminә) aid olmaları şübhәsizdir” (18, 143-144). Kamal Abdulla bu mülahizәlәrlә bir tәrәfdәn, personifikasiyanı bәdiipoetikliyin bir göstәricisi kimi әsaslandırıb ortaya qoyursa, digәr tәrәfdәn “Dәdә Qorqud”dan gәtirilәn nümunәlәrin çağdaş dilimizdәki nümunәlәrlә tutuşdurulması vә cismanilәşdirmәnin hәmin müstәvidә araşdırılması perspektivini açır. Yadımıza salır ki, bügünkü Azәrbaycan dilindәn mücәrrәd anlayışların, mәsәlәn, söz anlayışının bir әşya kimi görümlü tәqdim edilmәsinә çoxlu misallar çәkmәk olar. Sadәcә, bu barәdә düşünmәk lazımdır. Düşünsәn misallar öz-özünә tapılar: sözә baxmaq, yaxud baxmamaq, sözün yeri, sözün canı (sözümün canı budur ki...), sözün boynuna ip salmaq, sözü yayındırmaq, sözün üstündә durmaq, öz sözünü göyәrtmәk, sözü hörmәtә mindirmәk, yaxud hörmәtdәn salmaq, sözü yerә salmaq, yaxud salmamaq, sözü xırdalamaq, sözü ağızda saxlamaq, sözü ağızdan çıxarmaq, sözü bişirmәk, sözü kәsmәk, sözü göydә tutmaq vә s. vә i.a. nümunәlәrdә söz әşya kimi, canlı insan, heyvan vә ya bitki kimi görümlü deyilmi? Әlbәttә, elәdir vә Kamal Abdullanın bu yöndә söylәdiklәri filoloji elmimiz üçün çox faydalıdır.

Söz, şivәn, yuxu, eşq vә s. kimi mücәrrәd anlayışları әşya, insan, heyvan vә ya bitki kimi görümlü tәsәvvür edәn qәdim insan üçün hәr an gözlә gördüyü әtraf predmetlәri şәxslәndirmәk adi bir haldır. Yәni insanın özünü tәbiәtdәn ayırmaması, dağ-daşda, çöl-çәmәndә, ağac, heyvan, quşda... insana xas әlamәtlәr görmәsi mәlum vә mәş-

hur olan, mifoloji düşüncənin mühüm göstəricisi sayılan bir həqiqətdir. İstər mücərrəd anlayışların, istərsə də gözlə görünən predmetlərin insana xas əlamətlərlə təqdim edilməsi, heç şübhəsiz, ibtidai "obrazlılıq" nümunəsidir. Belə "obrazlılıq" incəsənətdəki, o cümlədən söz sənətindəki klassik obrazlılığın təməli, bünövrəsidir. İbtidai "obrazlılığ"ın klassik obrazlılığa mühüm bir mənbə olmasını çağdaş ədəbiyyatın arxaiklik axtarışları daha qabarıq göstərir. Çağdaş yazıçı öz mətnini mif məntiqi və modeli üzrə qurmağa çalışır; alleqoriyanı bir qırağa qoyub qurdu-quşu, iti-pişiyi, Allahın siçovulunu (bu yerdə Yusif Səmədoğlunun Kirlikiri yada düşür!) dil bilən, dərd anlayan varlıq olaraq qələmə alır; dağın-daşın "sanki" nəfəs almasından yox, "həqiqətən" nəfəs almasından söhbət açır. Özünü qədim insanın yerinə qoyub bugünkü məcazi anlayışları tam müstəqim mənada təqdim etmək (məsələn, yuxunun gəlməsinə, yaxud qaçmasına, sözün gözlə görünməsinə, dağın şirin-şirin yatmasına inanmaq) və bunu mətnə gətirmək danılmaz bədiilik effekti yaradır.

Yazılı ədəbiyyat və mif əlaqələrində diqqəti cəlb edən əsas meyillərdən biri məhz arxaik düşüncə tərzini başlıca çıxış nöqtəsi kimi götürməkdə, predmet və hadisələri mif modelləri ilə əks etdirməkdə özünü göstərir. Fikrimizi çağdaş Azərbaycan ədəbiyyatı timsalında əsaslandırmaq istəsək, qeyd etməliyik ki, arxaik düşüncə tərzini bədii əks etdirmədə bir başlanğıc nöqtəsi kimi götürmək meylinin Yusif Səmədoğlu, Vaqif Səmədoğlu, Mövlud Süleymanlı, Ramiz Rövşən, Kamal Abdulla və başqa yazıçıların yaradıcılığı üçün müəyyən qədər səciyyəvi olduğunu qeyd etməliyik.

Bu meyil adlarını çəkdiyimiz yazıçıların yaradıcılığında 1980-90-cı illərdən sonra daha çox müşahidə edilir. Həmin dövrdə yaranan və mifoloji baxımdan diqqəti cəlb edən ilk əsərlərdən biri Mövlud Süleymanlının "Köç" romanıdır. Bu roman həm mücərrəd anlayışların görümlü təsviri, həm də insan-təbiət ayrılmazlığı baxımından maraq doğurur. Mifoloji düşüncə tərzini romanın inandırıcı ifadə formasına çevirmək üçün müəllif həmin düşüncə tərzinin daşıyıcısı olan Qarakəllə adlı bir nəsli ön plana çıxarmalı, qədim inanclar sistemi ilə nəfəs alan (bədxah ruhlardan qorunmaq üçün oğlan uşağına qız paltarı geyindirilməsi; zahı qadını hal arvadı götürüb aparmasın deyə axar suyun bıçaqla doğranması; dərdin suya danışılması; gözün daha da işıqlı olması üçün dağdağan ocağından şəfa umulması və s. adətləri yaşatmaqda davam edən) bu toplumun butavermə, görücülük, ovsunçuluq, loğmanlıq və s. kimi qeyri-adi cəhətlərə sahib nümayəndələrini aparıcı qəhrəmanlara çevirməli olur. Belə bir zəmin hazırlamağın hesabınadır ki, mücərrəd anlayışları görümlü şəkildə təsvir etmək əsərdə təhkiyəçi təxəyyülünün ifadəsi olmaqla yanaşı, ayrı-ayrı obrazların dünyaduyumunun ifadəsi kimi də ortaya çıxır. Qarakəllə nəslinin Domrul adlı bir nümayəndəsindən təhkiyəçi bu şəkildə danışır: "İyirmi ildə yağ-bal içində çoxları qocaldı. Amma Domrul bu gün-dirriklə qocalmadı. Vaxt Domrulun üstündən ona toxunmadan keçib gedirdi" (19, 23). Dünyanın işlərini, böyür-başında baş verənləri eyninə almayan dəli-dolu Domruldan ötrü vaxt anlayışı yoxdur, əgər olsaydı, üstündən ötüb keçəndə onun qanadları hökmən Domrula to-

xunmuş olardı. Bu, o deməkdir ki, vaxt Domrulun nəzərində gözlə görünə bilən, hətta əllə toxunula bilən bir şeydir.

Qarakəllə nəslinin başqa bir övladı olan Bəkildən isə təhkiyəçinin söz açmağı bu şəkildədir: "Bəkilin sürüsü yamaca döşənib otlayırdı. Çənli-çiskinli, həm də günəşli bir gün idi. Dağlara, yamaclara enib-çökmüş dumanın, çənin içində günəş sarala-sarala işıq saçırdı, çənin, çiskinin üstündənmi, otların arasındanmı gələn çöl quşlarının səsi də nəmli idi. Arabir mələyən qoyunun, quzunun səsindən bilmək olardı ki, neçə vaxtdı yağış yağır…

Bəkil bir daşın başında oturub barmaqlarının, biləyinin sümükləri ilə oynayırdı" (19, 38). Nümunə gətirdiyimiz bu parçanın təhlilində hər şeydən qabaq, onu bildirməyə ehtiyac var ki, obrazın adının çəkilməsi ilə paralel təbiətdən bəhs edilməsi, təbiətə aid hər hansı bir detalın diqqətə çatdırılması yalnız bu parça üçün yox, bütövlükdə roman üçün səciyyəvi bir cəhətdir. Romanda qarşılaşdığımız aparıcı qəhrəmanlar təbiəti də özləri kimi canlı varlıq hesab edirlər. Onların nəzərində su da, daş da, ağac da diridi, "ağaca balta qaldıranda ağlayır ki, vurma məni" (19, 36). Bu baxımdan yanaşsaq, nümunə gətirdiyimiz parçada Bəkil adı çəkiləndən sonra təhkiyəçinin çən-dumandan, çən-duman içində saralmaqda olan gün işığından söhbət açmasını, səs kimi mücərrəd anlayışın "nəmli" təyini ilə təqdim edilməsini təbii hal saymalıyıq. Nəzərə almalıyıq ki, aramsız yağışdan sonrakı çənli-dumanlı bir günün və həmin gündə eşidilən quş səsinin təsvir edilməsi insan və təbiət ayrılmazlığından (mif üçün səciyyəvi olan bir cəhətdən), səs kimi mücərrəd

anlayışın görümlü əşya kimi ("nəmli səs" şəklində) təqdim edilməsi arxaik obrazlılıq tipindən xəbər verir.

Çağdaş ədəbiyyatımızda mifologizmin ümumi istiqamətlərindən biri təbiətlə bağlı obrazların təqdim edilməsində özünü göstərir. Mifologizmi bir əksetdirmə prinsipi kimi əsas götürən bədii əsərlərdə (xüsusən də poeziya və nəsr nümunələrində) heyvan, quş və ağac obrazlarını alleqorik obrazlar adlandırmaq çətinləşir. Konkret olaraq heyvan obrazlarından danışsaq, qeyd etməliyik ki, bu obrazlar bir çox əsərlərdə təmsil yox, mif modelləri ilə oxucuya təqdim olunur. Yusif Səmədoğlunun "Qətl günü" romanındakı canavar belə obrazlardandır. Romanın əvvəlində qoca canavarın təsviri ilə tanış oluruq. Bu təsvirdən tanış olduğumuz canavar heç də insanı təmsil edən bir obraz deyil, belə demək mümkünsə, özünü təmsil edən bir obrazdır. Mifdəki heyvan obrazları kimi bu obrazın da insanaxas əlamətləri, cizgiləri var: "Amma canavar da qorxu içində idi, ürəyinə nəsə dammışdı, bilirdi ki, ikiayaqlı bəndələrin düşərgə saldıqları yerə bu gün yavuq düşmək olmaz" (20, 11). Ürəyinə nəsə daman, nəyisə yada salmaq istəyən canavar əməlli-başlı düşünüb-daşına bilir: "Canavar tez-tez uzaqdakı vələsin kəlləsinə qorxa-qorxa baxırdı, arxasındakı meşədə vahiməli hənirti eşitməsəydi, beləcə, burda oturub, ordan-burdan fikirləşərdi: bəlkə, Allahın yazığı gəlib, bilmək olmaz bu dünyanın işlərini, bir dənə də turac ona yetərdi. Canavara nə lazımdı ki?.. Həftədə bircə kərə qarın dolusu yemək və can rahatlığı. Qarın ac olanda can rahatlığı da olmur. Bu sarıdan ikiayaqlıların baxtı gətirib: ac olanda bir-birlərinə şirin nağıllar danışırlar" (20, 12-13). Romanın bir neçə səhifəsini

qoca canavarın duyğu və düşüncələri üzərində quran müəllif həmin canavarın nümunəsində nəinki alleqorik, heç metaforik əksetdirmə yolu ilə də getmir. Romandakı canavar obrazı əlamətin köçürülməsi yox, əlamətin təsvir edilən predmetin özünə məxsusluğu əsasında qələmə alınır. "Canavar fikirləşərdi" cümləsini müəllif heç də "canavar sanki fikirləşərdi" və yaxud "canavar insan kimi fikirləşərdi" mənasında işlətmir. Müəllif mif modelinə əsaslanıb canavarın düşünüb-daşınmasını bədii uydurma deyil, bir gerçəklik kimi oxucuya təqdim edir.

Belə təsvir və təqdim üsulu "Qətl günü" romanındakı Kirlikir obrazında, Vaqif Səmədoğlu və Ramin Rövşən poeziyasındakı yalquzaq, Kamal Abdulla nəsrindəki Qarağac obrazlarında qabarıq şəkildə müşahidə olunur. Əlbəttə, mifoloji düşüncə tərzi ayrı-ayrı obrazların nümunəsində təzahür etməklə məhdudlaşıb qalmır və bu düşüncə tərzi bir çox əsərlərdə əvvəldən-axıra bədii mətnin canına hopdurulur, mifoloji model mətnin qurulmasında başlıca amilə çevrilir.

## QAYNAQLAR


1. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər. Bakı, Elm, 1972.
2. Salah M.A. İnsanların ruhi inkişafında qaval alətinin rolu // Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər. Bakı, Təknur, 2015, s. 296-304
3. Радьяр Д. Магия тона и искусство музыки // Дэйн Радьяр. Магия тона и искусство музыки
4. Шумская И.М. Музыкальное творчество как социокультурное явление. Минск, БНТУ, 2006, с.20

5. Bayat F. Korkut Ata. Mitolojiden gerçekliğe Dede Korkut. Ankara, 2003
6. Vahabzadə B. Seçilmiş əsərləri, 12 cilddə, IV cild. Bakı, Elm, 2008
7. İmrani R. Muğam fəlsəfəsi. Bakı, Elm, 2011
8. Talıbzadə A.A. "Театр для себя" и моулявийских дервишей, или же медиационный театр в ат-тасаввиф // Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər. Bakı, Təknur, 2015, səh.280-295
9. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı, Elm, 2006
10. Bağırova S.Y. Azərbaycanda dərvişlik və dərviş musiqisi XIX əsr, XX əsrin birinci yarısında // Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər. Bakı, Təknur, 2015, səh.346-362
11. Ögel B. Türk kültür tarihine giriş. IX cilt. Türk halk musikisi aletleri. Uyğur devletinden Osmanlılara. Ankara, Başbakanlık Basımevi, 1987
12. Həkimov M. Aşiq sənətinin poetikası. Bakı, Səda, 2004
13. Элиаде М. Шаманизм: архаические техники экстаза. Киев, София, 2000
14. Ген-Ир У. Формирование музыкальной культуры в древнем Китае // https://cyberleninka.ru/article/n/formirovanie-muzykalnoy-kultury-v-drevnem-kitae
15. Панченко А.М. Древнерусское юродство // Смех в древней Руси. Ленинград, Наука, 1984, с.72-80
16. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016
17. Медриш Д.Н. Литература и фольклорная традиция. Вопросы поэтики. Саратов, Изд-во Саратовского ун-та, 1980
18. Abdulla K. "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Bakı, RS Poliqraf, 2017
19. Süleymanlı M. Köç. Bakı, Yazıçı, 1984
20. Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005

**Kamran ƏLİYEV**
**AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi,**
**AMEA Folklor İnstitutu**

## AZƏRBAYCAN "OĞUZNAMƏ"Sİ VƏ MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİ

XÜLASƏ

Vəli Məhəmməd Xoca tərəfindən aşkara çıxarılan "Oğuznamə" mövcud Oğuznamələr silsiləsinə daxildir. Ənənəvi olaraq bu mətndə də qəhrəmanlıq aparıcı motivdir. Bununla bərabər qədim dövrlərdən gələn mənəvi dəyərlər sistemi də mətndə qorunub saxlanılmışdır. Ağsaqqallıq, igidlik, igidə hörmət və ehtiram, vətən sevgisi, elliklə yürüş kimi dəyərlər mətndə qorunub saxlanılmışdır.

***Açar sözlər:*** oğuznamə, Dədə Qorqud, Qazan xan, qəhrəmanlıq, ağsaqqallıq, igidlik, vətən sevgisi

## АЗЕРБАЙДЖАНСКОЕ «ОГУЗНАМЕ» И СИСТЕМА ДУХОВНЫХ ЦЕННОСТЕЙ

РЕЗЮМЕ

«Огузнаме» (эпические памятники о легендарной родословной тюрков-огузов и их мифическом прародителе Огуз-кагане (Огуз-хане), который выявлен Вели Мухаммедом Ходжа, входит в серию существующих «Огузнаме». Традиционно и в этом тексте тоже героизм является ведущим мотивом. В тексте сохранились такие ценности, как старейшинство, храбрость, уважение и почтение к храбрецу, любовь к Родине, всенародный поход.

***Ключевые слова:*** огузнаме, Деде Коркуд, Газан хан, героизм, старейшинство, храбрость, любовь к Родине

## AZERBAIJANI "OGUZNAME" AND SYSTEM OF SPIRITUAL VALUES

SUMMARY

"Oguzname" (epic monuments about the legendary genealogy of the Oghuz Turks and their mythical ancestor Oguz-kagan (Oguz-khan), which was identified by Veli Muhammad Khoja, is part of a series of existing "Oguzname". Traditionally in this text, heroism is the leading motive also. Values such as eldership, courage, respect and reverence for the brave man, love for the motherland, and a nationwide campaign are preserved in the text.

***Key words:*** oguzname, Dede Korkud, Gazan Khan, heroism, eldership, courage, love for the motherland

Hər hansı bir qədim yazılı abidə özündə tarixi yaddaşı qoruyub saxlamaqla yanaşı, mənsub olduğu xalqın mənəvi dəyərlər sistemini də yaşatmış olur. Daş kitabələrdən tutmuş fondların və arxivlərin künc-bucaqlarında qalmış cünglərə qədər hər bir nümunə xalq təfəkkürünün müəyyən tərəflərinin inikası deməkdir. Bu mənada Oğuznamə nəslinə aid yeni tapılmış əlyazma da öz qiyməti və dəyəri ilə əvəzsizdir.

Türk xalqlarının tarixi və mədəniyyəti baxımından mühüm əhəmiyyət daşıyan yeni tapılmış Oğuznamə əlyazmasının artıq Türkiyədə bir neçə nəşri meydana çıxmışdır. Bunlar prof. Yusif Azmun, prof. Mətin Ekici tərəfindən hazırlanıb çap edilən və "Modern Türklük Araşdırmaları Dergisi"ndə yer alan nəşrlərdir. Əlyazmanı prof. Yusif Azmun "Söyləmələr və İki Yeni Boy ilə Türkmən Səhra Nüshası", prof. Mətin Ekici "Dədə Korqut kitabı. Türküstan/Türkmən

Səhra Nüshası. Soylamalar və 13-cü boy – Salur Qazanın Yeddi Başlı Ejderhayı Öldürməsi", dərgi isə "Dədə Korqut Kitabı"nın Günbəd Yazması" adı ilə çap etmişdir. Çox böyük diqqət və qayğı ilə, elmi şərh və izahlarla, türk dünyasına böyük sayqı ilə və sevərəkdən meydana çıxan bu nəşrlər həm geniş mənada folklorşünaslığın, həm də ayrıca götürülmüş eposşünaslığın inkişafında mühüm rol oynayacaqdır. Amma bir məsələ var ki, hər nəşr fərqli şəkildə adlandırıldığından tədqiqatçıları və oxucuları xeyli seçim qarşısında qoyur. Bunu nəzərə alaraq mövcud nəşrlərə verilmiş adlara heç bir münasibət ifadə etmədən əlyazmanı onu tapana dərin hörmət əlaməti olaraq "Vəli Məhəmməd Xoca Oğuznaməsi" adlandırmağı qərarlaşdırdıq.

Bəri başdan qeyd edək ki, hər hansı bir eposun, yaxud da konkret bir Oğuznamənin ayrıca götürülmüş bir xalqa məxsusluğu barədə danışmaq çox çətindir. Hətta həmin mətnlər lap qədim dövrləri əhatə edirsə, bu, daha da çətindir. Sadəcə olaraq müəyyən bir abidənin yarandığı məkan, mətndə olan ayrı-ayrı toponimik vahidlər barədə, daha dəqiq desək, onların mənsubluğu haqqında danışmaq olar, mümkündür və bu heç bir etiraz doğurmaz. Yeni tapılmış Oğuznaməni də türk təfəkkür hadisəsi kimi bir xalqa aid etmək ciddi mübahisələrə səbəb ola bilər. Ancaq bu Oğuznamədəki məkan, yer, şəhər, vilayət adları Mətnin daha çox Azərbaycanla bağlı olduğunu təsdiqləyir.

Mətndə Qazan xan haqqında söhbət gedən hissədə açıq şəkildə Azərbaycanın adı çəkilir: "Savalan dağı yaylaqlı, Sarıqamış qışlaqlı, səksən min ər heybətli, Azərbaycan ləngəri, İslam dini qüvvəti, qonur atlı, çaqmur gözli,

Salur yegi, Eymur görki, Zülqədir dəlüsi, padşahun vəkili Ulaş oğlu Qazan kimi sədaqətli gərək" (3, s. 60).

Mətndə Azərbaycan geniş bir coğrafiyası ilə görünür. Araz, Kür və Samur çayları, Quba, Dağıstan, Dəmir Qapı Dərbənd, Şahdağ, Şamaxı, Şirvan, İrəvan, Naxçıvan, Şərur, Təbriz, Qəzvin, Xalxal, Gilan və s. Ərdəbilin adı çəkiləndə isə "Azərbaycan diyarında Ərdəbil şəhri", – deyə xatırlanır. Həmçinin bunlar sadəcə ad kimi xatırlanmır, eyni zamanda qəhrəmanların igidliyini göstərmək üçün vasitəyə çevrilir.

Şübhə yoxdur ki, bu geniş toponimika yeni Oğuznamənin məkan baxımından daha çox Azərbaycan tarixi coğrafiyası ilə bağlı olduğunu təsdiqləyir. Əlbəttə, burada dağ, çay, şəhər, vilayət və s. hissələr arasında əlaqələrin də təmin olunmasına şərait yaradır. Vahid süjet xətti kimi görünməyən söyləmələr məhz bu faktlarla öz daxili bağlılıqlarını təmin etmiş olurlar.

Yeni Oğuznamənin Azərbaycanla bağlılığını açıq-aydın şəkildə göstərən ən mühüm cəhətlərdən biri də mətnin Azərbaycan dilinin tarixi ilə bilavasitə əlaqədar olmasıdır. Burada həm orfoqrafik, həm leksik, həm morfoloji, həm də sintaktik məqamların tarixi-müqayisəli aspektdən yanaşmalar üçün böyük imkanlar vardır. Həmçinin Mətn Azərbaycan dil tarixinin bir çox məsələlərinin daha da dəqiqləşməsinə yollar açır. Kiçik bir nümunəni xatırlatmaq yerinə düşər: "Sarp yügürür sallar atlar ər qanatı, minə bilməz, çapa bilməz. Bir müxənnəs ol atları savaş günü mincə, minməsə yeg. Çalar, kəsər, götürür qara polad sav qılıclar ər azusu, anı çala bilməz, yetürə bilməz, müxənnə-

sün əlində qılıcdan isə mərd igidün əlində bir ağac yeg. Otu bitməz qara dağlar yıxılsa yeg. At yeməyən acı otlar yerün üzərində bitincə bitməsə yeg. Adam içməz bulanıq sası su damarından çəkilsə yeg.”

Çox ciddi tarixi və fəlsəfi məzmun daşıyan Oğuznamə 25 fəsildən ibarətdir. Bu fəsillərin həcmi eyni deyildir və həcm fərqliliyi şifahi mətnin əlaməti kimi özünü göstərir. Oğuznamənin bəzi fəsillərində ifadə olunan fəlsəfi düşüncə, müdriklik amili, bəzi fəsillərində isə müşahidə olunan süjet əlamətləri 25 fəsli bu və ya digər dərəcədə bir-birinə müəyyən tellərlə bağlayır. Mətnin təhkiyəsi, dilinin axıcılığı da bu məsələdə az rol oynamır.

Birinci fəsildə Tanrıdan, onun qüdrətindən və Məhəmməd də daxil olmaqla digər peyğəmbərlərlə yanaşı, Dədə Qorqudun da adı çəkilir və onun belə bir nəsihəti xatırlanır: “Dostlar, dua qılayım cavanmərdləri görmək üçün”. Əslində birinci fəsli Oğuznamənin müqəddiməsi də hesab etmək olar.

Mövcud tədqiqatlarda yeni tapılmış Oğuznamə “Kitabi-Dədə Qorqud”la əlaqələndirilir və hətta bəzi adlar birbaşa onunla bağlı formada meydana çıxmışdır. Bu da təbii və məntiqəuyğundur, çünki Oğuznamədə “Kitabi-Dədə Qorqud”dan bizə tanış olan bir çox obrazların adı keçir: Dədə Qorqud, Bayındır padşah, Salur Qazan, Burla xatun, Qıyan oğlu Dəli Dondar, Qara Budaq, Yeynək, Əmən. Yeni obrazlar da var: Lələ Qılbaş, Səlcuq bəy və sair.

Xüsusilə qeyd etmək lazımdır ki, hamısında olmasa da fəsillərin çoxunun sonunda Dədə Qorqudun adı çəkilir. Yalnız 4, 6, 12, 14, 16, 17, 20, 21-ci fəsillərin axırında Də-

də Qorqud adına rast gəlinmir. Dədə Qorqudun adı çəkilən məqamlarda onun xeyir-duası eşidilir. Məsələn: "Haqq Təala dövlətinə bilgi versin" (2-ci fəsil), "Yalqızlıkda qadir Allah saxlasın canınızı" (3-cü fəsil), "Dədə Qorqud Oğuzun vəsfini nə qədər eləsə tükənməz" (5-ci fəsil), "Gələn günün xeyirə dönsün" (7-ci fəsil), "Sakınmayıb söz söyləsən sonra utanıb geri oturur" (8-ci fəsil), "Oğuzun vəsfin başa yetirə bilməz" (9-cu fəsil), "Əcəl sizcə güc ölümə tuş olmazmı?" (10-cu fəsil), "Haqq Təala saxlasın canınızı" (11-ci fəsil), "Keçən günləriniz keçibdir, gələn günlər xeyirə dönsün" (13-cü fəsil), "İki qapılı karvansaratək bu cahanı bir ev gördüm, bir qapıdan girəndə o qapıdan çıxan gördüm" (18-ci), "Nakəs bəylər talanıban pozulsa yaxşıdır" (19-cu), "Qoç igidə mədəd olsun" (23-cü), "Qazan kimi qoçaq igid dünyadan gəldi keçdi" (25-ci fəsil).

Altıncı və on ikinci fəsillərin sonunda biri digərini xatırladan aforizmlər verilmişdir. Altıncı fəsil: "Mərd igidin tərifini qoç igidə söyləməsə, qola qopuz götürdüyü hammal kimi gəzdirdiyi nəyə yarar, nəyə yarar"; On ikinci fəsil: "Alp ozanlar ərdəmlidir mərd igidi mərd igidə tərif etmək". On yeddinci fəsil Qazanın və Burla xatunun adının çəkilməsi ilə başa çatır. Bu faktlar heç də təəccüb doğurmamalıdır və sistemsizlik kimi də izah olunmamalıdır, ona görə ki, həmin müxtəliflik şifahi mətnin əlamətləri kimi meydana çıxır, bəzilərini isə katibin əlavəsi də hesab etmək olar.

Epos mədəniyyəti mənəvi dəyərlər sistemi ilə də fərqlənir. Xalq həmin mənəvi dəyərlər sistemini qorumaqla öz varlığını qorumuş olur. Nümunə üçün qeyd edək ki, Dədə Qorqudun simasında ağsaqqallıq institutu bizim folklor ir-

simizdə bütün tərəfləri ilə yaddaşlara hopdurulmuşdur. Yəni dədə-babadan üzü bəri Oğuz insanları məsləhətləşməyi, gənəşməyi özlərinin müqəddəs borcu hesab etmişlər.

Bu baxımdan Azərbaycan xalq təfəkkürünə hakim olan və ağızlarda tez-tez təkrar edilən hikmətli kəlamlardan biri də "Ulunun sözünə baxmayan ulaya-ulaya qalar" düşüncəsidir. Bu düşüncə insanları bir-biri ilə ünsiyyətə və birliyə çağırır. Hətta qeyri-adi səslənsə də, el arasında belə bir deyim də vardır: "Allahsız yerdə otur, böyüksüz yerdə oturma". Belə bir deyim isə ağsaqqallıq statusunun əbədiliyi və əvəzedilməzliyi haqqında qənaəti nümayiş etdirir. Bu cür nümunələrin sayını artırmadan da bəllidir ki, türk etnosu ənənələrində ağasaqqala, böyüyə hörmət həmişə qorunub saxlanılmış və buna həmişə ciddi şəkildə əməl olunmuşdur. Belə bir cəhət, yəni daşlaşmış ağsaqqallıq statusuna inam isə etnos içərisində sabitliyin dayaq nöqtələrindən biri olmuşdur. Bu mənada Azərbaycan "Oğuznamə"sində "ağ saqqallı qocalar oba dövləti, ağ birçəkli qadınlar ev bərəkəti kimi təqdim olunur (3-cü fəsil). Burada iki cəhət özünü göstərir: birincisi, ənənə bütün gücü ilə qorunub saxlanılır; ikincisi, ənənə öz miqyası etibarilə daha geniş mövqeni təmsil edir, yəni ağsaqqalla ağbirçək yanaşı təsəvvür edilir. Əslində belə bir mövqe də qədim türk ənənəsinin zəngin ifadə formasına söykənməklə yenidən canlandırılıb yenidən yaşadılması deməkdir.

Mifik düşüncədə Xızır xeyirxahlıq simvolu kimi tanınır və şifahi xalq nümunələrində onunla bağlı süjetlərə tez-tez rast gəlmək olur. Bu məqamda "Kitabi-Dədə Qorqud"u xatırlamaq kifayətdir. "Dirsə xan oğlu Buğac xan"

boyunda Buğac oxlanıb ölüm ayağında olanda Xızır onun imdadına çatır: "Oğlan yenə aydır: "Ana, ağlamağıl, mana bu yaradan ölüm yoqdır, qorxmağıl! Boz atlu Xızır mana gəldi. Üç kərrə yaramı sığaldı. "Bu yaradan sana ölüm yoqdır. Tağ çiçəgi, anan südü sana məlhəmdir", – dedi.

Böylə dikəc qırq incə qız yayıldılar. Tağ çiçəki döşürdilər. Oğlanın anası əmcəgin bir sıqdı, südi gəlmədi. İki sıqdı, südi gəlmədi. Üçüncidə kəndüyə zərb eylədi, qanı toldı. Sıqdı, südlə qan qarışıq gəldi. Tağ çiçəgilə südi oğlanın yarasına urdular. Oğlanı ata bindirdilər, alubanı ordısına gətdilər. Oğlanı həkimlərə ismarlayub Dirsə xandan saqladılar.

At ayağı külük, ozan dili çevik olur, xanım! Oğlanın qırq gündə yarası önəldi, sapsağ oldı" (2, s. 39).

Xalq düşüncəsində Xıdır Nəbi bayramı da mövcuddur. Bu, adətən, Novruzdan qabağa, Kiçik çillənin ortasına təsadüf edir. Mahiyyəti isə insanlara kömək etmək, onlara yardımçı olmaqdır. Xıdır Nəbi bayramı qışın qurtarmaqda olmasına və yazın tezliklə gələcəyinə ilk işarədir.

Maraqlıdır ki, yeni Oğuznamədə də Xızır Nəbi xüsusilə xatırlanır:

"...Yükində kölügınə usal baxan, ellər yurtdan köçəndə partalcuqi qara yurdun bucaqında qaralmazmı?

Ögrənmişcə öz bəginə usal baxan, özgə bəylər qulluqına gedəndə "tülüngisən!" deyübəni dögülməzmi?

Həq kitabını oquyanda mollalara usal baxan, namazsızca haq yerinə qoyulmazmı?

Qara donlu dərvişlərə usal baxan, dar yerdə dərin suda qalanda "Xızır Nəbi, Xızır İlyas mədəd, mədəd!" deyübəni çaqırmazmı?.." (3, s. 70).

Əslində yarımçıq saxladığımız bu silsilənin mərkəzində məhz Xızır dayanır. Xızırın insanlar üçün həmişə kömək əli uzatması yenidən təsdiq olunur. Bu fakt bir daha sübut edir ki, qədim türk mifoloji düşüncəsində özünə xüsusi yer tutan obraz və motivlər zaman keçdikcə xalq təfəkküründə yenidən canlanır və müxtəlif bədii formalarda yaşadılır.

Mövcud şifahi xalq ədəbiyyatı materialları mühüm fakt olması baxımından sübut edir ki, epos mədəniyyəti qəhrəmanlıq ənənələri ilə sıx bağlıdır. Şübhə yoxdur ki, epos bir janr kimi qəhrəmanlığın ifadəsi və inikası arzusundan doğaraq meydana çıxmışdır. Bu mənada "Kitabi-Dədə Qorqud" boylarını və "Koroğlu" dastanının qollarını xatırlamaq yetərlidir. Yəni xalq düşüncəsi epos vasitəsilə öz gücünü göstərir, yaxud da güclü olmağa çağırış edir. Ona görə də epos qəhrəmanları həmişə cəsarətli, döyüşkən və məğlubedilməz olurlar. Qəhrəmanlığın şifahi xalq ədəbiyyatındakı ekvivalenti isə igidlik anlayışıdır. "İgid odur atdan düşə atlana" deyimi də həmin düşüncənin heç vaxt yaddaşlardan silinməyən əyani sübutudur.

Əlyazmanın beşinci fəslində dövlətlə igid arasındakı münasibətlərin tənzimlənməsi başqa bir mühüm mənəvi dəyərin təsdiqi kimi meydana çıxır: "Əvvəlindən Həqq-təala bir igidə versə dövlət, qılsa nəzər, sağ olduğca ulu dövlət ol igidün başından əksilürmi? Əksilmaq yoq". Beləliklə, mətndəki igidlik anlayışı mücərrəd anlayış deyil, daha çox gerçəkliyə və reallığa söykənir. Əks təqdirdə geniş və zəngin mənəvi yük daşıya bilməzdi. Həmçinin igidlik şəxsi və subyektiv mövqeyindən çıxaraq daha çox icti-

mai xarakter daşıyır. Ona görə də Oğuznamədə hər bir igid haqqında onlara layiq sözlər söylənir.

Doqquzuncu fəsildə Bayındır "səksən min İç Oğuzun, doxsan min Daş Oğuzun padşahı" kimi təqdim olunur. Bundan xeyli əvvəl – hələ ikinci fəsildə Qazanın və "eşik ağası başı" Qara Budağın adı çəkilməklə yanaşı, əsas diqqət Salur Qazana yönəldilir. "Düşmənlərin qorxusu,.. qəriblərin arxası,.. qəniminə heybət ilə baxanda ürək yaran, ayağın üzəngiyə basanda doqquz tümən Gürcüstana ürkü salan" Qazandan söhbət gedir. Əslində bunu Mətndə Salur Qazanın əsas qəhrəman olacağına işarə kimi də başa düşmək olar. Yaddan çıxmamış qeyd edək ki, doqquzuncu fəsildə Salur Qazanın adının qarşısında "Ulaş oğlu" ifadəsi də işlədilmişdir. Bütün obrazlarla müqayisədə ən çox hərəkətdə olan obraz da elə Qazandır.

Oğuznamədə adı çəkilən digər obrazların təqdimatı isə belədir:

Qıyan oğlu Dəli Dondar: "Təbrizdə at nalladan, Arazla Kürün suyunu içib keçən, Qubaya talan salan, Şirvanla Şamaxını tutan, Minqışlaq içinə ürkü salan, Dağıstana tufan salan, Dərbəndi təpib alan, Şah dağının üstündə kölgəlik düzəldən, Samur çayının üstündə içki quran, Tabasaran sultanı, qalın Bayat ağası, divanbəyi".

Yeynək: "On altı Canı Bəyin zərbinə qayım duran, hərəsini bir zərbinən yekkə-yekkə atdan salan, tanımayıb dayısı Qazana keşiş deyib ağzın söyən, Qara Budağnan zərbi bərabər gələn, Bəydilinin böyüyü".

Əmən: “Varıban Məkkədə peyğəmbərin üzün görən, bığlarını yeddi yerdə çalıb dügən, hayqıranda bığlarının dibindən buğda dənli qan daşlanan, ölümünü saymayan”.

Burada ayrıca qeyd etmək vacibdir ki, mətndə eşikağası başı kimi təqdim olunan Qarabudağın vəsfi digərləri ilə müqayisədə ən gözəl sözlərlə cilalanmış bir tərənnümdür: “Hələbi alan, Şamı alan, taxti-Misirdə sultan olan,.. yatmaz, uymaz dövlətli, sərhədlərin yamacı, elçilərin cavabı, çöl yerlərin hasarı, Qazanla atası Qaragünəyə ümid olan, böyüdükcə düşmənin ödün yaran, qarıdıqca qəniminə qan qusduran”. Bu vəsfdə onun igidliyi daha parlaq formada nəzərə çarpır: “yeriyəndə heybətindən yer ömrülən”, yaxud : “əyağın üzəngüyə basanda (13) doqquz tümən Gürcüstanə ürkü salan” və yaxud : “böyüdükcə düşmənün ödin yaran”. Yəni burada söyləyici dastan ruhuna uyğun olaraq igidləri öyməyə üstünlük verdiyini bir daha sübut edir.

Amma bu vəsfin içərisində mənəvi dəyərlər sisteminin daha aydın və geniş təqdimi üçün iki mühüm məqam da var. Birincisi, Qarabudaq digər igidlərdən fərqli olaraq “borcluların xərcliyi” adlandırılır. Şübhəsiz, bu, təsadüfi fakt deyil, “borcluların xərcliyi” ifadəsi imkanlı ilə imkansız arasındakı münasibətlərin sivil formada tənzimlənməsi barədə bir müddəadır. Şübhə yoxdur ki, təqdimat Qarabudağı xeyirxahlıq simvolu səviyyəsinə qaldırır. Eyni zamanda “Kitabi-Dədə Qorqud” eposunda Qazan xanın evini tərk edib yağmalamağa şərait yaratmasını xatırladır. Yəni “borcluların xərcliyi” həqiqətinə epos ənənəsinin qorunması və davamı faktı kimi də baxmaq mümkündür.

İkinci məqam “atası Qaragünəyə ümid olan” düşüncəsidir. Yəni qədim türk təfəkküründə oğula ümid yeri kimi baxılmışdır, bu isə oğulun gələcəkdə ailəni və yurdu yadellilərdən müdafiə etmək missiyasına bağlı bir məsələdir. Beləliklə, mətn şəcərə mədəniyyətinin, varislik missiyasının mühüm əhəmiyyətə malik olması müstəvisində mənəvi dəyərlər sisteminin qorunması və davam etdirilməsi zərurətini irəli sürür.

Obrazların təqdimatı və Oğuznamə mətninin məqsəd və ideyası, daha geniş mənada ümumi ruhu ilk növbədə qəhrəmanlığın təcəssümünü və təntənəsini təsbit edir. Məlumdur ki, istər “Kitabi-Dədə Qorqud”da, istər digər qəhrəmanlıq dastanlarımızda, istərsə də nağıllarımızda və başqa folklor nümunələrində ayrı-ayrı obrazların simasında xalqın şücaəti və mərdanəliyi müxtəlif bədii formalarda (məsələn: qılıncla, çox yeməklə və s.) öz ifadəsini tapmışdır. Bu cür süjetlərdə əsas məqsəd gücü və yenilməzliyi nümayiş etdirmək, xalqın mübarizəyə inamını daha da artırmaqdır. Əslində həmin tipli folklor nümunələrinin yaradılmasında da sözün qüdrətini göstərməkdən qabaq qəhrəmanlıq amalı, Vətən sevgisi əsas ideya olmuşdur.

İnsanların dini inancları da mənəvi dəyərlər sisteminə daxildir. Bu inanclar yarandığı tarixi dövr və şəraitdən asılı olmayaraq, öz müqəddəsliyi ilə yaddaşlara köçür və orada özlərinə mühüm yer tuturlar. Yer tutmaqdan başqa adamların bir-birlərinə doğma münasibətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edirlər. Qədim yazılı abidələrimizdə dini inancların mühafizə edilməsi onların həmişəyaşarlığına da təminat verir. Təsadüfi deyildir ki, “Kitabi-Dədə Qor-

qud”da özünə geniş yer tutan dini elementlər mətnin zənginliyini xeyli dərəcədə artırmışdır. Doğrudur, bəzi tədqiqatçıların fikrinə görə, həmin elementlər mətnə sonradan katib tərəfindən əlavə edilmişdir. Lakin buna baxmayaraq, bunlar hamısı islami dəyərlərin qorunub saxlanılmasının əhəmiyyətini daha da artırmış olur. “Kitabi-Dədə Qorqud”da bir çox boyların axırı aşağıdakı yumlarla qurtarır:

Ağ saqqallu baban yeri uçmaq olsun!
Ağ birçəklü anan yeri behişt olsun!
Axır-sonu arı imandan ayırmasun!
“Amin!” deyənlər didar görsin!
Ağ alnunda beş kəlmə dua qıldıq, qəbul olsun!
Allah verən umudun üzülməsün!
Yığışdırsun, duruşdursun, günahlarını
Adı görklü Məhəmməd Mustafa yüzi suyına
Bağışlasun, xanım, hey!.. (2, s. 51).

Bu nümunədə folklor düşüncəsi ilə dini düşüncə mənəvi dəyərlər sistemi müstəvisində vəhdətdə verilmişdir. Bir tərəfdə ağsaqqala, ağbirçəyə böyük hörmət, digər tərəfdə də Tanrıya ümid bağlamaq, peyğəmbərin adından şərəflənmək kimi duyğular bir-birini tamamlayır.

Yeni Oğuznaməyə gəldikdə isə onun birinci fəslini tam şəkildə İslam dini ilə bağlı mətn hesab etmək olar: “(1) Həqq-təala gökdən Quran endirdi ari dinli Məhəmmədə oqumaq üçün. (2) Cəbrail gəldi gətürdi Buraqı, həbibim dostum olan (3) ol Buraqı minsün meracə gəlmaq üçün. Çün (4) dost dosta yetişdi, toqsan bir min kəlmə ortaluqdan gəldi keçdi, (5) axır son danışdı ari dinli dost Məhəm-

məd ümmət sözin rəhmət ilə (6) şəfqət üçün. Uçmaqları düzəndi, huriləri bəzəndi, arı dinli (7) dost Məhəmməd gəlür uçmaqun qapusini açmaq içün. Əli mindi (8) Düldüli, qurşandı Zülfüqarı, küffarə qılıc çaldı həm din içün. (9) Süleyman nəbi idi, mərtəbəsi həm çoq idi, gök üzindən (10) uçar quşi fərman etdi Həqq-təala Süleymanə sayban içün. (11) Davud nəbi cəbadar idi, zireh yetirürdi, daşdan polad sızdırdı (12) Həqq-təala qüdrətindən Davuda fərman içün. Münacatda söyləşdi (13) İbrahim Xəlilullah xacəsilən: “Ya İlaha! Mənüm oğlum yoxdur, (14) sən oğlan vergil bana, öz oğlumi kəsim yolunda qurban içün”. Allah İsmayılı (1) İbrahimə onda verdi, apardı Ərəfat dağinə, İsmayıla bıçaq çəkdi, (2) bıçaq ona kar etmədi. Buynuzi burma qoç endürdi Həqq-təala qüdrətindən (3) İsmayıla qurban içün. Dədəm Qorqud, qırx şagirdə ver nəsihət! (4) “Alplar! Dua qılayun cavanmərdləri görmaq içün”.

Göründüyü kimi, mətn Həqq-təlah, Məhəmməd, Əli, Davud peyğəmbər, İbrahim peyğəmbər haqqında müəyyən bilgilər verir. Hətta Buraq və Düldül haqqında da müəyyən məlumat əldə etmək olur. İsmayıl qurbanı məsələsi xüsusilə qabardılmışdır. Heç bir şübhə yoxdur ki, bütün bunlar insanların qəlbinə hakim kəsilir və onlarda müəyyən humanizm və mərhəmət hissləri oyadır.

Epos mədəniyyətində çox vaxt igidliyin xalqla birliyi öz ifadəsini tapır, çünki igid xalqın, el-obanın xilasedicisidir. Yeni əlyazma igidliklə dövlətin vəhdətini ifadə edir və xalq düşüncəsi yeni və yüksək status qazanır. İgidlər tərəfindən xalqın namus və qeyrətinin qorunması da mühüm amillərdəndir.

Oğuznamə mətnində mənəvi dəyərlər sisteminə daxil olan namus və qeyrət hissi, bu hisslərin qorunub saxlanılması qabarıq şəkildə ifadə olunmuşdur. Şübhə yoxdur ki, belə bir duyğu dədə-babalarımızdan miras qalmışdır. Hətta eldə belə bir deyim də vardır ki, "Namusu itə atsalar, it yeməz". "Kitabi-Dədə Qorqud"dakı "Qazan xanın evinin yağmalanması boyunu xatırlamaq yerinə düşər: "Kafərlər tərs tanışmışlar: "Qazan oğlı Uruzı həbsdən çıqarun, boğazından orğanla asun. İki talusundan çəngələ sancun, qıyma-qıyma ağ ətündən çəkün. Qara qaurma edib, qırq bəg qızına ilətün. Hər kim yedi ol degil. Hər kim yemədi ol Qazan xatunıdır, çəkün, döşəgimizə gətürəlim, sağraq sürdürəlim! – demişlər. Sənin ətündən oğula yeyəyinmi? Yoxsa sası dinlü kafərin döşəginə girəyinmi? Ağan Qazanın namusını sındırayınmı? Hecədəyin, oğul, hey?! – dedi.

Uruz aydır: "Ağzın qurısın, ana! Dilün çürisin, ana! "Ana həqqi – Tənri həqqi" denilməsəydi, qalqubanı yerimdən turaydım, yaqanla boğazından tutaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla yüzindən qan şorladaydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsən! Mənim üçün ağlamıyasan! Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qo ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının ögünə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasunlar. Ta kim, sası dinlü kafərin döşəginə varmıyasan. Sağrağın sürmiyəsən. Atam Qazan namusını sımayasan. Saqın!" – dedi" (KDQ, s. 47)

Bu fakt birinci növbədə tarixi gerçəkliyə sığışmayan türk varlığının əzəmətini ifadə edir. Uruzun fədakarlığı hər hansı bir igidlik nümunəsindən çox-çox üstündür və bu fədəkarlıqda etnosun həyatı və taleyi öz təcəssümünü tapmışdır. Eyni zamanda türk xalqlarına məxsus mənəvi dəyərlər sisteminin mükəmməliyinin təsdiqidir.

Namus və qeyrət anlayışının müqəddəsliyi yeni Oğuznamədə də öz ifadəsini tapmışdır: "Ər namusu ərdə gərək, ər qeyrəti ərdə gərək. Əgər ərdür, əgər xatun, bu dünyada namuslı, qeyrətli qoççaq gərək, namussuz, qeyrətsiz adəm oğlu arı cahanun yüzündə gəzməyübən qara yerin altında gorda gərək. Namus üstə böyümiş, qeyrət üstə dalaşmış mərd igidlər ölincə ölməsə yeg" (3, s. 78).

Xalq təfəkkürü etnosun həyatı və fəaliyyəti ilə bağlı ən həssas məqamları da əks etdirməklə yeni nəsillər üçün mənəvi dəyərlər sisteminə bağlı bir ideya qaynağına çevrilir. Uruzun heyrət və qəzəblə yoğurulmuş düşüncəsinin lap dərinliklərində yalnız ailənin yox, həmçinin yurdun namusunu qorumaq idealı yaşamaqdadır. Eynilə yeni Oğuznamənin təhkiyəçisi də namus və qeyrət anlayışlarını şəxsi, subyektiv amil kimi deyil, həyati əhəmiyyət kəsb edən ictimai hadisə kimi təqdim edir.

O ki qaldı eposda yaşadılan igidlik təcrübəsinə, bu, Mətndə başqa bir variantda təqdim olunur. Bu ideyaya uyğun olaraq Mətnin son fəsilləri Salur Qazanın ova çıxması və əjdaha ilə qarşılaşmasıdır. Belə bir süjet də Oğuz igidlərinin yaşayışlarındakı və dastan ənənəsindəki həyat tərzlərindən qaynaqlanmışdır. Süjetdən məlum olur ki, Salur Qazan əsgərləri ilə bir yerdə ovda olarkən heç nə əldə edə bil-

mir və əliboş da geri qayıtmaq istəmir. Bu səbəbdən əsgərlərdən ayrılıb hökmən ov ovlamaq istəyir. Onun bu istəyi yurdda inamın sındırılmaması məqsədi daşıyır: "Bu qədər yol getməsinə rəğmən bir şey ovlayammadı. Pərvərdigara əl açıb "mən bəylərimdən bir ov ovluyalım deyə ayrıldım. Bir ov ovluyalım, yurduma ovsuz getməyəlim. Yurduma, orduma sən məni ovsuz göndərmə". Bu yalvarışdan sonra alçaq yerlərə göz gəzdirib ov aradı". Salur Qazan ov aradığı bir məqamda yeddibaşlı əjdaha ilə qarşılaşır.

Xalq düşüncəsinin məhsulu olan folklor nümunələrində insanın gücü, yenilməzliyi "Kitabi-Dədə Qorqud"un özündə də müxtəlif üsullarla nümayiş etdirilir. Lap elə birinci boyda buğaya qalib gələn gənc oğlana Buğac adı verilməsi, yaxud Oğuz elini təngə gətirən Təpəgözün Basat tərəfindən öldürülməsi və yaxud da qorxmazlıq baxımından Dəli Domrulun Əzrayılla davası eposun ən maraqlı səhifələrindəndir. Salur Qazanın yeddibaşlı əjdahanı öldürməsinə də həmin ənənənin bir vahidi kimi baxmaq olar. Hansının əvvəl, hansının axır olmasını nəzərə almadan gücün nümayişi üçün davamlı bir silsilə özünü göstərməkdədir: buğa, Təpəgöz, əjdaha və Əzrayılla döyüş.

Elə əjdaha ilə ilk dəfə qarşılaşdığı məqamda Salur Qazanın qorxmazlığı və şücaəti maraqlı bir bədii üsulla təcəssüm etdirilmişdir. Orada Salur Qazana 10 mindən başlayaraq onun üzərinə gələn düşmənin sayını xatırladırlar, həmçinin bu xatırlatma 10 min-10 min artarılır: 20, 30, 40, 50, 60, 70, 80, 90 və 100 minə çatdıqda o, düşmənlə döyüşə getməyə hazırlaşır. Bu rəqəmlər silsiləsi, xüsusilə onların artan hədlə inkişafı gücü ifadə etməyin bir üsuludur.

Maraqlıdır ki, nəticədə də Salur Qazanın qalib gəlməsi məhz rəqəmlərlə ifadə olunmuşdur: "...savaş yapdım, 7 gün 7 gecə kafirlərə qılınc çaldım, 7 gündən sonra ətrafıma baxdım, 7 kafir qılıncım qarşısında vuruşmaya girişməyincə 100 min kafirin qırıldığını ondan anladım".

Yeri gəlmişkən, qeyd etməyə ehtiyac vardır ki, Oğuznamədə həm "Kitabi-Dədə Qorqud"un, həm "Koroğlu" dastanının, həm də nağılların təsiri aydın duyulmaqdadır. Mətnin sonunda 7 gün 7 gecə şadyanalıq edilməsi nağıllardan gəlmə deyimdir. Amma yuxarıda nümunə gətirdiyimiz cümlədə qeyri-şüuri şəkildə meydana çıxan 7-lərin düzülüşü (formalizmə baxmayın!) "Koroğlu" dastanının təsirini nişanlamış olur və 7777 dəlini xatırladır.

Mətndə "Kitabi-Dədə Qorqud"la müqayisədə 7 rəqəmi xüsusi yer tutur. Mətnin strukturu baxımından əvvəlcə sadalanmış həmin 7-ləri yeddibaşlı əjdahanın təqdiminə bir giriş də hesab etmək olar. Yəni assosiativ olaraq yeddibaşlı əjdaha anlayışının özü də həmin 7-ləri qeyri-ixtiyari olaraq mətnə gətirə bilər. Burada epos ənənəsi ilə təhkiyə üzərində düşüncənin vəhdəti aydın görünür.

Salur Qazanın qorxmazlığı və şücaəti Lələsi ilə söhbətində də aydın şəkildə üzə çıxır. O, Lələ Qılbaşa belə bir sualla müraciət edir: əjdaha ilə vuruşmağa gedimmi? Bir az tərəddüd etsə də, Salur Qazanı yaxşı tanıdığından, onsuz da əjdahanın üstünə gedəcəyini bildiyindən onu daha da ruhlandıran Lələ: "Bəyim, qarşı yatan Qara dağın göz bəbəyi sənsən. Daşqın axan çayların durğunu sənsən. İlxının ayğırı sənsən. Dəvə sürüsünün buğrası sənsən. Qoyunların qoçu sənsən. Ərənlərin sərdarı sənsən. İgidlərin köç

yeri sənsən. Əjdaha dediklərin əsli bir yalandır. O yalanın üstünə getməlisən", – dedi.

Yeri gəlmişkən qeyd edək ki, Lələ Qılbaş obrazı, xüsusilə də Lələ adı Mətnə aid kağız materialını təhlil etmədən belə Mətnin meydana çıxma tarixi barədə müəyyən bilgi əldə etməyə imkan verir. Məlumdur ki, Lələ institutu Səfəvilər dövrünə aiddir, Səfəvilər sarayında dünyaya gələn uşaqları tərbiyə etmək üçün onları lələlərin ixtiyarına verərdilər və mərkəzdən uzaqlara göndərərdilər. Lələ Qılbaşın sonradan tək-tənha olan Salur Qazana köməyə gəlməsi uzaqlıq anlayışının da qeyri-şüuri olaraq mətnə daxil olmasına şərait yaratmışdır. Beləliklə, aydınlaşır ki, Mətn ən yaxşı halda XVII əsrə aiddir, bəlkə də elə Şah Abbas dövrünün məhsuludur. Həm də belə bir cəhət "Kitabi-Dədə Qorqud" motivlərinin hələ eposun F.Dits tərəfindən tapılmasından qabaq el arasında yaşadığını təsdiq etmiş olur.

Mətndə, şübhəsiz ki, əjdaha şərtidir, əsas məsələ nəhəng bir düşmənin – yeddibaşlı əjdahanın məğlub edilməsidir. Əjdahaya qalib gəlməzdən öncə Qazan xanın mərdanəliyi söyləyici tərəfindən xüsusilə diqqətə çatdırılmışdır. Belə ki, o, yatmış əjdahaya hücum etmək, onu yatmış şəkildə oxa tutmaqdan, yəni rahatca qalib gəlməkdən qəti şəkildə imtina edir: "Yatmış, uyurkən ər öldürmək mərdlik olmaz. Hiylə ilə bir kişini vurmaq ər oğluna yaraşan bir vuruşma olmaz". Atalar sözləri təsiri bağışlayan həmin nümunələr fikir baxımından "Kitabi-Dədə Qorqud"un müqəddiməsindəki atalar sözlərini xatırladır, hətta maraqlıdır ki, "olmaz" ifadəsini nəzərə alsaq ("Kül təpəcik olmaz", "Əski pambıq bez olmaz" və s.), üslubi imkanlar da üst-üstə düşür. Məna

yükü isə Oğuz bəylərinin dədə-babadan qalma mənəvi zənginliyinin, mərdi-mərdanəliyinin təsdiqidir və Mətnin ənənəyə tabe olmasının əyani faktlarındandır.

Mətndə əjdahanın nəhəngliyi və qorxuncluğu yalnız formal baxımdan, yəni insanların təfəkküründə, sadəcə olaraq, bədheybət bir məxluq kimi qalan əjdaha anlayışı ilə məhdudlaşmır. Bu cür məhdudiyyət zahiri effekt yaradaraq bədii nümunə üçün qüsurlu görünərdi. Ona görə də söyləyici əjdahanın nəhəngliyini xüsusi detallarla nəzərə çarpdırmaq istəyir və buna nail olur. Belə ki, Salur Qazan əjdahanı oyadandan sonra onun dağı lərzəyə gətirməsi, atəş püskürməsi ilə öz gücünü nümayiş etdirməsi nəql olunur. Hətta əjdahanın nəfəs çəkməsi ilə hər şeylə bərabər, Qazan xan da atın üstündən ona doğru sürüklənməyə başlayır. Maraqlıdır ki, Mətndə güc, qüvvət mənasında "nəfəs çəkmək" anlayışı əjdahadan qabaq Qazanın özünə aid edilmişdir. Belə ki, Mətnin XVII fəslində Salur Qazanın "fəxriyyəsi" təsirini bağışlayan parçada deyilir: "...göy üzündə bulud oldum, alçaq yerlərə çiskin oldum. Uca dağların başına duman olan Qazan idim. Yeddi başlı yer evreni oluban quyruq çaldım, dağ dolandım, ahu saçdım, yer boyadım, nəfəs çəkib son sümürən Qazan idim". Bu fakt sübut edir ki, Mətn güclərin qarşılaşmasını əks etdirir.

Ölüm-dirim qarşısında qalan Qazan xanın bu məqamda yeganə yolu Tanrıdan ümid diləməsidir. Bu mənada Mətn türk xalqlarının Tanrıya inam bəsləməsi ənənəsini qoruyub saxlayır. Salur Qazan Tanrıya üz tutaraq yalvarır: "Ya gördüyünü göyə yetirən görklü Tanrı! Ya urduğunu ulatmayan ulu Tanrı! Çox kimsələr səni göydə istər,

möminlərin könlündəsən, sadiqlərin dilindəsən. Allah Tarı sənə bir deyənin ağzın öpüm, iki deyənin ağzın çarpım! Axar çaylar üstünə körpü salım, qalmışların əlin tutum, yalanqacların sırtın örtüm! Deməsinlər son çağında Qazanı bir ilan uddu, ya Pərvərdigar! Sən mənə bir nicat vergil!" Bu yalvarışdan sonra əjdaha ilə Qazan arasında bir qaya peyda olur və Salur Qazan qalib gəlmək üçün ondan qalxan kimi istifadə edir.

Yeri gəlmişkən qeyd edək ki, Salur Qazanın Tanrıya ucalan yalvarışı "Kitabi-Dədə Qorqud"dakı kimi dini ricətləri əhatə edən katib əlavəsi deyil, o, bütünlüklə Mətnin içərisinə hopmuşdur. Ona görə ki, Salur Qazanın yalvarışı birbaşa süjet xətti ilə əlaqədardır, eyni zamanda, hadisələrin inkişafında mühüm əhəmiyyət daşıyır. Tanrının bu yalvarışı eşitməsi və Qazana yardım göstərməsi "Kitabi-Dədə Qorqud"dakı katib əlavələri ilə deyil, Səyrəyin Tanrıya müraciəti, Tanrıya şükür eləməsi və Tanrının ondan xoşu gəlib Səyrəklə xanımının yaşını 70 il artırması ilə müqayisə edilə bilər.

Salur Qazan əjdaha üzərində qələbə çalır: "Qazan qara polad sav qılıncın əlinə aldı, sıyra qılınc səyritdi üstünə. Yeddi başı bir boynundan qılıncladı, yerə saldı. Əjdahanın ağusu yer üzünə töküldü, ağusundan yer üzünə yanar-yanar odlar düşdü. Qazan xəncərini sancdı, qılıncın sancdı, bıçağını sancdı, əjdahanın üstündə bardaş qurdu". Sonra Qazan əjdahanın dərisindən "qorxu bilməz canına don tikdirdi". Yayına kiriş, qılıncına qın, atına örtük və kölgəlik tikdirdi. Əjdahanın qafasının dərisini başına papaq kimi qoydu.

Salur Qazanın əjdahaya "çevrilməsi" Oğuz elində təhlükə kimi qarşılanır, lakin Qarabudaq tezliklə buna ay-

dınlıq gətirir və Bayındır padşah əjdaha dərisindən hazırlanmış kölgəliyin altında bardaş qurub oturandan sonra 7 gün, 7 gecə qonaqlıq – şadyanalıq olur. Bu şadyanalıq onu sübut edir ki, Salur Qazanın qələbəsi, sadəcə olaraq, Qazanın deyil, bütün Oğuz elinin qələbəsidir.

Mənəvi dəyərlər sistemi baxımından Oğuznamə ənənəsində elliklə vuruş motivi var. Qədim türklərdə ordu-xalq modeli əsasdır. Bu baxımdan "Kitabi-Dədə Qorqud" mühüm bir nümunədir. Vuruşa gedəndə bu işi hamılıqla birgə görürlər. Hətta hərbi nizam da özünü kifayət qədər aydın şəkildə göstərir. Yeni Oğuznamənin də 13-cü fəslində "Yağı ilə döyüşməyə gedəndə etibarlı yoldaş gərək" ifadəsi verilmişdir. Etibarlı yoldaş yalnız döyüşdə deyil, hər məqamda mühüm bir dəyərdir.

Düşmənə münasibətdə düzgün mövqenin seçilməsi də mənəvi dəyərlər sisteminə daxildir. Məsələ burasındadır ki, iki tərəfin qoşun, ordu formatında döyüşməsi belə ölüb-öldürməyi vacib şərtə çevirmir. Hüseyn Cavidin "Səyavuş" əsərində qoşun başçılarının vuruşması, folklor mətnlərində qarşılaşan qüvvələrin güləşməsi və sair məsələni həll edə bilir. Xatırlamaq yerinə düşər ki, "Kitabi-Dədə Qorqud"da Qazan xanın basdığını kəsməməsi, aman diləyənə aman verməsi bu xəttin ən qabarıq nümunələrindəndir. Yeni Oğuznamədə də belə söylənir: "Əsl Səlcik bəg oğlına fürsət düşsə, (11) qarı düşməninün övladını ürədürmi? Ürətmaq yoq". Yəni mətnə görə döyüşün də əndazəsi var və bu qədim türkün mübarizə əzmindəki ədalətini də nümayiş etdirir.

Oğuznamələrdə igidin statusu daha yüksəkdir. Onun ölkəni, vətəni, yurdu qorumaq missiyası həmin yüksək statu-

sunun da təminatçısıdır. Təsadüfi deyil ki, əlyazma mətnləri göstərir ki, igidlərin qəhrəmanlığı həmişə ənamla, mükafatla qiymətləndirilmişdir. Buraya ad almaqdan ta taxt yiyəsi olmağa qədər bütün dəyərləndirmələr daxildir. Yeni Oğuznamədə bu xəttin davamı kimi igidin statusu sənət faktoru ilə vəhdətdə verilir: "mərd igidun tərifini qoç igidə söyləməsə, qola qopuz götürdügi, (2) hammal kimi gəzdurdugi nəyə yarar, nəyə yarar?" (6-cı fəsil). Yaxud: "Alp ozanlar ərdəmidür mərd igidi mərd igidə tərìf (7) etmaq" (12-ci fəsil).

"Oğuznamə"nin 2-ci fəsli belə başlayır: "(5) Bu soyda dədənün müddəası budur ki, hər kim, bəlkə, hər nəsnə öz həddində və kəmalində (6) olsa, yaxşıdur". Mətn insanı öz səviyyəsinə uyğun şəkildə davranmağa çağırır. Arzu və istəklə imkan arasındakı ziddiyyət həmişə faciə törədir. Xalqda başqalarını bəyənməyən adam haqqında "elə bil alçaq dağları o yaradıb", – deyərlər. Mətn insanları öz həddini aşmamağa səsləyir və xalq düşüncəsinin tam ifadəsi kimi yaddaşa köçür.

Bizim folklor mətnlərimizdə Namərd adlı bir mənfi obraz var. Bu obraz nağıllardan, dastanlardan, aşıq yaradıcılığından, hətta atalar sözlərindən də keçib gedir. "Mərdi namərdə möhtac eləmə!", "Mərdi qova-qova namərd eləməzlər". Görünür, belə bir hikmətin müxtəlif janrlarda və müxtəlif nümunələrdə meydana çıxması birbaşa həyat həqiqətinə söykənir. Eyni zamanda bu tip deyimlər insanların bir-birlərinə hörmətlə yanaşmaları, bir-birlərinin qədrini bilmələri, bir-birlərinə xəyanət etməmələri ideyasını təbliğ edir. Yeni oğuznamənin 20-ci fəslində də həmin cəhət aydın görünür: "Yaxşılarda (8) nə yaxşıdur? Yeri gögi

yaradanda Allah yaxşı. Əvvəl Allah, Axır Allah (9) dost olubən mədəd olsun! İş düşəndə (10) namərdə qadir Allah yaxa dutub yalvartmasun!” Artıq burada mövcud fikirlərlə yanaşı, həmin deyimin nüvəsində İlahi başlanğıc dayanır.

Yeni oğuznamədə ən şərəfli dua yenə Dədə Qorquddan gəlir: “Günün (11) doğsun, işün onsun, bir Allahdan geçən günün (12) geçübdür, gələn günün Dədəm der xeyrə dönsün!” (7-ci fəsil). Yaxud: “çuqullarun (2) dilindən quru böhtan bəlasından dədəm der Haq Təala (3) saxlasun canunuzi! (11-ci fəsil)

Türk xalqlarının tarixini, fəlsəfi dünyagörüşünü, zəngin mədəniyyətini, mənəvi dəyərlər sistemini, etnoqrafiyasını, dilini, dinini, məişətini əks etdirən oğuznamələr yalnız türklərin özü üçün deyil, bütün bəşəriyyət üçün faydalı və əhəmiyyətlidir. Xalq təfəkkürünün məhsulu olan hər bir mətn kiçikliyindən və böyüklüyündən asılı olmayaraq, insanların keçmişini, düşüncə tərzini, həyata münasibətini əks etdirməklə yanaşı, həmçinin gələcək nəsillər naminə yaradılmışdır. Ona görə də zamanından asılı olmayaraq, əldə edilən hər bir folklor nümunəsi mədəni hadisə deməkdir.

## ƏDƏBİYYAT

1. Dede Korkut Kitabının Günbet Yazması. Modern Türklük Araştırmalar Dergisi, Cilt 16, Sayı 2 (Haziran 2019), s. 147-379 (Hissələrə aid olan nümunələr bu mənbədən götürülmüşdür.

2. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988

3. “Kitabi-Dədə Qorqud”un üçüncü əlyazması. Bakı, 2019

**Əfzələddin ƏSGƏR**
**Filologiya üzrə elmlər doktoru**
**Folklor İnstitutu**

# OĞUZLARIN ULU ƏCDADI BULCA VƏ ONUN MİFOLOJİ KİMLİYİ

XÜLASƏ

Məqalədə "Oğuznamə" mətnlərində türklərin ulu əcdadı kimi göstərilən Bulca xan obrazının mifoloji semantikası tədqiq edilir. Bulca xan mifi Tanrı oğlu (ilk insan) haqqında yayğın türk mifininin bir paradiqması kimi dəyərləndirilir.

***Açar sözlər:*** Bulca, Oğuznamə, oğuzlar, türk eposu, türk mifologiyası.

## BULJA, THE GREAT ANCESTOR OF OGUZ AND ITS MYTHOLOGICAL IDENTITY

SUMMARY

The article examines the mythological semantics of the image of Bulja khan, who is mentioned in the texts of "Oguz-name" as the great ancestor of the Turks. The myth of Bulca khan is regarded as a paradigm of the widespread Turkish myth about the Son of God (the first man).

***Key words:*** Bulja, Oghuzname, Oghuzs, Turkish epic, Turkish mythology.

*Oğuznamədə Bulca adı və onun şəkilləri***.** Bəllidir ki, F.Rəşidəddin "Oğuznamə"nin ən qədim əlyazmasında oğuz geneologiyası Bulca xanla başlayır. Ayasofiya və Bağdad kimi qədim nüsxələrdə (17, 146), eləcə də L.A.Xetaqurovanın 1952-ci ildə nəşrə hazırladığı mətndə

ulu əcdadın adı Bulcadır (10, 80, 81). Bu ad bəzi başqa nüsxələrdə Olcay və Abulca / Əbulçə şəklində getmişdir. Adın Olcay şəkli əlyazmanın Topqapıda (Bağdad köşkü fondu) Məcmuəi-Hafizi-Əbrunun tərkibində saxlanılan 282 №-li nüsxədədir. Bu nüsxəni R.M.Şükürova rus dilinə tərcümə edərək 1987-ci ildə nəşr etdirmişdir (11, 25). Bununla yanaşı, yenə də Topqapıda saxlanılan 1653 №-li nüsxədə ad Olcay şəklindədir (17, 146). Adın Abulca // Əbülcə şəkli isə sonrakı dövrlərdə üzü köçürülmüş Berezin nüsxəsində ifadə olunur (17, 146). Eyni antroponim Əbülqazi Bahadur xanın "Şəcareyi-tərakimə"əsərində Amulca şəklində gedir (14, 39).

Sonrakı dövrlərdə Osmanlı və Ağqoyunlu soyu haqqında tərtib olunmuş soykötüklərində istifadə olunan qaynaqdan asılı olaraq Ulu əcdadın qeyd olunan adları ilə qarşılaşırıq. Məsələn, Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərində Ağqoyunlu soyağacı sadalanarkən Yafəsdən sonra Abulca xanın adı çəkilir (9, 48). Həsən bəy Bayat "Cami-Çəm Ayin" əsərində Osmanlı sultanlarının soykötüyünü verərkən Yafəsdən sonra Bolcas adı çəkərək yazır: "Əsl adı Türkdür. Çox paltar geydiyindən Bolca və ya Aba Alca, yaxud Bolcas ləqəbi verdilər. Bunun Cin, Saklab, Urus adlı oğulları oldu. Hər biri bir ölkəni şənləndirdi və ayrıca bəy oldular. İki yüz qırx il yaşayıb ölmüşdür" (5, 382). Göründüyü kimi, Həsən bəy Bayat Yafəsdən sonra gələn əcdadın üç adını qeyd edir: Türk, Bolcas / Bolca, Aba Alca. Burada Bolcas / Bolca adlarının Bulca, Aba Alca adlarının isə Abulca (Əbülcə) ilə bağlı olduğunu görmək çətin deyil. B.Ögel adın Bulca şəklini doğru sayır.

Olcay şəklini monqol, Abulca // Əbülçə şəklini isə ərəb və islam mədəniyyəti təsiri ilə bağlı olacağını ehtimal edir (17, 148).

Adın istər Bolca // Bolcas, istərsə də Aba Alca şəkillərinin Həsən bəy etimologiyasının nəticəsi olaraq meydana çıxmasını düşünmək olar. Birinci variant Bulca adını türkcə mənalandırmaq səbəbindən yaranırsa, ikinci variant adın ərəbləşmiş şəklini yenidən türkləşdirmək səbəbilə ortaya çıxır. Ancaq Həsən bəy bununla kifayətlənmir. O, soykötüyünün növbəti pilləsi olan Dip Tokuydan bəhs edərkən yazır: "O, bütün xanlarla barışıqlıq etdiyi üçün ləqəbi Elce idi" (5, 382). Müəllif Elçe adına "sülhsevər" anlamı verir. Soyağacında Elçe adının meydana çıxması adın monqollaşmış şəklinin (Olca / Olcay) mənalandırılması səbəbindən meydana çıxması üzdədir.

Monqol dillərindən alınma sayılan *Olca / Olcay* antroponimi monqol dillərində "tapıntı", "hərbi qənimət", "əsir", "qazanc", "gəlir" və s. anlamlarda işlənir. İstər leksik vahid, istərsə də antroponim olaraq *bulca* türk dillərində yoxdur. Ancaq *bul* kökündən törəyən sözlər oxşar anlamda işlənir: bul – 1) "tapmaq", "axtarıb tapmaq" 2) "almaq, əldə etmək" 3) "nail olmaq", bulun "əsir", bulunc "tapıntı, əldə etmə, qənimət", buluş "əldə etmə", "qazanc", "mənfəət" (23, 219). *Bulca* və *olca* sözü ilə sinonim olan *tapdıq* sözü də oxşar anlamda işlənir: "tapılmış, əldə olunmuş, doğulmuş" . Azərbaycan dilində *tapdıq* sözü "çətinliklə dünyaya gələn uşaq" anlamında da işlənir. Belə uşaqlara xüsusi qayğı ilə yanaşılır və bu sözlə onların xüsusi statusu vurğulanır. Yəni uzun illər övlad həsrətində

olan valideynlərin uşağı olduqda və ya uşaq valideynlərin yaşlı vaxtında dünyaya gəldikdə doğulan uşağa *tapdıq* deyilir. Belə hallarda, adətən, uşağa Tapdıq adı qoyulur və bu şəkildə onların xüsusi statusu vurğulanır. Fikrimizcə, Uljabay, Uljabulat, Uljaqeldi kimi Orta Asiya mənşəli adlar da bu hadisə ilə bağlıdır. Bu halda sözügedən etnoqrafik termin və onu ifadə edən antroponim uşağın tanrı tərəfindən verilməsi inancını ifadə edir. Bunuunla yanaşı, bu ad" mənşəyi bilinməyən uşaq "anlamında da işlənir.

Tapdıq adı hər iki anlamına uyğun olaraq Azərbaycan folklorunda özünü göstərir. "Alı xan-Pəri xanım" adlanan dastanda məscidin qarşısından tapılan uşağa Tapdıq adı verilir və bu hal onun mənfi personaj olmasını motivləşdirir (3, 199-237). "Tapdıq" adlanan bir nağılda isə eyniadlı qəhrəmanın ilahi mənşəyi ilə qeyri-qanuni kəbindən doğulması birləşir. Belə ki, bu qəhrəman Tufan divlə Gün xanımın gizli izdivacından doğulur və sirrin açılmaması üçün yer üzünə atılır (4, 37-68). Ancaq Azərbaycan folkloru müstəvisində göydən yerə atılan qəhrəmanın mifoloji kimliyini üzə çıxartmaq mümkün deyil. Göydən yerə atılan qəhrəmanın mifoloji kimliyi haqqında məlumatı biz saxa dastanlarından alırıq.

"At oğlu Duray Berqen" adlanan olonxoda qəhrəmanın göydən yerə gəlişi "Tapdıq" nağılına uyğun şəkildə motivləşir. Qəhrəman (Duray Berqen) saxa inancına görə baş tanrı Ürünq Ayıı Toyonun qızı ilə Cənub Göyünün hakimi Kün Ciribinənin gizli izdivacından doğulur. Qızın valideynləri Ayıı Umser şamanı köməyə çağırırlar. Şaman qızın xəstə olduğunu görüb onu dörd yaşar ata çevirir və

validedeynlərindən gizli şəkildə Orta dünyaya göndərir. At üç dəfə müqəddəs ağacın başına dolanır və üç aylıq uşaqdan azad olur. Uşaq müqəddəs ağacın himayəsi altında böyüyür. Müqəddəs ağac yarpaqlarından axan şeh damcıları, yəni müqəddəs *ilqe* ilə uşağı yedizdirir. Uşaq müqəddəs ağac hamisi Aan Alaxcının döşündən süd əmərək güclənir (7, 39). Bu olonxonun "Tut Suorun" adlanan variantında uşağın Orta dünyaya gəlişi fərqli şəkildə motivləşir. Bununla yanaşı, onun mifoloji kimliyi açıqlanır. Bəlli olur ki, bu qəhrəman Tanrı soyundan olan ilk insandır. At və buynuzlu heyvanların sağlığı və artımı üçün keçirilən bayramda Ürünq Ayıı Toyonun kiçik qızı atasına *ilqe* (ilahi içki) ilə doldurulmuş bardaq verir. Bu zaman hamilə olan qızın qarnındakı uşaq təpiklə vuraraq bardağı yerə salır. İlahi içki yerə töküldüyünə görə həmin il çoxlu uşaq, dayça və buzov məhv olur. Ürünq Ayıı Toyon uşağın gələcəkdə törədəcəyi əməllərdən çəkinərək uşağı Orta dünyaya göndərmək qərarına gəlir. Ürünq Ayıı Toyonun istəyi ilə şamanlar uşağın vaxtından qabaq doğulmasına nail olurlar və insan nəslinin əcdadı olmaq üçün onu Orta dünyada yerləşdirirlər (7, 40-41).

İlk insan haqqında saxa olonxoları adı çəkilən olonxolarla tamamlanmır. Saxa xalqının ilk insan haqqında başqa olonxoları da mövcuddur. Er Soqotox (Tək Adam) silsiləsinə daxil olan olonxolarda qəhrəman öz kimliyini bilmir: "Er Soqotox bilinmirdi ki, o, doqquzuncu göydən keçərək yuxarından düşüb, ya aşağıdan yerin altından çıxıb" (9, 58). Təkcə Er Soqotoxla bağlı olonxolarda yox, həm də başqa olonxolarda qeyd olunan epik formul müx-

təlif şəkildə konstruksiya olunur (8, 7, 29, 35, 49-50, 58-59). "Sərt göyün oğlu Er Soqotox" adlı olonxonun girişi epik zamanın təsviri ilə başlayır. Ardınca "ilk insanın peydah olmasından söhbət açılır. Bu dövrdə göy və yer geniş deyildi. İlk insan başı ilə göyü, ayağı ilə yeri böyüdərək genişləndirir (8, 57). Bu olonxoda Er Soqotox əsl demiurq kimi çıxış edir. Olonxolarda Er Soqotoxun mədəni qəhrəman cizgiləri ilə sıx şəkildə qarşılaşırıq: ilk *ısıax* bayramı, otaq tikmə, geyim, yuyunmaq, heyvan bəsləmə, yemək hazırlama və odun kəşfi (sürtmə üsulu ilə) onun adı ilə bağlıdır (8, 59-61 ). "Sərt göyün oğlu Er Soqotox" da qəhrəmanın "yaradıcısı" haqqında heç bir məlumat verilmir. Qəhrəman Alaas (məhsuldar torpaq) adlandırdığı ərazini və müqəddəs ağacı (Aal Luuk Mas) özünün ata-anası sayır (8, 59). "Erbaxçin Berqen", "Mas Batıya" adlı olonxolarda da oxşar mənzərə ilə qarşılaşırıq (8, 96-112).

Yuxarıda verdiyimiz mətnlərdən də göründüyü kimi, bir qrup olonxolarda qəhrəmanın Orta dünyaya gəlişi günah qarşılığı olaraq Tanrının cəzası kimi təqdim olunur. "Elik Bootur və Naqıl Bootur" adlanan olonxonun qəhrəmanı Mülçü Böqö də "günahkarlar" arasındadır. Onun ayaqları şikəst olduğuna görə gümüş qəstillə gəzir. Mülçü Böqönün iki arvadı var. O, ömrünün sonunda arvadlarından xahiş edir ki, onun yaraq-əcləhəni geyməsinə kömək etsinlər. Qəhrəman geyinir və səkkiz qərb dağına gedir. Burada dərin bir quyu qazır. Qayıdanda arvadlarına deyir ki, o, Yuxarı dünyadandır. Uşaq vaxtı şıltaqlığına görə Orta dünyaya köçürülüb. Onun üzərində *arqı* mərasimi keçirib gücünü azaldıblar, yerimək imkanından məhrum edib-

lər. Bu zaman ona 50 il ömür yazıblar. Qəhrəman bildirir ki, indi onun ölümünün vaxtı gəlib. O qazdığı qəbrə girərək ölür. Arvadları onun qəbrinin üzərinə daş tökərək böyük kurqan yaradırlar. Ölümündən sonra onun hər arvadından bir oğlu olur. Olonxonun əsas qəhrəmanları da onlar olur (8, 160-169). Göründüyü kimi, ilk insanın epik funksiyası burada ilk insanla onun övladlarının arasında bölünür. Bu olonxo, qəhrəmanı qoca kişidən və qarıdan ibarət olan başqa bir olonxoya bənzəyir. Onlar dua edərək tanrıdan övlad istəyir və dilәkləri qəbul olunur. Demon Abaahı uşaqları yemək istəyir. Qocalar uşaqları ağacın altında gizlədirlər. Abahı qoca kişini və qadını yeyir. Bu şəkildə, onlar insan nəslinin davam etməsi üçün özlərini qurban verirlər (8, 50-51).

Qeyd edək ki, epik qəhrəmanın qocalmış ata-anadan doğulması motivi türk xalqlarının epik yaradıcılığında geniş yayılmışdır (13, 225-232). Lənətlənmə (cəzalanma) motivi Q.Potaninin yazıya aldığı "Bosko" adlı saxa nağılında da var. Nağılda üç qardaşdan kiçiyi şikəstdir. Qardaşlar ona həqarətlə yanaşır və onu incidirlər. Kiçik qardaş "Böyük ağaca" müraciət edərək deyir: "Sən mənim anam, məni doğan, məni eşit. Otuz il yaşadım, otuz il qardaşlarım məni incitdi... indi mənim ayağa durmaq və qardaşlarımın zülmünə son qoymaq vaxtımdır. Göylərdə mənim üçün at və silah var. Onları mənə göndər və mənə güc ver". Ağac yarılır və içərisindən samur dərisindən paltar geymiş qadın çıxaraq ona təsəlli verir. Sağ döşü ilə oğlanı əmizdirir. Oğlan onun döşünü əmərkən qeyri-adi güc hiss edir. Döşlərini güclə soraraq əziyyət verdiyi üçün qadın

onu itələməyə məcbur olur. Sonra qadın Ayıı Toyona (mətndə Au Toyen) müraciət edərək deyir: ”Sənin lənətlədiyin oğlun bütün məhrumiyyətlərə dözərək yerdə uzanıb, onu bağışla və bədbəxtliyinə son qoy”. Göylərdən qəhrəmana at və silah göndərilir. Ardınca qəhrəmanın döyüş yolu başlanır (20, 629-641).

Bu nağılda janrın tələblərinə uyğun olaraq ilk insan, ulu əcdad sosial müstəvidə, yəni üç qardaşın kiçiyi kimi təqdim olunur. Buna baxmayaraq, nağılda qəhrəmanın Ayı Toyon tərəfindən cəzalandırılaraq yer üzünə atılması, müqəddəs ağac tərəfindən doğulması, ümumiyyətlə, ilk insanın dünyaya gəlməsi ilə bağlı ənənəvi epik təhkiyənin əsas cizgiləri saxlanmışdır.

Nağılda ilk insanın kiçik qardaş kimi təqdim olunması minoratlıq (kiçik ailənin yaranması ilə bağlı olaraq kiçik oğulun vərəsəlik hüququ) ideologiyasının təsiri ilə bağlıdır. Minoratlıq ideologiyasının təsiri saxa mifoloji inanışlarında da özünü göstərir. Belə ki, Aal Okxon (Uxxan), Tanqha Dalaraksı adlanan od hamisi Ürünq Ayıı Toyonun kiçik oğlu sayılır. Şaman dualarında onun insanlara od vermək üçün göydən yerə göndərilməsi və ya qovulması, otuz il hərəkətsiz uzanması dilə gətirilir (12, 241-242, 258, 275). “Bosko” nağılında qəhrəmanın Göy oğlu olması atasının onu lənətləməsi və bunun nəticəsində 30 il hərəkətsiz uzanması oxşar şəkildə əks olunur. Beləliklə, ilk insan həm inanışlarda, həm də folklorda minoratlığın təsiri ilə kiçik oğula çevrilir.

Ancaq sözügedən olonxolarda ilk insanın Orta dünyaya gəlişi heç də bütün hallarda “günah” və “qovulma”

ilə müşayiət olunmur. "Er Soqotox" silsiləsinə daxil olan bir dastanda öz kökünü bilməyən Er Soqotoxdan bəhs olunur. Qəhrəman bilmir ki, o doqquzuncu göydən gəlib, yoxsa yerin altından çıxıb. Nəhayət, müqəddəs ağacın yiyəsi (yurd, ölkə, torpaq ilahəsi) bildirir ki, "yuxarıda" oturan yaradanlar – Aan Toyon və Kubey Xotun onun valideynləridir. Tanrıların buyruğu ilə valideynləri onu "üçüncü" göydən yerə atıblar ki, insan nəslinin əcdadı olsun (8, 8). Bəzən Er Soqotox silsiləsinə daxil olan qəhrəman da Tanrı oğlu kimi təqdim olunur. Ürünq yola (Ağ oğlan) haqqında dastanlarda da Ürünq yola Er Soqotox haradan yarandığını bilmir. Süjetin inkişafı prosesində məlum olur ki, Ürün Ayıı Toyon onu və bacısını yer üzünə göndərir və deyir: "Orta yerdə çoxalın, insanların sayını artırın, heyvan bəsləyin, qoy ocağınız sönməsin" (15). Ən maraqlısı isə odur ki, Tanrı Oğlu və ilk insan haqqında olonxolardan birinin qəhrəmanı doğrudan-doğruya Ulca Bootur adlanır (7, 126-130). Bu adın "ilahi mənşəli", "tanrının göndərdiyi" anlamı bizə məlumdur: "Kııs Toyqun" adlı olonxoda qəhrəmanlar Orta dünyaya salınır ki, uraanqxay saxanın (yakutların) əcdadı olsunlar. Olonxonun sonunda göy mənşəli Ulca Booturla Kııs Tuyqun evlənərək ilahi missiyanı yerinə yetirirlər (7, 126-130). Tanrı soyundan olan qəhrəmanın Ulca və ya Olca adlanması saxa olonxosu ilə tamamlanmır. "Qeser" adlı monqol dastanında da Tanrı oğlu olan Qeser, "Nürqün bootur" adlanan saxa dastanında olduğu kimi, dünyanı demonik varlıqlardan təmizləmək üçün yer üzünə göndərilir. Qəhrəman düşmən ərazisinə keçərkən "səkkiz yaşlı yetimə" çevrilir və özünü Olçjibay

adı ilə tanıdır (13, 291). Qeyd edək ki, keçid mərhələsində öz statusunu dəyişən qəhrəmanın Olçjibay adlanması monqol dastanları üçün səciyyəvi deyil. Bu mərhələdə qəhrəman keçəl uşağa və ya qocaya çevrilir. Keçid mərhələsində qəhrəmanın Olçjibay adlanması onun tanrı soyundan olmasını işarələyir. Olca adının ilahi mənşəyi ifadə etməsi bir qırğız əfsanəsində də özünü göstərir. Qırğızların buqu tayfasının qadın əcdadı Oljo katın adlanır. Vəhşi heyvanların hamisi olan bu qadın ov zamanı maralların içərisində olur. Qadının yoldaşını ovçular öldürür. Özünü isə gətirib qardaşlarının oğlu Alseitə verirlər. Qadın əri ilə şərt kəsir ki, heç vaxt ona Olja katın deməsin, heç vaxt onun bədəninə baxmasın, heç vaxt onun başından vurmasın. Yasaq pozulur. Olja katın qeybə çəkilir. O, bir müddətdən sonra Alseitə beşik içində bir uşaq gətirir. Bu uşaq buqu (maral) tayfasının əcdadı olur (1, 283). Əfsanədə qadının sakral aləmə məxsus olduğunu göstərən əlamətlərə yasaq qoyulur. Onlardan biri də ilahi aləmə məxsus olan qadının adıdır. Bu baxımdan "Altan topçi" də ilahi pərinin ulzeytu-qao adlanması yada düşür ( 16, 241). B.Ögəl məsələnin mahiyyətini izah etməyə çox yaxındır. Müəllif Olca / Olcay sözünün əvvəllər daha çox "mənəvi, dini" anlam daşıdığını vurğulayır. "Sonradan övlad edilən bir uşağı tapma" anlamı daşıdığını və "tanrı tərəfindən göndərilmiş, verilmiş" "hədiyyə", "qismət" kimi qəbul olunduğunu göstərir. Elxanlı hökmdarlarından olan *Olcaytu* adını da müəllif bu baxımdan dəyərləndirir (17, 146). Ancaq bizim araşdırdığımız materiallarda "tanrı oğlu" və ya "sakral aləmə məxsus ilahə" anlamını verir.

Tanrı Oğlunun adlarından birinin Olca olması, üstəlik ona bir kult kimi tapınılması Q.Potaninin bir qeydindən aydın şəkildə görünür. Müəllifin şimal-qərbi Monqolustana səyahəti zamanı verdiyi bir məlumatın mahiyyəti deyilən müstəvidə aydınlaşır. Müəllif nə vaxtsa islamı qəbul etmiş türkdilli kotonlar içərisində olarkən İslam haqqında bəsit təsəvvürü olan koton mənşəli Xocaqul adlı bir şəxsə "sizin peyğəmbəriniz olubmu" şəklində müraciət edərkən "Olca peyğəmbər" cavabını alır (18, 17). Xocaqul ənənəvi inanışlarda "Allahın elçisi" anlamına uyğun gələn Olca adlı mifoloji personajın adını çəkir. Olca adı daşıyan personajın "peyğəmbər" adlanması onun Göy oğlu inancı ilə bağlı personajlar silsiləsinə daxil olması halında mümkündür. Gəlin unutmayaq, türklər Mərkəzi Asiyada xaçpərəstlərə Tanrı Oğlu (Göy Oğlu) haqqında mifin qəhrəmanlarından biri olan Erkenin adı ilə *erkeun* (monqolca *arxau*) deyirdilər (21, 1-2). İslam ölkələrində isə Göy Oğlu titulu daşıyan Çin imperatorunu *baqa putra*/*baq pu*r ("Tanrı oğlu") sözünün İslam dünyasında işlənən variantı ilə faqfur/fağfur adlandırırdılar. Həmin sözün *təkfur/təkur* variantı isə Oğuznamədə xaçpərəstləri ifadə edir.

Tanrı Oğlu (Göy Oğlu) mifinin personajlardan birinin Olca adlanması bizim araşdırdığımız məsələ baxımından fövqəladə əhəmiyyət daşıyır. Yəni Göy oğlu inancı ilə bağlı personajlar silsiləsinin adlarından birinin Olca olmasına şübhə yeri qalmır.

*İlk insanın haqqında mətnin transformasiyası: tapılmışlar*. Altay qəhrəmanlıq dastanlarında hadisələrin sosial müstəviyə keçirilməsi hesabına uşağın tapılması motivi

meydana çıxır. “Maaday-Kara” dastanında uşaq (epik qəhrəman) düşməndən qorunmaq üçün Bayterek ağacına asılır. Ağac yarpaqlarından tökülən şirə ilə uşağı yedizdirir. Qarı (və sehrli at) uşağı taparaq tərbiyə edirlər (2, 51-53; 22, 175). Bu motiv “Kan Pude”, “Kan Tutay”, “Kan Saru” və s. dastanlarda da özünü göstərir (24, 161, 208, 215-216). İlk insanın dünyaya gəlməsi ilə bağlı saxa olonxosunda qarşılaşdığımız mifoloji təqdimat Altay kaylarında (dastanlarında) sosial təqdimatla əvəzlənir və sakral elementlərin profanlaşması baş verir. Epik qəhrəmanın ilahi mənşəyi real ata-ana ilə, müqəddəs ağacın himayəsi, uşağın dağ zirvəsində ucalan qovaq ağacına asılması ilə, yurd (yer) ilahəsinin uşağı bəsləməsi bir qarının uşağı götürərək tərbiyə etməsi ilə əvəz olunmuşdur. Altay dastanı bu qarının mifoloji kimliyini də hələ unutmayıb. “Kan Pude” dastanında qarı real cizgilərlə təqdim olunsa da, “Maaday-Kara” dastanında Altay yiyəsi (“Altaydın eezi”) kimi təsvir olunur (24, 175). “Kan-Tutay” və “Kan Saru” dastanlarında tərbiyəçilər qoca və qarı şəklində ikiləşir. Qəhrəmanın valideynlərinin və ya tərbiyəçilərinin (sonuncu halda qəhrəman oğulluğa götürülür) qoca və qarı kimi təqdimi və ya epik qəhrəmanın qoca ata-ananın duasından sonra doğulması ümumtürk epik folklorunda formula çevrilərək geniş şəkildə işlənməkdədir. Ancaq başqa folklor materiallarından fərqli olaraq saxa olonxosu qocanın mifoloji kimliyini aydın şəkildə təsəvvür edir: o, tanrının qarğıyaraq şikəst etdiyi oğludur. Yəni “göydən qovulmuşlar” silsiləsinə daxil olan qəhrəmanlardandır. Bəllidir ki, bu variantda qəhrəman öləndən sonra onun uşaqları olur. Bu halda epik

qəhrəman tanrının cəzalandıraraq yerə sürgün etdiyi övladı yox, bu övladın uşaqlarıdır və ilk insan da epik qəhrəman yox, onun valideynləridir. Beləliklə, ilk insan bir tərəfdən qoca valideynlərə, digər tərəfdən uşağı oğulluğa götürən tərbiyəçilərə transformasiya olunur. Saxa olonxosu ilə müqayisədə Altay dastanlarındakı qoca valideynlər tanrı övladının, uşağı oğulluğa götürən tərbiyəçilər isə müqəddəs ağacın və yurd (yer) ilahəsinin funksiyasını yerinə yetirir. Bu iki funksiyanın birləşməsi bir çox dastan və nağıllarda uşağın valideynlərin qoca vaxtında (alqış və ya nəzir-niyazla) dünyaya gəlməsi motivini ortaya çıxarır. Sonuncu hal semantik baxımdan uşağın ilahidən verilməsinə işarə edir.

Müqəddəs ağacın uşağı yedizdirməsi motivi də Altay dastanlarında özünün mifoloji təqdimatını itirir. Uşağın ağac şirəsi ilə qidalanması onun atasının (Maaday-Karanın) düzəltdiyi "texnika" kimi interpretasiya olunur. Qeyd edək ki, ağac motivi türk xalqlarının folklorunda aktiv səciyyə daşıyır. O, əsas semantikasından aralanaraq müxtəlif folklor mətnlərində müxtəlif səviyyələrdə işlənir, gözləri çıxarılmış qəhrəmanın ağac altında uzanması, ağac altından tapılan qızıl, ağacın koğuşunda (və ya içində) gizlənmə və ya yaşama və s. Bununla yanaşı Altay dastanlarında ağacla paralel funksiya daşıyan personaj meydana çıxır: ağacın altında uzanmış uşağı maral əmizdirir. Zoomorf haminin ağac koğuşuna və ya ağac altına atılmış uşağı əmizdirməsi motivi ilə epik folklorda tez-tez qarşılaşırıq. Ancaq atılmış və nəhayət, tapılan uşağı aslanın, qurdun, maralın, keçinin əmizdirməsi heç də həmişə ağac altında baş

vermir. Sonuncu motivlə ümumtürk folklorunda daha sıx şəkildə qarşılaşırıq. Bu zoomorf varlıqların Dünya Ağacı ilə oxşar semantika daşımasını öyrənmək ayrıca problemdir və biz bu yazının çərçivəsində bu problemlə məşğul olmaq fikrində deyilik. Onu vurğulamaq istəyirik ki, ənənəvi folklorda atılmış, itirilmiş və ya düşmən hücumu nəticəsində sağ qalmış uşağa qeyd etdiyimiz zoomorf varlıqların himayəçilik etməsi motivi sıx şəkildə özünü göstərir. Zoomorf varlıqların uşağa himayəçilik etməsi motivindən sonra uşağın insanlar tərəfindən tapılması motivi gəlir. Uşaq epik təhkiyənin konstruksiyasından və ya janrından asılı olaraq öz ata-anası, çoban, ovçu, dəyirmançı, padşah, tacir və ya toplu halında insanlar tərəfindən tapıla bilər.

İlk insan haqqında epik ənənənin transformasiyasından danışarkən bir məsələyə də toxunmaq istərdik. Yetim oğlan haqqında nağıllar türk xalqlarının folklorunda geniş yayılmışdır. Belə nağıllarda yetim oğlan atasız, anasız və ya bir qarının oğlu kimi təqdim olunur. Bəzən uşaq dünyaya gələndən sonra onun qoca valideynləri dünyasını dəyişir. Uşaq sahibsiz qalır. Yetim oğlan bəzən oğulluğa götürülür, bəzən çobanlıq və ya nökərçilik edərək başını dolandırır. "Heç bir işə yaramayan" qəhrəmanları da bu sıraya daxil etmək olar. Onlar şikəst və ya tənbəl olmaqla komik cizgilərlə təqdim olunur. Belə qəhrəmanların odla-ocaqla əlaqəsi çox güclüdür. Komik qəhrəman güllükdə yaşayır və ya ağacın altında uzanaraq heç bir iş görmür. Saxa olonxolarında, Altay kaylarında və ilk insanın oxşar cizgilərlə təsvir olunduğunu (şikəst olması, 30 il yerindən tərpənməməsi, insanlara od gətirməsi) yada salsaq yetim,

tənbəl, yaramaz kimi təqdim olunan nağıl qəhrəmanlarının ilk insan haqqında epik ənənədən baş götürdüyünü düşünmək olar.

Əsas fikrimizə qayıdaraq onu vurğulamaq istəyirik ki, mübarək yaradılış aktı sosial fonda təqdim olunarkən bu aktın gərçəkləşməsində iştirak edən mifoloji komponentlərin profanlaşması baş verir və bu zaman Tanrı Oğlu profan anlamı ilə tapılmışa çevrilir. Azərbaycan folklorunda Tanrı Oğlunun "tapılmış" anlamında Tapdıq adlanması bu prosesin nəticəsidir. Ancaq xalq düşüncəsində tapıntının *tanrıdan göndərilən qismət* kimi qəbul edildiyini nəzərə alsaq, tapılma motivi uşağın ilahi aləmdən göndərilməsinə işarə edir.

**Göy Oğlu haqqında mif və etnoqonik əfsanələr.** Saxa olonxolarında (qismən də Altay dastanlarında) ilk insanın yer üzünə gəlməsi haqqında epik ənənə etnoqonik əfsanələrin materialına çevrilir. Dürbütlər öz xanlarının əcdadını Odun-Bodun adlandırırlar. Bu uşaq ağac altından tapılır. Uyl quşu öz səsi ilə uşağa laylay çalır. Ağac isə öz yarpaqlarının şirəsi ilə uşağı yedizdirir. Həmin əfsanənin koton variantında uşağı yedizdirən ağac Orön **qantsxın modon** (dünyanın tək ağacı) adlanır (19, 299). Başqa bir dürbüt əfsanəsində ağacın altından tapılan uşaq Coros adlanır. Uşaq ağacın altında uzanmış vəziyyətdə tapılır. Ağac yarpaqlarının şirəsi ilə uşağı yedizdirir. Onu anası Urun (Dünya) ağacı olan Oduntay-Boduntay Qurbuştenxu (Qurbuşten tanrının oğlu Oduntay-Boduntay) adlandırırlar (20, 326). Dürbütlərə aid bir variantda isə ağacın yedizdirdiyi uşaq Tanrı Oğlu adlanır. Onun anası Urun

(Dünya) ağacı, atası isə Qurbuşten (göy tanrısı) adlanır (21, 19). Çingiz xan haqqında olan bir dürbüt əfsanəsində Çingiz xan göy oğlu adlanır. O, ağacın altından tapılır. Qoşa ağacın başları bir-birinə birləşir. Uşaq bu ağacın budaqlarından tökülən şirə ilə qidalanır. Cunqar xanı öləndən sonra tayfalar arasında xan olmaq üçün mübahisə yaranır. Narazılığı aradan götürmək üçün Çingizi xan seçirlər (20, 228-229). Həmin əfsanənin xalxas variantında Çingiz xalxas xanlarının əcdadı sayılır. O, ağacın altından tapılır. Bu əfsanədə ağacın uşağı yedizdirməsi qurdun uşağı əmizdirməsi ilə əvəz olunur (19, 299-300).

Altaylıların Ölün (Ülün) tayfasının əcdadı haqqında əfsanə də bu baxımdan maraqlıdır. Əfsanəyə görə, çinlilərin Çunqar xanlığını dağıtdığı dövrdə Mundus tayfasından olan Puktuş adlı zaysan bir döyüşdən sonra qayın ağacına asılmış uşaq görür. Uşaq ağac şirəsi ilə qidalanırmış. Puktuş uşağı götürərək Ölün (Ülün) adlandırır. Çingiz xan onun oğlu, Ülqen isə nəvəsi sayılır. Əfsanəyə görə, Ülqen altaylıların hakimi olub (22, 250-251).

Göründüyü kimi, bu əfsanələrdə Tanrı//Göy Oğlu, xan sülaləsinin və ya tayfanın əcdadı kimi təqdim olunaraq soyun sakrallığını əsaslandırır.

Təsvir etdiyimiz material Tanrı Oğlu və ilk insan haqqında mətnin etnoqonik əfsanələrin materialına çevrildiyini göstərir. Mifoloji düşüncədə etnosun əcdadının ilk insan olması haqqında universal konsepsiya təsvir etdiyimiz materiallarda bir daha öz təsdiqini tapır.

*Bulca xanın mifoloji kimliyi.* Deyildiyi kimi, Oğuznamədə ulu əcdad olaraq Oğuz soykötüyünün başında si-

nonim anlam daşıyan Bulca və Olca dayanır. Bu adlardan ikincisi Tanrı Oğlu ilk insan haqqına mifin personajlarından biridir. Ancaq Tanrı Oğlu ilk insan haqqında mifin qəhrəmanları içərisində Bulca adı yoxdur. Əgər Bulca adının sinonimi olan Olca Tanrı Oğlu və ilk insan haqqında mifin qəhrəmanlardan biri kimi özünü göstərirsə, onda Bulcanın da bu mifin qəhrəmanlarından biri olduğunu düşünmək olar. Bununla yanaşı, sözügedən mifin qəhrəmanları etnoqonik və geneoloji miflərdə tayfanın və soyun ulu əcdadı kimi təqdim olunur və bu hal, yəni ilk əcdadın ilk insan olması haqqında universal mifoloji konsepsiyaya uyğun şəkildə baş verir. Bu baxımdan Oğuz soykötüyünün başında duran Bulcanın da Tanrı Oğlu və ilk insan haqqında mifin qəhrəmanlardan biri olmasını düşünməliyik. Ən nəhayət, Bulcanın mifoloji kimliyi haqqında Rəşidəddin mətnində müəyyən məlumat da qorunmuşdur.

Yuxarıda deyilənlərə söykənib Bulca xanın mifoloji kimliyini təsəvvür etmək mümkündür. Qeyd edək ki, Bulca xanın mifoloji kimliyi haqqında Rəşidəddin mətnindən az da olsa məlumat almaq mümkündür. Rəşidəddin yazır: "Türklər Yafəzi Bulca adlandırırlar və adlandırmaqda da davam edirlər" Deməli, ulu əcdad (ilk insan) haqqında ənənəvi oğuz mətni ilə Tufandan sonra başlayan insanlığın əcdadları haqqında sami mətni qarşı-qarşıya dayanır. Rəşidəddin davam edir: "...dürüst bilmirlər ki, bu Bulca Nuhun oğludur və ya nəvəsidir. Ancaq onların hamısı, o (Bulca) onun (Nuhun) soyundandır və ona (Nuha) yaxın zamanda yaşayıb" (10, 80). Rəşidəddin təhkiyəsinin bu hissəsi göstərir ki, ulu əcdad haqqında türkmən mətni ilə oxşar sami

mətninin qovuşması hələ baş verməyib. Bəllidir ki, sonrakı şəcələrində (Əbulqazi, Həsən bəy Bayat və s.) “sami geneologiyası” düzülüb qurtarandan sonra türkmən geneologiyası ona bitişdirilir. Bunun əksinə olaraq, Rəşidəddində iki mətnin qarşılaşdırılmasını müşahidə etmək mümkündür. Türkmənlər öz mifoloji geneologiyaları ilə sami geneologiyasını qarşılaşdırır və qəbul etdikləri dinin hesabına ona güzəştə gedirlər. Qeyd edək ki, Rəşidəddin mətnində Bulcanın Yafəslə qarşılaşdırılması tipoloji baxımdan yanlışdır. Əslində Bulca ilk insan olaraq “Bibliya”nın, eləcə də “Qurani-Kərimin” Adəmi ilə qarşılaşdırılmalı idi.

Rəşidəddin mətnində Bulca xanla Yafəsin qarşılaşdırılması (oxşadılması) aydın şəkildə göstərir ki, Bulca xan Tanrı Oğlu (ilk insan) haqqında mifin personajlarından biridir. Onun türkmən soykötüyünün başında durması da bu hadisə ilə bağlıdır.

Sözardı. Buryat alimi S.Ş.Çaqdurov “Qeseriadanın yaranması” adlanan əsərində Oğuz soykötüyünün başında dayanan Bulcadan bəhs edərkən heç bir qaynaq göstərmədən Monqol xalqlarının şifahi əfsanələrində Bumxan Bulca xandan bəhs olunduğunu göstərir (6, 74). Qeyd edək ki, müəllifin məlumat verdiyi personaj haqqında məlumat əldə etmək üçün göstərdiyimiz səylər heç bir nəticə vermədi.

## ƏDƏBİYYAT

1.Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные свяи Ленинград: Наука, 1971

2.Алтайские героические сказания. Москва: Современник, 1983

3.Azərbaycan dastanları. I c., Bakı: Çıraq, 2005

4. Azərbaycan nağılları, III c., Bakı: Elm , 1962

5. Bayatlı Mahmud oğlu Hasan. Cam-Cem-Ayin // Osmanlı Tarihleri. C. I. İstambul: Türkiye Yayınevi, 1949

6. Чагдуров С.Ш. Происхождение Гесериады. Новосибирск: Наука, 1980

7. Емельянов Н.В. Сюжеты ранних типов якутских олонхо. Москва: Наука, 1983

8. Емельянов Н.В. *Сюжеты олонхо* о родоначальниках племени. Москва: Наука, 1990

9. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə / Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi R.Şükürova. Bakı: Elm, 1998

10. Фазлуллах Рашид-ад-Дин. Сборник летописей. Т. I, кн. 1. / Перевод с персидского Л.А.Хетагурова. Москва: Ленинград Издательство АН ССР, 1952

11. Фазлуллах Рашид-ад-Дин. Огуз-Наме / Перевод с персидского, предисловие, комментарии, примечания и указатели Р.М.Шукюровой. Баку: Наука, 1987

12. *Худяков И.А. Краткое описание* Верхоянского округа. Ленинград: Наука, 1969

13. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука, 1974

14. Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград: Издательство АН СССР, 1958

15. Мелетинский Е.М. О древнейшем типе героя в эпосе тюрко-монгольских народов Сибири. www.ruthenia.ru

16. Неклюдов С.Ю. Героический эпос монгольских народов: устные и литературные традиции. Москва: Наука, 1984

17. Ögel B. Türk Mitolojisi. c.1, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989

18. Потанин Г. *Очерки* Северо-западной Монголии. вып. 2. Санкт-Петербург, 1881

19. Потанин Г. Грамовник по поверьям и сказаниям племен Южной Сибири и Северной Монголии// Журнал Министерство Народного Просвещение, ч. 219, СПб., 1882 с. 288-330

20.Потанин Г. *Очерки* Северо-западной Монголии. вып. 4. Санкт-Петербург, 1883

21. Потанин Г. *Ерке*. Культ Сына Неба в Северной Азии. Томск, 1916

22.Потапов Л. А. Алтайский шаманизм. Ленинград: Наука, 1991

23. Рассадин В.И О роли монгольских языков в етимолгизации тюркских лексем, – Проблемы этимологии тюркских языков. Алма-Ата: Глым, 1990 с. 217-225

24. Суразаков С.С Алтайский героический эпос. Москва: Наука, 1985

**Adil ƏSƏDOV**
**Fəlsəfə elmləri doktoru,**
**AMEA Fəlsəfə İnstitutu**

# EV VƏ GEYİM MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏT NÜMUNƏLƏRİ KİMİ: FƏLSƏFİ YANAŞMA

XÜLASƏ

Ev və geyim insanın özü ilə kənar dünya arasında yerləşdirdiyi elə bir reallıqdır ki, bu reallıq vasitəsilə insan, bir tərəfdən, özünü ətraf dünyanın sui-istifadəsindən mühafizə edir, yəni insana mənsub olmalı olan və mənsub olan enerjinin, informasiyanın və maddiyyatın mühitin ondan qoparıb almasının qarşısını alır və digər tərəfdən, ətraf dünyanın sanki ona yükləmək istədiyi izafi enerjidən, izafi informasiyadan və izafi maddiyyatdan, bir qədər kəskin təzrdə deyilərsə, mühitin enerji çirkabından, informasiya çirkabından və maddə çirkabından da insan özünü həmçinin həmin bu ev və geyim adlı reallıqlar vasitəsilə qoruya bilir.

***Açar sözlər:*** Ev, geyim, kənar dünya, maddi, mənəvi, enerji, informasiya və maddiyyat

# ДОМ И ОДЕЖДА КАК ОБРАЗЦЫ МАТЕРИАЛЬНОЙ И ДУХОВНОЙ КУЛЬТУРЫ: ФИЛОСОФСКИЙ ПОДХОД

РЕЗЮМЕ

Жилище и одежда – это такие реальности, которые человек помещает между собой и внешним миром, благодаря чему он защищает себя от злоупотребления со стороны внешнего мира, то есть с одной стороны, предотвращает поглощение внешним миром энергии, информации и вещества, которые принадлежат человеку, а с другой, защи-

щает человека от избыточной энергии, избыточной информации и избыточной материи, которые внешний мир «хочет» навязать ему.

***Ключевые слова:*** дом, одежда, внешеий мир, материальное, духовное, энергетическое, информационное и материальное

**HOUSING AND CLOTHES AS SAMPLES OF MATERIAL AND SPIRITUAL CULTURES: PHILOSOPHICAL APPROACH**

SUMMARY

Housing and clothing are such realities that the human places between himself and the outside world, owing to which he protects himself from abuse by the outside world, i.e., he on the one hand, prevents the absorption by the outside world the energy, information and matter that belong to him, and on the other hand, he protects himself from excess energy, excess information and excess matter, which the outside world “wants” to impose on him.

***Key words:*** Housing, clothing, world, material, spiritual, energetic, informational and material

Ev və geyimin ilkin təyinatı, əlbəttə ki, atmosfer hadisələrinin zərərli təsirlərindən insanın qorunması olmuşdur. Lakin evin və geyimin bəşər tarixi ərzində kəsb etdiyi funksiyalar heç də həmişə atmosfer hadisələrinin zərərli təsirləri ilə mübarizə olmamışdır.

Ən ümumi halda səciyyələndirildikdə, ev və geyim insanın özü ilə kənar dünya arasında yerləşdirdiyi elə bir reallıqdır ki, bu reallıq vasitəsilə insan, bir tərəfdən, özünü ətraf dünyanın sui-istifadəsindən mühafizə edir, yəni insana mənsub olmalı olan və mənsub olan enerjinin, informa-

siyanın və maddiyyatın mühitin ondan qoparıb almasının qarşısını alır və digər tərəfdən, ətraf dünyanın sanki ona yükləmək istədiyi izafi enerjidən, izafi informasiyadan və izafi maddiyyatdan, bir qədər kəskin tərzdə deyilərsə, mühitin enerji çirkabından, informasiya çirkabından və maddə çirkabından da insan özünü həmçinin həmin bu ev və geyim adlı reallıqlar vasitəsilə qoruya bilir.

Üstəlik, ev və geyim insanı əhatə edən mühitdə daşınan, lakin insana mənsub olmalı olan enerjinin, informasiyanın və maddiyyatın insan tərəfindən mənimsənilmə imkanlarını genişləndirir və həmçinin də insanın özündə daşınan, lakin mühitə mənsub olmalı olan enerji, informasiya və maddiyyatın mühitə təyinatı üzrə verilməsini də asanlaşdırır.

Beləliklə, ev və geyim, bir tərəfdən, insanı onun ətraf dünya tərəfindən sui-istidadə edilmədən qoruyur və digər tərəfdən, onun dünya ilə enerji, informasiya, maddə kanalları ilə ünsiyyətini də asanlaşır.

Bu fikrin konkret məzmunu punktual olaraq və bir qədər də sadələşdirilmiş şəkildə belə ifadə oluna bilər:

**Ev və geyimin birinci funksiyası** – *insan və ətraf dünya arasında enerji mübadiləsinin tənzimlənməsi*ndə onların oynadığı rolu özündə ehtiva edir.

Belə ki, insan ətraf dünyadan yalnız özünə gərəkli olan enerjini almır, ətraf dünya insana gərəkli olub-olmamasından asılı olmayaraq öz izafi enerjisini də insanın varlıq sərhədləri daxilinə yükləyir[1]. Digər tərəfdən, ətraf

[1] Məsələn, Yerə düşən günəş şüalarının Yerin səthinə nisbətən maillik dərəsinin kəskin çoxalması hallarında, və ya, isti iqlim qurşağında ani təzyiq fərqlərindən qaynaqlanan qasırğalar nəticəsində meydana çıxan isti küləklərin baş aldığı zamanlarında.

dünya insandan onun enerjisinin müəyyən hissəsini mütəmadi olaraq qoparıb alır[2].

Ən azı elə bu səbəblərdən də ev və geyim insan həyatında müstəsna əhəmiyyətə malikdir. Belə ki, həm ev və həm də geyim, hər şeydən öncə, insan və təbii mühit arasında yerləşdirilən mühafizə örtüyü statusundadır və mühafizə örtüyü statusunda reallıq olmaqla həm insanın malik olduğu və malik olmalı olduğu enerjinin ətraf təbii mühit tərəfindən mənimsənilməsinə, həm də ətraf təbii mühitin izafi enerjisinin insanın cismani varlıq sərhədləri daxilinə yükləməsinə maneə yaradır.

Sadə bir tərzdə ifadə olunarsa, ev və geyim insanı soyuqdan və istidən, ətraf təbii mühitin insanı məruz qoyduğu bu iki güclü əzab mənbəyindən mühafizə edir.

Belə ki, insan soyuğun doğurduğu əzab hissiyatını o zaman çərçivəsi daxilində yaşayır ki, bu zaman çərçivəsi insanın malik olduğu və malik olmalı olduğu enerjinin ətraf təbii mühit tərəfindən insandan qoparıb ayrılaraq mənimsənilməsi ilə səciyyəvidir. İnsan istiliyin doğurduğu əzab hissiyatını isə o zaman çərçivəsi daxilində yaşayır ki, ətraf təbii mühit bu zaman çərçivəsi daxilində öz izafi enerjisini insanın cismani varlıq sərhədləri daxilinə yükləməkdə olur.

Ev və geyim insan və təbii mühit arasında yerləşdirilən mühafizə örtüyü statusunda olduğundan, ətraf təbii mühitin insanı məruz qoyduğu bu iki əzab mənbəyinin təsirinin kifayət dərəcədə azaldılmasında və hətta onların

---

[2] Əks hallarda, məsələn, Yerə düşən günəş şüalarının Yerin səthinə nisbətən maillik bucağının kəskin azalması hallarında, və ya, müxtəlif coğrafi məkanlarda temperatur fərqi nəticəsində meydana çıxan tufanlar və soyuq küləklər zamanlarında.

hər ikisinin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Əgər insan ev və geyim adı verdiyi bu mühüm ixtiraları etməmiş olsaydı, təbiətin ona göstərdiyi həmin bu təzyiqlərə duruş gətirə bilməzdi.

Deməli ki, ev də, geyim də insana mənsub olmalı olan və mənsub olan enerjinin ondan təbii mühit tərəfindən qoparılıb alınmasının, nəticədə onun malik olduğu və üstəlik malik olmalı olduğu enerjinin həmin bu təbii mühit tərəfindən sui-istifadə olunmasının qarşısını alır və eləcə də, təbii mühitin ona yuxarıda söylənilən mənada sanki yükləmək istədiyi izafi enerjidən, təbii mühitin bu izafi enerjisinin ona sanki bir enerji kanalizasiyası kimi boşaldılmasından və bunun da nəticəsində onun özünün bütövlükdə varlığından sui-istifadə olunmasından insanı bu və ya digər dərəcədə müdafiə edir.

Buraya o mühüm faktı da əlavə edim ki, ev və geyim insanın malik olduğu və malik olmalı olduğu enerjinin təkcə ətraf *təbii mühit* tərəfindən mənimsənilməsinə qarşı deyil və eləcə də yalnız *təbii mühitin izafi enerjisi*nin insanın cismani varlıq sərhədləri daxilinə yüklənməsinə qarşı deyil, həm də insanın malik olduğu həmin bu enerjinin insandan qoparılaraq ətraf *sosial mühit* tərəfindən mənimsənilməsinə qarşı və *sosial mühitin izafi enerjisi*nin insanın cismani və həmçinin də mənəvi varlıq sərhədləri daxilinə yükləməsinə qarşı maneə yaradır.

Belə ki, insanın malik olduğu və malik olmalı olduğu enerjinin ətraf mühit tərəfindən insandan qoparılıb ayrılaraq mənimsənilməsi və həmçinin də ətraf mühitin insanı öz izafi enerjisi ilə yükləməsi yalnız təbii mühitə aid olan

bir hal deyildir. Eləcə insanı əhatə edən sosial mühit də insanın malik olduğu enerjini ondan qoparıb alaraq mənimsəmək və həmçinin insanı izafi enerji ilə yükləmək yönümündə fəaliyyət göstərməkdədir. Bu fəaliyyətin birinci istiqaməti – istismar, ikinci istiqaməti isə zorakılıqdır.

İnsanın malik olduğu fiziki enerjidən, yəni onun bioloji enerjisindən, əzələ gücündən həmin insanın təbii təyinatına uyğun olmayan bir şəkildə istifadə etmək bu insanı fiziki istismara məruz qoymaqdır. İnsanın malik olduğu mənəvi enerjidən, yəni onun xeyirxahlıq duyğularından həmin insanın təbii təyinatına uyğun olmayan bir şəkildə istifadə etmək isə bu insanı mənəvi istismara məruz qoymaqdır.

Ev və müəyyən dərəcədə həm də geyim insan və onu əhatələyən cəmiyyət arasında real bir sədd təşkil etdiyindən, insanı fiziki və mənəvi istismardan, yəni insanın fiziki və mənəvi enerjisinin ətraf sosial mühit tərəfindən bu insani enerjinin təbii təyinatına uyğun olmayan bir şəkildə mənimsənilməsindən insanı bu və ya digər dərəcədə qoruyur.

Ev və geyim, eləcə də insanın fiziki və mənəvi zorakılıqdan qorunmasında da mühüm əhəmiyyətə malikdirlər, insan varlığının fiziki və mənəvi istismardan qurtulmasında oynadıqları rola bənzər bir rolu həmçinin də insana qarşı yönələn fiziki və mənəvi zorakılıqdan onun xilas edilməsi işində də oynayırlar. "*Nə üçün*" sualının cavabı isə belədir:

İnsanı əhatə edən sosial mühitin izafi enerjisinin insana onun təbii təyinatına uyğun olmayan bir şəkildə yüklənməsi əslində zorakılıq hadisəsinin başqa bir adıdır. Ətraf sosial mühitin izafi enerjisinin insanın cismani varlıq sərhədləri daxilinə yükləməsi fiziki zorakılıq, onun mənə-

vi varlıq sərhədləri daxilinə yükləməsi isə mənəvi zorakılıq halıdır.

Deyingənlik, yəni bir insanın öz mənfi enerjisini digər bir insana qəsd niyyəti güdmədən yükləməsi – mənəvi zorakılıq halının ən yüngül dərəcəsi, insana onun hansısa bir nöqsanı barədə gizli eyham vurulması və eləcə də onun açıq tənqidə və ittihama məruz qoyulması – mənəvi zorakılığın nisbətən yüngül formaları, həddini aşan zarafat[3], yəni insanın düzgün olmayan və düzgün olmayan kimi qəbul edilən hər hansı bir sözünü, hər hansı bir ifadəsini araya qoyaraq yamsılamaq və eləcə də onun düzgün olmayan və düzgün olmayan kimi qəbul edilən hər hansı bir əməlini onu ələ salmaq məqsədilə təqlid etmək, həmçinin də birinin sevmədiyi hər hansı bir əməlin başqa birisi tərəfindən onu masqaraya qoymaq, onu pərt etmək, qanını qaraltmaq, lağa qoymaq, onu alçaltmaq, kobud bir ifadədən istifadə edilərsə, ona sataşmaq barədə gizli niyyətlə edilməsi mənəvi zorakılığın orta dərəcəsi, təhqir, yəni insanın şərəf və ləyaqətinin açıq şəkildə alçaldılması – mənəvi zorakılıq halının nisbətən ağır forması, böhtan isə mənəvi zorakılığın ən ağır dərəcəsidir. Burada mənəvi zorakılığın ağırlıq dərəcələri hər şeydən öncə onunla şərtlənirlər ki, deyingənlik halından fərqli olaraq, eyham, tənqid, ittiham, təhqir, böhtan, həddini aşan zarafat, birinin sevmədiyi bir əməlin başqa birisi tərəfindən onu alçaltmaq, aşağılamaq barədə gizli niyyətlə edilməsi hallarında insana onun neqativ yüklü

[3] Həddini aşmayan zarafat insanın həqiqi nöqsanının yumşaq formada tənqididir və əslində insana əzab vermədən həmin nöqsanın aradan qaldırılmasına xidmət edir, bu səbəbdən də yolveriləndir.

həmcinslərinin təkcə mənfi enerjiləri ötürülmür, onların həm də mənfi informasiyaları da ötürülür: bu mənfi informasiyaların gerçəkliyə uyğun gəlib gəlməmələrindən, həqiqət, yoxsa yalan olub-olmamalarından asılı olmayaraq. Belə ki, təhqir və böhtan gerçəkliyə uyğun olmayan, yalan xarakterli informasiyaları özlərində ehtiva etsələr də, eyham və tənqid gerçəkliyə uyğun gələn, həqiqət xarakterli olan mənfi informasiyaları özlərində ehtiva edirlər. Həddini aşıb-aşmamasına baxmayaraq hər hansı bir zarafat, eləcə də birinin sevmədiyi hər hansı bir əməlin başqa birisi tərəfindən onu alçaltmaq barədə gizli niyyətlə edilməsi halı bu və ya digər dərəcədə həqiqət qarışığı olan mənfi informasiyalardan qaynaqlanır. İttihama gəldikdə isə, ittiham təbiətli informasiya gerçəkliyə uyğun gələ də bilər, gəlməyə də bilər, həqiqət xarakterli ola da bilər, olmaya da bilər. Amma gerçəkliyə uyğun gəlib-gəlməməsindən, həqiqət olub-olmamasından asılı olmayaraq, insana ötürülən bütün bu mənfi informasiyalar onları ötürən şəxsin mənfi enerjisi ilə yüklənmişlər və bu səbəbdən də insanı mənəvi zorakılığa məruz qoyurlar. Bu mənfi yüklü informasiyaların həqiqətə uyğunluq dərəcəsi nə qədər azdırsa, onlardan qaynaqlanan mənəvi zorakılıq dərəcəsi bir o qədər yüksəkdir.

Ev insanı onun neqativ yüklü həmcinslərindən faktiki olaraq kənarlaşdırır və geyim öz məxsusi xüsusiyyətlərindən asılı olaraq insanı neqativ yüklü həmcinslərindən mənən uzaq tutmaq üçün kifayət edəcək təsir gücünə malikdir. Bu səbəbdən də, ev və geyim insanı onun neqativ yüklü həmcinslərinin daxili çirkabından – onların deyingənliyindən, eyhamlarından, yağdırmaq istədikləri haqlı

və haqsız tənqidlərdən, ittihamlardan, onların yersiz zarafatlarından, onu aşağılamaq cəhdlərindən, yağdırmaq istəyində olduqları təhqir və böhtanlardan da bu və ya digər dərəcədə uzaq tutur.

Göründüyü kimi, ev və müəyyən dərəcədə həm də geyim insanı digər insanların fiziki zorakılığından qoruya bildiyi kimi, digər insanların həmçinin mənəvi zorakılığından da qoruya bilir, əlbəttə ki, *bu və ya digər dərəcədə* əlavəsi ilə.

Beləliklə, ev və geyim həm insanın enerji resurslarının sosial mühit tərəfindən sui-istifadəsinin qarşısının alınmasında, yəni insanın fiziki və mənəvi istismardan müdafiə edilməsində, həm də insanın sosial mühitin izafi enerjisi ilə yüklənməsinin dayandırılmasında, yəni insanın ona qarşı fiziki və mənəvi zorakılıq hallarından qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Lakin bununla yanaşı o məqamı da vurlamaq istərdim ki, insanın enerji resurslarının sosial mühit tərəfindən sui-istifadəsinin qarşısının alınmasında və eləcə də insanın sosial mühitin izafi enerjisi ilə onun yüklənməsinin dayandırılmasında və ya səngidilməsində evin və geyimin rolu əlbəttə ki, insanın təbii mühitlə olan münasibətlərində olduğu qədər güclü deyildir, amma hər halda, nəzərə çarpacaq dərəcədə mühüm və əhəmiyyətlidir.

Söylənilən fikirləri məntiqi ardıcıllıqla davam etdirərkən onu da vurğulamalıyam ki, ev və geyim vasitəsilə insan, bir tərəfdən, təbii və sosial mühitdə daşınan, lakin insana mənsub olmalı olan enerjinin insan tərəfindən mənimsənilməsini, digər tərəfdən isə, insanın özündə daşınan, lakin

həmin bu təbii və ya sosial mühitə mənsub olmalı olan enerjinin mühitə təyinatı üzrə verilməsini də asanlaşdırır.

Deməli ki, ev və geyim insana mənsub olmalı olan və mənsub olan enerjinin ətraf təbii və sosial mühit tərəfindən ondan qoparılıb alınmasının müəyyən dərəcədə qarşısını alır. Bu, bir. İkincisi, ev və geyim ətraf təbii və sosial mühitin fiziki zorakılıqla müşahidə olunan və həmçinin də fiziki zorakılıqla müşahidə olunmayan izafi enerjisinin insanın fiziki və mənəvi varlıq sərhədləri daxilinə yüklənməsindən onu bu və ya digər dərəcədə müdafiə edir. Üçüncüsü, ev və geyim təbii və sosial mühitdə daşınan, lakin insana mənsub olmalı olan enerjinin insan tərəfindən mənimsənilməsini asanlaşdırır. Dördüncüsü, ev və geyim həmçinin də insanda daşınan, lakin təbii və ya sosial mühitə mənsub olmalı olan enerjinin həmin mühitə təyinatı üzrə verilməsini də asanlaşdırır.

Bütun bunlar, ev və geyimin birinci funksiyası, yəni insan və ətraf dünya arasında enerji mübadiləsinin tənzimlənməsində onların oynadığı rol barədədir.

**Ev və geyimin ikinci funksiyası** isə *insan və ətraf dünya arasında informasiya mübadiləsinin tənzimlənməsi*ndə onların əhəmiyyəti ilə bağlıdır.

Bununla əlaqədar öncə onu qeyd edim ki, ev və geyim, insan varlığını bütövlükdə və o cümlədən də bədənini sui-istifadədən mühafizə etmək məqsədilə gizlətmək, göstərməmək üçündür, bir qədər geniş mənada və geniş kontekstdə götürüldükdə isə, konkret insana aid olan, lakin hamıya göstərilməli olmayanı gizlətmək üçündür. Ev və geyim vasitəsilə insan, ətraf dünyaya ötürmək istəmədiyi

informasiyanı bu reallıqlar vasitəsilə gizlədə bilir, başqa cür deyilərsə, insan özünə mənsub olmalı olan və mənsub olan informasiyanın mühitin ondan qoparılıb almasının qarşısını evin və geyimin vasitəçiliyi ilə ala bilir. Başqa cür deyilərsə, ev və geyim, konkret insana aid olan informasiyanın mühitdə bu informasiyanın təyinatına uyğun olmayan bir qaydada yayılmaması üçündür, bir qədər obrazlı və bir qədər də sadələşdirilmiş şəkildə ifadə olunarsa, insanı necə deyərlər, pis gözdən qorumaq üçündür, insanın bədəni və bütövlükdə varlığı ilə bağlı informasiyadan sui-istifadəyə yol verilməməsi üçündür.

Müasir informasiya nəzəriyyəsinin terminologiyasından fərqli bir kontestdə istifadə edilərsə, ev və geyim insanın informasiya təhlükəsizliyinin təmin olumasında mühüm vasitə statusundadırlar.

İkincisi, ətraf dünyanın sanki ona yükləmək istədiyi izafi informasiyadan – informasiya çirkabından da insan özünü geyim və xüsusən də ev vasitəsilə mühafizə edə bilir, əlbəttə ki, yenə də *müəyyən dərəcədə* qeyd-şərti ilə. Bu hal həmçinin insanın mənəvi zorakılıqdan xilas olma halı ilə də sıx bağlıdır. Belə ki, ev və geyimin birinci funksiyasının şərhi zamanı qeyd olunduğu kimi, deyingənlik halı müstəsna olmaqla, mənəvi zorakılığın bütün digər formalarında insana onun neqativ yüklü həmcinslərindən ötürülən mənfi enerji həmçinin mənfi informasiyanı da özündə ehtiva edir.

Ev və geyimin ikinci funksiyasının birinci və ikinci alt-funksiyalarının şərhindən göründüyü kimi, ev və geyim insanı mühit tərəfindən sui-istifadə olunmadan həmçinin informasiya baxımından da bu və ya digər dərəcədə qoruyur.

Üçüncüsü, ev və həmçinin də geyim, mühitdə daşınan, lakin insana mənsub olmalı olan informasiyanın insan tərəfindən mənimsənilməsini asanlaşdırır.

Və nəhayət, dördüncüsü, ev və geyim insanın ətraf dünyaya ötürdüyü informasiyanın effektliyini, təsir gücünü də artırır.

Bu deyilənləri bir qədər obrazlı şəkildə belə ifadə etmək olar:

*Bu və ya digər konkret insanın həyatı ilə bağlı onun cəmiyyətdən gizli saxladığı sirləri üzə çıxarmaq imkanını* insanın geyim tərzi və sahib olduğu evin xarakteri əhəmiyyətli dərəcədə azaldır (1).

Eləcə də "*Bu və ya digər konkret insana hansı informasiyanı ötürmək olmaz*" sualına cavab da həmin insanın hansı evdə yaşamasından və necə geyinməsindən əhəmiyyətli dərəcədə asılıdır (2).

Sosial mühit insanın geyim tərzindən və malik olduğu evin xarakterindən asılı olaraq ona gərəkli olan məlumatları ona verməyə daha çox və ya daha az dərəcədə meyilli olur (3).

Və nəhayət, insanın hansı evdə yaşaması və necə geyinməsi onun ətraf sosial mühitə ötürdüyü informasiyanın nə dərəcədə effektli olacağına güclü təsir göstərir (4).

Bu nöqteyi-nəzərdən belə bir məqama da diqqət yetirmək istərdim ki, ev və geyim bir çox hallarda nəyi isə gizlətmək üçündürsə, bir çox digər hallarda nəyi isə də göstərmək üçündür. Ev və geyim vasitəsilə insan malik olduğu nəyi isə gizlətsə də, malik olduğu nəyi isə göstərə də bilir, bəzən bir qədər də qabarıq şəkildə.

Ev və geyim bəzi hallarda hətta insanın malik olmadığı, lakin malik olmalı olduğunu hiss etdiyi nəyəsə sanki malikdir kimi göstərmək üçün də məxsusi əhəmiyyət kəsb edir.

Geyim, eləcə də ev, elə buna görə də sonradan həm estetik əhəmiyyət kəsb edir və həmçinin də insanın sosial statusunun da göstəricisi və bəzən, bəlkə də bir çox hallarda, hətta müəyyənləşdirici də olur. Ev və geyim həmçinin elə həmin səbəblərdən də sahibinin sosial imicini real olaraq və əhəmiyyətli dərəcədə yüksəldə də bilir, alçalda da; həm sosial status baxımından, ilk baxışda bir qədər təəccüblü görünsə də, həm də estetik nöqteyi-nəzərdən.

Ev və geyim sosial status göstəricisi olaraq sahibini eləcə də kənar sosial təzyiqlərdən bu və ya digər dərəcədə qoruya bilər və qoruyur.

Ev və geyim həmçinin estetik əhəmiyyət daşıyıcısı olaraq da sahibini kənar sosial təzyiqlərdən qoruya bilər, amma bunun tam əksinə olaraq, sahibini kənardan əlavə sosial təzyiqlərə məruz da qoya bilər.

Belə ki, gözəl ev və gözəl geyim sahibinin sosial ətrafında yaranan ictimai rəy, sosial əhvali-ruhiyyə yaraşıqlı kişinin və gözəl xanımın öz sosial ətraflarında yaratdıqları ictimai rəyə, sosial əhvali-ruhiyyəyə çox bənzəyir. Bu əhvali-ruhiyyə sosial ətrafın zəif nümayəndələrində qısqanclıq, paxıllıq, acıq, nifrət xarakterli, sosial ətrafın güclü nümayəndələrində isə əksinə, fərəh, vəcd, ilham xarakterlidir. Həm gözəl ev və gözəl geyim sahibləri, həm də yaraşıqlı kişilər və gözəl xanımlar sosial ətrafın zəif nümayəndələrini onların özlərində daşınan natamamlıq kompleksi ilə əzirlər, sosial ətrafın güclü nümayəndələrini

isə əksinə, fərəh, ləyaqət və xoşbəxtlik dolu həyata ilhamlandırırlar, onlarda daşınan həyat eşqini alovlandıraraq, bu güclü ruh sahiblərini vəcdə gətirərək, onları sanki inkişafa, yüksəlişə, özünütəsdiqə səsləyirlər. Bununla da, gözəl ev və gözəl geyim sahibləri camalı gözəl olanların nümunəsində olduğu kimi, həmçinin də fövqəladə istedad sahibi olanların nümunəsində olduğu kimi, mükəmməl əxlaq sahibi olanların nümunəsində olduğu kimi, güclü nüfuz və hakimiyyət sahiblərinin nümunəsində olduğu kimi sosial ətrafın zəif nümayəndələrinin timsalında özlərinə qarşı bir təhlükə, sosial ətrafın güclü nümayəndələrinin timsalında isə onları qoruya biləcək, onlara dəstək ola biləcək bir himayəçi formalaşdırırlar və eyni zamanda sosial ətrafın həmin bu güclü nümayəndələrini inkişafa səsləyirlər.

Bu hal evin və geyimin eyni zamanda həm də kreativ əhəmiyyət kəsb etdiyinə işarə vurur. Evin və geyimin kreativ əhəmiyyəti əsasən özünü onda göstərir ki, ev də, geyim də həm öz mövcudluqlarının zəruriliyi ilə, həm də öz rəngarəngllikləri ilə insana mütəmadi olaraq yaradıcılıq impulsları ötürürlər, insanın təxəyyül, təfəkkür və iradi qabiliyyətlərinin, əxlaqi və hətta fəlsəfi şüurunun inkişafına təkan verirlər.

Müasir informasiya nəzəriyyəsinin terminologiyasından bir daha istifadə edilərsə, deyilənlər belə ifadə oluna bilər ki, ev və geyim insanın informasiya kanallarının onun xeyrinə genişləndirilməsində və gücləndirilməsində və ya onun xeyrinə daraldılmasında və zəiflədilməsində mühüm əhəmiyyətə malikdirlər.

Ev və geyimin insana mənsub olmalı olan və mənsub olan informasiyanın mühitin ondan qoparılıb almasının qar-

şısını ala bilmə xüsusiyyəti ilə bağlı əlavə olaraq bir məqamı da diqqətə çatdırmaq istərdim. "*Ev və geyim, konkret insana aid olan informasiyanın mühitdə bu informasiyanın təyinatına uyğun olmayan bir qaydada yayılmaması üçündür*" fikrini müəyyən dərəcədə irəli apararaq onu da qeyd etmək istərdim ki, ev və geyim bir sıra hallarda insanın malik olduğu, lakin malik olduğunu başqalarına və hətta onun özünə belə göstərmək istəmədiyi nəyisə başqalarından və eləcə də onun özündən belə gizlətmək üçündür, onun varlığını bu nəsnədən sanki xali olan kimi göstərmək üçündür, başqaları və onun öz vicdanı qarşısında danmaq istədiyi bu nəsnəni həm kənar gözdən, həm də onun özündən gizlətmək üçündür.

Bu nöqteyi-nəzərdən ev və geyim, deməli, insanın həm də utancaqlıq hissi üzərində təşəkkül tapmışdır və insanın mühit tərəfindən sui-istifadə olunmasından onu həmçinin bu yolla da qoruyur. Utancaqlıq məhz o hissdir ki, insanın malik olduğu nəyisə başqalarına və eləcə də hətta onun özünə sanki malik deyil kimi göstərmək istəyini ifadə edir və insan məhz bu istəyi – malik olduğu nəyisə başqalarından və özündən gizlətmək istəyini yaşayarkən onda utancaqlıq hissi doğulur. Ev, xüsusən də geyim həm də həmin bu istəyin ifadəçilərindən biridir.

Geyimin reallığı gizlətmə xüsusiyyəti ilə əlaqədar olaraq belə bir məqamı da qeyd etmək istərdim ki, geyim bəzən, bəlkə də bir çox hallarda, ümumiyyətlə, insan bədənini örtmək, gizlətmək üçün deyil, insan bədəninin ola bilsin ki eybəcərliyini ört-basdır etmək, gizlətmək üçün də ola bilir.

Bununla əlaqədar bir nümunə: Siz qədim yunan heykəltəraşlığının şah əsərlərindən biri olan - Parisin məşhur

Luvr muzeyində saxlanılan, məhəbbət və gözəllik ilahəsi kimi tanınan *Afroditanın heykəli*nə diqqət yetirin. O, demək olar ki, çılpaqdır. Lakin biz onun görkəmində, duruşunda, baxışlarında bir utancaqlıq hissinin mücəssəməsini görmürük, özünü gizlətmə istəyinin ifadəsini tapmırıq, əksinə, onun görkəmində, duruşunda, baxışlarında bir qürur hissinin, bir məğrurluq şüurunun təcəssümünü görürük[4].

**Ev və geyimin üçüncü funksiyası** isə *insan və ətraf dünya arasında maddə mübadiləsinin tənzimlənməsi* ilə əlaqədardır.

İnsan və ətraf dünya arasında maddə mübadiləsinin tənzimlənmə funksiyası ilə bağlı ilk növbədə onu vurğulamaq istərdim ki, ev və geyimin bu üçüncü funksiyası onun birinci və ikinci funksiyalarında olduğuna analoji olaraq dörd vəzifəni özündə ehtiva edir:

Birincisi, ev və geyim vasitəsilə insan həm özünə mənsub olmalı olan və mənsub olan maddiyyatın, yəni onun cismani varlığı – bədəni də daxil olmaqla sahib olduğu maddiyyatın mühitin ondan qoparılıb almasının qarşısını ala bilir. Başqa cür deyilərsə, insanın bir canlı varlıq olaraq subyekt müəyyənliyinin, onda daşınan maddiyyat üzərində və eləcə də ona aid olan maddiyyat üzərində sərəncam vermək hüququnun yalnız ona məxsus olmasının onu əhatə edən dünya tərəfindən tanınmamasından, bu hüququn onu əhatə edən canlı və cansız təbiət və eləcə də onu əhatələyən sosial mühit tərəfindən aşkar və ya qeyri-

---

[4] Bu məqama digər bir kontekstdə rus filosofu A.N.Çanışev də diqqət yetirmişdir: *Чанышев А.Н. Любовь в античной Греции // Философия любви.* т.1. М., 1990. с 50.

aşkar şəkildə danılmasından, xarici mühitin özünü obyekt statusubda deyil, əksinə insana yönəmli olan bir subyekt statusunda tapması hallarından və bu hallarda insanın cismani varlığının ətraf aləmin ziddiyyətlərini, tələbatlarını və problemlərini bu və ya digər şəkildə həll edə bilən qayəsiz bir vasitə kimi istifadə edilməsindən, insanda daşınan maddiyyatın ətraf mühitin bir əlavəsi kimi, bir alt-əksliyi kimi, sanki bir cansız əşyası kimi tətbiq olunmasından insanı bu və ya digər dərəcədə mühafizə edir.

Belə ki, insanı əhatə edən cansız təbiət öz qüvvələrinin tətbiq olunma obyekti kimi həmçinin insandan da istifadə etməyə meyillidir. İnsanı əhatə edən canlı təbiət isə insandan bir qida kimi, konkretləşdirilərsə, faunal təbiət insandan bir qənimət, bir qurban kimi, floral təbiət isə sanki bir gübrə kimi istifadə etməyə meyillidir. İnsanı əhatə edən sosial mühitə qaldıqda isə, onu əhatələyən bu sosial mühit insanda daşınan maddiyyatın təbii təyinatına zidd olan məqsədlərin həyata keçirilməsi üçün insanın cismani varlığından bir alət kimi və həmçinin də bir həzz predmeti kimi istifadə etməyə daha çox meyillidir.

İkincisi, ətraf dünyanın sanki ona yükləmək istədiyi izafi maddiyyatdan – maddiyyat çirkabından da insan özünü geyim və xüsusən də ev vasitəsilə qoruyur, ev və geyim mühitin tullantılarının insanın cismani varlıq sərhədləri daxilinə sanki tullantıların atılması üçün nəzərdə tutulan bir qab kimi yükləməsindən insanı mühafizə edə bilir.

Ev və geyimin üçüncü funksiyasının birinci və ikinci altfunksiyalarının şərhindən də göründüyü kimi, ev və geyim insanı onun bədənindən və bəlkə də bütün cismani

varlığından sui-istifadə olunmasından, onu həmçinin materiya baxımdan da bu və ya digər dərəcədə qoruyur.

Üçüncüsü, ev və geyim mühitdə daşınan, lakin insana mənsub olmalı olan maddi sərvətlərin insan tərəfindən mənimsənilməsini asanlaşdırır.

Və nəhayət, dördüncüsü, ev və geyim, ilk baxışda bir qədər kobud və hətta bir qədər bayağı səslənsə də, insanın özündən ayırmalı olduğu maddiyyatın ətraf dünyaya ətraf dünyanı çirkləndirmədən ötürülməsini asanlaşdırır.

Ümumiyyətlə götürüldükdə, ev və eləcə də geyim mühiti antropogen çirkabdan – insan fəaliyyəti nəticəsində mühitə yüklənən izafi enerjidən, izafi informasiyadan və izafi maddiyyatdan müəyyən dərəcədə olsa da müdafiə edir.

Lakin ev və geyim ilk növbədə, təbii ki, mühitin insan tərəfindən sui-istifadə olunmasının qarşısının alınmasına deyil, insanın mühit tərəfindən sui-istifadə olunmasının qarşısının alınmasına təyinatlıdır.

Ev və geyim insanın mühit tərəfindən sui-istifadə olunmasının, obyekt tələbatların ödənilmə vasitəsinə çevrilməsinin qarşısını bu və ya digər dərəcədə almaqla yanaşı, həm də insanın özünün subyekt tələbatlarının ödənilmə vasitəsi və şəraiti kimi də çıxış edir, insanın daxili inkişaf təmayüllərinin gerçəkləşməsinə şərait yaradır. Ev və geyim həmçinin elə bu səbəblərdən də insani mahiyyətin yalnız qorunub saxlanılmasına deyil, insani mahiyyətin həm də gerçəkləşdirilməsinə yönələn məkan statusunda çıxış etmiş olur.

**Adil ƏSƏDOV**
**Fəlsəfə elmləri doktoru,**
**AMEA Fəlsəfə İnstitutu**

# TƏSVİRİ SƏNƏT – MƏNƏVİ ZƏNGİNLİYİN CİSMANİ GÖSTƏRİCİSİ KİMİ

XÜLASƏ

Məqalədə təsviri sənət öz təşəkkülü və tarixi təkamülü baxımından bədii sözlə əlaqədə, ondan asılılıqda öyrənilir. Müəllifə görə, təsviri sənət uzun müddət gerçəkliyin ədəbi əsərdəki təsvirində buraxılan boşluqları doldurmağa xidmət edib. Boyaların hadisənin təsvirində reallıqla yanaşı mahiyyəti, insanın daxili aləmini təzahür etdirə bilməsi məqalədə xüsusilə önə çəkilir.

***Açar sözlər:*** Təsviri sənət, sənətkarlıq, bədii təsvir, rənglərin semantikası, mənəvi zənginlik

## FINE ARTS AS A PHYSICAL INDICATOR OF SPIRITUAL WEALTH

SUMMARY

In the article, the fine arts are studied in relation to and dependent on the artistic word in terms of its formation and historical evolution. According to the author, fine art has long served to fill in the gaps left in the description of reality in a literary work. In the description of the event, the essence of the colors, as well as their ability to express the inner world of man is emphasized in the article.

***Key words:*** Fine arts, craftsmanship, artistic description, semantics of colors, spiritual richness

Təsviri sənət özünün təşəkkülü və tarixi təkamülü baxımından əslində bədii sözə bir illüstrasiya olaraq meydana

gəlmişdir. Təsviri sənət gerçəklik təsvirinin proza tərəfindən buraxılmış boşluqlarını doldurur, reallığı mahiyyətdən qopub ayrılmadan doğan çirkabdan özünəməxsus bir şəkildə təmizləyir və bununla da prozanı əslində tamamlayır və üstəlik, prozadan fərqli olaraq, mahiyyətə bürünmüş gerçəklik barəsində danışmır, bu gerçəkliyi göstərir, bədii obrazı söz, dil və şüur asılılığından da xilas edir, mahiyyətə bürünmüş gerçəkliyin bədii sözdən daha əyani təqdimatını verir.

Təsviri sənətin ən ilkin tarixi təzahürü isə **rəsm**dir. Rəsm olmalı olanın, lakin olmayanın ən ibtidai də olsa, ən ilkin təsviri obrazını yaradır. Bu ibtidai obraz isə sonradan yaradılan bütün digər təsviri obrazların əsasını təşkil edir. Qobustanda qaya rəsmlərinə nəzər salın! Buranın hər yerində ilk növbədə, necə deyərlər, *heyvani üslub*un təzahürlərini görəcəksiniz. Ovçu həyatının simvolu, ovçu üçün dünyanın ən öncül hadisəsi, dünyanın, bəlkə də mahiyyəti bir qədər qəribə və sadəlövh görünsə də, ov heyvanıdır. Əgər ov heyvanı tükənibsə, deməli, ovçu həyatının sonu da yaxınlaşmaqdadır, dünya onun üçün öz mənasını itirməkdədir, mənasızlaşmaqdadır. Ovçu bir insan olaraq həyatına əsas ola biləcək mahiyyəti göz önündə görmək istəyir, dünyanı bütöv, mahiyyətinə bürünmüş şəkildə görməyi arzu edir, xüsusən, bu mahiyyətin itirilmə təhlükəsi yaranırsa.

Rəsm hər şeydən öncə qrafika nümunəsidir. Onun ən ilkin ifadəçilərindən biri isə qara rənglə haşiyələnən formadır. Burada sanki işıq azadlığının maddiyyatla məhdudlaşdırılmasına bənzər, ulduzların doğuluşunu xatırladan nəsə vardır. Maddiyyatın inkişafı, necə deyərlər, kimyəvi təkamül ulduzların səthində ləkələri yaratdığı kimi rəsmin də

sonrakı tarixi təkamülündə kontur xətlərinin cizgilərlə və ləkələrlə müşayiət olunması baş verir. Burada yalnız açıq, sözün geniş mənasında ağ fon üzərində tünd, yenə də sözün geniş mənasında qara rəng vardır. Ağ və qara rənglərin hər ikisi qarışıq və axromatik rənglərdir. Amma bunlar ağ və qara rənglər üçün ümumi olan, bəlkə də yeganə cəhətlərdir.

**Ağ** və **qara** rənglərin bütün digər xarakteristikaları isə əksdir. Ağ rəng işıq bütövlüyünün, nurun ifadəçisi olduğu halda, gündüzün aydınlığını xatırlatdığı halda, qara rəng nurunu, işığını itirmiş zülməti ifadə edir, gecəni və qaranlığı xatırladır. Ağ rəng işıqlı qüvvələri, Kainatın işıq başlanğıcını, qara rəng isə şər qüvvələri, Kainatın qaranlıq başlanğıcını ifadə edir. Ağ rəng idealın simvolu olduğu halda, qara rəng ideala bağlılığını itirən reallığın simvoludur.

Hər hansı bir hadisəni işıqlı boyalarla təsvir etmək onu ideal baxımından dəyərləndirmək deməkdir. Hadisənin qara boyalarla təsvir edilməsi isə onun mahiyyətə bağlılığını itirən reallıq baxımından qiymətləndirilməsidir.

Ağ rəng şəxsiyyəti, qara rəng kütləni ifadə edir. Heç də təsadüfi deyildir ki, şəxsiyyət sözünün ən ilkin epiteti *işıqlı*, kütlə sözünün ən ilkin epiteti isə *qara*dır. Ən qara gündə olan cəmiyyət odur ki, burada heç kəs öz təbii təyinatını gerçəkləşdirmir. Kütlə yalnız şəxsiyyətdə daşınan işığın, nurun əsasında təşkilatlandıqda, necə deyərlər, ağ günə çıxır.

Ağ günə çıxmış cəmiyyət odur ki, burada insanlar öz təbii təyinatlarına uyğun fəaliyyətlə məşğuldurlar. Kütlə nümayəndəsi öz tale yolunu, təbii təyinatını yalnız şəxsiyyətdə daşınan nurun işığında görə bilir.

Ağ rəng işığı, qara rəng kölgəni, ağ rəng himayəçini, qara rəng himayəyə möhtac olanı ifadə edir.

Ağ rəng fərəhin, qara rəng isə qəmin ifadəçisidir.

Ağ ən aktiv rəng olduğu halda, qara ən passiv rəngdir.

Ağ rəng kəskinliyi, itiliyi və müəyyən mənada sərtliyi, qara rəng isə yumşaqlığı ifadə edir.

Ağ rəng başlanğıcın simvoludur. Gəlinlik paltarı – ailə həyatının başlanğıcı, ümumiyyətlə, yeni bir həyatın yaranışını ifadə edir. Kəfən – axirətin başlanğıcı, qar – "isti cəhənnəm"dən qurtulan suyun yeni həyatının, kristallaşaraq gözəlləşməsinin başlanğıcıdır. Başlanğıcı ifadə edən ağ rəngdən fərqli olaraq, qara rəng sonu, matəmi ifadə edir.

Ağ rəng işığı, istiliyi dünyaya səpələməyin simvoludur. Qara rəng işığı, istiliyi özündə yığıb saxlamanın rəmzidir. Ağ rəng elə buna görə də ən soyuq, qara rəng isə ən isti rəngdir.

Ağ rəng ürəyiaçıqlığı, qara rəng isə xəsisliyi simvollaşdırır.

Ağ rəng aydınlığı ifadə etdiyi halda, qara rəng sirri, müəmmanı ifadə edir. Ağ sadəliyin, qara isə mürəkkəbliyin, dolaşıqlığın simvoludur.

Ağ rəng saflığı, bakirəliyi, xalisliyi, təmizliyi, yüngüllüyü təqdim etdiyi halda, qara rəng qarışıqlığı, çirkabı, ağırlığı təqdim edir.

Ağ rəng Səmanın sonsuzluqlarını və ənginliklərini yada saldığı halda, qara rəng torpağı yada salır.

Ağ rəng yüksəlişin, qara rəng enmənin ifadəçisidir.

Ağ rəng mənəviliyin, qara rəng maddiliyin, maddiyyatın ifadəçisidir.

Rəsmçi öz təxəyyülündə canlandırdığı ideala tünd, sözün geniş mənasında, qara rənglə sanki maddi məzmun verməyə çalışır.

Lakin, bütün bunlarla yanaşı, ağ və qara rənglərlə təqdim olunan təsviri sənətdə bədiilik azdır, ifadəlilik yox dərəcəsindədir. Burada idealın obrazı vardırsa da, bu obraz ifadəli olmadığından hələ ki, sözün tam mənasında *bədii obraz* statusunu kəsb etməmişdir. Obrazın bədiiləşdirilməsi, zərifləşdirilməsi, ifadəliləşdirilməsi incəsənətin, daha dəqiq və daha konkret deyilərsə, təsviri sənətin sonrakı inkişafında baş verir. Təsviri sənətin inkişafında ideal təqdimatının bədiiliyinə ehtiyac daha çox hiss edildikcə və gücləndikcə rəsmdən rəngkarlığa, rəsmçilikdən rəssamlığa keçid baş verir. Əslində məhz rəngkarlıq təsviri sənəti bir peşəyə çevirir.

Hadisəyə rəng vermək onu bəzəmək deməkdir. Təsviri sənətdə də belədir. Rənglər rəsmi bədiiləşdirir, ona işıq çalarları və bununla, müəyyən mənada, həyat verir, onu canlandırır. Rəngkarlıq[5] idealı daha bədii, daha obrazlı və həm də daha aydın bir şəkildə təqdim edir.

Rəng sanki materiya tərəfindən ədalətsiz olaraq həbs olunan işıq zərrəciklərini materiyanın əsarətindən xilas edir. Materiya zülmündən azad olan işığın zəif və kövrək də olsa, ilk parıltısı isə **bənövşəyi** rəngdir.

Lakin bənövşəyi rəngin simvollaşdırdığı azadlıq fərəh doğuran azadlıqdan daha çox, məyusluq doğuran azadlıq-

[5] *Rəngkarlıq* termini müasir sənətşünaslıqda daha çox işlədilən *boyakarlıq* termininə nisbətən daşıdığı mənanı daha dəqiq ifadə etdiyindən, biz məhz bu termindən istifadə etməyə üstünlük veririk. – A.Ə.

dır, müəyyən mənada, şikəst azadlıqdır, müstəqil olaraq parlaq həyat sürə bilənin azadlığı deyildir, himayəyə möhtac olanın zorla azadlığa buraxılmasıdır. Bənövşəyi, elə buna görə də yeni həyatın ilk kövrək sevincini ifadə etsə də, *boynu bükük bənövşə*nin, doğuluşundan az sonra ölümə məhkum olanın simvoludur.

Sənətşünaslıqdan bir fakt. Bənövşəyi qarışıq rəngdir, üç xalis rəngdən ikisinin – qırmızının və göyün qarışığıdır.

Xalis rənglər arasında aralıq mövqe tutan sarı rəng bənövşəyidə təmsil olunmamışdır. Bənövşəyi rəng, görünür, elə bu səbəbdən də bir-birinə daxili ehtiyac hiss edən əksliklərin vəhdətini deyil, daha çox zahiri zərurətin hökmü ilə əlaqələndirilmiş, zorla yanaşı qoyulmuş əksliklərin yanaşılığını ifadə edir.

Bakı gecələrinin romantikasına nəzər yetirirsinizmi?! Parlaq göy rənglə parlaq qırmızı rəng harada yanaşıdırlarsa, orada füsunkar, gözoxşayan bir gözəllik yaradırlar. Qaranlığa bürünmə ərəfəsində olan Moskvanı xatırlayın. Kremlin təzəcə yandırılmış qırmızı ulduzları hələ ki, maviliyini itirməmiş səmanın fonunda necə də gözəl görünür.

Bənövşəyidə isə göy və qırmızı əksliklər bir-birini tamamlamır, əksinə bir-birini kölgədə qoyur.

Bənövşəyi, qırmızıdan fərqli olaraq soyuq rəngdir. Lakin bənövşəyidə göy üçün səciyyəvi olan soyuqluq varsa da, bənövşəyi göy rəngin ifadə etdiyi mükəmməl azadlığı, azadlıq əzmini ifadə etmir.

Bənövşəyi həmçinin, qırmızı rəng üçün səciyyəvi olan cəhətləri də parlaqlığı ilə büruzə vermir, qırmızı rəngin

ifadə etdiyi etiraz hissini, üsyan yaşantısını, inqilabi coşqunluğu da ifadə etmir.

Bənövşəyi öz içərisində yaşatdığı əksliklərin hər birindən fərqli olaraq, hər cür əzmkarlıqdan məhrumdur, yazıqlıq ifadəçisidir, həzin bir musiqiyə bənzəyir. Şən, yüngül musiqinin rəngi qırmızı, ciddi, ağır musiqinin rəngi göy, həzin musiqinin rəngi isə bənövşəyidir.

Bənövşəyidə çuğlaşan əksliklərdən hər biri – **göy** də, **qırmızı** da fəaldır. Lakin göy və qırmızı ayrı-ayrılıqda bir-biri ilə əkslik təşkil etdiklərindən onlar üçün ümumi görünən fəallıq əlaməti də yalnız kontrast cəhətlərlə səciyyələndirilə bilər. Bu kontrast cəhətlər hansılardır?

Göy rəngin fəallığı iş görmək üçün fəallıqdır, yaradıcı azadlığı ifadə edir, həyatın atası hesab edilən Səmanı xatırladır, maskulin, daha dəqiq deyilərsə, patriarxal təbiətlidir. Qırmızı rəngin fəallığı isə inqilabçı fəallığıdır, cəmiyyətin, həyatın, dünyanın onun üçün hazırladığı məşğuliyyət növündən, işdən, roldan və funksiyadan imtina edənin fəallığıdır, dağıdıcı azadlığı ifadə edir, odu xatırladır.

Göy rəng sülhü, daxili həyat meyillərinin zahiri nizama tabe etdirilməsini, müstəqilliyin muxtariyyat çərçivəsinə salınmasını, boğulmuş, qandallanmış həyati meyillərin nisbi azadlığını, zahiri nizama tabe etdirilməsini, qırmızı rəng isə müharibəni, daxili həyati meyillərin zahiri nizamdan azadlığını, muxtariyyata sıxışmayan müstəqillik əzmini, qandallardan azad edilmiş daxili enerjinin sərbəstliyini ifadə edir.

Göy rəng rənglərin ən acısı, qırmızı rəng isə ən şirinidir.

Göy rəng materiya və qaranlıq üzərində işığın üstünlüyünü və nəzarətini ifadə etdiyi halda, qırmızı rəng materiyadan tamamilə qopub ayrılmaq istəyən işığı simvollaşdırır.

Göy himayəçini, dayağı, güvənc yerini ifadə edir, sakitləşdiricidir. Polis və əsgər geyimlərinin əksər hallarda göy rəngdə olduğuna diqqət yetirirsinizmi? Polis də, əsgər də müdafiəçidir, himayəçidir. Kənd evləri bir çox hallarda göy rənglə boyanır, görünür, kəndli üçün ev hər şeydən öncə müdafiə vasitəsi olduğu üçün. Himayəyə möhtac olan kəs ətrafını göy rəngdə görmək istəyir.

Göy rəngdən fərqli olaraq, qırmızı – mübarizəni və rəqabəti ifadə edir, oyadıcıdır və narahatedicidir.

Göy rəng sırasında *rənglərin birincisi* olan ağdan sonra, qırmızı rəng isə *rənglərin sonuncusu* olan qaradan əvvəldir. Ağ, öz bol işığının bir hissəsini dünyaya bəxş edərək göyərir, qırmızı öz işığını, enerjisini bütövlükdə itirərək qaralır.

Qırmızı rəng insanın ölümqabağı rəng-ruha gəlməsini xatırladır.

Göy və ağ rənglər ən yaxın olduqları üçün bir-birlərinə çox yaraşırlar, qırmızı rənglə qaranın yanaşı durması da, həmçinin, obrazlı deyilərsə, səsləşir. Əks rənglər (göy və qırmızı) bir-birlərinə yaraşdıqları kimi, rənglərin yanaşı olanları da (ağ və göy, qırmızı və qara) bir-birlərini müəyyən mənada tamamlayırlar. Lakin elə rəng cütləri də göstərilə bilər ki, onlar bir-birlərini mütləq mənada tamamlayırlar.

Sənətşünaslığın aşkar etdiyi bir qanunauyğunluq: Hər bir rəngə qarşı *əlavə boya* adlandırılan elə bir rəng qoyula bilir ki, bu boya onunla qarışdırıldıqda işıq bütövlüyü tamamlanır, ağ rəng alınır. Bu hadisə bir məntiqi qanunauy-

ğunluqla da müqayisə edilə bilər. Məntiq *kontrar* və *kontradiktor anlayış* terminləri vasitəsi ilə maraqlı bir təfəkkür hadisəsini təsvir edir. *Kontrar anlayışlar* – əks anlayışlardır. Lakin bu anlayışlar arasında aralıq elementlər də vardır: məsələn, soyuq və isti anlayışları. *Kontradiktor anlayışlar* isə – zidd anlayışlardır, onlar arasında aralıq elementlər yoxdur: məsələn, soyuq və qeyri-soyuq anlayışları. Məntiqin *kontrar anlayış* termini ilə ifadə olunan hadisəsi boyakarlığın *kontrast rənglər* termini ilə ifadə olunan hadisəsinə son dərəcə bənzəyir. Məntiqin *kontradiktor anlayış* termini ilə ifadə olunan hadisəsi isə boyakarlığın *əlavə boya* termini ilə ifadə olunan hadisəsinə bənzədilə bilər. Kontrast rənglər bir-birinə yaraşdıqları halda, boya və əlavə boya bir-birini tamamlayırlar. Estetik baxımdan kontrast rənglər bir-biri ilə qarşı qoyulmanı tələb etdiyi halda, boya və əlavə boya bir-biri ilə yanaşı qoyulmanı tələb edir.

Qayıdaq kontrast göy və qırmızı rənglərin müqayisəli təhlilinə. Göy rəng rənglərin ən yüksəyindən – ağdan bir qədər aşağı, qırmızı isə rənglərin ən aşağıda olanından – qaradan bir qədər yuxarıdır. Lakin həm ağ və göy, həm də qara və qırmızı rənglər arasında, əlbəttə ki, keçid rəngləri də vardır.

Ağ və göy arasındakı rənglərin göyə ən yaxın olanı **mavi**, ağ və qırmızı arasındakı rənglərin qırmızıya ən yaxın olanı isə **çəhrayı**dır.

Mavi rəng soyuq, çəhrayı isə isti rəngdir. Mavi rəng maskulin tipli olduğu halda, çəhrayı rəng feminin tiplidir, sədaqəti, məhəbbət duyğusunu, özünütəslimə müntəzir olmanı ifadə edir. Çəhrayıda işıq materiyaya yarınmaq istəyir.

Bəs göy və qırmızı əkslikləri arasında aralıq mövqe tutan hansısa bir rəng varmı? Müəyyən mənada, bəli, vardır. Göy və qırmızı rənglərinin əlaqələndiricisi kimi **yaşıl**, **sarı** və **narıncı** rənglər təqdim edilə bilər. Yaşıl sarı ilə göy arasında aralıq mövqe tutduğu halda, narıncı sarı ilə qırmızı arasında mövqe tutur.

Öncə xatırladılan başqa bir qarışıq rəngdən – bənövşəyidən – fərqli olaraq yaşıl və narıncı rənglərdə kontrastdan daha çox ortabablıq vardır. Çünki onların hər ikisinin substratlarından birini təşkil edən sarı rəng özündə bir ortabablıq daşıyır.

Sarı bir xalis rəng olaraq göy rəng ilə qırmızı rəng arasında mövqe tutur. Lakin sarı, göy və qırmızı rənglərinin, əlbəttə ki, heç də qarışığından da ibarət deyildir. Əgər qırmızı rəng işığın materiyadan coşqunluqla, nümayişkarcasına qopub ayrılmasını ifadə edirsə, sarı işıq başlanğıcını itirməkdə olan və bununla da solğunlaşan materiyanı ifadə edir.

Sarı əslində o səbəbdən ayrılıq rəmzidir ki, sarının timsalında materiya işıqdan qopub ayrılmağa başlayır. Sarı isti rəng olsa da, xəstəliyi ifadə edir.

Xəstəliyin rəmzi olan sarıdan fərqli olaraq, yaşıl ona görə sağlamlığın rəmzidir ki, itirdiyi işığı kənardan davamlı olaraq aldığı işıqla kompensasiya edən materiyanın ifadəçisidir. Yaşıl itirdiyi işığı kənardan aldığı işıqla kompensasiya edən materiyanı ifadə etdiyi halda, narıncı rəng daxilində saxladığı bütün işığını, nurunu itirdiyi işığın ardınca qoşan materiyanı ifadə edir.

Yaşılın timsalında işıq materiyanı daxilindən hərəkətə gətirir, ona həyat verir.

Yaşıl Göylə Yer arasında, işıq və qaranlıq arasında harmoniyanı ifadə edir. Maskulin və feminin başlanğıclarının tarazlığıdır. Sakitləşdiricidir. Çəməni xatırladır.

Yaşıl materiyanı yüksəldən işığı ifadə etdiyi halda, narıncı materiyadan üz döndərən, materiyadan qopub ayrılmaq istəyən işığı ifadə edir.

Qəbul etdiyi, daşıdığı və itirdiyi işıq miqdarını özü tənzimləyən yaşıl rəngdən fərqli olaraq, narıncı belə bir tənzimləmə qabiliyyətindən məhrumdur, daşıdığı işıq miqdarını tənzimləmədən itirməkdədir.

Yaşıl da, narıncı da qarışıq rənglərdir. Lakin, onlar iki xalis rəngin qarışığıdır. Xalis rənglərin hər üçünün – göyün, sarının və qırmızının – qarışığından isə **boz** və **qəhvəyi** rəng meydana çıxır. Boz rəngin göy fonda sarımtıl, qırmızı fonda isə yaşıl kimi görünməsi də elə bununla, onun aralıq rəng deyil, qarışıq rəng olması – qırmızının, sarının və göyün qarışığı olması ilə əlaqədardır. Lakin, boz və qəhvəyi rənglərin qarışıq rəng olması daha çox axromatik ağ və qara rənglər vasitəsilə baş verir. Boz-ağ və mavi arasında, qəhvəyi isə – qara və çəhrayı arasında mövqe tutur. Ağ rəng həyatın başlanğıcını, qara rəng sonunu, aralıq rənglər isə həyatın müxtəlif parlaqlıq səviyyələrini ifadə etdikləri halda, boz rəng ortabab sönük həyatı ifadə edir. Boz – ortabablığın, deməli ki, adiliyin, prozaikliyin, daimiliyin, bulanıqlığın, tutqunluğun, dumanlılığın, mübhəmliyin, ifadəçisidir. Boz rəng çirklənmiş ağ təəssüratını yaradır, ideala köklənməyən həyatı xatırladır, uğursuzluqla başlayan və elə uğursuzluqla da davam edən sönük həyatı ifadə edir. Qəhvəyi rəng isə ölümdən sonranı, çürüntünü xatırladır, hə-

yat üçün təyinatı üzrə istifadə oluna bilməyən materiyanı, işığın öz nəzarətində olan dünyadan sıxışdırıb çıxardığı materiyanı ifadə edir.

Aralıq rənglər rənglərin ən ətirliləri olduqları halda, qəhvəyi onların ən üfunətlisi, boz isə ən ətirsizidir.

Amma boz ətirsiz olsa da, hələ ki təzə olanın, qəhvəyi isə artıq köhnələnin simvoludur. Boz rəng üçüncü bir axromatik rəngdir, parlaqlığını itirən ağdır, ağ və qara rənglərin mexaniki qarışığıdır.

Ağ və qara rənglərin kontrastı ovçu həyatının ilkin ifadəçisi olduğu halda, ağ və qara rənglərin mexaniki qarışığı olan boz rəng əkinçi həyatının, aralıq rənglər isə şəhərli həyatının, ilkin ifadəçisidir.

Rəngkarlıq idealın bədiiləşdirərək təqdimatını verir, lakin bunu daha çox ideal formanın proyeksiyası vasitəsilə edir, formanın özünü bütün dolğunluğu ilə vermir.

Formanın bütün dolğunluğu ilə təqdim olunması vəzifəsi isə heykəltəraşlığın üzərinə düşür. Gözəl forma şax formadır, burada, necə deyərlər, əziklik, üzüklük, sallanma, sallaqlıq yoxdur, nə ön planda, nə də arxa planda.

Heykəl, elə insan bədəni də, poetik də ola bilər, prozaik də, faciəvi də ola bilər, komik də, və eləcə də dramatik də. Amma onların heç də hamısı ideal ifadəçisi deyildir. Yalnız poetik məzmunlu heykəllər ideal ifadəçisi ola bilirlər.

Ümumiyyətlə götürüldükdə, heykəl tarix meydanına bir kult vasitəsi olaraq, deməli ki, bir həyati poeziya ifadəçisi kimi çıxmışdır. Bu səbəbdən də heykəltəraşlıq incəsənət sahəsi olmaqla yanaşı, həm də sözün geniş mənasında

dini məzmuna malikdir. Hesab etmək olar ki, heykəltəraşlığın doğuluşu, ilk növbədə, bütpərəstliklə bağlıdır.

Heykəl, ümumən məlum olduğu kimi, təkcə səthi deyil, eyni zamanda, həcmi və dərinliyi, hətta bəzən hərəkəti də verir. Lakin dinamiklik heykəli daha həyati, daha canlı, daha qratsiyalı, daha məlahətli etsə də, heykəldə ifadə olunan hərəkət, hər halda, həyat deyildir. Heykəltəraşlıq bir incəsənət olaraq ideal obrazı həyatla deyil, materiya ilə doldurararaq təqdim edir. Heykəldə idealın ən əyani təsviri varsa da, burada işıq, necə deyərlər, materiyanın əsiridir. Poeziyadan başlayan estetik təfəkkür heykəltəraşlıqla o səviyyəyə yetişir ki, insan insana bir canlı varlıq olaraq hökm edə bilmədiyi üçün, daşlara, bir sözlə cansız təbiətə hökm edir.

İnsan ideal obrazın maddi məzmununu həyati məzmunla əvəzləmək istərkən isə artıq, ümumiyyətlə, incəsənətin sərhədlərindən kənara çıxır. İnsan, təsvirin canlandırılmasına daha çox ehtiyac hiss etdikcə tədricən incəsənətin sərhədlərini aşır. İncəsənət idealın, yəni olmalı olduğu halda olmayanın əyani təsvirinin yaradılması ilə öz həyatını başa çatdırır. İncəsənət öz tarixi təkamülünü heykəltəraşlıq olaraq, ümumi halda deyilərsə, təsviri sənət olaraq tamamlayır. Təsviri sənət gələcəkdə yaradılmalı olanın sanki eskizini qurur, layihələndirir. Təsviri sənət bir incəsənət nümunəsi olaraq ideal dünya ilə real dünya arasındakı fərqin bir hiss olaraq yaşanmasından, ideal dünya üçün həsrət duyğusundan doğulur və həmin bu həsrəti də ifadə edir. Lakin təsviri sənət incəsənətin bir çox digər növlərindən fərqli olaraq ideal dünya həsrətini əyani olaraq təqdim edir. Təsviri sənət incəsənət növləri içərisində əyanilik baxımından yalnız rəqslə müqayisə

oluna bilər. Əgər rəqs idealın ən görünüşlü hərəki təqdimatıdırsa, təsviri sənət idealın ən görünüşlü sükuti təqdimatıdır. Əgər təxəyyül həqiqi həyata deyil, onun zahiri təzahürü olan hərəkətə başlanğıc verməklə rəqsi törədirsə, həqiqi həyatın donmuş bir anını göstərməklə təsviri sənəti doğurur.

Rəqs çox zaman musiqi sədaları altında baş verir. Təsviri sənətin özü də bəzən musiqinin təsiri və təhriki altında formalaşır. Rəssam çox zaman öz əsərini dodağında nəsə zümzümə edə-edə yaradır. İnsan öz hissiyyatını ürək ritmikasının səs dalğalarında imitasiyası vasitəsilə təqdim edirsə, musiqinin, ideal dünya obrazı şəklində təqdim edirsə isə, təsviri sənətin başlanğıcını qoyur.

İncəsənət, ümumiyyətlə idealı bədii obrazla əvəzləyir. İdealın duyulması – estetiklikdir, idealın təsviri – bədiilikdir. Bədiilik – janr məntiqindən məharətlə istifadə ilə bağlıdır: Əgər subyektiv duyğular sənət əsərinə romantiklik və estetiklik verirsə, janr məntiqi ona bədiilik verir. Janr məntiqi, elə bu səbəbdən də müəllifin subyektiv duyğuları ilə yanaşı mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, hər bir sənət əsəri müəllifin subyektiv duyğularından, janr məntiqindən və əsərin obyekti, yəni potensial oxucusu və ya tamaşaçısı içərisində daşınan irrasional meyillərin mənalandırılmasından bəhrələnir. Bunlardan hər hansı biri yoxdursa, bədii əsər də əslində yoxdur. Bədiiliyin ilkin ifadə formaları olan rəqs, musiqi və poeziya üçün müəllifin subyektiv duyğuları daha çox əhəmiyyətlidir, bəlkə də aparıcı mövqeyə malikdir, əsərin subyekti (müəllif) və əsərdə nəzərdə tutulan sosial fəaliyyətin subyekti arasında uyğunluq vardır. Bədiiliyin bir qədər sonrakı ifadə

formaları olan faciədə və dramda isə əsərin subyekti (müəllif) ilə əsərdə nəzərdə tutulan sosial fəaliyyətin subyekti arasında ziddiyyət mövcud olur. Bədiiliyin son ifadə formaları – komediya, proza və təsviri sənət üçün isə əsər obyektinin – oxucunun və ya tamaşaçının içərisində daşınan irrasional meyillərin mənalandırılması daha çox əhəmiyyət kəsb edir, əsərin subyekti (müəllif) kölgədə qalır, əsərdə nəzərdə tutulan sosial fəaliyyətin subyekti isə aparıcı olur.

Lakin, incəsənətin tarixi inkişafının heç bir mərhələsində, hətta prozada da müəllifin subyektiv duyğuları öz əhəmiyyətini itirmir.

Buraya onu da əlavə etmək istərdim ki, sənət müəllifin subyektiv duyğularını, əslində, o zaman ifadə etməlidir ki, bu duyğular təmizdir, yəni müəllifin öz içərisində, ürəyində daşıdığı ülvi arzuları, gerçəkləşdirilməsi ilə dünyanı gözəlləşdirəcək ideallarını ifadə edir. Belə olmadıqda, müəllif ustalığı, janr məntiqinin incəliklərinə müəllifin sahib olması, onun bədii məharəti idealı deyil, idealın tamamilə əksliyini, antipodunu da təqdim etmək üçün əsas verə bilər.

Rəqs janrının imkanlarını müəyyən qədər ustalıqla mənimsəmiş bir kəs bu imkanlardan sui-istifadə etməklə eybəcər hərəkəti, uğursuzluqla atılmış bir addımı da yamsılayaraq göstərə bildiyi kimi, klounada yaradıcısı ola bildiyi kimi, musiqi janrının imkanlarına bir qədər yiyələnmiş bir kəs bu imkanlardan sui-istifadə etməklə buffonada qurucusu da ola bildiyi kimi, poeziya janrının resurslarını əxz etmiş bir kəs bu resurslardan sui-istifadə edərək onları satira quruculuğuna tətbiq edə bildiyi kimi, dram janrının imkanlarına müəyyən qədər yiyələnmiş bir kəs bu imkanları komediya yaradıcı-

lığına yönəldə bildiyi kimi, proza janrının imkanlarına bir qədər sahib olan bir kəs bu imkanları lətifədə "gerçəkləşdirə" bildiyi kimi, təsviri sənətin imkanlarını da müəyyən qədər ustalıqla mənimsəmiş bir kəs də bu imkanlardan sui-istifadə edə bilir, onlardan karikatura quruculuğunda faydalanmaqla eybəcərliyi də təqdim edə bilir. Rəssam idealın ən gözəl bədii təsvirini də yarada bilir, karikaturasını da.

Onu da qeyd edim ki, təsviri sənət vasitələri ilə ifadə olunan karikatura, yalnız sözün dar mənasında karikaturadır. Sözün geniş mənasında karikatura qeyri-təsviri sənət vasitələri ilə də yaradılır. Yamsılama, klounada – rəqsin imkanları ilə təqdim olunan karikaturadır, hərəkətlə ifadə olunan karikaturadır, məlahətin karikaturasıdır. Buffonada – musiqinin imkanları ilə ifadə olunan karikaturadır, melodik karikaturadır, bəlkə də melodiyanın karikaturasıdır. Satira – poeziyanın imkanları ilə ifadə olunmuş karikaturadır, lirikanın karikaturasıdır. Komediya – dramın imkanları ilə ifadə olunmuş karikaturadır, faciənin karikaturasıdır. Lətifə – prozanın imkanları ilə ifadə olunmuş karikaturadır, həqiqi həyatın karikaturasıdır. Sözün dar mənasında karikatura isə təsviri sənətin imkanları ilə ifadə olunmuş karikaturadır, portretin və mənzərənin karikaturasıdır. Gerçəkliyin təqlidi, buffonad, komedik, parodik, karikatur təqdimatları onun xoreoqrafik, melodik, poetik, dramatik və təsviri təqdimatlarına bir karikaturadır. Gerçəkliyin prozaik və təqlidi təqdimatı bu əksliklər arasında mövqe tutur. Prozaik və təqlidi təqdimat poetik təqdimatdan fərqli olaraq gerçəkliyi yalnız ideal və mahiyyət baxımından deyil, indi həm də və bəlkə də daha çox *reallıq* və təzahür baxımından səciyyələndirir.

**Tahirə MƏMMƏD**
**Filologiya elmləri doktoru, professor**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

# POEZİYADA MİLLİ KİMLİK PROBLEMİNİN VƏTƏNÇİLİK VƏ MİLLİ BİRLİK İDEALLARI İLƏ İFADƏSİ

XÜLASƏ

Şəxsi kimlik bir fərdin özünəməxsusluqlarının məcmusu olduğu kimi, milli kimlik də hər hansı bir millətin, xalqın özünə xas xüsusiyyətlərini ehtiva edir. Bədii yaradıcılığın ideya-estetik məzmununda, əsərin struktur komponentlərində milli kimlik müxtəlif səviyyə və üsullarla ifadə olunur. Üsul və vasitələrin formalaşmasında ədəbiyyatın kontekst şərtləri, xüsusilə yazıçının yaşadığı siyasi rejim mühüm rol oynayır.

Müəllifin əsərlərindəki vətənçilik şüurunun və milli birlik idealının mövcudluq səviyyəsinə, ifadə üsullarına aydınlıq gətirilməsi milli kimliyin müəyyənləşməsi baxımından əhəmiyyətlidir. Tədqiqat bu problemə həsr olunmuş və araşdırma üç əsas istiqamətdə aparılmışdır:

– Şimali Azərbaycan ədəbiyyatında cənub mövzusu;

– Cənubi Azərbaycan ədəbiyyatında milli kimlik mücadiləsi;

– Türkçülük, turançılıq idealının təbliği və tərənnümü kontekstində milli kimlik problemi.

***Açar sözlər:*** milli kimlik, siyasi rejim, ədəbi-estetik, Təbriz, Altay, vətən, şeir

## EXPRESSION OF NATIONAL IDENTITY PROBLEM IN POETRY WITH IDEALS OF PATRIOTISM AND NATIONAL UNITY

SUMMARY

Just as identity is a compilation of an individual's singularities, national identity also includes the national characteristics of any nation or people. The national identity is expressed in the ideological and aesthetic content of artistic creativity, in structural components of the work in different levels and methods. The contextual conditions of literature, especially the political regime in which the writer lives, play an important role in formation of methods and means.

Clarification of the level of existence and expression of patriotic consciousness and ideals of national unity in the author's works is important in terms of national identity. The article is dedicated to this problem and three main areas of research are explored:

– Southern theme in North Azerbaijani literature;

– National identity struggle in South Azerbaijani literature;

– The problem of national identity in the context of promoting and glorifying the ideal of Turkism and Turanism.

***Key words:*** national identity, political regime, literary-aesthetic, Tabriz, Altai, homeland, poetry

## ПРОБЛЕМЫ НАЦИОНАЛЬНОЙ САМОИДЕНТИФИКАЦИИ В ПОЭЗИИ

### (самоидентификация, выраженная патриотизмом и идеалами народного единства)

РЕЗЮМЕ

Как известно, самоидентификация является совокупностью определенных черт личности. Национальная же самоидентификация отражает характерные черты какого-ли-

бо народа. Она находит свое отражение в идейно-эстетическом содержании художественного произведения, в его структурных компонентах, что происходит на разных уровнях и с применением специфических средств. Формирование методов творчества и средств выражения связано с контекстуальными положениями литературы и, в первую очередь, с особенностями политического строя, при котором живет и творит художник.

Сила чувства родины, идеалов народного единства автора, приемы, с помощью которых они отражены в его творчестве, нуждаются в уточнении. Это необходимо для выявления национальной самоидентификации. Именно данной теме посвящена статья, в которой доминируют три направления:

– тема Южного Азербайджана в творчестве поэтов Северного Азербайджана;

– борьба за национальную самоидентификацию в литературе Южного Азербайджана;

– проблемы национальной самоидентификации в контексте пропаганды идеалов пантюркизма и туранизма.

***Ключевые слова:*** национальная самоидентификация, политический режим, литературно-эстетическое, Табриз, Алтай, родина, стих

Milli kimlik hər hansı bir millətin özünə xas dilini, adət-ənənələrini, mədəniyyətini, milli xüsusiyyətlərini ehtiva edir. Bu mənada, sadalanan cəhətlərin hamısının və ya bir neçəsinin yaradıcılıqda inikası bədii sənətdə milli kimliyin ifadəsi kimi dəyərləndirilə bilər. Bu da məlumdur ki, yazıçı yaşadığı siyasi rejimdən asılı olaraq, mənsub olduğu milli kimliyi fərqli səviyyə və üsullarda ifadə edir;

problemin həlli xüsusi "oxunuş" tələb edən poetik sistem formalaşdırır. Müstəqil dövləti və ya milli kimliyini rahat ifadə edə biləcəyi mühiti olan müəlliflə, bu sahədə maneələrlə rastlaşan müəllif yaradıcılığı bir-birindən fərqlənir; Onların əsərləri milli kimliklə bağlı gerçəkləri təqdim etmə, faktları işləmə metoduna görə özünəməxsusluqlar qazanır.

Azərbaycanlıların tarixən müxtəlif siyasi rejimlərdə yaşaması, iki əsrə yaxın müstəmləkə təzyiqlərinə məruz qalması, qadağalar şəraitində milli duyğuların, istəklərin çatdırılması üçün müvafiq estetik işarələrin axtarılıb tapılması ədəbiyyatımızın poetik semantikasını araşdırılan problemlə bağlı xeyli zənginləşdirmişdir. XIX əsrdən başlayaraq müstəmləkəçi güclərə qarşı tənqidi eyham, rəmzlərlə, mətnaltı məzmunla azadlıq, müstəqillik ideallarının tərənnümü ədəbiyyatımızın spesifik keyfiyyətləri sırasına daxil olmuşdur. Bu tip mətnlər öz sirrini qəlibləşmiş forma və məzmun standartları ilə açmır; onların öyrənilməsində struktur-semantik, sosial-psixoloji dəyərləndirmənin, yeni nəzəriyyələrin və texnologiyaların tətbiqi artdıqca daha dərin qatlara enmək imkanı əldə edilir.

SSRİ-nin yaranması ilə siyasi rejim basqısının bir qədər də güclənməsi, bolşevik diktaturasının milli kimliklə bağlı bədii təzahür imkanlarını nəzarət altına alması sənətdə təsirlə bərabər əkstəsirə, müqavimətə də yol açır. Yaddaş qatlarının gizlinləri, fərdin və xalqın sahib olduqlarını qoruma instinkti (həm də bunu şüurlu şəkildə istəmələri), qadağalara müqavimət tələbatı əsərlərin həm forma, həm də məzmun komponentlərində örtülü üsullarla da

olsa, özünə yol tapır. Ədəbiyyatı, sənəti təbii axarından çıxaran "formaca milli, məzmunca sosialist" tələbi, əslinə qalsa, milli kimliyi ideyadan, idealdan, müəllif mövqeyindən və s. kimi məzmun komponentlərindən uzaqlaşdırmağa xidmət edirdi; süni məzmuna yönləndirmə isə formanı daxildən, nüvədən dağıtmağa, pozuculuq proseslərinə stimul yaradırdı. Beləliklə də, sovet ədəbiyyatı milli kimliyini qoruyub saxlamağa çalışan şair və yazıçılarla siyasi rejim arasındakı gərgin münasibətdə meydana gələn yaradıcılıq hadisəsi kimi milli kimliklə bağlı məzmununu kodların açılması ilə büruzə verir.

Sosialist realizminin "formaca milli, məzmunca sosialist" prinsipi son dərəcə ziddiyyətli mahiyyətdədir; kommunist partiyasının ideoloqlarının rəhbərliyi ilə "milli" anlayışına bəlli resept təyin edilməklə onun sosialist məzmuna uyğun gəlməyən tərəflərinə məhdudiyyətlər qoyulurdu. Formaca milli dedikdə, əsasən doğma dildə yaradıcılıq nəzərdə tutulur və siyasi rejimin icazə verdiyi səviyyədə xalqın məişəti, doğma təbiətin təsviri, sadə folklor ənənələri əsərdə yer alırdı. Milli məzmunu özündə dərinliyinə strukturlaşdıran modellər, adət-ənənə, genetik dəyərlərlə bağlı forma isə ideoloji baxımdan arzuedilən deyildi. Bu mənada, formaca milli, məzmunca sosialist tələbi milli kimliyin qorunmasına yox, dağıdılmasına xidmət edirdi. Məzmun və forma sənətdə bir bütövün, tamın mövcudluğunu nümayiş etdirən, ikisi birlikdə var olan mühüm komponentlərdir. Məzmunun milliliyinə icazə verilmədiyi halda, forma hansı səviyyədə milli ola bilər? "Formaca milli, məzmunca sosialist" prinsipi zahiri mövcudluğun da daxildən da-

ğıdılmasına xidmət edən bir formuldur. Sovet ədəbiyyatı partiyalı ədəbiyyat olduğundan onun məzmunu da partiyanın irəli sürdüyü vəzifələrin təbliği ilə bağlı idi. Bu, ədəbiyyatdan yüksək səviyyədə sinfilik, ideoloji və siyasi mübarizə tələb edirdi. Milliliyi sıxışdırmaq üçün ona yaxın olan anlayışın – xəlqiliyin işlənmə tezliyi və nüfuz aktivliyi artırılmışdı; bununla, hisslərin axarı dəyişdirilir, guya ki, millilik də yaşadılırdı. Əslində isə yeni "xəlqilik" anlayışı millət-xalq yaxınlığından uzaqlaşdırılmışdı. Xəlqilik sinfilik şüuru ilə qavranılaraq siyasiləşir və ədəbiyyatda fəhlə-kəndli mənafeyinin ifadəsi kimi mənalandırılırdı. Lenin ədəbiyyat və xalq münasibətini belə izah edirdi: "İncəsənət xalqa məxsusdur. O, özünün ən dərin kökləri ilə geniş zəhmətkeş kütlələrin içərisinə getməli, kütlələrə aydın olmalı və onlar tərəfindən sevilməlidir. O, bu kütlələrin hiss və duyğularını, fikrini və iradəsini birləşdirməli, onları yüksəltməlidir. O, onların içərisində sənətkarlar yetişdirməli və onları inkişaf etdirməlidir" (18, 520). Xəlqilik partiyalılıqla sıx əlaqədədir. Çünki xəlqilik əgər xalqın aparıcı kütləsi kimi fəhlə sinfinin və onunla ittifaqda kəndlilərin mənafeyini nəzərdə tuturdusa, "Partiyalılıq prinsipi yazıçılardan hər hansı bir hadisənin qiymətləndirilməsində müəyyən ictimai qrupun, daha doğrusu inqilabi fəhlə sinfinin mövqeyindən açıq və aydın çıxış etməyi tələb edir. Sənətdə partiyalılıq həyat hadisələrinin sadəcə təsvirini yox, onların ictimai, siyasi və estetik mahiyyətini kommunizm idealı mövqeyindən bədii obrazlarda dərindən açıb göstərməyi nəzərdə tutur" (29, 18).

"Xalq partiyası" ideyasından inkişaf edib formalaşan kommunist partiyası kommunizmə gedən yolu inqilabi inkişafda görür və məqsədə də sosializmin "bütün cəbhə boyu hücumu" ilə nail olmağa çalışırdı. Cəbhə boyu hücumun əsas istiqamətlərindən biri mədəniyyət dəyişminə hesablanır və mədəni inqilab "keçmiş ənənəviləri" hədəf alanda bolşevizmə əngəl olan hər şeyin, o cümlədən "milli" genetik yaddaş, milli kimliklə bağlı mövcudluqların da devrilməsinə, dağıdılmasına xidmət edirdi. Belə olduğu halda, milliləşmə prosesi dayandırılır və xırda mənafeləri təmin olunan kütlə psixologiyası daha çox önəm qazanırdı; ideya və ideal zəifləyir, müəllif mövqeyini partiya tendensiyalılığı üstələyirdi. Kommunist partiyasının, bolşevizm diktaturasının icra etdiyi planlardan biri müttəfiq respublika xalqlarının, xüsusən də türklərin milliləşməsinin qarşısını almaq idi (Təsadüfi deyil ki, başqa xalqların yox, məhz sovet türk-müsəlman xalqlarının əlifbası dəfələrlə dəyişdirilmişdi. Bu, ilk baxışda sadə bir məsələ kimi görünsə də, böyük mədəniyyət dəyişimi və ənənədən uzaqlaşdırma planının bir şaxəsi idi. Həmin şaxələrdən "formaca milli, məzmunca sosialist" proqramının içərisinə çox yerləşdirilmişdi.). Bu halda milli kimliyin qorunması və ədəbiyyatda ifadəsində yaranan problemlər yazıçıdan xüsusi cəsarət və qabiliyyət tələb edirdi. Şair və yazıçılarımız milli kimliyin qorunması və təbliği üçün müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar ki, bunun da ən əsası doğma yurdun, Vətənin tərənnümü ilə mümkün idi. Sovet ədəbiyyatında, incəsənətində milliliyin qarşısı alınmağa çalışılsa da, sənətdə "partiyanın eşqiylə gülən" vətən tə-

rənnümünə yasaq yox idi. Bu, bir tərəfdən böyük vətənə, SSRİ-yə sevgi aşılayır, sosializmin "böyük rus xalqının öncüllüyü" ilə "geridə qalmış" yurdumuzun "çiçəklənməsinə" yaratdığı şəraiti sərgiləyir, digər tərəfdənsə, fəhlə-kəndli sinfinin, onlara yaxın olan və onların içindən çıxan ziyalı təbəqəsinin dağda, meşədə, bağda, tarlalarda, inşaatda, ucqar kəndlərdə və s. – tanış məkanda kommunizm quruculuğu uğrunda ruh yüksəkliyi ilə çalışmasına psixoloji stimul oyadırdı. Şair və yazıçılarımız bu təbliğ və tərənnüm içərisində, yeri düşdükcə, şüurlu və ya şüuraltı təlqinlərlə xalqa öz adət-ənənəsini, tarixini, milli kimliyini unutmamağı da aşılayırdı. Bu baxımdan Səməd Vurğunun "Azərbaycan" şeiri yaxşı nümunədir. Vətəninin bar-bəhərini, çölünü, çəmənini, regionlarını sanki tribunadan vəsf edən şair, kommunist partiyasının yurdun çiçəklənməsinə verdiyi töhfələri vurğulamağı "protokol tələbi" kimi şeirə yerləşdirmişdir:

Gözəl vətən! O gün ki sən
Al bayraqlı bir səhərdən
İlham aldın... yarandım mən
Gülür torpaq, gülür insan
Qoca Şərqin qapısısan...

Al bayraqdan ilham alıb yarandığını söyləyən şair sonuncu misrada Vətənini qoca Şərqin qapısı kimi səciyyələndirməklə, həm də mənsub olduğu millətin geniş və qədim Şərq dünyasının bir parçası olmasına eyham edir. Şairin niyyəti şeirin ard-arda gələn iki bəndi ilə əlaqədə daha açıq şəkildə üzə çıxır:

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır
Böyük bir keçmişin vardır
Bilinməyir yaşın sənin
Nələr çəkmiş başın sənin.

Düşdün uğursuz dillərə,
Nəs aylara, nəs illərə.
Nəsillərdən nəsillərə,
Keçən bir şöhrətin vardır.
Oğlun, qızın bəxtiyardır.. (30)

Şair Vətən və xalqı, tarixi paralelləşdirir, başı bulud və qarla örtülü dağların təsviri ilə qədim vüqarlı xalq arasında metaforik təsəvvür formalaşdırır, "böyük bir keçmişi", "nəsillərdən nəsillərə keçən bir şöhrəti" olan vətənin (paralel olaraq xalqın) "başının çəkdiklərinə", "uğursuz dillərə", "nəs aylara, nəs illərə" düşməsinə oxucu diqqətini yönəltməklə onu öz milli kimliyi istiqamətində arayışa, düşünməyə dəvət edir və milli kimlik duyğularını oyatmağa çalışır.

Səməd Vurğunun "Azərbaycan" şeirində müşahidə etdiyimiz mənzərə, əksər şairlərimizin yaradıcılığında xarakterik hal kimi özünü göstərir. Vaxt keçdikcə, sərt repressiya illərindən bir qədər də uzaqlaşdıqca ədəbiyyatda bu meyil daha da güclənir, Vətən və millət anlayışları arasında şəbəkəvari keçidlər daha da sıxlaşır. Bəxtiyar Vahabzadə, Məmməd Araz, daha sonralar Zəlimxan Yaqub kimi şairlərimiz milli duyğuların oyanmasına, milli kimliyin dərkinə öz yaradıcılıqları ilə dəstək verirlər.

Azərbaycan ədəbiyyatında, o cümlədən poeziyada milli kimliyin qorunmasına yönəlik bədii təzahürlər daha çox cənub mövzusuna həsr olunmuş yaradıcılıq nümunələrində özünü göstərir. Şairlərimiz cənubdan yazarkən həm vətənin, millətin parçalanması kimi böyük problemi ədəbiyyatda əks etdirir, həm də cənubluların məhrumiyyətlərindən söz açmaqla Şimaldakı acınacaqlı vəziyyətə də diqqət yönəldirdilər.

Eyni vəziyyətin – siyasi basqının təsiri altında milli kimliyin Vətən, yurd sevgisi və nostalji hisslərlə ifadəsi məsələsilə Cənubi Azərbaycan ədəbiyyatında da geniş şəkildə rastlaşırıq. Bu, Cənub şairlərinin yaradıcılığının xarakterik halı kimi formalaşmış və milli kimliyin qorunmasının mübarizə formalarından birinə çevrilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ədəbiyyatımızda ilk ideya-estetik canlanma milli kimlik istiqamətində baş verdi; bu həm məzmun, həm də formada özünü göstərməyə başladı. Azərbaycançılıq təkcə Vətən yox, həm də açıq-açığına millət, dövlət ideologiyası kimi ədəbiyyatda öz əksini tapdı. Repressiya nəticəsində qarşısı alınan türkçülük də yeni səviyyədə inkişafa başladı. “Bir millət, iki dövlət” rəmzi mənada Azərbaycan və digər türk respublikalarının birlik modelinə çevrildi. Ədəbiyyatda geniş türk coğrafiyası, qədim türk tarixi, ritual elementləri, mifologiya, adət-ənənə yenidən boy göstərməyə başladı; onların mövcudluq imkanlarına qoyulan çərçivələrin dağıdılması meyilləri artdı.

Ümumi xarakteristikasını verdiyimiz nəhəng prosesin franqmentlərlə izlənilib ümumiləşdirilməsi baxımından aşağıdakı istiqamətlərə nəzər salmaq əhəmiyyətlidir:

– Şimali Azərbaycan ədəbiyyatında cənub mövzusu;

– Cənubi Azərbaycan ədəbiyyatında milli kimlik davası;

– Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında türkçülük, turançılıq idealının təbliği və tərənnümü.

### a) Şimali Azərbaycan ədəbiyyatında cənub mövzusu

Azərbaycanın şimalında hələ sovet ədəbiyyatı dövründən vətənin bütövlüyü arzusu, cənub həsrəti şair və yazıçılarımızın yaradıcılığının aparıcı mövzuları sırasındadır. Bu, ilk baxışda sovet ədəbiyyatının xarakterik cəhətlərindən biri – vətən sevgisi ilə ideologiyanın təlqini (yuxarıda da qeyd etdiyimiz kimi, sovet ədəbiyyatında vətən sevgisinin və müdafiəsinin təbliği ədəbiyyatın əsas missiyalarından biri idi) kimi görünsə də, mahiyyətcə həm də milli birlik və milli kimlik davasının ədəbiyyatda əksi idi. Çünki əsərlərdə həm parçalanmış vətəndən bəhs olunur, həm də Arazın "o tayı"na həsr edilmiş nümunələrdə digər xalqların və bölgələrin yox, məhz Azərbaycan türklərinin, onlara məxsus olan vətənin, coğrafi məkanların həsrəti, düçar olduqları problemlər yer alırdı; hər iki bölgədən olan şairlərimiz bir-birlərinə qardaş deyə müraciət edib, nisgillərini dilə gətirirdilər. Sözsüz, bu qardaşlıq öz məzmununda ailə birliyini, tayfa qohumluğunu yox, milli birliyi ifadə edirdi. Cənubda isə vətən, millət ayrılığı, Şimal həsrəti ifadə edən əsərlər yalnız türk-azərbaycanlı müəlliflərin yaradıcılığında özünü göstərirdi. Bu mənada, hər iki bölgədə yaranan ədəbi nümunələr təkcə vətən birliyi idealını yox, həm də milli

kimlik şüurunu oyaq saxlamağa xidmət edirdi. Sovet ədəbiyyatının xəlqilik prinsipinin imkanları daxilində Şimali Azərbaycanda şair və yazıçılarımız adət-ənənələrimizin, milli mədəniyyətin, milli psixologiyanın, davranış normalarının, ədəb-ərkan qaydalarının mühafizəsinin qeydinə də qalırdılar ki, bunu da milli kimlik şüurunun qorunması kimi qəbul etmək olar. Eyni vəziyyəti, İran-Azərbaycan müəlliflərinin də yaradıcılığında müşahidə edirik.

Pişəvəri hərəkatından sonra Şimali Azərbaycana hicrət etmiş ədiblərimizin yaradıcılığı Cənub, eyni zamanda Şimali Azərbaycan ədəbiyyatının əsas qollarından birini təşkil edir. Cənubi Azərbaycan üçün onlar rejim əleyhinə mübarizə aparıb yurdlarını tərk edən mühacirlərdirsə, Şimalda Cənubun təmsilçiləri, həm də elə Şimali Azərbaycan ədəbiyyatının nümayəndələridirlər. Onların yaradıcılığında əksini tapan vətən həsrəti, xalqa sirayət edir və oxucuların yaşantıları bədii sözün təsir gücü ilə daha da inkişaf edərək vətəndaşlarda vətən və milli birlik idealının güclənməsinə yol açır. Vətən nisgili və ayrılıq mövzusunda yazılan şeirlərdə çox geniş yayılmış bir üsul – məkanın canlı qəbul edilməsi, onunla söhbət coğrafi ərazinin həm də xalq, topluluq kimi qavranılmasına imkan yaradır. Hökümə Billurinin "Təbriz" şeirindən bir parçaya nümunə kimi nəzər salaq:

Qollarım dolanar boynuna bir gün,
Yenə baş qoyaram dizinə, Təbriz.
Həsrətdən, hicrandan cana doymuşam,
Doyunca baxaram, gözünə Təbriz.

...Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni.
Səsləsəm Savalan eşidər məni,
Qızınnam oduna, közünə Təbriz (3).

Qeyd edək ki, Vətənin şəxsləndirilməsi, onunla dialoqda həsrətin, kədərin bölüşdürülməsi təkcə cənublu şairlərin yox, ümumiyyətlə mühacirətdə yaşayan müəlliflərin yaradıcılığı üçün xarakterik haldır. Azərbaycandan Türkiyəyə mühacirət etmiş Almas Yıldırımın şeirlərində olduğu kimi:

Yanarken "Sebayelde" her akşam yeşil mayak,
Yolumu senelerle bekleyen annem uyak,
Talihe bak, uzaklar yakın, yakınlar uzak,
Uzak dağlar ardından gel beni dinle Bakü ("Bakı")

Gönlüme tek Kâbe yaptım seni ben,
Sensiz ne'dem gurbet elde günü ben,
Sensiz ne'dem Allah'ı ben, dini ben…
Azerbaycan, benim tacım, tahtım oy!..
Uyanmaz mı kör olası bahtım oy!..
("Əsir Azərbaycanım")

Fırtınalı, boralısın,
Eski dertten yaralısın,
Soran olsa haralısın,
Söyle Türk'tür soyum Aras,
Sana olmaz doyum Aras…
("Arazla dərdləşmə") (1)

İstinad edilən misralar ədəbiyyatımızın ənənəvi aşiq-məşuq modeli üzərində qurulmuş, aşiqin hicrinə tab gətirmədiyi varlıq (məşuq) qovuşmaq istədiyi sevgili yox, zorla uzaq düşdüyü vətəndir, başqa bir tərəfdənsə parçalanıb ayrı düşən vətən torpaqları, xalq birlik üçün yanıb tutuşur. Ədəbi modeldə yaşanan transformasiya lirik duyğulara sosiallıq da əlavə edir və burada nisgil həm fərdin, həm də topluluğun, xalqın psixoloji yaşantısı kimi canlanır. Fərdi və sosial mühiti psixoloji nöqteyi-nəzərindən analiz etdikdə onlar arasındakı tipoloji uyğunluqlar göstərir ki, bir-birinin həsrətində olan, parçalanmadan əziyyət çəkən təkcə şəxslər yox, böyük bir millətdir; müəllif hər bir oxucusu ilə öz dərdini ortaq dərd kimi bölüşdürür.

Cənub poeziyasında ayrılıb ayrı düşən təkcə ərazi deyil, həm də sevgililər, ailələr, qohumlar – bir sözlə, bütöv bir millət bu bölünmədən öz nəsibini almışdır. Vurulan yara həm fərdin, həm də millətin kimliyini təhlükə qarşısında qoymuş, fərdi və milləti kompleksə salmış, milliləşmə prosesinə ağır əks-təsirlər göstərə biləcək maneələr yaratmışdır. Bu səbəbdən də Vətənin, millətin parçalanması hər iki taydan olan şairlərin yanıqlı harayına çevrilmişdir. S.Rüstəmin məşhur “Təbrizim”, Rəsul Rzanın “Təbrizim mənim”, Məmməd Rahimin “Arazın şikayəti”, Söhrab Tahirin “Savalanım”, “Səhəndim”, “Sərab”, “Arazım”, “Mərənd”, “Təbrizim”, “Ərk qalası”, “Ərdəbil”, “Şahgölü” və s. kimi şeirləri bu qəbildəndir. Söhrab Tahirin şeirlərində diqqəti cəlb edən bir cəhət məkana *əcdad ruhunun qoruyucusu, əcdadın özü* kimi yanaşmasıdır. Əs-

lində onun əcdad deyib canlandırdığı məkan bütün xüsusiyyətləri ilə müəllifin milli kimlik düşüncəsini əks etdirir.

Qurban sənin dam uçuran yağışına, doluna
Qurban sənin dağ yolunu səngər etmiş oğluna,
Gir qoluma, daha çıxaq böyük dünya yoluna
Dayan, dayan, ey əcdadım, qoy mən girim qoluna,
Savalanım, Savalan! (31, 4)

Əzmini ver mənə, əcdadım atam!
Sənə ərkim vardır, Ərk qalasısan.
Mən sənin çiynində ucalmalıyam,
Sən mənim çiynimdə ucalasısan (31,63).

Şair vahidin küllə qovuşması istəyi ilə ənənəvi dünyagörüşü sisteminə, genetik mənşəyə, təkamülə doğru ruhi gediş yaşayır; *mifoloji inanclarımıza uyğun dağ, əcdad və övlad ruhu kompleksini bütövləşdirir, eyni zamanda vəhdəti-vücud fəlsəfəsini yeni məzmunda canlandırır.* Milli mənliyin parçalanması, milli kimliyin zəiflədilməsinə olan etirazları bildirmək üçün S.Tahir öz kimliyində olan parçalanmanı, ikiləşməni vətənin ikiyə parçalanması ilə paralelləşdirir. Şair öz psixoloji yaşantılarını onunla eyni və oxşar taleni yaşamış, ayrılığın acısını bu və ya digər səviyyədə hiss etmiş vətəndaşa ünvanlayır; onun misraları nisgil, qəzəb, üsyan, mübarizə, ümid və çox təəssüf ki, içində olduğu şərtlər daxilində həm də ümidsizlik ifadə edir; gah keçmiş yad edilir, gah da gələcəkdən nəsə gözlənilir; hazırkı durum isə ürəkaçan deyildir. Anladılan yaşantının bir fərdə yox, bütün millətə aid olması özündə həm fərdin, həm

də millətin psixoloji durumunu əks etdirir. Bu mənada yazılan əsər, özlüyündə, psixoloji vəziyyətin çözülməsinə imkan yaradan (psixoloqlar, o cümlədən Freyd bunun son dərəcə çətin olduğunu qeyd edirlər) bir test kimi də qiymətlidir. "Ədəbi əsər ən azı bir ifadə vasitəsi olmaqla bərabər psixoloji bir təzahürdür də" (15, 263). Müəllifin yaddaş qatında qorunub saxlananları, şəxsiyyətini formalaşdıran fərdi və sosial şərtləri yazdığı əsər bütöv varlığına hopdurur, elementlərində hüceyrələşdirir. Bunu araşdırdığımız şeirlərin ritmində, intonasiyasında, söz düzümündə, təsvir və ifadə vasitələrində – bir sözlə, mövcudluğunda müşahidə etmək mümkündür. Vətəninin və millətinin taleyinə biganə olmayan hər bir şairin durumu, duyğuları, ürək döyüntüləri millətin yaşantıları ilə paralelləşir. Millətə vurulan yaraları fərd özününküləşdirəndə "məftilli çəpərlər sinədən keçir". Köksündə Araz boyda şırımı olan bir millət və o yaranı özündə daşıyan fərd yeni kimlik formalaşdırır. Cənub-Şimal parçalanması artıq bizim milli kimliyimizdə iz qoyan çox dərin bir psixoloji başlanğıcdır; bu həm fərdin, həm də millətin "mən"inin aldığı ağır zərbədir.

"Mən"in bölünməsinin aşıladığı faciəvi ruh yaradıcılığının xarakterik keyfiyyətlərindən birinə çevrilən Bəxtiyar Vahabzadə *Azərbaycanın ikiyə parçalanmasını faciələrimizin başlanğıcı kimi* təqdim edir; o böyük yaranı alan millət və biganəlikdən uzaq fərd daxilən bölünmə, ikiyə ayrılma sindromuna düçar olur:

Mənim qismətimdir alatoranlıq
Gecəylə gündüzün arasındayam,
Qurulur içimdə mizan-tərəzi,

O gözlə, bu gözün arasındayam.
Yollar ayrıcında çox talanmışam,
Fikirlər əlində haçalanmışam.
Təpədən qorxmuşam, düzü danmışam,
İndi dağla düzün arasındayam.
İlişib qalmışam qəm çalasında,
Bir gözəl tilsimin daş qalasında,
Həmişə qapılar astanasında
Bayırla dəhlizin arasındayam.
Bəxtiyar, sinəndən neçə "mən" keçir
Biri dərdli keçir, biri şən keçir,
Məftilli çəpərlər sinəmdən keçir.
Bakıyla Təbrizin arasındayam (5).

Bu əhval Bəxtiyar Vahabzadənin yaradıcılıq dünyasına və şair psixologiyasına o dərəcədə nüfuz edir ki, qəhrəmanları daimi bir gərginlik və mənəvi çarpışma içərisindədir. Millətin, Vətənin bütövlüyü uğrunda şairi tərk etməyən daimi düşüncə, istək və imkan arasındakı uçurumlu məsafə, "tərəflərin" həsrəti və yanğısına uyğun kədər hopub onun yaradıcılığına. Aldığı yaradan sarsılmayıb üsyan edən, hamını mübarizəyə çağıran şairin yaradıcılığının ikinci əsas xarakterik cəhəti üsyan və mübarizə ruhunda üzə çıxır. Dərin kədər və ardıcıl mübarizə bəxtiyar Vahabzadə yaradıcılığının vəhdətini, bütövlüyünü ifadə edən bədii modeldir. İkilənmədən xilas olma uğrunda yaşanan çarpışma təslimiyyət ruhunun dəfinə və milli ruhun diriliyinə xidmət edir. Şair öz duyğularını xalqa ötürməyə, onunla həmdərd, eyni zamanda, mübarizə, cəbhə yoldaşı olmağa çalışır. Əsərinin ideya və idealı milləti unutqanlıq-

dan qorumaq və milli bütövlüyə səfərbər etməkdir. “Gülüstan” poemasında Azərbaycanın ikiyə bölünməsini yalnız əraziyə yox, həm də tarixə, mədəniyyətə, milli mənliyə, dəyərlərə vurulan yara kimi qiymətləndirir:

Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?
Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın.
Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!.. (7)

Dilin yaşadılması və inkişafını milli kimliyin mövcudluğunun vacib şərti kimi qəbul etmək hər iki taydan olan şairlərin yaradıcılığında davamlı ideya motivinə çevrilmişdir. “Dilimiz varlığımızdır!” şüarını bu və ya digər şəkildə misralara yansıdan şairlərimiz təkcə torpaq yox, həm də dil parçalanması təhlükəsi ilə üz-üzə qalmağımızı unutmamağa çağırışlar edirlər, eyni dilin, eyni vətənin övladları olduğumuzu unutdurmamaq üçün xalqa ruhi təlatümlər yaradan misralar, beytlər ünvanlayırlar:

Azadlıq Günəşindən can gəlsin torpağına,
Təbrizli, savalanlı, ərdəbilli qardaşım.
Uzun illər kilidli dilin açıldı artıq,
Doğma anam laylalı, anam dilli qardaşım! (32)

Vətən, millət uğrunda mübarizədə şair öz şəxsi kimliyini milli kimliyə xas müsbət cəhətlərdə itirir. Balaş Azəroğlunun “Səttarxan” şeirində olduğu kimi:

...Biz heç vaxt sınaqdan namərd çıxmarıq,
İgidlərin qanı qanımızdadır.
Nə düşmən, nə ölüm qorxuzmaz bizi,
Səttarxan hər zaman yanımızdadır (6, 17).

Şimalda yaşayan şairlər Cənubun problemlərinə həm də hər iki tərəfdə yaşayan xalqın milli şüurunu oyatmaq məqsədilə müraciət edirdilər. Hadisə və situasiyaları Cənub fonunda təqdim etməklə, əslində, hər iki tərəfi azadlıq uğrunda mübarizəyə səsləyirdilər. Rəsul Rzanın 1945-ci ilin oktyabrında “Azərbaycan” dərgisində çap edilən “Milli Şüur və milli iftixar” məqaləsində olduğu kimi: “Milli şüur bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümumi mənafeyi və ziyanını görmək, ümummillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruri olduğunu dərk etmək deməkdir... Milli şüuru oyanmamış və ya hələ də lazımınca oyanmamış millətlər daima başqalarının ağalığına və zülmünə məruz qalır. Yalnız kənardan deyil, öz daxilində dəxi mürtəce qüvvələrin nüfuz və təsirinə boyun əyməli olur. Şübhəsizdir ki, milli intibah, milli şüurun oyanması bir günün, bir ilin işi olmayıb əsrlərin kəskin və amansız fırtınaları içərisində doğur. Bu millətin içərisindən çıxan ayrı-ayrı proqressiv nümayəndələr, alim və yazıçılar hələ də xalqın bir küll olaraq intibah yoluna düşdüyünü isbat etmir. Azadlıq dərk edilmiş zərurətdirsə, bu azadlığı duymaq, onun zəruri olduğunu hiss

etmək üçün xalqın bütün nemətlərini yaradan geniş kütlələrin milli şüurunun artması, xalqın özünəməxsus ənənə, sənət və məişət gözəlliklərini həqiqətən sevilib inkişaf etməsi şərtdir... İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizədə çox böyük xidmət göstərmişlər... Bu xalqın azadlıq yolundakı mübarizəsində öz canını qurban vermiş yüzlər və minlərlə həqiqi vətənpərvər və millətpərvər mücahidlər vardır ki, onların hər damla qanı milli şüurun inkişafı yolunda tökülüb, bu yolu təmizləməyə xidmət etmişdir. Odur ki, Azərbaycan xalqı yaratdığı bu tarixi simaların həyatı, işi və əsərləri ilə fəxr edir. Milli iftixar hissi, milli şüurun doğrudan-doğruya bir nəticəsidir. Milli şüuru oyanmamış, öz yaradıcılıq qüdrətinə inam bağlamamış bir xalqda milli iftixar hissi dəxi çox zəif və məzmunsuz olur. Biz azərbaycanlı olduğumuzla fəxr edirik. Bu iftixar hissini bizdə doğuran səbəb Azərbaycan xalqının "seçilmiş xalq" olduğuna "başqalarından yaxşı" olduğuna görə deyil, bəlkə də "övraqi-həyatda" bizim də millətin imzası şərəfli yer tutduğu üçündür... Biz azərbaycanlı olduğumuz üçün fəxr edirik, çünki Azərbaycan xalqı dünyanın ən hürriyyətsevən, ən ünsiyyətli, ən qəhrəman və alicənab xalqlarındandır. Bizim qəlbimizi dolduran iftixar hissi Azərbaycan xalqının böyük yaradıcı qüdrətinə əsaslanır, onun azadlıq üçün hər şeyi fəda etməyə hazır olan iradə və mətanətinə əsaslanır" (27). Böyük şairimiz Rəsul Rzadan gətirdiyim sitatın bir qədər böyüklüyü istinad etdiyim fikrin araşdırılan problem baxımından

əhəmiyyətliliyi ilə bərabər, eyni zamanda, müəllifin daxili dünyasını, həyat və yaradıcılıq amalını dolğun şəkildə özündə ifadə etməsi ilə bağlıdır.

**b) Cənubi Azərbaycan ədəbiyyatında milli kimlik davası**

Cənubi Azərbaycanda yaşayan Azərbaycan şairlərinin yaradıcılığında Şimal həsrəti ilə bərabər, eyni zamanda, milli kimliyin özünəməxsusluğunu şərtləndirən başlıca ünsürlərin – dil, tarix, adət-ənənənin, mədəniyyətin qorunub saxlanması uğrunda mübarizə ruhu çox güclüdür. Böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" şeirində təkcə uşaqlığın, doğma kəndin yox, eyni zamanda milli kimliyin unudulması, uzaq düşməsi qorxusundan törəyən həyəcan yaşanır. Şair Heydərbabayla dialoqunda özünə, eyni zamanda xalqına doğma olan hissiyyatı paylaşır. Heydərbaba şairin tərənnümündə müqəddəs, qoruyucu dağ statusu qazanır; ona doğma ellərlə bərabər, adət-ənənə, tarix, dil, qohumluq, qardaşlıq münasibətləri, birlik, bütövlük idealı əmanət olunur. Bu əmanətin müqəddəs saxlancı Dağ ilə bərabər şairin yaratdığı və dağ kimi ucaltdığı "Heydərbabaya salam" poemasıdır (21, 37-57).

Şəhriyarın müasiri və ideya məsləkdaşı Həbib Sahir şeirlərində həm Şimali Azərbaycandakı, həm də Türkiyədəki qardaşlarına böyük ümid bəsləyir, onlarla birliyin, bütövlüyün yaranmasını arzulayır. Süleyman Rüstəmə həsr etdiyi şeirində yazır:

Ey əziz yurd qardaşım,
Dilədin qara zindan

Yıxılsın təməlindən
Dilədin bizim ölkə
Güllənib, olsun gülşən.

Lakin ey əziz qardaş,
Bu səfər güzar etsən
Təbrizdən, Marağadan
Hər yerdə görəcəksən
"Günəşsiz, aysız zindan" (11, 64).

Sonuncu misrada Həbib Sahir Günəşin adını çəkməklə çox güman ki, Odlar yurduna, Ayla isə türklüyə işarə etmişdir. "Günəşsiz, aysız zindan" dedikdə İranda azərbaycanlıların türklükdən uzaqlaşdırılmasına, xalqın milli kimliyini itirmə qorxusuna eyham vurur. Sahirin şeirlərində müstəqil bir dövlət olan Türkiyəyə ümid yeri kimi baxılması hallarına da rast gəlirik. O, öz doğma qardaşlarının, onun xalqı ilə eyni milli kimliyə mənsub olanların onların harayına çatacaqlarına ümid bəsləyir. Bunun ən bariz nümunəsi kimi *Sahirin "Qorxma" şeirini göstərə bilərik. Şeirin ilk bəndi Türkiyənin İstiqlal marşından alınan xitab və başqa seçmə sözlərilə xalqı mübariz olmağa və ümidlərini itirməməyə səsləyir:*

Qorxma, bu mavi göy altda yanan günəşin,
Və üfüqlərdə gülən al şəfəqin sönməyəcək,
İlk baharına açacaq gül, ötəcək bülbüllər,
Dünyamız bir də bu aləmdə xəzan görməyəcək
(11, 55).

Türkiyənin "İstiqlal marşı"nın aşağıda təqdim etdiyimiz ilk bəndinə nəzər yetirdikdə Sahirin azad türk respublikası Türkiyə ilə qürur duyması və tezliklə öz vətənində də müstəqillik bayrağının dalğalanacağına, azadlıq bülbüllərinin ötəcəyinə, özlərinin istiqlal marşının səslənəcəyinə eyhamı aşkar görünür:

Korkma, sönmez bu şafaklarda yüzen al sancak;
Sönmeden yurdumun üstünde tüten en son ocak.
O benim milletimin yıldızıdır, parlayacak;
O benimdir, o benim milletimindir ancak (20).

Sahir şeirinin son bəndində milli kimliyinin sahib olduğu dəyərləri nümayiş etdirərək xalqına, ana və bacılarına tövsiyə edir ki, azadlıqda olan qardaşlarına arxalanıb "pəncərələri açsınlar":

Ey mənim şanlı elim, həmvətənim, al günəşim,
Ayna tək parlaq üfüq, dərya təkin çərx əsir.
Ey qadınlar, analar, bircə açın pəncərəni,
Sübh açılmaqdadı, sübhün yeli dağlardan əsir... (11,55)

Bu müraciət simvolik mənada Vətəni və xalqı əsarətdən qurtarmaq, zindandan xilas olmaq uğrunda mübarizəyə səslənişdir.

Keşməkeşli ömür yaşamış Səhəndin bütün yaradıcılığı, milli kimlik davası üzərində qurulmuşdur. "Yasaq" şeirində doğulandan doğma dilinin yasaq olmasının faciəsini ömrü boyu hiss edən şair, (Tədqiqatçılar dili milli kimliyin ən ümdə ünsürü kimi qəbul edirlər (bax:12)) "Sazımın sö-

zü" poeması və digər əsərləri ilə mənsub olduğu millətin milli kimliyini yüksək qiymətləndirir, onunla qürur duyur, xalqa da həmin hissləri aşılamağa çalışır. Bu ruh şairin ustad Şəhriyara yazdığı mənzum məktublarda da açıq nümayiş olunur. Həmin məktublarla o, milli kimliyin qorunması yolunda Şəhriyarı özünə arxa, kömək hesab edir və hissiyyatını, fikirlərini onunla bölüşdürmək istəyir. Şəhriyara müraciətlə söylənilən misralarda şairin saldığı haray, eyni zamanda özünün ruhunda, qəlbində bir an onu tərk etməyən düşüncələrdir; bu mənada həm də özü ilə dialoqu, daha geniş mənada bütün xalqa ünvanlanan monoloqudur. Həmin məktublarda aşağıda verilən nümunənin məzmun tutumuna uyğun misra və beytlər çoxdur.

Qul yaranmamışam, yaranana mən,
Heç kəsə olmaram, nə qul, nə əsir ( 8, 43).

Birinci misradakı *mən əvəzliyi bu tip şeirlərin əksəriyyətində olduğu kimi şairin özündən daha çox mənsub olduğu xalqı, milləti bildirir*. Səhənd öz xalqının alçaldılmasına, assimilyasiya olunmasına dözmədiyi kimi *başqa xalqlara da aşağılayıcı münasibət bəsləmir, onların da öz kimliklərini qoruma haqqına sahib olduqlarını vurğulayır*, hər cür şovinizmə qarşı çıxır:

Mən demirəm üstün nijadlardanam,
Demirəm ellərim ellərdən başdı,

Mənim məsləkimdə, mənim yolumda
Millətlər hamısı dostdu, qardaşdı (8,42).

Şairin "mən"ini bu cür tanıtması, onun millətə olan məhəbbəti ilə bərabər, eyni zamanda başqa xalqlara bəslədiyi insani münasibətlə *yüksək mənəvi keyfiyyətlərini nümayiş etdirir*.

*Cənubi Azərbaycan ədəbiyyatında müasir dövrdə, hazırkı zamanda da milli kimlik, onun qorunması uğrunda mübarizə ruhu yenə hakim mövqeyə malikdir.*

Rəsul Qədiri, İsmayıl Mədədi Osalı Ülkər, Səhər Xivai, Yaqub Nami, Ülkər Ucqar və başqaları göstərilən ənənəni yaşadıb ikişaf etdirməkdədirlər. Təbriz, eləcə də digər məkanlar xalqı, onun problemlərini, eyni zamanda milli kimliyinə xas vüqarı, mübarizliyi, əzmi özündə əks etdirir; Yaqub Naminin "Təbriz" şeirində olduğu kimi:

Sovruldu zamanın samanı belə,
Bəlalı başına, bəlalı Təbriz!
Kimsə tapılmadı ağlaya sənə,
Anasız yaşayan xalalı Təbriz.

...İnamla yaşıram gələcəyi mən,
Çiçəklər açılıb, güləcək çəmən,
Düşsə də başına hərdən bir ağ dən,
Qartaldır yaşayar, yaralı Təbriz (9,241-242).

*Parçalanmış Vətəni olan, özgələşmə təhlükəsi ilə üzüzə qalan insan ən ülvi duyğularını, sevgisini belə ağrıacısız yaşaya bilmir*; dostu, sevgilini də dərd ortağı kimi görür – Mehdi Əziminin "Mənim mənliyimi kim gətirəcək" şeirində olduğu kimi:

Bir azca geriyə addım at gülüm,
Özlüyüm çoxdandır, ögeydir mənə.
Yetər bunca susmaq, izin ver barı,
Beynimin ağrısın söyləyim sənə (9, 884).

**c) Milli kimlik türkçülük, turançılıq idealının təbliği və tərənnümü kontekstində**

*Milli kimliyin təbliği və tərənnümü daha geniş miqyasda türkçülük və turançılıq görüşlərini əks etdirən yaradıcılıq nümunələrində özünü göstərməkdədir.* XIX əsrdən başlayaraq mədəni-ideoloji dünyagörüşü kimi formalaşıb inkişaf etdirilən turançılıq XX əsrin əvvəllərində həm Azərbaycanda, həm də digər türk coğrafiyalarında geniş yayılmışdı. Azərbaycan ədəbiyyatında bu ideologiyanın tərəfdarları və təmsilçiləri olmuş, onlar yaradıcılıqlarında üzə çıxan müəllif mövqeyi ilə milli kimliklərini geniş miqyasda həm də bir irq kimi müdafiə etmişlər. Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad, Abdulla Şaiq, Abdulla Sur, Cəfər Cabbarlı bu sıradan olan böyük ədiblərimiz, eyni zamanda ideoloqlarımızdır. Sovet quruluşunun qələbəsi ilə müstəmləkəçi rejimin yenidən möhkəmlənməsi türkçülük və turançılığa qarşı repressiv mübarizəni gücləndirmiş və öz kimliyini türklüklə müəyyənləşdirən insanlar təqib olunmuş, təzyiqlərə məruz qalmışlar. Kommunist partiyasının, bolşevizmin yürütdüyü siyasət qarşılığında ədəbiyyat da öz vəzifələrini müəyyənləşdirmiş və hazırkı Azərbaycan bayrağında simvolizə edilmiş ideallar, o cümlədən türkçülük tənqidə məruz qalmışdır. Milli məsələnin xalqın yox, milyonçuların,

zənginlərin istəyi olduğunu izah etməklə, insanları bu istiqamətdə sinfi mübarizəyə yönləndirmişlər. “Bakı milyonçularının maddi himayəsi ilə nəşr olunan “Füyuzat”, “Şəlalə”, “Dirilik” ətrafında toplaşan yazıçı və publisistlər: Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Əlimərdanbəy Topçubaşov, Axund Mir Məhəmməd Kərim, Əhməd Kamal, Həsən Səbri Ayvazov, Xalid Xürrəm Səbribəyzadə və başqaları inqilab ərəfəsində gündən-günə şiddətlənən sinfi mübarizəni dini-milli ehtiraslar içərisində boğmağa çalışır, “türkləşmək, islamlaşmaq, müasirləşmək” şüarını irəli sürürdülər” (4, 13). Eyni mənbədə Hüseyn Cavidin Qaspıralı tərəfindən irəli sürülən “birlik” idealının dəstəkləməsi və onu öz izahı ilə daha da zənginləşdirməsi ədibin böyük yanlışlığı kimi dəyərləndirilmişdir. “Bir müddət bu təsirlərə qapılan (burada dil birliyi nəzərdə tutulur – T.M.) H.Cavid də İ.Qasprinskinin vəfatı münasibətilə yazdığı şeirdə həmin şüarı təbliğ edirdi:

İşdə birlik, dildə, fikirdə birlik ...
İş, fikir, dil birliyi olmayınca,
Əvət, pək çətindir cahanda dirilik...

Müvəqqəti də olsa belə təsirə qapılmaq H.Cavidə çox baha oturmuş, xüsusən, dil cəhətindən bu qənaət onun sovet dövründə yazdığı bəzi əsərlərində də özünü büruzə vermişdir.” (4, 13) Cavidin şeirindən verilən parçadan məlum olur ki, müəllif təkcə dil birliyinə çağırış etməmişdir. O, türk xalqları arasında iş, dil, fikir birliyi olmadığı halda onların öz milli mövcudluqlarını və milli kimliklərini qorumaqda ciddi çətinliklərlə qarşılaşacaqlarını vurğulamışdır.

Verdiyimiz istinadlar nümunəsində belə bir məsələyə də diqqət yönəltmək istərdik ki, sovet ədəbiyyatında birlik, müstəqillik, milli kimlik kimi yüksək dəyərlər əsasən rəmzlər və əsərlərin çoxqatlı modelləri ilə mümkün olurdu. Ədəbiyyatşünaslıq da həmin dəyərlərin əleyhinə olmamış, xüsusən, milli kimliyini dərk edən və onun dağıdılmasının qarşısını almağa cəhd edən ədəbiyyatşünas-alimlər müxtəlif metod və üsullarla öz düşüncələrini oxuculara çatdırmağa çalışmışlar. Ədəbiyyatşünaslıqda bu məqsədlə ən çox istifadə olunan üsul tənqid etmək yolu ilə oxucuya informasiya ötürmək idi. Belə tənqidlərdə inkar təsdiqə xidmət edirdi. Yuxarıda gətirdiyimiz nümunələr də, əslində, həmin funksiyanın icrasına yönəlmişdir.

İstər bədii yaradıcılıqda, istərsə də, ədəbiyyatşünaslıqda XX əsrin başlanğıcı və sovet dövrünün repressiyadan əvvəlki illərinə aid milliləşmə prosesinə qayıdış hələ XX əsrin 60-cı illərindən başlamışdır; xəlqiliyin imkanlarının millilikl ə uzlaşdırılması, vətən mövzusunda milli dünyagörüşünün hüdudlarının genişləndirilməsinə xidmət edən detal və motivlərin artması, tarixi mövzu çərçivələrinin açılması (o vaxta qədər tarixi əsərlərdə) ilə milli qürur hissinin təlqini və inkişafı, folklor və mifologiyada milli genetik özünəməxsusluqların üzə çıxarılmasına həsr olunmuş tədqiqatların artması (Məhəmmədhüseyn Təhmasib və Mirəli Seyidovun araşdırmaları ilə formalaşan yeni təmayül)*

---------------------------

*Hər iki müəllifin əsərləri kitab halında sonradan çap olunsa da, müdafiə olunan dissertasiyaları və çap olunan məqalələri 50-ci illərin sonu, 60-cı illərin başlanğıcından humanitar fikrin inkişafına öz təsirini göstərməkdə idi.

(23; 24; 25; 26) romantizmin tədqiqi yolu ilə romantiklərin ideallarının yenidən gündəmə gətirilməsi (Akademik Məmməd Cəfər Cəfərov və onun elmi məktəbinin davamçıları tərəfindən) (22), Əli Sultanlının Azərbaycanın dramaturgiya tarixinə dair tədqiqatlarında (1946-cı ildə bu mövzuda müdafiə etdiyi doktorluq dissertasiyası, vəfatından 4 il sonra sonra 1964-cü ildə çap olunmuşdur) (10) türkçülük və islamçılıq mövzularında yazılan dram əsərləri haqda məlumatın yer alması və s. kimi bir-birini tamamlayan proseslər qabağı alınmayan böyük hadisəyə, istiqlala, müstəqilliyə yol açırdı. 60-cı illərdə yaşa- nan bu gedişatı milli-mənəvi özünüdərk kimi qiymətləndi rən akademik İsa Həbibbəyli onu istiqlal ədəbiyyatı ilə üzvi əlaqədə gerçəkləşən xüsusi bir mərhələ kimi qiymətləndirir. "Bu istiqamətlər (milli-mənəvi özünüdərk və istiqlal – T.M.) təkcə ədəbi-tarixi baxımdan deyil, ideya-məzmun etibarilə də bir-birini tamamlayır. Milli-mənəvi özünüdərkə qayıdış mərhələsində yaranmış Azərbaycan ədəbiyyatı xalqın oyanışı və istiqlalı uğrunda mübarizə aparmaqla ölkənin dövlət müstəqilliyinə hazırlanmasında mühüm rol oynamışdır.

Azərbaycan milli istiqlal ədəbiyyatı isə dövlət müstəqilliyinin yenidən bərqərar olması, qazanılmış milli dövlətçiliyin itirilmə təhlükəsinin ardan qaldırılması və daha da möhkəmləndirilməsi kimi tarixi bir mərhələnin ədəbiyyatı olaraq özündən əvvəlki ədəbi fikrin təkcə davmçısı yox, həm də şərəfli bir varisi, irəliyə aparan sükançısı idi" (14, 342).

60-cı illərdən başlanan milli-mənəvi özünüdərk prosesi dərinləşdikcə, onun turançılıq və türkçülüklə bağlı

elementləri də artmağa başlamışdı. Bu, yuxarıda qeyd etdiyimiz ədəbiyyatşünaslıq istiqamətləri ilə paralel şəkildə özünü göstərirdi. Türk idealı xüsusi estetik işarələr və ya sosialist ideologiyasının hakim olduğu türk coğrafiyasından, türk şəxsiyyətlərindən sevgi ilə söz açmaqla böyüyüb artmaqda idi. Bu özünü bütün yaradıcılıq sahələrində göstərirdi. Hazırkı tədqiqatda daha çox poeziya üzərində dayansaq da, müqayisə məqsədi ilə ümumtürk ideologiyasını daxili qatda ifadə edən bir nəsr nümunəsi – Anarın "Ağ liman" əsərinin bəzi element və motivlərini də araşdırmaya cəlb etməyi lazım bildik. Çünki həmin əsər məna gizliliyini işarələrlə sistemləşdirib təqdim etmək baxımından mükəmməl bir nümunə, klassik modeldir. Romanın əvvəlində "mavi rəngli saya pijama" (2, 4) geyinmiş (mavilik türklüyün rəmzi) qəhrəmanın çarpayısının yanında divara vurulmuş "Sovet İttifaqının siyasi xəritəsi"ndə "Ölkənin cənub sərhədi Nemətin balışının yanına düşürdü" (2, 6) (bu ərazilər daima qəhrəmanın başında, fikrindədir). "Hər səhər Nemət gözlərini açıb bu xəritəni görürdü. O, Şərqi Qazaxıstanın şəhərlərini, göllərini, çaylarını əzbər bilirdi. Çox vədə gecələr yuxusu qaçardı. Qaranlıqda xəritə yazılarını seçmək olmurdu. Amma gözüyumulu halda da Nemət barmağını düz Taldı-Kurqanın, yaxud Alagölün, ya da Manançanın üstünə qoya bilərdi. Bəzən bu şəhərləri, çayları, gölləri, ümumiyyətlə, bu ərazini təsəvvüründə canlandırmağa çalışırdı. Ucsuz-bucaqsız çöllər, alaçıqlar, susayıb göl, çay kənarına gələn at ilxıları... Uzun yallı ağ atlar... sonra yuxu bataqlıq kimi çəkib onu aparırdı." (2, 7) Müəllif susuzluqdan nəfəsi daralan atlarla azadlıq təşnəsi insan,

göl, çay ilə türk dünyası, qaranlıqla siyasi rejim, bataqlıq kimi çəkib aparan yuxuyla yaddaşı unutdurmağa, itirməyə yönəlmiş ideoloji texnologiyalar arasında xəyali-metaforik əlaqə qurur. Fikir-xəyalı həmişə geniş türk dünyasına bağlı olan, bunu ailə ənənəsi kimi (valideynlərinin və özünün ayrı-ayrı ərazilərə sürgün edilməsi) yaşadan Nemətdə Təhminə və onun geyindiyi paltar "Qırmızı baharı paltarının qolları kəsik idi. Yaxasından ətəyinəcən bir düzüm düymə cərgələnmişdi" (2, 9). Türkiyə bayrağının assosiasiyasını oyadır. Təhminənin türk bayrağı ilə metaforik əlaqəsi onun paltarının təsviri ilə Nemətin xəyali yozumunun əlaqəsində aydınlığa qovuşur. "Nədənsə Nemət Təhminəni ürəyində həmişə Kaman-qız çağırırdı. "Kaman-qız!" Özünə deməmişdi, amma onu gördüyü ilk günlərdən belə adlandırmışdı. Səsinə görə yox. Səsi boğuq və bəm idi. Bəlkə ona görə ki, ucaboylu, arıq idi, uzun ayaqları vardı. Bəlkə də ona görə ki, kaman kimi onu da ancaq şaquli təsəvvür etmək olurdu. Bəzi qadınları üfüqi təsəvvür edə bilirsən. Amma Kamanqız şaquli qadın idi, gözlərini yumsan da, onu yalnız dimdik görəcəksən. Uzun ayaqlarıyla addımlayır, gedir. Quş kimi harasa tələsir. Həmişə ayaq üstə. Şəməşək" (2, 10).

İnşasına 1940-cı ildən başlanan Baykal-Amur magistralında quruculuq işlərinin 70-ci illərdən sürətlənməsi (bu sürətlənməyə daha da həvəs oyatmaq məqsədilə 8 oktyabr 1976-cı ildə SSRİ Ali Sovetinin sərəncamı ilə "Baykal-Amur magistralının tikintisinə görə" medalı təsis edilmişdir (19)), tikinti işlərinə gəncləri cəlb etmək məqsədilə mərkəzi partiya və komsomol komitələrinin Sibirə yaradıcılıq ezam-

iyyətləri təşkil etməsi nəticəsində şahid müşahidələri bu məkanın etnik tərkibinin türklüyünü bir daha gündəmə gətirdi. XIX əsrdə Rodlov, Potonin, Şmidt, Kozinval, Kovolovski və b. Sibir xalqlarından topladıqları türk mifoloji mətnləri bu bölgənin türklərin ən qədim məskənlərindən biri kimi elm aləminə tanıtmışdı. Lakin geniş xalq kütlələri bu haqda bir məlumata malik deyildi və Lenin komsomolu adını daşıyan BAM-da həmin coğrafiyanın türklərə aid olması bir o qədər də xatırlanmırdı – o, böyük Rusiyanın əzəmətini göstərən layihələrdən biri idi. 1980-ci ildə Sibirdə Ümumittifaq poeziya festivalında, 1982-ci ildə Kamçatkada yaradıcılıq ezamiyyətində olan Əhməd Qəşəmoğlunu tikinti işləri yox, əhalinin etnik tərkibi qarşısında yaşadığı həyəcanlar yaradıcılığa ruhlandırır. Şair təəssüratlarını əks etdirən silsilə şeirlərini: “Sibir mahnısı” (16, 14-15), “Ob” (16, 15), “Yenisey” (16, 15-16), “Lena” (16, 16-17), “Anqara” (16, 17), “BAM yolu” (16, 17-19) və s. yazır. 80-ci illərin əvvəllərində mətbuatda işıq üzü görən bu şeirlər daha sonra şairin kitablarına daxil edilir. Yeniseyə, Baykala ana deyən şair Baykaldan Qara dənizə hər yerdə türk izinə rast gəlir, bu izləri özünün ruhunda, qanında hiss edir:

...dənizlərdən dənizlərə belə
ucsuz-bucaqsız diyarda
qəlbləri
qəhrəmanlıqdan doğulan
bir elin
nəfəsi, həvəsi
günəşimizə qarışıb,
havamıza, suyumuza

torpağımıza qarışıb.
adımıza, sanımıza
qanımıza qarışıb (17, 26).

*XX əsrin sonunda Azərbaycanın öz müstəqilliyinə yenidən qovuşması ədəbiyyatımızın yarıda qalan bir sıra mövzu və problemi kimi türkçülüyü və turançılığı da yenidən canlandırdı.* Müasir Azərbaycan poeziyasında bu, mədəni-ideoloji xətt kimi yenə də davam etməkdədir. Həmin sahədə Zəlimxan Yaqub, Vaqif Bayatlı Odər, Əhməd Qəşəmoğlu, Rüstəm Behrudi, Xanəmir, Nizami Muradoğlu və b. öz şeirləri ilə seçilirlər. Türk mifologiyasından gəlmə obraz və motivlər, ucsuz-bucaqsız türk coğrafiyası, tarixi şəxsiyyətlər, müsbət türk imici və türk birliyi ideyası bu poeziyanın əsas mayasını təşkil edir. Yaradıcılığının səciyyəvi xüsusiyyəti türkçülük və turançılığın tərənnümü olan Rüstəm Behrudi öz vətənini və milli kimliyini belə tanıdır:

Mən yalqızam bir qurd kimi,
Mənnən birgə qalan gəlsin.
Talanmışam bir yurd kimi,
Qisasımı alan gəlsin.

... Bu gün şaman imanını,
Öz içində Turanını,
“Damarında Türk qanını
Zərrə-zərrə bulan gəlsin”.

...Nə kafirəm, nə də asi,
Sevdim haqqa yenən kəsi.

Məkkəsiylə Mədinəsi
Ulu Altay olan gəlsin.

Gedin Çinə vara-vara
Xəbər verin Uyğurlara.
Tikə-tikə, para-para
Olunmuşam talan, gəlsin (28, 10).

Müasir şairlərimiz də öz sələfləri kimi azərbaycançılığı türkçülüyə qarşı qoymur və onları, təbii halına uyğun şəkildə, vəhdətdə tərənnüm edirlər. Türkiyənin xəritəsinə, böyük türk dünyasına sevgi ilə şeirlər həsr edən Vaqif Bayatlı Odər (təxəllüslərində belə ümumtürklük və Azərbaycan vəhdətdədir) yaradıcılığı üçün bütöv türk dünyası içərisində Azərbaycanı tərənnüm etmək xarakterik cəhətdir. O, öz millətinin, dilinin və Vətəninin vurğunudur; Güney Azərbaycandan olan cocuğa həsr etdiyi şeirində olduğu kimi:

Hər iki dünyanın ən gözəl dili
sən danışdığın dil,
hər iki dünyanın ən gözəl eli
sən doğulduğun el,
hər iki dünyanın ən gözəl gülü –
gecə-gündüz hər an, hər an
sənə baxan, səni qoxlayan
sənin cocuq üzündən,
tumurcuq burnundan,
atlı Türk dilindən,
Türk qoxundan doymayan gül (33, 67).

Yaradıcılığında türk-azərbaycanlı imici əhəmiyyətli yer tutan Nizami Muradoğlu da mənsub olduğu millətin özünəməxsusluqlarını, qüdrətini, qazanc və itkilərini poeziyada əks etdirərkən Azərbaycanı böyük türk dünyası ilə vəhdətdə təqdim edir. Mənsub olduqları dövlətlərin, məzhəblərin, sərhədlərin onları ayırmamasını, birlikdə güc qazanmalarını yaradıcılıq idealı kimi təbliğ edir. Əksər şairlərimizin şeirlərində olduğu kimi, Nizami Muradoğlunun da əsərlərində, o cümlədən şeirlərində Azərbaycan türkləri qədim tarixə, mədəniyyətə malik millət kimi təqdim olunur. Zaman-zaman müharibələr, işğallar nəticəsində vətən coğrafiyasının parçalanması, millətin ayrılıqdan aldığı yaralar müəllifi düşündürən və oxucunu da düşünməyə dəvət edən əsas problemlərdəndir:

Şəninə nə deyim, deyilməyibdi?..
Ucadan ucasan uca bayrağım!
Qəlbimdən bir nisgil əksilməyibdi –
Təbrizdə, Kərkükdə açа bayrağım…

Başında mavi rəng – göy türkdən gələr.
Köksü qırmızıdır – şəhid sinələr.
Yaşıl geyimiylə müsəlləh əsgər,
Tanrı dərgahında uça bayrağım. (“Bayrağım”)

Getdiyimiz bu yol Haqqın yoludur,
Nankor olan məxluqlar var unudur.
Azərbaycan türk yurdudur, uludur,
Qoca Türkün millətidir bu millət (“Bu millət”) (13).

Türk milli kimliyinin tərənnümü, milli kimliyimizə vurulan zərbələrin qarşısının alınması yolları yaradıcılıq ideologiyası olmaqla məhdudlaşmır, eyni zamanda, bütün türk respublikalarında dövlətçilik siyasəti kimi də irəli sürülür və müdafiə olunur. Bunu dövlətlərarası münasibətlər, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının zirvə görüşləri və orada qaldırılan problemlər, imzalanan sənədlər, Beynəlxalq tədbirlərdə bir-birlərinin mənafelərinə hörmət və ehtiramla yanaşma və s. kimi fəaliyyətlər də sübut edir. Siyasətin mürəkkəb gedişlərlə nail olmağa çalışdığını şairlər öz istək və arzuları, strateji hədəfləri kimi müəyyənləşdirirlər.

## ƏDƏBIYYAT

1. Almas Yıldırım – (Şiirleri) | Bilgicik.Com
2. Anar. Əsərlər, II c., Bakı, Nurlan 2003
3. Aydın Yol / Azərbaycanım https://aydinyol.aztc.gov.az › Azerbaycanim 5 сент. 2019 г. - Hökumə Billuri
4. Azərbaycan sovet ədəbiyyatı tarixi. Bakı, “Elm”, 1967
5. Bakiyla Təbrizin arasindayam Mənim... - Bəxtiyar ...https://www.facebook.com › vahabzade › posts Bəxtiyar Vahabzadə. August 13, 2012
6. Balaş Azəroğlu. Seçilmiş əsərləri. Bakı: “Öndər Nəşriyyatı”, 2004
7. Bəxtiyar Vahabzadə. “Gülüstan”. http://video.azeri.net/bextiyar-vahabzade-gulustan-poemasi-v1391.html
8. Bulud Qaraçorlu Səhənd. Seçilmiş əsərləri, Bakı, “Şərq-Qərb”, 2006
9. Günümüzün Güney ədəbiyyatı antologiyası. Tərtibçi və ön söz müəllifi Esmira Fuad. Bakı, “Elm və Təhsil”, 2018

10. Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Bakı: Azərnəşr, 1964
11. Həbib Sahir. Seçilmiş əsərləri. Bakı: "Lider", 2005
12. İlber Ortaylı. Milli Kimlik Nedir? Tarih ve Milli Kimlik | Ders: Tarih https://derstarih.com › tarih-ve-milli-kimlik
13. İnsan ruhunu qidalandıran şeirlərilə Nizami Muradoğlu. heb.science.gov.az › news
14. İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019
15. İsmet Emre. Edebiyat ve Psikoloji, Baskı 2, Ankara, Anı Yayıncılık, 2006
16. Гашамоглы Ахмед. Влюбленный ветер, Москва, «Молодая гвардия», 1985
17. Qəşəmoğlu Əhməd. Dünyadan keçirəm indi. Bakı, "Yazıçı", 1977
18. Ленин В.И. О культуре и искусстве. Из-во «Искусство», Москва, 1956
19. Медаль "За строительство Байкало-Амурской магистрали" . mondvor.narod.ru › MBAM
20. Mehmet Akif ERSOY - İstiklal Marşı - Siir.gen.tr
https://www.siir.gen.tr › siir › m › istiklal_marsi
21. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş Əsərləri. Bakı: "Avrasiya Press", 2005
22. Məmməd Cəfər Cəfərov. Azərbaycan ədəbiyyatında romantizm. 1963
23. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Mütərcim, 2010
24. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı: Mütərcim, 201
25. Mirəli Seyidov. "Azərbaycan mifik təfəkkürünün qaynaqları", Bakı-"Yazıcı" 1983

26. Mirəli Seyidov: “Azərbaycan xalqının soykökünü düşünərkən”, Bakı-“Yazıcı”1989

27. Rəsul Rza. Milli Şüur və milli iftixar. “Azərbaycan” jurnalı (Azərbaycanın İranla Mədəni Əlaqələr Cəmiyyətinin orqanı), 1945-ci il oktyabr

28. Rüstəm Behrudinin şeirləri. 525-ci qəzet, 12 sentyabr 2017

29. Seyfulla Əsədullayev. Rus sovet ədəbiyyatı tarixi. Bakı, “Maarif” nəşriyyatı, 1976

30. Səməd Vurğun. Azərbaycan şeiri. kayzen.az › blog › azərbaycan-|-səməd-vurğ..

31. Söhrab Tahir. Seçilmiş əsərləri. Bakı: “Şərq-Qərb”, 2005

32. Süleyman Rüstəm.”Cənub şeirləri” | Azərbaycanın ...https://edebiyyat-az.com › ...

33. https://translate.google.com/translate?hl=ru&sl=az&u=https://edebiyyat-az.com/%3Fp%3D23865&prev=search Vaqif Bayatlı Odər. Bəy Atlı şeirlər. Bakı, Azərbaycan Dövlət Tərcümə Mərkəzi, 2019

**Mahirə QULİYEVA**
**filologiya elmləri doktoru,**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

# ƏDƏBİYYAT: ƏXLAQ VƏ MƏNƏVİ TÖVSİYƏLƏR

XÜLASƏ

Kitabda hər bir xalqın tərbiyə məktəbi olan ədəbiyyatın insanın kamilləşmə konsepsiyasındakı rolundan, insan əxlaqının gözəlləşməsində sənət və sənətkarın rolundan, məzmunu ilə yanaşı, öz quruluşu baxımından əxlaqın gözəlləşməsinə xidmət edən və məsnəvi şəklində qələmə alınmış dastanlarla aşıq poeziyasının ustadnamələrindən söhbət açılır. Zaman-zaman ədəbiyyatın özünün püxtələşməsi nəticəsində yaranmış tövsiyələr, öyüdlər və sair haqqında məlumat verilir.

Bu kitabda qaynaq olaraq əsasən Nəsimi və Xətai yaradıcılığına önəm verilmişdir.

***Açar sözlər:*** Xətai, ustad, gözəllik, ənənə, məsnəvi

## MORALITY AND SPIRITUAL ADVICES

SUMMARY

İn the article it is dealt with the role of literature (which is the education school of every nation) in the concept of human excellence, the role of the art and beautification in human morality, ustadnames (words of the master) of ashug poetry and sagas which promotes moral superiority in terms of structure and content and is written in masnavi form. Advices and admonitions formed in the result of the development of the literature are mentioned in the article form time to time.

In the article especially, is paid attention to the creativiti-

es of Nasimi and Khatai as a source.
***Key words:*** Khatai, master, beauty, tradition, poem

## НРАВСТВЕННОСТЬ ИДУХОВНЫЕ РЕКОМЕНДАЦИИ

РЕЗЮМЕ

В статье речь идет о роли художественной литературы в концепции воспитания человека, о функциональном назначении искусства и художественного мастера в духовно-моральном совершенствованиичеловека. Художественное произведение, как по содержанию, так и по структуре оказывает воздействие на воспитание человека. В этом плане особо выделяются эпические жанры в форме масснави, а также назидательные стихи под названием "устаднама". Излагаются по мере эволюции литературного процесса, назидательные и рекомендательные мотивы. В данной статье основным источником служит творчество Насими и Хатаи.
***Ключевые слова:*** Хатаи, мастер, красота, традиция, месневи

**Giriş.** Məlum olduğu kimi, ədəbiyyat hər bir xalqın danışan bədii dili, onun fəsahət və bəlağətlə danışmaq bacarığı, bədii təfəkkürü, obrazlı düşüncəsi, həyata, dünyaya, insana poetik münasibətinin ifadəsidir. Hər bir xalqın gözəllik tərbiyəsində, bədii-estetik zövqünün kamala çatmasında ədəbiyyatın böyük əhəmiyyəti vardır. Ədəbiyyat hər bir xalqın tərbiyə məktəbidir. Eyni zamanda hər bir xalqın şüur və idrakı, gözəl düşüncə və gözəl yazmaq bacarığı, mənəviyyat və zövqü birinci növbədə onun ədəbiyyatı əsasında meydana çıxır. (1, 3) Təsadüfi deyil ki, yazarlar və xüsusən də şairlər əsərləri ilə özlərinə məxsus şə-

kildə bəşər ideallarının ən yüksək ifadəçisi olan əxlaqın gözəlləşməsinə xidmət etmişlər. Fransız yazıçısı Alfons Rene de Şatobrianın qeyd etdiyi kimi, "Əxlaq cəmiyyətin təməlidir" (2, 152).

Ədəbiyyat və incəsənətdə gözəlliyin təzahür formaları rəngarəngdir. Hər şeydən əvvəl insanın yaradıcılıq fəaliyyətinin xüsusi növü olan və onun mənəvi zənginliyini əks etdirən sənətin özü gözəldir. Təbiətə və insana məxsus gözəlliyi düzgün, ilhamla əks etdirmək bacarığı, bu keyfiyyətə xüsusi şərh vermək, onu bütün çalarları ilə göstərmək, seçib fərqləndirmək –sənətin mühüm estetik xüsusiyyətidir (3, 93). "Gözəllik aynada özünü seyr edən sonsuzluqdur" (2, 161).

**Şairlərin kimliklərinə münasibət.** "Hər kəs özünü tanısa, öz Pərvərdigarını da tanıyar". Öz Pərvərdigarını tanıyan şəxs bilər ki, mütləq kəmal sahibi yalnız Allahdır (4, 94). Allahın yaratdığı məxluqat isə kəmala yetişmək üçün öz elmi naqisliyini və digər qüsurlarını aradan qaldırmaq üçün kamilliyə gedən yolun, karvanın yolçusudur.

Öz mənliyini Həzrət Əli (ə.s) aşağıdakı kimi söyləyir:

"Mən öz nəfsimin oğluyam, kunyəm isə mənim ədəbimdir..." (4, 95)

Şair xalqın səsi, əsrin səsidir. Onun ömrü sözündə yaşar. M.Ə.Sabir demişkən, "**Şairəm, əsrimin ayinəsiyəm, Məndə hər kəs görür öz qaş-gözünü**" (2, 409). İnsanlığın həqiqi müəllimi kimi çıxış edən, onu sözünün qüdrəti ilə gözəl əxlaqa dəvət edən şairlər zamanın müxtəlif kəsişmələrində bir anlıq da olsa, yaradıcılıqlarının keçmişinə nəzər salmış və bəzən xilqətin kamilləşmə yoluna xidmətlərini

"mən kiməm?" sualı altında təhlil etməklə istiqamətlərini daha düzgün səmtləşdirməyə çalışmışlar: (5, 349)

Mən kiməm? – Bir bikəsü biçarəvü bixaniman,
Taleim aşüftə, iqbalım nikun, bəxtim yaman

...Çıxmadı könlümdən ənduhü ğəmü möhnət
Ey mənim canım, sənü könlüm səninlə şadiman həman.

...Fariğ idim cümlə aləmdən bilir aləm məni,
Eyb edərdi bixəbər sanıb, bəniadəm məni.

...Eşq nagəh oldu peyda, tutdu müstəhkəm məni,
Saldı yüz sövdayə ol kiysuyi-xəm-dər-xəm məni

...Fəqr eşq içrə, Füzuli, izzü cahimdir mənim,
Şiveyi-mehrü məhəbbət rəsmü rahimdir mənim.

Dərdimi sabit qılan üşşaqə ahimdir mənim,
Ah bu dəvadə bir adil güvahimdir mənim.

XVI əsrin ikinci yarısında əsl insanın kimliyi, kamil insan məsələləri şairlərin nəzər-diqqətini cəlb edən ən aktual mövzulardan idi. Bu özünü Xətai və Füzulidən sonra Azərbaycan şairinin inkişafında önəmli rolu olan Məhəmməd Əmani şeirlərində də göstərir. Onun poeziyasında iki tip insan var. "Bunlardan biri aşiqdir. Həqiqi aşiq isə hər cəhətdən kamildir. Lakin aşiq olmayanlar, ...həqiqi eşqi anlamayanlar da vardır" (1, 158).

"Olmasa" rədifli qəzəlində Əmani bir qisim şairlərdən fərqli olaraq öz keçdiyi yolu təhlil etmir, sadəcə, insan

və qeyri-insan barəsində düşüncələrini ümumiləşdirir. “Kimdir əsl, kamil insan” sualına poetik şəkildə cavab verməyə çalışır: (1, 559)

Hər kişinin tinəti kim əsldin pak olmasa,
Bil əcəb irməs əgər ol sahib-idrak olmasa.
Möhnətü-damü bəladan olmasın hərgiz xilas,
Mürği-dil cananiyə gər seydi-fitrak olmasa.
İki aləmdə dəvasüz dərdə yarəb, uğrasın,
Bu könül yar cəvridin fərəhnak olmasa.
Qane vü xürsənd bulmas taleyi-dun cifədin,
Ta kim axir gözləri qəbr içrə pürxak olmasa.
...Ey Əmani, budü nabudun müsavi saygilən,
Köksü tiği-eşqdin hər aşiqin çak olmasa.

Şair məsuliyyəti özünü hər zaman göstərir. Əhməd Cavadın “Mən kiməm?”adlı aşağıdakı şeirində “Mən bu yurdun, Anlatayım nəsiyəm”, – ifadəsi onun viranə qalan, çeynənən bir ölkənin, xalqın vəziyyətinə haqq bağıran səsiylə fəryadıdır: (6)

Soranlara mən bu yurdun,
Anlatayım nəsiyəm:
Mən çeynənən bir ölkənin
Haqq bağıran səsiyəm.

Mən şairəm, doğru amma
Başqa dilim, diləgim.
Bu gördüyün viranədə
Nə nəşidə söylədim?

Toxundumu yazdıqlarım
Qəlbin incə telinə?
Bax nə haqsız bir axın var
Yoxsulların elinə?..

Sən nə dersən bu sevdalı,
Həm bu dərdli gedişə?
Ey yarımın həsrətilə
Boynu bükük bənövşə?

Mən qıyamam yar gəlirkən
Salladığım məndilə.
Ah ey fələk, ağlar isəm,
Göz yaşımı kim silə?

Bir növ şair haqq, hüquq və hürriyyəti əlindən alınmış bir insanın taleyinə acıyır, birinci imam Həzrəti Əli əleyhissəlamın "Ey insanlar! Adəmdən nə bir qul törənib, nə də kəniz. Bütün insanlar azaddır", (2, 33) – ideyasını həyatda görmədiyi üçün təəssüf hissi keçirir. İnsanın öz ağlı və kamalı ilə həyatda istədiyi amallarına çatması üçün onun hürriyyəti və iradəsinin olması vacibdir. Mustafa Kamal Atatürkün sözləri ilə desək, "Hər tərəqqi və qurtuluşun anası hürriyyətdir" (2, 36).

Bu mövzu da ədəbiyyatın sütun mövzularından olduğu üçün zaman və məkan məhdudiyyətinə sığışmır və zaman-zaman fərdi şair yanaşma və üslubu ilə ədəbiyyatda əksini tapır.

Mirzə Ələkbər Sabir də kamil insanı, gözəl əxlaqlı insanı hürriyyət olan yerdə görür: (2, 35)

Kim ki, insanı sevər, aşiqi hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

Azərbaycan şairi Abbas Səhhət də bəşərin səadətini, onun hürriyyətində görür: (2, 34)

A hürriyyət! A münfərid əməlim!
İştə sənsən səadəti bəşərin.

Fikrimizi Məhəmməd Hadi şeiri ilə başladığımız kimi, onun aşağıdakı beyti ilə də bitirək: (2, 35)

Hürriyyət elə nazlı bir afət ki, pək vüqar,
Qan axmadıqca kimsəyə gülməz o işvəkar.

* * *

...Azadlıq, azadlıq! Tarix yaranmış,
Bu amal uğrunda vuruşmalarda (2,33).
*(Bəxtiyar Vahabzadə)*

Azərbaycanın istiqlal şairi Xəlil Rza Ulutürkdə azadlıq ideyası daha sərt və daha yanğılı şəkildə nəzmləşdirilib: (2, 33)

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək
Qıram!
Qıram!

Hər tərəqqi və qurtuluş hürriyyətə bağlı olduğu kimi, insanın mayası da ağıldır: (2, 6)

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.

*(Nizami Gəncəvi)*

Bütün nemətlərin başlanğıcı və sonu ağıldır. *(Epikur)*

Ağıl insan üçün ən gözəl zinətdir. *(Zeynalabdin Şuruzmi)*

Azərbaycan ədəbiyyat tarixçisi və foklorşünası Firidun bəy Köçərlinin "Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır", (2, 7) – fikri kamilliyə gedən yolun insan azadlığından başlayıb, ağıl və kamalla davam etdirdiyi əməli-salehlik yoludur.

"Mən kiməm?", – ənənəsi zamanın fövqündə duran bir məsələ olduğundan, Bəxtiyar Vahabzadə yaradıcılığında mövzunun inikası təəccüb doğurmur: (7)

Mən kiməm? Bu sualı
Hər il ad günlərimdə
Öz-özümə vermişəm.
Cavab tapa bilməyib
Bu sualın önündə
Başımı endirmişəm.

Mən kiməm?
Mən nəçiyəm?
Eşqim, diləklərim nə?
Niyə gəldim dünyaya,
Bu dünyada yerim nə?

Sağ ikən də bilmirəm
Ölüyəm, diriyəm mən?
Əvvəlini, sonunu
Dərk etməyən, ən adi,
Kəslərdən biriyəm mən.

İmkanla arzuların
Arasında vurnuxan
Saat kəfkiriyəm mən.
Zamanın dəhrəsilə
Qanadlı arzuları
Budanan bir bəndəyəm.
Mən bir üzü ağamsa,
Bir üzü şərməndəyəm.
Mən özümün düşməni!
Hər gün çəkir çarmıxa
Öz içimdə mən, məni.

Mən özümçün həmişə
Baxdıqca sirri artan
Müəmmalı şəkiləm.
Özümə ittihamçı, özgəsinə vəkiləm.
Bildiyim bu qədərmiş
Məni məndən gizlədən.

Azərbaycan lirikasının bənzərsiz nümunələrini yaratmış Nəsimi yaradıcılığının ana xətti, xilqətin kamilliyə çağırışı üstündə qurulub. O, “Mən kiməm?”, – sualını vermədən əksər qəzəllərinin “məqtə” hissəsində, özü də müxtəsər təşbeh üstündə, özünün kimliyini vurğulayır: (8, 320)

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Məndən uludur ayətim, ayətə şanə sığmazam.

Bu ənənə klassik ədəbiyyatda geniş yayılıb. Nəsimi məktəbinin davamçılarından olan Şah İsmayıl Xətai də özü-özünü tanıdıqdan sonra elə nəzər salmanın əhəmiyyətini vurğulayır: (9, 30)

Xətai eydür: ya Qanı,
Verən mövla alıq canı,

Əvvəl kəndi-kəndin tanı,
Sonra elə nəzər eylə!

Ədəbiyyatda şairlərin bir-birinin sənət yolunu dəyərləndirməsi geniş intişarını tapıb. Məsələn, Xəlil Rza Ulutürkün "Nəsimi" şeirinin yalnız üç beytinə nəzər salsaq, onun Nəsimi sənətinə verdiyi dəyərin şairanə tablosunun şahidi olarıq: (10, 95)

Onlar dedi: – İnsan sığır bir beşiyə, bir tabuta.
– Yox! – söylədin – tabut nədir? Sığmır insan kainata!
– Nəkarasan? – Qışqırdılar. Dedin: – Qızıl dan yeriyəm.
Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm.

Dartındılar yerbəyerdən: – Sən Tanrıya kölə, bəndə.
– Yox! – dedin sən – Tanrı özü yaşar məndə, yaşar məndə.
Bizim qaynar qanımızda gizli çaylar aşıb-daşır,
İnsan kimi yaşayanda, insan özü tanrılaşır!

Unutdurmaq istəyirlər onlar mənə kimliyimi,
Dünən Babək özü geydi mənim qanlı köynəyimi.
Mən dünənəm. Mən bu günəm. Mən keçmişəm, gələcəyəm,
Ölsəm belə, bu dünyaya mən yenidən gələcəyəm!

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam", – misrası ilə başlanan məşhur şeiri İmadəddin Nəsiminin mükəmməl avtoportretidir. Sənəti və şəxsiyyəti haqqında müasirlərindən tutmuş, tədqiqatçılarına qədər məğrur şairin barəsində yazılanların hamısında "Sığmazam" bəyanatı Nəsiminin real simasını və idealını mənalandıran açar anlayış kimi göstərilir (11, 7).

"Sığmır insan kainata!", – ifadəsi və bütövlükdə birinci bənd, məhz bu amalı əks etdirir.

İkinci bənddə – "Sən Tanrıya kölə, bəndə. Tanrı özü yaşar məndə", – yer almış fikirlər isə "Mən Allaham", – fikrinə işarədir. Nəsimi öz gözəl əxlaq və saleh əməli ilə Allahın zərrəsinə çevrilmişdir. "Ənəlhəq" ideyasına gəlincə, şair onu insanın kamilləşmə zirvəsi kimi görür (12, 82).

Sonuncu bənddə Xəlil Rza "Mən dünənəm. Mən bu günəm. Mən keçmişəm, gələcəyəm, mən yenidən gələcəyəm", – misraları ilə şairin əməl və sənəti ilə baqiliyinə işarə edir, onun kimliyini, qərinələr sonra ədəbiyyatda bir daha yeniləyir.

Şair "Mən dünənəm. Mən bu günəm" cümləleri ilə gəlimli-gedimli dünyaya, "Mən yenidən gələcəyəm" cümləsi ilə isə Nəsiminin, yazdığı ədəbi mirası ilə dünyada sonsuzluğa qədər mövcudluğuna işarə edir. Azərbaycan atalar sözündə deyildiyi kimi – "Şair ömrü sözdə yaşar". (2, 410)

İlk təhsilini Ağdaşda alan, sonralar tanınmış şərqşünas-alim Muxtar əfəndinin "Rüşdiyyə" məktəbində davam etdirən, ilk qələm sınaqlarında istiqlalın gətirdiyi bir milliyyətçi, türkçü vətənpərvər bir ruha hakim olan şair kimi çıxış edən Maqsud da şeirində, klassik dönəm ədəbiyyatında olduğu kimi, sorğularını cavablandırmaq şərti ilə kimliyindən söz açır: (13, 141)

Kiməm, haralıyam, soruşsan ey dost,
Bir vaxt ərzə işıq saçanlar bizik.
Köksümüz altında qaplanlar yaşar
Ən uca dağları aşanlar bizik.

Ədəbiyyat, həm də dövrün ictimai-siyasi çağırışı ilə səsləşən bir mənəvi-psixoloji prosesdir. Ədəbiyyatın tarixi dövrləşmə konsepsiyasının ayrı-ayrı bölmələrinə nəzər salsaq, yazar və şairlərin müxtəlif zaman kəsişməsində dövrün ictimai-siyasi çağırışına tam və ya qismən bağlı olduqlarının şahidi olarıq. Bir qrup yazar və şairlər yaradıcılıqlarının hər dönəmində klassik ənənəyə, dövrü səsləşmə və müasir sənətin tələbləri qalmaq şərti ilə, sadiq qalsalar da, başqa bir qismi isə zamanın tələb və üslubuna üstünlük vermişlər. Şairlərin klassik ədəbiyyatın ənənələrini qorumaqla, müasir yanaşmalarını saxlamaları, onların klassik dönəm ədəbiyyatına, xalqımızın zəngin irsinə verdiyi dəyərdən irəli gəlir.

Yeri gəlmişkən, bir haşiyə çıxaraq qeyd etmək istərdik ki, köhnə ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik olduğundan, üzvi bir bağlılıq da vardır. Həm də ədəbiyyatın əsas amallarından biri, əsas obrazı in-

san və onun əxlaqıdır.

...Nizami Gəncəvi öz yaradıcılığında Şərqin böyük söz ustadları Firdovsi və Əttarın, Füzuli isə Nizami, Həbai, Həbibi və Nəsiminin şeir ənənələrini davam etdirmişdir. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.Ə.Sabir realizminin ideya-bədii kökləri M.F.Axundov və Q.Zakirin realist ənənələri ilə üzvi surətdə bağlıdır (3, 71).

Bu, məsələnin mənbələrdə qeyd olunan bir tərəfi. Başqa bir tərəfini isə Vaqif yaradıcılığına istinadən qeyd edə bilərik.

Azərbaycan ədəbiyyat tarixində xüsusi yeri olan və Azərbaycan şeirində yeni bir dövrün, bu günün elmi müstəvisi baxımından erkən yeni dövr Azərbaycan ədəbiyyatının əsasını qoyan milli şairimiz M.P.Vaqif yaradıcılığı, həm də xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağından çıxış edən ədəbiyyatdır (14, 58). Deməli, klassik ədəbiyyat müxtəlif dönəm ədəbiyyatlarının yaranma və təkamülündə örnəkliyi, ibrət və nəsihəti, ən əsası isə insanın vəsfi baxımından təməl daşıdır.

**Ədəbiyyat: yazılma səbəbi və ibrətamiz nəticəsi.** Ədəbiyyatın müxtəlif zaman çərçivəsində ərsəyə gəlməsinin məxsusi yazılma səbəbi olduğu kimi, onun insanlığa örnək olan ana xətti, ana beytləri ilə yanaşı, yaddaşlarda həkk olunan nəticəsi – müəllifin və ya şairin dünyaya baxışının və ya nəzmləşdirilmiş mövzuya münasibətinin sonu, şeir boyunca əsaslandırdığı fikrə məntiqi yanaşması və bu anlamda üslubun özünəməxsusluğu və məsələyə yanaşma, əsərin quruluşu, istifadə edilən poetik vasitələr, hətta şeir növü belə şairin fərdiliyinə, onun zövqünə bağlıdır.

Yəni əsərin və onda qoyulan əxlaqın özəllik və gözəllikləri, təsir gücü – sənətkar, onun sənəti və sözün geniş mənasında onun gözəlliyə aşiq olmasından irəli gəlir. Xalq şairi S.Vurğunun "Şairin ölümü" adlı şeirində Vaqifi, bir şair olaraq, səciyyələndirdiyi misralar qeyd etdiyimiz fikri şairanə tərzdə təsdiqləyir: (15, 63)

...Şairin ilhamı gözəldir deyə,
Əzəldən aşiqdir o gözəlliyə.

**Əsərin giriş bölməsində əxlaqi-tərbiyəvi motivlər.** Klassik ədəbiyyatda məsnəvi şəklində qələmə alınan dastanlar öz fərqli quruluş və düzəninə görə də tərbiyəvi mahiyyət daşıdığı üçün nəzər-diqqətimizi cəlb etdi.

Orta əsrlər müsəlman xalqlarının ədəbiyyatında diqqəti cəlb edən aparıcı ideya-məzmun qatlarından biri burada yer alan dini-əxlaqi motivlər və həmin motivlərin fərqli məna xüsusiyyətləri ilə ifadəsidir. Dini dəyərlər bəşərin fərdi və ictimai tərbiyəsində mühüm yer tutur və qeyd etmək lazımdır ki, ümumiyyətlə, din və tərbiyə məfhumları bir-biri ilə bağlıdır. Ona görə etiqad məsələsi mənəvi tərbiyədə böyük yer tutur.

Din elə bir mənəvi-ictimai dəyərdir ki, onun vasitəsilə tənzimlənən tərbiyə bir sıra fəzilətlərin formalaşmasına şərait yaradır. İslamda tərbiyə dedikdə, ilk növbədə insanda tövhid etiqadının aşılanması nəzərdə tutulur.

Dini tərbiyə sadəcə fərdin etiqadının möhkəmlənməsi ilə məhdudlaşmır, bəlkə də həmin etiqadın köməyi ilə əxlaq və davranışın mükəmməl biçimə salınmasını nəzərdə tutur. Buradan dini tərbiyə məfhumunun geniş məzmu-

nu əhatə etməsi bəlli olur, tərbiyənin səmərə və nəticəsi isə əməl və rəftarda özünü göstərir.

Qeyd etdiyimiz kimi, klassik ədəbiyyatda geniş işlənən dastan və məsnəvilər təkcə bədii-estetik idealların ifadəsi baxımından deyil, həm də ədəb, əxlaq və tərbiyə cəhətdən mühüm əhəmiyyət doğurur. Türkdilli və farsdilli poeziyada bu cür motivlər geniş təmsil olunur. Məsnəvi və dastanların giriş bölmələri isə həmin motivlərin ifadəsi baxımından münasib quruluşa malikdir. Əksər əsərlərdə belə bir ənənəvi sxem mövcuddur: tövhid, minacat, peyğəmbərin nəti və merac. Bəzən buraya şairin nəsihəti də əlavə olunur.

Nümunə üçün Nizaminin "Sirlər xəzinəsi"ndən bəzi məqamları qısaca nəzərdən keçirək.

Şair tövhid və minacat bölməsində deyir (Nizami. Xəmsə, s.17):

ای همه هستی زتو پیدا شده
خاک ضعیف از تو توانا شده
زیرنشین علمت کاینات
ما بتو قائم چو تو قائم بذات
هستی تو صورت پیوند نی
تو بکس و کس بتو مانند نی
آنچه تغیر نپذیرد تویی
وانکه نمردست و نمیرد تویی
ما همه فانی و بقا بس تراست
ملک تعالی و تقدس تراست

Ey (Allah), bütün varlıq Səndən peyda olub
Zəif torpaq Səndən güc və qüdrət tapıb.
Bayrağının altında kainat əyləşər,

Biz Səninlə varıq, Sən isə öz Zatınla varsan.
Sənin varlığın surətə bağlı deyil,
Sən kimsəyə, kimsə Sənə bənzər deyil.
O şey ki dəyişməz, Sənsən,
O şey ki, ölməyib və ölməz, Sənsən.
Biz hamı faniyik, deməк, bəqa Sənindir
Uca və müqəddəslik mülkü Sənindir.

Bu beytlərdə Allahın birliyi, yeganəliyi, qüdrəti, hər şeyin Ona bağlı olması, Onun zatının əbədiliyi və dəyişməzliyi, ucalığı və müqəddəsliyi ifadə olunur. Sonra şair öz adının şərafətini Allahın adı ilə bağlayır və ona bəndə olmağı özünə xacəlik – ululuq hesab edir (16, 19):

ای شرف نام نظامی به تو
خواجگی اوست غلامی به تو

Ey Allah, Nizaminin şərəfi Sənin adına bağlıdır,
Sənə qulam olmaq onun üçün xacəlikdir.

Şair peyğəmbərin tərifində o həzrətin fəzilətlərini dilə gətirir (16, 19):

امی گویا به زبان فصیح
از الف آدم و میم مسیح
همچو الف راست به عهد و وفا
اول و آخر شده بر انبیا
از سخن او ادب آوازه‌ای
وز کمر او فلک اندازه‌ای

Fəsahətli dililə danışan "Ummi",
Adəmin "əlif"i və Məsihin "mim"i.

“Əlif” kimi əhd-vəfaya dürüst,
Peyğəmbərlərə əvvəl və axır olmuş,
Ədəb onun sözündən şöhrətlənib
Onun kəmərindən fələk ölçü-nizam tapıb.

Hz. Peyğəmbər “ummi” dərs oxumamış olsa da, Allah ona fəsahət və fəzilət bəxş edib və ona görə o həzrət ən böyük əxlaq və ədəb sahibi kimi başqalarına nümunə olaraq tanınır. Kainat özü onun üçün taxt-tac olmuş, Allahın nuru onun qəlbinə təcəlli etmişdir (16, 23):

تاج تو و تخت تو دارد جهان
تخت زمین آمد و تاج آسمان
سایه نداری تو که نور مهی
رو تو که خود سایه نور اللهی

Dünya sənin taxtını və sənin tacını daşıyır,
Yer taxt, göy isə tacın oldu.
Kölgən yoxdur, sən ki bir ayın nurusan
Sən gəl ki, özün İlahi nurun kölgəsisən.

Bu fikir Həmid Araslı tərəfindən daha müfəssəl şəkildə qeyd edilib: “Sirlər xəzinəsi” yazılı ədəbiyyata Nizami tərəfindən gətirilmiş sər’i bəhrində yazılmışdır. Əsərin kompozisiyası da orijinaldır. Burada müqəddimə çox geniş yer tutur: Tövhid (Allahın bildiyini tərənnüm), minacat (Tanrıya yalvarış), beş nə’t (Peyğəmbərin tərifi), meracnamə (Peyğəmbərin meraca getməsi), əsərin ithaf olunduğu hökmdar Fəxrəddin Bəhram şahın tərifi, padşaha xitab, əsərin yazılma səbəbi, sözün fəziləti, şairin rütbəsi, ürək və onu dərk etmək, birinci xəlvət (gizli söhbət), ikinci xəl-

vət (gecə söhbətinin nəticəsi) – bütün bunlar oxucunu əsas mövzuya hazırlayır.

Müqəddimədəki tövhid, minacat, nə't, meracnamə və mədh bölmələrində şair tez-tez mövzudan kənara çıxaraq zəmanə və öz vəziyyəti haqqında mülahizələr yürüdür, bu və ya digər dini-tarixi, ictimai məsələlərə münasibətini bildirir.

Əsərin yazılma səbəbi, sözün fəziləti və şairin rütbəsi bölmələrində Nizami öz əsərlərinin orijinallığından bəhs edərkən, onun ümumxalq mənafeyini güddüyünü, hamının zövqünü oxşadığını bildirir. O, əsərinin sözün qədrini bilənlər yanında qiymətli olacağına inanır, sənət və sənətkar haqqında əhəmiyyətli mülahizələr söyləyir" (17, 194).

Ümumiyyətlə, onu da qeyd etmək istərdik ki, zəngin klassik əsərlərin, o cümlədən məsnəvilərin belə bir quruluşa malik olması bir tərəfdən insan kamilliyinə xidmətdirsə, digər tərəfdən həmin dövrə xas kitab mədəniyyətinin bariz göstəricisidir.

**Milli ədəbiyyatda varislik.** Milli ədəbiyyat daxilində ədəbi əlaqələrin bir-birinə təsiri danılmazdır. Klassik aşıq şeiri bir çox cəhətdən yerli və şifahi ənənələrə sadiq qalmaqla yanaşı, klassik ədəbi prosesdən də varislənir. Aşıq poeziyası ilə klassik irs arasındakı qırılmaz əlaqənin mövcudluğunu və bir-birinə təsirini Azərbaycan ədəbiyyatında mühüm yeri olan dastanların quruluş-giriş hissəsində, ənənəvi ustadnamədə, mənzum atalar sözlərinin müəyyən vəzn və kompozisiya daxilində, özü də üçlük şəklində birləşdirilməsi yolu ilə yaradılmış hissəsində görürük.

Beləliklə, hər iki halda, məsnəvi şəklində yazılmış

dastan və aşıq poeziyasında, əsərlərin məzmunu ilə yanaşı, quruluş gözəlliyi, onun nəsihət və ibrəti əsas məzmuna öz zənginlik və əlvanlıq çalarını qatmaqla yanaşı, insan kamilliyinə də ovqatını qatır.

Ədəbiyyat, bütövlükdə həyatı inikas etməklə yanaşı, kamilləşmə yolunu cızsa da, zaman-zaman yaranmış tələbat nəticəsində nəsihətnamələr, tövsiyələr, öyüdlər, atalar sözləri, zərbül-məsəllərlə dolu, hətta qeyd etdiyimiz başlıqlar altında belə əsərlər yazılır. Həyatda baş verən hadisələrin dəfələrlə təkrarı, ədəbiyyatın zamanın sınağından keçərək ərsəyə gətirdiyi nəticələr, qeyd etdiyimiz əsərlərin yaranmasına səbəb olurdu. Nəsihətnamələr, müəllifin həyat təcrübəsi, eşitdiyi, bəhrələndiyi müdrik sözlərin təsiri və zaman-zaman ortaya çıxan məsəl və atalar sözlərinin birgə məhsulu kimi ortaya çıxır. Hətta mənbələrdə qeyd edildiyi kimi, Yaxın Şərqdə, o cümlədən Azərbaycanda "Gülçin" adlı şeir məcmuəsi də mövcud imiş. "Gülçin"də, əsasən nəsihətamiz şeirlər toplanır, müəyyən mövzuda bir və ya bir neçə yazıçının əsərlərindən seçmə parçalar, şah beytlər düzülürdü (3, 93).

Nəsihətamiz şeir və nəsihətnamələr klassik ədəbiyyatda geniş yayılıb.

Şah İsmayıl Xətai qısa ömür sürməsinə baxmayaraq, zəngin ədəbi irsi ilə – "Divan", didaktik-fəlsəfi əsərləri, mənzumələri, lirik qoşma və bayatıları, həmçinin "Dəhnamə" adlı poema və "Nəsihətnamə"si ilə əxlaqın gözəlləşməsi və Adəm övladının kamillik məqamına yetişməsinə xidmət etmişdir. Şairin qəzəlləri həm məzmunu, həm də "nəsihət" sözünün istifadəsi baxımından nəzər-diqqəti

cəlb edir: (18, 153)

Zahida, vermə nəsihət eşqi tərk etgil, deyü
Aşiqin Allah bilir kim, sevgisi rəhmanıdır.

Və ya:

Pənd nəsihət tutmadın, neyçün könül verdin ona,
Billah cəzadır, ey könül, hicran oduna yanədir (18, 165).

Sözsüz ki, belə əsərlərin meydana gəlməsi bir tərəfdən zamanın ədəbi çağırışı, digər tərəfdən isə şairin özünün nəsihətlərinin qayəsi sayəsində ayrıca əsər şəklində ərsəyə gəlir.

Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik (I kitab, Bakı-2019) kitabının "Klassik ədəbiyyatda "Quran" motivləri və ideya-estetik tərbiyə" bölümündə Şah İsmayıl Xətainin "Nəsihətnamə"si haqqında məlumat verdiyimiz üçün şairin tövsiyə, arzu və istəklərinə həsr olunmuş şeirlər üzərində dayanmaq istərdik.

**Xətai yaradıcılığının tövsiyəvi əhəmiyyəti.** Əsərdə Xətai yaradıcılığına geniş yer verilməsinin başlıca səbəbi şair haqqında məlumat verən bütün mənbələrin onun anadilli şeirin inkişafında özünəməxsus rolu olmaqla yanaşı, həmçinin elmin və mədəniyyətin inkişafına hər cür şərait yaratmasına bağlıdır. Şah İsmayıl Xətainin "Dəhnamə"si (Məşuqənin Səbanı azad etməsi) tövsiyə üstündə yazılmış ən maraqlı şeirlərdəndir: (9, 143)

...Səbr ilə kişi məqamə yetdi,
Həm səbr ilə təşnə camə yetdi.
Məcnun bə səbr buldu Leyla

Səbrilə çıxar zisər bu sevda.
Səbr ilə dutar cahan nizami,
Səbr ilə yetər könül məramı.
Səbr ilə tapar cahan vüqarı,
Qul səbrilə buldu girdkarı.
Səbrilə verir zəmin nəbatat,
Səbrilə yetir göyə minacat.
Səbri yox olanə çox xərəcdir,
Çün səbr fütuh həp fərəcdir.

Şair tövsiyə səciyyəsi daşıyan bu şeiri ilə bir tərəfdən Qurani-Kərimin "Bəqərə" 45, "Əl-İmran" 200 və b. surələrinə, digər tərəfdən isə "Çün səbr fütuh həp fərəcdir" – misrası ilə Şərqdə (xüsusən ərəblərdə) geniş yayılmış "Əs-sabru miftahul-fərəc" (Səbr xoşbəxtliyin açarıdır) atalar sözünə işarə etmiş olur.

**الصبر مفتاح الفرج**

Bu atalar sözünün bir başqa versiyası da ədəbiyyatda geniş istifadə edilir.

**يُعَّد الصّبر من أجمل الصّفات، فهو مفتاح الفرج لكل شيء لا محالة**

Səbr ən gözəl xüsusiyyətlərdən hesab olunur, eyni zamanda şübhəsiz ki, hər şey üçün sevincin açarıdır. (19)

Klassik dönəm şairlərinin hər birinin yaradıcılığında insanın əxlaqına gözəllik qatan ənənəvi mövzular önəmli yer tutur, lakin fərqli üslub, fərdi yanaşma, fərqli təqdim poetikası və təxəyyülün məhsulu kimi... (5, 49)

Səbr qıl, səbr ilə məqsudinə səbr əhli yetər,
Səbr edən səbrilə sərrişteyi-məqsud tutar.

Klassik Şərq ədəbiyyatında bir ənənə olaraq, söz və onun məqamına görə işlədilməsinə çox böyük önəm verilir. Bu ənənələrə sadiq qalan Marağalı Əvhədi yaradıcılığında da bu fikir, müəllifin sələflərindən öyrəndiyi, faydalandığı sözə verdiyi qiymət kimi öz əksini tapıb: (1, 259)

Kuzəmdə bir damla varsa da əgər,
Haman dənizlərdən bir paydır məgər.
Məni özlərinə bilərək məhrəm,
Məhrum etmədilər göstərib kərəm.
Ədəblə yanaşdım sözlərinə mən,
Gen qaçdım qarətdən, ədəbsizlikdən.
Günah yol tapmadı əsla qəlbimə,
Tüfeyli olmadım sözdə heç kimə.

Xətainin tövsiyə xarakterli bu şeirində eyni ənənə şairə məxsus şəkildə əksini tapıb: (9, 37)

Sözünü yaxşı bişirgil,
Yaxşı us ilə düşürgil.
Yaramazını şaşırgil,
Canına olur dağ bir söz.

Xətai "Gəraylı"sından gətirdiyimiz nümunədə sözün ecazkar qüdrəti vurğulanmaqla yanaşı, danışanın "ədəb" qaydalarına riayət etməsi də tövsiyə edilir. Çünki Həzrəti Əli əleyhissəlamın sözlərinə görə "Ədəb insanın kamalıdır" (2, 447). Şairin "Qoşmalar"ı içərisində bir tövsiyəsi də çox maraqlı və aktualdır: (9, 11)

Şah Xətai aydır: sirrini yayma,
Qıla gör namazın qəzaya qoyma,
Şu yalan dünyada heç sağam demə,
Tənin tənaşirdə, sirrin saldadır.

Xətainin birinci misrada işlətdiyi “sirrini yayma” ifadəsi özünə müraciətən söylənilsə də, əslində xalqına müraciətdir. Şairin sevgi və səmimiyyətindən irəli gələn müraciətdir. Bu ifadə də əslində ərəblərdə yaranmış və Şərqdə geniş intişarını tapmış “Sirrukə əsirukə, izə təkəlləmtə, əntə əsirəhu” (“Sirrin əsirindir, əgər danışsan, onun əsiri olarsan”) atalar sözləri ilə səsləşir.

**تكلمتاانتاسيرهسركاسيرک إذا**

Bu atalar sözü “Elin yaddaşı. Dilin yaddaşı” kitabında “Ağzındakı söz sənindir, bayıra çıxdı – özgənin”, – şəklində də öz əksini tapıb (20, 8). “Atalar sözü” kitabında isə “Sirr açandan el qaçar” (21, 17) və “Sirrini dosta demə, dostunun da dostu var” (21, 32) kimi də əksini tapıb.

Növbəti misralarda dünyanın faniliyinə işarə edən şair baqiliyi qazanmağı və İslam dininin əsas şərtlərindən və Meracın insanlığa hədiyyəsi olan namazı vaxtlı-vaxtında qılmağı tövsiyə edir.

**Qurani-Kərim kamillik zirvəsinin ilk və son nöqtəsi kimi.** Kamil insan daima əməli-salehliyə gedən yolların axtarışındadır. Bu əbədi axtarış tükənməzdir. Ədəbiyyat da bunu tənzimləyir. Kamilliyə, gözəl əxlaqa gedən yolun ən ümdə mənbə və məxəzi isə Qurani-Kərimdir. Qurani-Kərim ilahi kəlam, bədii söz sənətinə xas olan

özəllikləri özündə əks etdirən bəlağətli kitab, nitqin ən kamil və yetkin nümunəsi, söz sənətinin meyarıdır.

Qurani-Kərimdə kamilliyin ilk nöqtəsi "Bismillahir-rəhmanir-rəhim", son – kamillik zirvəsi isə "İxlas" surəsidir.

"Bismillahir-rəhmanir-rəhim" İmam Baqirin (ə) sözləri ilə desək, "Asimandan nazil olmuş hər bir kitabın əvvəli, hər bir surənin sona çatması və digər surənin başlanğıcıdır" (22, 158).

Klassik dönəm şairlərinin demək olar ki, hamısı Qurani-Kərimin ilk və son nöqtəsini – Allahın vəhdaniyyətini özlərinə məxsus sevgi, zövq, üslub və təqdim poetikası ilə ədəbiyyata gətirmişlər: (18, 113)

...Dəftəri-hüsnündə şol hərfi-xəti-xalın sənin,
Sətri "Bismillah ərrəhmanirrəhim" olmuş durur.

Sudqimiz ol vəchdir kim, həqq olur anda zühur,
Kim təriqətdə "sirati-müstəqim" olmuş durur.

Aşıq Ələsgərin yaradıcılığında klassik ənənəvi mövzular islami qayda-qanunlar, dəyərlər, Şərq nəzəri sisteminin terminləri, Quranın ecazkar məzmun qatları və Qurani istilahlar, dövrün tələbi çərçivəsində, aşığın yaşadığı mühitin ümumi və fərdi üslubuna uyğun şəkildə öz layiqli yerini tutub: (23, 148)

"Bismillahir-rəhmanir-rəhim" deyib
Girirəm meydana, gəl eyləyək bəhs.
Sən toxundun, mən də sana toxunnam,
Şəriətdə halal qisasa-qisas,
Qoy ucalsın səs!

Ədəbiyyatda "İxlas" surəsinin bütün ayələrinin şeirdə həlli Nəsimi yaradıcılığında möhtəşəm şəkildə əksini tapmışdır: (12, 166)

Oxuram ismində "Bismillah ir-rəhman ir-rəhim",
Ey sifatındır sifatının "Qul huvə Allahu əhəd ".
"Əvvəlü axır" huvə həyy əlləzi sən layəmut,
"Zahirü batin" huvə əl-baqisən "Allahu səməd".
"Ləm yəlid" sənsən oxurlar ey "vələm yuləd" Səni,
"Ləm yəkun" zatü sifatının misli "kufuvən əhəd".

Nəsimi bu üç beytdə sənətkarlıq və məharətlə Quran-i-Kərimin "İxlas" surəsini bütöv, həm də oxucunun ürəyini oxşayan tərzdə işlətmiş, dörd ayənin hər birini ardıcıl şəkildə verərək, Allahın birliyini və yeganəliyini təsdiqləyən, tövhid etiqadının məğzini açıqlayan Allah kəlamını poetik qəlibə salmışdır. Əslində, şair Qurandan sadəcə iqtibas etməmiş, əksinə, öz sözünü Quran ayələrinin məna və ahənginə uyğunlaşdıraraq, Allah kəlamının təsiri altında qalmışdır:

1. Öncə Quranın açarı olan Allahın Rəhman və Rəhim adı verilir:

***Bismillah ir-rəhman ir-rəhim***

2. Burada diqqəti cəlb edən cəhətlərdən biri Quran ayələrinin bir qisminin rədif kimi işlədilməsidir:

***Allahu əhəd, Allahu səməd və kufuvən əhəd.***

3. Həmin surədən olan ayələrin ayrı-ayrı parçaları da öz məzmununa uyğun şəkildə təqdim edilmişdir:

***Ləm yəlid, vələm yuləd, Ləm yəkun***

4. Bu şeir parçasında həmçinin əl-Hədid surəsinin 3-

cü ayəsi işlənmişdir: ***“Əvvəl də, axır da, zahir də, batin də Odur”.***

5. Sadalananların böyük qismi isə Allahın ad və sifətləridir:

***Rəhman, Rəhim, Əhəd, Səməd, Əvvəl, Axır, Zahir, Batin*** və s.

Nəsimidən fərqli olaraq, Xətai yaradıcılığında “İxlas” surəsinin adı şeirə gətirilərək, onun ümumi məzmununun tərbiyəvi əhəmiyyətinə işarə edilir: (9, 8)

Gəlib ixlas ilə yola gedənin
Zərrəcə könlündə güman gərəkməz.
Sil-süpür qəlbini, evin pak eylə,
Möminin aynası duman gərəkməz.

Və ya

Bu gün ixlasü sidqilə Xətai valeh olmuşdur,
Ki, yüzü səm’i-ənvari, saçı onun müənbərdir (18, 109).

Bir başqa nümunəyə müraciət edək:

Yəqin, ixlas gərək eşqin yolunda
Get, ey münkiri-ləin, səndə güman var (18, 167).

Xətai bu beytdə eşqin yolunda “İxlas” surəsinin önəmini vurğulamaqla kifayətlənməyib, iki misranı müqabilləşdirməklə, surənin tərbiyəvi əhəmiyyətini bir daha qabardır.

Allahın varlığına, onun birliyinə dəlil olan “İxlas” klassik yaradıcılığın ənənəvi mövzularından biri olduğu üçün klassik dönəm şairlərinin demək olar ki, hər birinin yaradıcılığında özünəməxsus sevgi ilə əks olunduğu kimi,

aşıq yaradıcılığında da geniş intişarını tapıb. "Qurbani" dastanına nəzər salsaq, Tanrının əhədiliyini qəbul edən, qəlbini masivadan təmizləyən, öz varlığının "mən'"ini tövhiddə əridən bir insanın "O Allahdır," – deməsi, dastanda aşığın dəst-xəttinə uyğun şəkildə öz əksini tapmışdır: (23, 75)

İxlas kəmərini vurdum belimə,
Qüdrətdən su bağlanıldı gölümə,
Həqiqətdən bir yol düşdü əlimə,
O yolu tutub yol-ərkana yetişdim.

Ümumən ədəbiyyat, xüsusilə də Qurani-Kərim bəşər övladına əxlaqı, fəziləti təlqin edir. Ədalət və insafla münasibət bəsləmək, kamil insan olmaq nümunəsini aşılayır.

Türk şairi Ziya Paşa aqil və kamil insanı, təxəyyülünün məhsulu kimi, qərəzdən uzaq, ədalətin icraçısı, xeyirxah, qəlbi-rəqiq və b. bu kimi müsbət sifətlərə malik olan Adəm övladı kimi görür: (24, 69)

Susan ona derlər ki, qərəzdən ola salim,
Nəfsində dəxi eyləyə icrayi-ədalət.
Susan olanın xeyir olur adəmlərə qəsdi,
Susanlığa insanda budur iştə dəlalət.
Susan ona derlər ki, edə qəlbi-rəqiqi
Alami-bəninöv ilə kəsbi-məlalət.

Dünyanı pəncərə sayan babalarımız, nənələrimiz, eləcə gəlib keçməmiş, gəlib bu dünyanın gözəllik, müdriklik donunu biçmiş, sözlə insanı, dünyanı, gözəl olan hər şeyi yaşarı etmişlər.

Bizim babalarımız sözün sehrinə, sözün gücünə tapınmışlar. Söz söyləyən, boy boylayan el ağsaqqalı olmuş, elin yoluna işıq salmış, bu işıqdan aşıqlar törəmiş, minlərlə söz yadigarı soydan-soya, zamandan-zamana keçmişdir.

...Dünya haqqında ilk sözü layla, son sözü ağı demiş, dünyanın sevgisini bayatı çağırmış, dünyanın gəliş-gedişini, dolanbac yollarını nağıllar, dastanlar yaratmışdır.

Əfsanələr, əsatirlər sözün qanadında göylərə ucalmış, yer-yer dolaşmışdır. Sözdə yaşayan nağıllar, dastanlar, bayatılar, eldən-elə, ulusdan-ulusa, arandan dağa, qışlaqdan yaylağa keçə-keçə, köçə-köçə qana, sümüyə işləmişdir (20, 5).

Kamil Vəliyev insanın mənəvi aləminin, düşüncəsinin zənginləşməsində mühüm rolu olan sözün ədəbiyyatın tarixi gedişatında mənzərəsini elə nizamlı və səmimi tərzdə əks etdirmişdir ki, onun söylədiklərinin elmin bu sahəsinin tarixi yaddaşında təzələnməsi üçün müəyyən ixtisarlarla saxlamağı zəruri hesab etdik.

Ədəbiyyatın təməlində el sözü, xalq sözü, aşıq sözü, ağsaqqal sözü, dilimizin ana kitabı sayılan "Dədə Qorqud" boyalarından süzülüb gələn ecazkar sözlər, sözün geniş mənasında, söz və kəlam durur.

Zənnimizcə, sərvətimiz sayılan söz bir ucu söyləyənə, biri dinləyənə, digəri isə zaman və məkanının fövqündə olan intihasızlığa bağlıdır. Bu da ədəbiyyatın keçdiyi tarixi dönəmin müəyyən kəsişmələrində həyat təcrübəsinin nəticəsi kimi ərsəyə gələn nəsihətnamə, zərbül-məsəl, şifahi xalq ədəbiyyatının ən geniş yayılmış formalarından biri olan, həyatın bütün sınaqlarından keçmiş və hətta

məzmunca aksiom şəklini almış atalar sözləri, islam peyğəmbəri Məhəmməd (s.ə.s) və onun məsləkdaşlarının həyatında baş vermiş hadisə, yaxud hikmətamiz kəlamlar haqqında rəvayətlərin məcmusu olan hədis və məsəllərin ərsəyə gəlməsi ilə nəticələnir. Artıq ədəbiyyat, bir növ "arifə bir işarə yetər", – atalar sözlərinin məzmun qatları və müxtəlif çalarları üstündə təşəkkülünü davam etdirir.

Deməli, ədəbiyyat "söz və məna" vəhdətində olduğu kimi, məzmunu baxımından da olduğundan daha artıq şəkildə, əxlaq gözəlliyinin rəmzi əlaməti olan yaxşılığa doğru yön alır. Çünki bəlli olduğu kimi, "yaxşılıq elə əxlaq gözəlliyinin özü deməkdir" (25, 135).

Araşdırmalar nəticəsində son dövrdə çap olunmuş bir sıra kitabları nəzərdən keçirdik. Nəzər-diqqətimizi bir neçə kitab xüsusilə cəlb etdi. Bunların içərisində "Ağıla və qəlbə işıq saçan sözlər" adlı kitabın yeri özəldir. Kitabın məzmunu ilə tanış olduqdan sonra cildin arxa səhifələrində yazılmış xülasə ilə tanış olduq. Kitabın adı, məzmunu və ona qısa, lakin qəlbə, həqiqətən də nur saçan xülasə arasında ecazkar bir bağlılıq gördük və onu qeyd etməyi zəruri hesab etdik. Bir daha vurğulamaq istərdik ki, qəlbimiz kitabın içində yazılanlar və yazılmış fikirlərə verilən dəyər – insanın mənəvi aləminə inciləşib düzülmüş, ağıla və qəlbə işıq saçan sözlər, aforizmlər, hikmətamiz ifadələrlə nurlandı. Əsər, elmə – ədəbiyyata sevgi dolu olan zəhmətin nəticəsidir.

Ağıla və qəlbə işıq saçan sözlər.

İnciləşib düzülmüş bu kitabda sözlər sərrafını gözlər.

Fikir və əhatə dairəsinin zənginliyi ilə seçilən bu ki-

tabda yazılmış və deyilmişlərin hamısı müxtəlif mənbələrə istinad edilsə də, bir niyyətə, bir amala üz tutub, ədəb və zəka aydınlığına yönəlmişdir... Bu kitabı oxuduqca, insanlığa yaraşmayan hisslər gedəcək, qəlbi və əməli gözəlləşdirib kamilliyə yönəldəcək...

Diqqət et! Bu kitabda Yaradandan-yaranışa gəlmiş kəlamlara və deyilmiş sözlərə kimi görəcəksən.

Bu kitabda zaman itir, məkan itir, məkansızlığa – Qərbə, Şərqə, Cənuba, Şimala – hər tərəfə üz tutulur.

Sözlər sanki göz önündəcə zirvələşir: ağıla və qəlbə işıq saçır.

Sözsüz ki, zamanın hər dönəmində, hər kəsimində əxlaqın gözəlliyinə xidmət edən bəlağət dolu ecazkar ədəbiyyata ehtiyacımız var.

Kitabda 150 mövzunu əhatə edən müdrik fikirlər toplusu əlifba sırası ilə düzülmüşdür.

**Dil.**

1. ...Dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun (Allahın) qüdrət əlamətlərindəndir (2, 53).

***Qurani-Kərim***

2. Dilin gözəlliyi insan üçün sərmayədir. İnsanın çətinlikləri onun dilindədir.

3. Dilini saxla! Çünki dilini saxlamaq, özün üçün verdiyin sədəqədir (2, 79).

***Həzrəti Məhəmməd (s.ə.s)***

4. Dilin bəlasıdır uzunçu olmaq,
Ariflər işidir sükuta dalmaq (3, 78).

***Nizami Gəncəvi***

Ümummilli liderimizin sözlərilə bu bölməyə yekun vuraq:

1. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir (2, 81).

***Heydər Əliyev***

**Dövlət.**

1. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır (2, 95).

***Heydər Əliyev***

2. Millətin ruhu dövlətin qüdrətinin ifadəsidir (2, 95).

***“Füyuzat” jurnalı***

**Dünya.**

Dünya sənin kölgənə bənzər: sən dayansan, o da dayanar. (2, 95)

***Həzrəti Əli (ə)***

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da ki, öyünmə, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər (2, 97).

***Məhsəti Gəncəvi***

Dünya duracaq yer deyil, ey can, səfər eylə,
Aldanma anın alinə, andan həzər eylə (2, 97).

***İmadəddin Nəsimi***

Dünya hər kəsin öz malını satdığı bir bazardır (2, 99).

***Məhəmməd Füzuli***

**Din.**

Kamil ağılın ən böyük xəzinəsi dindir. Buna görə də insanın dini ağıldır. Ağılı olmayanın dini də yoxdur (2, 83).

***Həzrəti Məhəmməd (s.ə.s)***

Milli liderimizin dinlə bağlı önəmli fikrini də qeyd edək: "Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur" (2, 83).

***Heydər Əliyev***

**Bilik.**

Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (2, 43)

***Qurani-Kərim***

Ən böyük sədəqə biliyi bilməyənlər arasında yaymaqdır (2, 43).

***Həzrəti Məhəmməd (s.ə.s)***

Bilik öyrənməyi ar bilən hər kəs
Dünyada mərifət qazana bilməz (2, 43).

***Nizami Gəncəvi***

Sən nə qədər bilirsən-bil, sənin bildiyin qarşındakının anladığı qədərdir (2, 47).

***Cəlaləddin Rumi***

**Böyük insanlar.**

Onlar elə kəslərdəndir ki, sözü yerinə yetirər və dəhşəti (aləmi) bürüyəcəkdən (qiyamət günündən) qorxarlar. Onlar öz iştahları çəkdiyi halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedi-

rərlər. Və sonra da yedirdikləri kimsələrə belə deyərlər: “Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik” (2, 52).

***Qurani-Kərim***

Dahilər bulud arxasından çıxan Günəşə bənzər (2, 52).

***Nəsirəddin Tusi***

Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətlidir (2, 52).

***Fəzlullah Nəimi***

Əsasən, Azərbaycan məsəl və misallarına yer ayırmaq niyyətində olsaq da, bəzi fikirlərdən, o cümlədən alman dramaturqu Xristian Fridrix Hebbeldən yan keçə bilmədik: “Dahi – bəşəriyyət kitabının sərlövhəsidir” (2, 59).

Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər (2, 53).

***Ümummilli lider Heydər Əliyev***

**Dostluq.**

İnsan öz dostunun dinindədir. Belə isə hər biriniz kiminlə dostluq etməyinizin fərqində olun (2, 86).

***Həzrəti Məhəmməd (s.ə.s)***

Eyibsiz dost axtaran axırda dostsuz qalar (2, 93).

***Nəsirəddin Tusi***

Dostluq, mehribanlıq göstərən, ey yar,
Gəlib qulun olar azad adamlar (2, 86).

***Nizami Gəncəvi***

Biz bir ruhuq iki bədəndə (2, 89).

***Məhəmməd Füzuli***

Qədim Roma dövlət xadimi və natiqinin fikri çox maraqlı və realdır: "Dost insanın ikinci özüdür" (2, 94).

**Böhtan.**

Günahsız adama böhtan atmaq böyük dağlardan da ağırdır.

***Həzrəti Cəfər Sadiq (ə)***

Atdığın böhtan, ləkələdiyin insanlar, dil uzatdığın kişi, qadın, mənəvi zərbəni fikirləşmədən yazdıqların cəm olub, tufan olub, bəla olub üstünə gələcək (2, 49).

***"Füyuzat" jurnalı***

Dərin dənizə daş atmaqla bulanmaz (2, 51).

***Sədi Şirazi***

Böhtan demə, böhtan tutar adamı,
Qul eylər, bazarda satar adamı (2, 50).

***Xəstə Qasım***

Əxlaqın kamilləşməsi yolunda mühüm rolu olan, bəşəriyyəti cəhalətdən, xurafatdan, pozğun həyat tərzindən uzaqlaşdıraraq, doğru-düzgün yola yönəldən kitablar içərisində önəmli yeri hədislər tutur. Professor Məmmədhəsən Qəmbərli tərəfindən toplanılan, tərcümə və tərtib edilən "Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər (1500 hədis)" adlı kitabının ən böyük dəyəri onun seçmə hədis toplusundan ibarət olması və ən əsası, geniş oxucu kütləsi

üçün nəzərdə tutulması, hər bir oxucu üçün anlaşıqlı olmasıdır.

Cahil insanın həyata – düzgün, əməli saleh olan həyata qayıdışı ən önəmli məsələlərdəndir.

Tərtibçinin kitabın giriş hissəsində yazdığı maraqlı məqamların bəzisi üstündə dayanmaq istərdik: "İctimai-siyasi problemlər – dövlət və dövlətçilik, diplomatiya, hərb və sülh, cihad, şəhid və şəhidlik, şahidlik və bunlarla ilgili mövzular Hz. Məhəmmədin hədislərində mühüm yer tutur. ...Hz. Peyğəmbərin bəşəriyyətə nə kimi tövsiyələr, məsləhət və mesajlar verdiyini bilmək istəyənlər... hədislərdən örnəkləri diqqətlə oxusunlar". (25, 4)

Tərtibçi kitabın ön sözündə ümumbəşəri dəyərlərə, ümumbəşəri məzmun və mahiyyət daşıyan hədislərə bölmələrdə geniş yer verildiyini qeyd edir.

Hədislərdə cəmiyyətin nizamlı inkişafında ailənin hansı təməl üzərində qurulması məsələsinə də önəm verilmiş, bu məsələlərlə bağlı dini qaynaqlarda olan fikir və tələblər irəli sürülmüşdür.

İnsanın sağlam əqidəsi, onun sağlam düşüncəsi vücudun sağlamlığına bağlı olduğu üçün Hz. Məhəmmədin bu sahədə insanlara söylədiyi bilgi və tövsiyələr də kitabda öz layiqli yerini alıb.

**Müslim və Tirmizidən:**

Üç özəllik vardır, bunlar kimdə varsa, o da imanın ləzzətini dadar: Allah və Rəsulunu hər kəsdən artıq sevmək, sevdiyini Allah üçün sevmək, Allah onu küfr bataqlığından qurtardıqdan sonra təkrar küfrə dönməyi oda atılmaq kimi çirkin və təhlükəli saymaq (25, 12).

**Buxari, Əbu Davud və İbn Macədən:**

Sizin ən xeyirliləriniz Quranı öyrənən və öyrədənlərinizdir (25, 19).

**Darimi və Əhməd ibn Hənbəldən:**

Qəlbində Qurandan bir miqdar olmayan kimsə xaraba ev kimidir (25, 20).

**Cəlal Yusifzadədən:**

Xalqın hamısından artıq ibadət edən o şəxsdir ki, xalqa doğru və məhəbbətlə nəsihət edir, qəlbi bütün müsəlmanların qəlbindən saf və təmiz olur (25, 26).

**Seyyid Əhməd Haşimidən:**

Bütövlükdə səadət Allah yolunda ibadətlə keçən uzun ömürlüdür (25, 38).

Elm, alim, öyrədən, öyrənən, söz və hikmət və s. adlanan ikinci bölmə də öz nəsihətamiz fikirləri ilə kamilləşmənin təmin olunmasına xidmət edir:

**Seyyid Əhməd Haşimidən:**

Elmi, elm üçün (gərəkli olan) sükunəti və ciddiliyi ilə öyrənin; elm öyrəndiklərinizə qarşı təvazökar olur (25, 63).

Hikmət şərəfli kimsənin şərəfini artırar və kölə olan bəndəni hökmdarların məclislərində oturacaq qədər yüksəldər (25, 63).

Ümmətimin yaxşıları (elmi ilə əməl edən) alimlər, alimlərin yaxşıları da mərhəmətli (elmləri ilə ətrafına faydalı) olanlardır... (25, 64)

Elm insanın həyatı və imanın sütunudur. Allah elm öyrədənin əcr və mükafatını kamil edib, tam olaraq verər.

Elm öyrənib elmi ilə əməl edənin bilmədiklərini Allah-təala ona öyrədər (25, 65).

Elm xəzinədir, açarı suallardır. Elə isə soruşun ki, Allah-təala sizə rəhm etsin. Çünki bu sorğudan dörd adam qazanar: soruşan, öyrədən, dinləyən və bunlardan xoşlanan (25, 65).

**Darimidən:**

Elm istəyində olanla dünya malı istəyində olan iki acgöz (heç vaxt) doymaz (25, 69).

Alimlərin kəlamı yoxsa, biz də yoxuq (25, 71).

Bütün qeyd etdiklərimiz ibrətamiz-nəsihətamiz fikirlərin əsas qayəsi yaxşılıq etmək, yaxşı əməllərin dalınca getməkdir. Çünki Müsliminin yazdığı kimi, "Yaxşılıq əxlaq gözəlliyidir" (25, 135).

Əxlaq, ədəb-ərkan, tərbiyə, mənəviyyat, həya, salam, səbir, səbirsizliklə bağlı hədislər doqquzuncu bölmədə verilir.

**Müslim və Tirmizidən:**

Yaxşılıq gözəl əxlaqdan ibarətdir. Günah isə qəlbini dırmaqladığı halda, insanların bilməsini istəmədiyin şeydir (25, 193).

**Tirmizi və İmam Nəvvəvidən:**

Qiyamət günü mömin bəndənin tərəzisində gözəl əxlaqdan daha ağır bir şey olmaz. Allah-təala çirkin hərəkətlər edən, çirkin sözlər söyləyən hər kəsə nifrət edər (25, 194).

**Əbu Davud və Tirmizidən:**

Bir mömin gözəl əxlaqı sayəsində gündüz oruc tutub, gecə namaz qılan kimsələrin dərəcəsinə yüksələr (25, 194).

**Cəlal Yusifzadədən:**

Xoş rəftar və gözəl davranış mənfəət əldə etməyin yoludur (25, 195).

**Seyyid Əhməd Haşimidən:**

Həqiqətən, Allah-təala comərddir. Comərdliyi və yüksək əxlaqı sevir. Düşük əxlaqı görmək istəməz (25, 197).

**İbn Ömərdən:**

Həya və iman (mahiyyətcə) bir-birinə yaxındır. Biri aradan qalxdıqda, o biri də gedər (25, 197).

**Seyyid Əhməd Haşimidən:**

Gözəl əxlaqla sükuta davam et. Nəfsim qüdrətli əlində olan Allaha and içirəm ki, məxluqat gözəl xasiyyət və sükut ilə gözəlləşdikləri qədər heç bir şeylə gözəlləşməmişdir (25, 200).

Bir ata uşağına gözəl bir ədəb verməkdən daha yaxşı bir şey verə bilməz (25, 201).

Səkkizinci bölmə: sünnə, tövsiyə, nəsihət, məsləhət, vəsiyyət və röya ilə ilgili hədislər

**Buxari, Müslim və İbn Macədən:**

Od sizə düşməndir. Yatdığınız zaman onu söndürün (25, 162).

**Əbu Davud, Nəsai və İbn Macədən:**

Sapand daşı ov ovlamaz, düşmən öldürməz. Sadəcə göz çıxarar, diş sındırar (25, 162).

**Müslim, Tirmizi və İbn Macədən:**

Səhər namazını qılan kimsə Allahın himayəsindədir

(25, 163).

**Əbu Davud və Tirmizidən:**

İnsanların arasını düzəltmək üçün xeyirli xəbər gətirən (və ya xeyirli söz söyləyən) kimsə yalançı sayılmaz (25, 164).

**Buxari, Nəsai və Müslimdən:**

Kisənin ağzını sıxma, Allah da sənə sıxaraq verər (25, 169).

**Əbu Davud və Əhməd ibn Hənbəldən:**

Məscidlərin ən xeyirlisi ən geniş olanıdır (25, 173).

**Buxari və Müslimdən:**

Saleh röya – bir rəvayətə görə gözəl röya – Allahdandır. Fəna röya isə şeytandandır... ( 25, 173)

**Əbu Davud və İmam Nəvəvidən:**

İnsanların Allah dərgahında ən məqbulu və Ona ən yaxın olanı öncə salam verəndir (25, 174).

**Müslim və Tirmizidən:**

Gözəl söz sədəqədir (25, 174).

Ədəbiyyat tarixinin yaddaşından heç nə silinmir. Belə ki, bu dünyanın bir pəncərə, gəlimli-gedimli, bir ucu ölümlü dünya olduğunu qeyd etsək də, klassik dönəm ədəbiyyatının intihasızlığını qoruyan bir mənəvi sərvət olduğu şəksiz-şübhəsiz bir həqiqətdir. Bu mənəvi sərvətimiz, o cümlədən Nəsimi sözü, özünün bütün varlığı və müasir şairlərin fərqli yanaşmaları ilə tarixdə öz təravətini saxla-

maqdadır. Bu dünyanın mənəvi sərvətini yaradan da, onu sevgi dolu yanaşmaları ilə yaşadan da xalq və onun qadir sənətkarlarıdır.

Klassik ədəbiyyat öz yaşamını zikrlər, şairnamələr, nəzirələr, yaradıcılıqların, bir məktəb olaraq, bir-birindən təsirlənməsi və b. üsullarla davam etdirir.

Zikr – istər klassik, istərsə də aşıq yaradıcılığında çox işlədilən istilahlardandır. Zikr, əsasən, din xadimlərinin ədəbiyyat tarixinin yaddaşında hifzinə xidmət edir və Qurani-Kərimdə, əsasən iki şəkildə – xilqətin xaliqini zikr etməsi və Peyğəmbərin dili ilə seçilmiş insanların xatırlanmasıdır (23, 118).

**Seyyid Əhməd Haşimidən:**

Allahım, Səni zikr etməyim üçün qəlbimin qulaqlarını aç! Məni Sənə və Peyğəmbərinə itaətlə və Kitabi-Kəriminə uyğun əməl etməklə ruziləndir (25, 32).

**Seyyid Əhməd Haşimidən:**

Allahın dərgahında əməllərin ən sevimlisi Allahın zikrindən dilin rütubətli olduğu halda ölməkdir (25, 27).

**Əhməd ibn Hənbəldən:**

İmanınızı təzələyin, "Lə iləhə illəllah" sözünü çoxaldın (25, 36).

**Seyyid Əhməd Haşimidən:**

Allahı zikr etmək qəlblərin şəfasıdır (25, 37).

Ədəbiyyatda geniş şəkildə istifadəsini tapmış zikrləri Xətaidən bir nümunə gətirməklə açıqlayaq: (18, 378)

Yəqin bil kim, xudadandır Xətai,
Məhəmməd Mustafaidir Xətai.

Səfi nəsli Cüneydi-Heydər oğlu,
Əliyyəl-Mürtəzaidir Xətai.

Həsən eşqinə meydanə gəlibdir,
Hüseyni-Kərbəlaidir Xətai.

Əli Zeynəlibad Baqiru Cəfər,
Kazim, Musa Rizaidir Xətai.

Məhəmməd Təqidir, Əli Nəqi həm,
Həsən Əskər liqaidir Xətai.

Məhəmməd Mehdiyi-Sahib zəmanın,
Eşigində gədaidir Xətai.

Mənim adım bəli Şah İsmayıldır,
Təxəllüsü Xətaidir Xətai.

Şah İsmayıl Xətai qeyd etdiyimiz qəzəlinin birinci beytində Allahdan yarandığını, nübuvvətdən əvvəl 40 il, nübuvvət və Məkkədə bütpərəstliklə mübarizə və Məkkədən Mədinəyə hicrət, İslam qanunlarının tətbiqi, İslam dövlətinin bərqərar edilməsi və İslam dininin yayılmasına cəhd dövrünü (təxminən 10 il) yaşamış Hz. Məhəmmədin həyat yoluna işarə etməklə, onu zikr etməklə yanaşı, Məhəmməd Mustafayi yolunun yolçusu olduğunu vurğulayır.

Şair növbəti beytlə Hz. Peyğəmbərin sözlərini yazmağa ehtiyac duymayan, onun "mənimsəyən qulağı" (26,

2) olan və bir müddət sonra Hz. Rəsulullahın (s.ə.s) bu hədislərinin özündən sonrakı imamlara miras qalması üçün Peyğəmbərin buyruğu ilə onları yazan, uşaqlıq dövrü (təxminən 10 il), həyatının təxminən 23 ilini Hz. Peyğəmbərlə (s.ə.s) keçirən, təxminən 25 il xilafətdən uzaqlaşan və təxminən 4 il 9 ay müddətində xilafət dövrü yaşamış İmam Əli b. Talibi (Hz. Əlini) zikr etməklə yanaşı, Əliyyəl-Mürtəzayi olduğunu qeyd edir.

* * *

Yeri gəlmişkən qeyd edək ki, Xətainin bu fikri onun qəzəllərində geniş inkişafını tapıb: (18, 299)

Məhəmməd nurindən, Əli sirrindən,
Həqiqət bəhri içrə gövhərəm mən.

Bir başqa qəzəlinin "məqtə"sində şair yazır:

Məhəmmədü Əlinin hörmətiçün,
Yəqin bilgil, xuda istər Xətai (18, 379).

* * *

Növbəti beytdə isə Hz. Peyğəmbər (s.ə.s) hələ həyatda ikən təxminən 8 illik uşaqlıq dövrü Hz. Peyğəmbərdən (s.ə.s) sonra (təqribən 29 il) atası ilə birlikdə yaşadığı dövrü və nəhayət, 10 il imamət dövrü yaşamış İmam Həsən b. Əlini (ə.s), (9, 57) Hz. Peyğəmbərlə 6, atası və qardaşı ilə keçirdiyi 40 illik həyatı və 11 illik imamət dövrü yaşamış və tarixin ən əhəmiyyətli hadisəsi olan Yəzidə qarşı qiyam etmiş İmam Hüseyn b. Əlini zikr edir və eyni zamanda özünü bu yolun yolçusu kimi şeirinə gətirir.

Növbəti beyt həyatının 22 ilini atası ilə birgə, 35 ilini isə imamət dövrü yaşamış, ən əsası isə Əməvilərin ən dəhşətli zülm və təzyiqləri dövründə, ən çətin şərtlər altında imamətlik vəzifəsini yerinə yetirmiş, maarif, əxlaq, siyasət, sosial məsələləri dua şəklində, özü də ən gözəl şəkildə, bəyan edən İmam Zeynəlabidinin (26, 75) (ə.s) zikrinə həsr edilib.

Şair ilahi eşq yolunda özünü imamətin bu dönəminin də davamçısı kimi şeirinə gətirib. On doqquz il, iki ay, on doqquz gün sürən imamət dövründə Umeyyəoğulları ilə Abbasoğulları müharibə vəziyyətində olduqlarından, İmam Məhəmməd Baqir (ə.s) üçün təbliğat imkanları yaranmış və o da bu imkandan istifadə edərək, bir çox tələbələr yetişdirmiş, şiələrin əsasını gücləndirmiş, elm və mədəniyyət sahəsində bir inqilab həyata keçirmişdir (26, 88).

Mənbələrdə İmam Cəfər Sadiqin (ə.s) həyatının iki mərhələsi – imamətdən əvvəlki dövr, ikincisi isə 34 il sürən imamət dövrü kimi öz əksini tapıb. Bu dövr şiəliyin yayıldığı bir dövrdür. İmam Cəfər Sadiq (ə.s) fürsətdən istifadə edərək, dörd min tələbə yetişdirmiş və İslamı zalım hakimlərin hicabları altından çıxarıb, aşkar etmişdir. Beləliklə, ilahi elmi canlandırmaqla, İslama böyük töhfələr vermişdir (26, 102).

Şah İsmayıl Xətai İmam Rzanı (ə.s) da şeirinə gətirir. Hərflərə məna yükü verməklə, peyğəmbər və imamları zikr etdiyi qəzəlində İmam Rzanı (ə.s) "Fəzlullah sənsən", – kimi dəyərləndirir. **/Qeyn – ğeyri bilməm mən, hər nə kim, görsəm bu gün, Fa-fəzlullah sənsən, ya Əli Musa Riza/. (9, 55)** Sözsüz ki, bu da şairin hürufiliyə bələd ol-

masından irəli gəlir. Növbəti beytdə İmam Tağı, Nağı və Həsən Əsğər nəzmə çəkilib. İmam Məhəmməd Tağının (ə.s) həyatı da iki hissəyə bölünür. Bunlardan birincisi imamətdən əvvəlki yeddi illik dövr, ikincisi – on yeddi illik imamət dövrü (26, 150).

Zikr edilən İmam Həsən Əsğərinin (ə.s) də həyatı iki hissəyə bölünür: 1) İmamətdən əvvəlki dövr (22 il); 2) İmamət dövrü (6 il). O, ömrünün çox hissəsini zindanda və hərbi bir bölgədə nəzarət altında keçirdiyi üçün "Əsğəri" ləqəbi ilə tanınırdı (26, 159).

Növbəti misrada Xətai İmam Mehdiyə (ə.s) işarə edir. Hacı Sabir Həsənlinin "Haqqa doğru" kitabında on iki nəfər məsumdan on birinin şəhid edilməsi və bu mübarək nəslin çəkdiyi müsibətlərdən bəhs edilir. On ikinci İmam Mehdi əl-Müntəzərin isə Allah-Təalanın iradəsi ilə qeybə çəkilərək öz zühurunu gözləməsi qeyd edilir. Mehdiyi-Sahib zəmanı da zikr edən şair, özünü onun eşiyinin gədası adlandırır.

Fikrimizi Allah Rəsulunun zikr ilə bağlı söylədikləri fkirlərdən ikisi ilə bitirək:

1. Məclislərimizi Əli ibn Əbutalibin zikri ilə zinətləndirin. O, danışan Qurandır.

2. Cənnət bağlarının yanından keçərkən əylənin. Soruşdular ki, Ya Peyğəmbər, cənnət bağları dedikdə Siz nəyi nəzərdə tutursunuz? Buyurdu: zikr məclislərini (26, 23).

Klassik dönəm şairlərinin müasir bucaqdan yaşamı şairnamələr, nəzirələr, deyişmələr (mükalimə), ədəbi təsirlənmə, bədii ədəbiyyatda obrazlar və s. şəkildə təmin edilir.

Hər ötən il öz özəl yönləri, xalqımızın yeni-yeni nai-

liyyətləri ilə tarixmizin səhifəsinə, milli-mənəvi yaddaşımıza həkk olunur. Bu il də öz özəlliyi ilə seçilən illərdəndir. Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi qərar mövcud naliyyətlərimizə yeni bir rövnəq, yeni ab-hava qatdı. Nəsiminin ecazkar söz-kəlam qatlarının xəzinəsi öz sirli qapısını, milli-mənəvi zənginliyini təkcə Azərbaycanda deyil, yeni yanaşma və təfərrüatlı şəkildə dünyada tanıtdırmaq imkanı əldə edərək, dünyəviliyini qazandı. Məhz elə bu baxımdan biz şairnamələri Nəsimiyə həsr edilmiş bəzi şeirlər üstündə qurduq.

Mənbələrin verdiyi məlumata görə, Nəsimi ilə görüşən türk şairi Rəfii "Bəşarətnamə" adlı əsərində bu görüşdən çox razı qaldığını, mənəvi cəhətdən kamilləşdiyini minnətdarlıq hissi ilə danışır. Rəfiiyə görə, bu zəmanədə insanlara həqiqət yolunu göstərən, öz əqidəsi yolunda ölümdən belə qorxmayan bir nəfər cəsur, iradəli və fədakar insan varsa, o da Nəsimidir (1, 191).

Məsələ burasındadır ki, Rəfii İmadəddin Nəsiminin özəlliklərini özünəməxsus tərzdə, yəni təfriq sənəti ilə şeirinə gətirir: (1, 191)

Ol Nəsimi – rəhməti-fəzli-xuda,
Ol İmadəddin – sirri-Mürtəza.
Ol şəhidi – eşqi-fəzli-zülcəlal,
Bəndü – zindanlarda yatan mahü sal.
Ol bəladan ahü əfğan etməyən,
Söyləyən əsrarı, pünhan etməyən.

Birinci misrada Nəsimi, ikinci misrada İmadəddin adını təfriqləndirən şair, sonrakı misralarda adları qeydetmədən, sözlərin sırasına riayət etməklə təfriqlənməni davam etdirir. *Bununla da, Rəfii Nəsiminin eşqi-fəzli-zülcəlalını yaddaşlarda həkk edir, onu yaşadır.*

Şah İsmayıl Xətai yaradıcılığının təşəkkül və inkişafında Nəsimi məktəbi önəmli rol oynamışdır. Hətta şair Nəsiminin faciəli ölümünü belə şeirinə gətirərək, yaddaşlarda təzələmişdir: (18, 15)

Mehrü vəfa biri-birindən azdı,
Bəhlul beyquşliyin viranda gəzdi.
Seyyid Nəsimini zahidlər üzdü,
İncimədi həqdən gələn cəfayə.

Onu da qeyd edək ki, şairnamələrdə yalnız şairin adına deyil, onun həyat və yaradıcılığının əsas yönlərinə işarə edilir. Hər iki halda göz önündə şairin özü, həyat və yaradıcılığı durur, yəni bütövlükdə bir şair tablosu yaranır.

Xətaidən nümunə gətirdiyimiz növbəti beytin birinci misrasında şair özünü, ilk əsərlərini Hüseyni təxəllüsü ilə yazmış Nəsimiyə, ikinci misrasında isə X əsrdə "Ənəlhəq" – "Mənəm Allah" dediyi üçün Bağdad şəhərində dara çəkilmiş Hüseyn Mənsur Həllaca bənzədir. Növbəti misrada Adəm övladı olaraq əzəldən Allahın evində olduğunu vurğulayır: (18, 256)

Gah Hüseynilən belə pustimi soydu qadilər,
Gah o Mənsur donuna girdim, "ənəlhəq"dar idim.

Girdim Adəm cisminə, kimsənə bilməz sirrimi,
Mən bu Beytullah içində ta əzəldən var idim.

Şeirləşmə (müşairə) və ya mükalimə üstündə yazılan şeirlər də şairlərin həyatını yaddaşlarda qoruyub saxlamaq üçün ən gözəl üsullardan biridir. Məşhur türkmən şairi Məhtimqulunun öz müasiri Durdi Şeyx ilə müşairəsində Nəsiminin müsibəti xatırladılır: (28, 292)

Ol nəmədir, yemədilər, doydular,
Ol nəmədir, qiyamətə qoydular,
Ol kim idi, dabanından soydular,
Şair olsan, şundan bizə xəbər ver.

Ol didardır, yemədilər, doydular,
Ol namazdır, qiyamətə qoydular,
Nəsimini dabanından soydular,
Bizdən salam olsun, cavab şöylədir.

Nəsiminin “obraz” kimi əksi daha geniş şəkildə intişarını tapıb. Bu şeirlərdə şairin iç və dış dünyası, sənətə baxışı, həyatdakı mövqeyi bəzən onun istifadə etdikləri terminlər saxlanılmaqla, bəzən isə onların mahiyyətinə işarə edilməklə ədəbiyyata gətirilir.

Səməd Vurğunun “Azad ilham” şeirinin bir hissəsi Nəsimi həyatının ən ağır və məşəqqətli bir məqamına həsr edilib: (29, 221)

Nəsimi zahidlə durdu üz-üzə,
Söylədi: haqq adlı bir divan quraq;
Atdı pəncəsini gecə gündüzə,

Boğdu həqiqəti sadə fırıldaq...
Zahidin barmağın kəssəniz əgər,
Tanrı dediyinə arxa döndərər...
Bu miskin aşiqə baxın da bir az,
Diri soyulsa da, dözər, ağrımaz.
Sən ey ülkərimiz, sönməz sənətkar!
Əsrlər boyunu gördü gözlərin;
Tarixlər boyunca qaldı yadigar
Ölməz fikirlərin, ölməz sözlərin!..

Təzkirələrin verdiyi məlumata görə, şairin edamına hökm verən ruhani Nəsimi haqqında demişdir: "Bu, elə məl'undur ki, onun qanından bir damcı hara düşsə, kəsib atmaq lazımdır. Təsadüfən şairin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır. Camaat ondan barmağının kəsilməsini tələb edir, o isə qorxub: "mən söz məsəli demişəm", – cavabını verir. Bu zaman al qan içində olan şair deyir:

Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,
Gör bu miskin aşiqi, sərpa soyarlar ağlamaz.

Bu fikirlə bağlı akademik İsa Həbibbəyli yazır ki, böyük əqidə sahibi İmadəddin Nəsiminin faciəli şəkildə öldürülməsi haqqında geniş yayılmış rəvayətlər dünya ədəbiyyatında təkrarı olmayan qəhrəmanlıq mifidir. Nəsiminin həyatı və sənəti, onun öz əqidəsi yolunda şəhidlik zirvəsinə yüksəlməyin ibrətamiz nümunəsidir (30, 10).

Qabilin Zəlimxana həsr etdiyi şeirində Nəsimi yaradıcılığının iki əsas məqamı, mən deyərdim ki, onun yaradıcılı-

ğının təməl ideyaları müasirlik işığında, klassik ənənənin mahiyyəti saxlanılmaqla, şairanə əksini tapıb: (31, 45)

Xəzəri ilk dəfə görən Nəsimi
Elə söyləyib də Nəsimi kimi:
Mən cahana sığmazam,
Bəh-bəh, iddiaya bax.

"Mən cahana sığmazam" misrası ilə şair "Məndə sığar iki cahan, mən bu cahana sığmazam", – misrasına işarə edir. Şairin qeyd etdiyimiz misrası ilə başlayan şeiri bu günün işığında Nəsiminin mükəmməl avtoportreti kimi də dəyərləndirilir (30, 7).

"Sığmazam" şeirini Nəsimi ulu keçmişə malik olan insanın fikrən və xəyalən heç bir çərçivəyə, qəfəsə sığa bilməməsi fikri ilə tamamlayır. ..."Cism və can" mücəssəməsini yerdən göyə ucaldaraq onun surətində, varlığında böyük mənalar gizləndiyini bildirir (1, 133).

Əli Kərim "Şəhidliyin zirvəsi" adlı şeiri ilə Nəsimini Allahın adı ilə Allah yolunda, yəni haqq-ədalət naminə vuruşan, vuruşundan, əqidəsindən geri çəkilməyən məğlubedilməz və qürurlu bir obraz kimi canlandırır. Onu Şəhidliyin "Nəsimi" zirvəsində şeirinə gətirir, tarixin yaddaşını özünəməxsus hayqırtı ilə yeniləyir: (32, 141)

Altı yüz ildir bəşər
ağrılardan inildər
Altı yüz ildir bəşər
düşünər, çatmaz yenə
Məşəqqətli ölümün
Nəsimi zirvəsinə...

Biz, zamanın içində yaşasaq da, əməllərimizlə, yazılan əsərlərlə zamanı da içimizdə yaşadırıq. Alman yazıçısı Tomas Mannın fikrinə görə, “Zaman idrakı, kamilliyi və insanlara xidməti artırmaq üçün bizə verilmiş bir sərmayədir” (2, 541). Bu sərmayədən düzgün istifadə, zənnimcə, bizə qalan mənəvi qazancdır.

Xəlil Rza Ulutürkün “Nəsimi” şeiri şairin əqidə, düşüncə, təfəkkür tərzinin bütöv bir vahid şəklində şairanə təcəssümüdür: (33, 98)

Bayramındır bu gün sənin, gözün aydın, ulu şair!
Ellər gəlib bayramına, dünya sənə alqış deyir.
Bu gün dünya göz dikibdir Azərbaycan bayrağına,
Bir bayraq ki, ağac qulpu Nəsiminin qələmidir.

Onlar dedi: – İnsan sığır bir beşiyə, bir tabuta.
– Yox! – söylədin – tabut nədir? Sığmır insan kainata!
– Nəkarasan? – Qışqırdılar. Dedin: – Qızıl dan yeriyəm.
Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm.

Dartındılar yerbəyerdən: – Sən Tanrıya kölə, bəndə.
– Yox! – dedin sən – Tanrı özü yaşar məndə, yaşar məndə.
Bizim qaynar qanımızda gizli çaylar aşıb-daşır,
İnsan kimi yaşayanda, insan özü tanrılaşır!

Unutdurmaq istəyirlər onlar mənə kimliyimi,
Dünən Babək özü geydi mənim qanlı köynəyimi.
Mən dünənəm. Mən bü günəm. Mən keçmişəm, gələcəyəm.
Ölsəm belə bu dünyaya mən yenidən gələcəyəm!

Ədəbiyyatda şairlərin bir-birinin sənət yolunu dəyərləndirməsi, sələf-xələf münasibəti və ya şairin obrazını yaratmaq geniş intişarını tapıb. Məsələn, Xəlil Rza Ulutürkün "Nəsimi" şeirinin yalnız üç beytinə nəzər salsaq, onun Nəsimi sənətinə verdiyi dəyərin şairanə tablosunun şahidi olarıq.

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam", – misrası ilə başlanan məşhur şeiri İmadəddin Nəsminin mükəmməl avtoportretidir. Sənəti və şəxsiyyəti haqqında müasirlərindən tutmuş, tədqiqatçılarına qədər məğrur şairin barəsində yazılanların hamısında "Sığmazam" bəyanatı Nəsiminin real simasını və idealını mənalandıran açar anlayış kimi göstərilir (30, 7).

"Sığmır insan kainata!", – ifadəsi və bütövlükdə birinci bənd, məhz bu amalı əks etdirir.

İkinci bənddə "Sən Tanrıya kölə, bəndə. Tanrı özü yaşar məndə", – yer almış fikirlər isə "Mən Allaham" fikrinə işarədir. Nəsimi öz gözəl əxlaq və saleh əməli ilə Allahın zərrəsinə çevrilmişdir. "Ənəlhəq" ideyasına gəlincə, şair onu insanın kamilləşmə zirvəsi kimi görür (12, 82).

Sonuncu bənddə Xəlil Rza "Mən dünənəm. Mən bu günəm. Mən keçmişəm, gələcəyəm, mən yenidən gələcəyəm", – cümlələri ilə şairin əməl və sənəti ilə baqiliyinə işarə edir, onun kimliyini, qərinələr sonra ədəbiyyatda yeniləyir.

Şair "Mən dünənəm. Mən bu günəm", – cümlələri ilə gəlimli-gedimli dünyaya, daha doğrusu, faniliyə, – "Mən yenidən gələcəyəm", – cümləsi ilə isə Nəsiminin, bu gəlimli dünyada yazdıqları ədəbi mirası ilə sonsuzluğa qədər mövcudluğuna – baqiliyə işarə edir.

Müasir dönəm şairlərindən gətirdiyimiz nümunələrdə bəzən Nəsiminin istifadə etdiyi ifadə və sözlər, klassik ənənəyə uyğun – “Mən bu cahana sığmazam”, “Ənəl həqq” və s. şəklində işlədilirsə, bəzən isə sözlərin mahiyyəti “Tanrı özü yaşar məndə” və ya “İnsan kimi yaşayanda, insan özü tanrılaşır”, – şəklində nəzmləşdirilir.

Və yaxud “Mən dünənəm. Mən bu günəm”... və s. halda dünyəvi və ya fani həyat nəzərdə tutulursa, “Mən yenidən gələcəyəm”, – fikri ilə isə əbədi-baqi həyata işarə edilir.

Şairnamələr içərisində C.Novruzun “Nəsimi” şeirinin yeri özəldir. Belə ki, şair “Nəsimi taleyi gərəkdir mənə”, – misrası ilə şairin həyat və yaradıcılıq tablosunu, müasirliyin işığında, göz önündə canlandırır, öz milli kimliyi və soykökünü məxəzləndirir, bütün bunların nəticəsi olaraq şair sözünün qüdrətini düzlüyün birliyi və mərdliyin vəhdətində görür: (34, 64)

Nəsimi taleyi gərəkdir mənə,
Adımı vüqarla daşımaq üçün.
Nəsimi taleyi gərəkdir mənə,
Həyatda mərdanə yaşamaq üçün.

* * *

Nəsimi taleyi gərəkdir mənə,
Şeirimin, sözümün qüdrəti üçün.
Nəsimi taleyi gərəkdir mənə,
Şairlə düzlüyün birliyi üçün,
Şairlə mərdliyin vəhdəti üçün.

C.Novruzun **“Kaş millətdə ruh yaşasın”** şeiri istər adı, istərsə də məzmunu baxımından maraq doğurur. Ömər Xəyyam tərəfindən “kainatın vicdanı” (2, 426) kimi dəyərləndirilən tarix və onda baş verən hadisələrin gedişatının ədəbiyyatda təzahürünə üz tutan şair, bu günümüzü yaşadan, var edən və ona nəsihətamiz örnəklərini qatan dünənimizi təsvir edir. Qədim yunan tarixçisi Diodorun sözləri ilə desək, “... keçmişlərin təcrübə və müdrikliyini gənc nəslə çatdırır” (2, 427).

C.Novruz **“Kaş millətdə ruh yaşasın...”** adlı şeiri ilə ağıla və qəlbə işıq saçan, onu sözün əsl mənasında, nurlandıran ifadələrə, fikirlərə işarə edir ki, bunlardan biri “Füyuzat” jurnalından götürülmüş “Toxunmayın bu günümüzü var edən dünənimizə”, (2, 426) – cümləsidir.

Şair, eyni zamanda, **“Kaş millətdə ruh yaşasın”,** – şeiri ilə fransız yazıçısı və filosofu Deni Didronun “Vücudu öldürəndən çox, ruhu öldürəndən qorxun”, (2, 356) türk şair və alimi Şeyx Qalibin “Vücud ruhun miniyidir”, Avstriya yazıçısı Stefan Sveyqin “Ruh genişliyinə erkən öyrənmiş insan, sonralar dünyanı da içinə sığışdıra bilər”, (2, 356) qədim yunan filosofu Epiktetin “Ruhun böyüklüyü dərinliyi ilə deyil, inancındakı qətilik və həqiqətlə ölçülür” (2, 356), – fikirlərinə də işarə etmiş olur.

Həqiqətən də, insanın həyatı, həyatının axarı və düzəni onun ruhuna bağlıdır. Bu ruhun coşması, ayılması, məncə elə təzələnməsi də, zaman-zaman şairlərin yazdıqları şeirə, hayqırtılarına bağlıdır. Fikrimizi daha aydın və bəlağətli şəkildə şair Məhmət Əmin Yurdaqulun sözləri ilə təsdiqləyək: (2, 409)

“Unutma ki, şairləri haykırmayan bir millət,
Sevənləri torpaq olmuş, yetim çocuq kimidir”.

Mətləbdən uzaqlaşdıq. Yenidən C.Novruzun “Kaş millətdə ruh yaşasın...” şeirindən bir parçaya qayıdaq: (34, 26)

Millət əzər-əzilər də,
Kaş millətdə ruh yaşasın.
Əyri qəddi düzələr də
Kaş millətdə ruh yaşasın.

Zaman-zaman, nəsil-nəsil,
Babəklərin gəlir səsi.
Nəsimilər tükənməsin,
Kaş, millətdə ruh yaşasın.

Beləliklə, klassik ədəbiyyat, o cümlədən Nəsimi irsi həm ənənəvi mövcudluğunu və bütövlüyünü saxlayır, həm də dövrlə səsləşərək tarixin yaddaşına həkk olunur. Ən əsası isə kamilləşməyə çağırış dönəmbədönəm yaşamını davam etdirir.

Nəsimi aşıq yaradıcılığına təsiri ilə də ədəbiyyatda öz layiqli yerini tutub. Bu baxımdan professor Qəzənfər Paşayevin “Nəsimi irsi Molla Cümə yaradıcılığında” və “Nəsimi və aşıq yaradıcılığı” adlı məqalələri nəzər-diqqətimizi cəlb etdi: “Milli-mənəvi dəyərlərimiz haqqında düşünəndə, göz önünə ilk gələnlərdən biri, bəlkə də birincisi, qürur mənbəyimiz Nəsimi olur. Şairin zəngin və rəngarəng yaradıcılığı tükənməz enerji mənbəyinə çevrilmiş, özündən sonra gələn qüdrətli sənətkarlarımızın, xüsusən

də görkəmli aşıqlarımızın yaradıcılığına güclü təsir göstərmişdir” (35, 22).

Məqalədə Nəsimi irsinin təsiri Molla Cümə yaradıcılığı əsasında araşdırılır. Müəllif Aşıq Molla Cümənin yaratdığı “Əlif-lam” və “Tərs əlifba”nın Nəsimi ruhuna yaxın olduğunu qeyd edir: (35, 22)

“Əlif” – əlin ver əlimə
Gedək bizim ellərə, qız!

“Bey” – baxıb güvənirəm,
Üzündəki tellərə, qız!
* * *
“Lam” – Leylidən dərs götürüb,
Döndərdin Məcnuna məni.
“Mim” – mislin cəllad, məni
Qoymusan nə hallara, qız.

Q.Paşayev “Nəsimi və aşıq yaradıcılığı” adlı məqaləsində yazır: “Nəsimi yaradıcılığı şifahi xalq ədəbiyyatı və aşıq poeziyası ilə qoşa inkişaf etmiş, aşıq yaradıcılığına yeni janrlar gətirmiş, formaca onun inkişafına təkan vermişdir” (36, 16).

Nəsimi və aşıq yaradıcılığında kəsişən məqamları tədqiq edən alim, nümunələr əsasında Nəsimi şeirinin poetik intonasiya və “janr yaddaşının” aşıq yaradıcılığında duyulduğunu qeyd edir. Onu da qeyd edək ki, Nəsiminin aşıq yaradıcılığına təsiri, müəllifin “Nəsimi: edamdan sonrakı həyat” (Bakı, “Şərq-Qərb”, 2019) adlı kitabında – “Nə-

simi sənətinin folklor qaynaqları və aşıq şeiri qatları" (s. 61-78) adlı ayrıca bir fəsildə əhatəli şəkildə tədqiq edilib.

İnsanlara kamillik yolunda nəsihətini əsirgəməyən Nəsimi söz sərvətinin bir ucu klassik ədəbiyyatda, bir ucu aşıq yaradıcılığında, bir ucu isə müasir ədəbiyyatda əks olunsa da, tükənmir və tükənəcəyi də yox...

Hər bir insan öz yaddaşının məhsuludur. Xalqın maddiləşmiş yaddaşı isə yalnız onun ədəbiyyatıdır. Amerika yazıçısı Uilyam Folkner bu barədə yazır: "ədəbiyyatı xalq yaratmır, ədəbiyyat xalqı, milləti yaradır" (2, 141).

Bəli, ədəbiyyat xalqı, milləti gözəl əxlaqa istiqamətləndirir və sözsüz ki, bu yolda zaman-zaman özü də püxtələşir. Nəticədə, zamanın çağrışı ilə səsləşən, qısa, aydın, anlaşıqlı ifadələr, yəni "arifə bir işarə yetər" məğzinə xidmət edən müstəqil ədəbiyyat yaranır.

Mənbələrdə "Arif kimdir? – Söz ustası", (21, 26) – ifadəsi öz əksini tapıb. Demək, zamanın müəyyən kəsişmələrində ədəbiyyatın ana xəttini təşkil edən, məzmunca genişlik və mənaaltı zəngin çalarlarını saxlayan qısa və aydın ifadələr ayrıca kitab şəklində işıq üzü görür. İngilis yazıçısı Uilyam Somerset Moemin bu haqda fikri çox maraqlıdır: "Qısa və aydın yazmaq, səmimi və xeyirxah olmaq qədər çətindir" (2, 140).

Belə kitablar içərisində Ə.Hüseynzadənin "həyatın müxtəlif məsələlərinə aid ibrətamiz məzmunlu qısa kəlam, hikmətli sözlər", "xalq müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi", "xalqın dühasını", yaxud "xalq müdrikliyini, xalq zəka və düşüncəsini, xalqın həyat təcrübələrinin nəticələrini", "xalqın ümumiləşdirilmiş təcrübəsini" əks

etdirən... “son dərəcə yığcam, konkret, həkimanə aforistik ifadələri əks etdirən “Atalar sözü” kitabıdır (Bakı, “Yazıçı”, 1981).

Vətənə gəldim, imana gəldim (s. 13)
El gücü, sel gücü (s. 15)
Üzünü xalqa çevirənin arxası möhkəm olar (s. 18)
Yazılan pozulmaz (s. 20)
Söz – böyüyün, su – kiçiyin (s. 21)
Söz sahibi ölsə də, söz qalar (s. 23)
Ev kimindir? – Oturanın!
Söz kimindir? – Götürənin! (s. 27)
Yaxşı söylə, yaxşı eşit! (s. 33)
Ağıl yaşda deyil, başdadır (s. 35)
Bilik ağlın aynasıdır (s. 39)
Quduran qırx gün yaşar (s. 4)
Elm ağlın çırağıdır (s. 45)
Qisas bu dünyadadır (s. 48)
Səbir eyləyən çox yaşar (s. 5)
Doğru büdrər, amma yıxılmaz (s. 54)
Ana ürəyi – dağ çiçəyi (s. 71)
Ana haqqı övlada mirasdır (s. 72)
Mərd arxadan vurmaz (s. 97)
Yaman günün ömrü az olar (s. 103)
Yıxılanı vurmazlar (s. 125)
Hər elin bir adəti var (s. 13)
Çalışan qazanar (s. 153)
Hər anın bir hökmü var (s. 341)

Söz və ifadələrə, söhbət arifanə ifadələrdən gedir, onların dərin və ecazkar məna qatlarına verilən dəyər və bu dəyərin insan əxlaqının daha da gözəlləşməsinə xidməti özünü "Elin yaddaşı. Dilin yaddaşı" kitabında da göstərir: "Bizim sözlərin yaddaşında heç nə solmamışdır. Gələn yağışlar bacardıqca hər şeyi məhv etmiş, qırıb dağıtmış, daşmış, aparmışdır. Onlar xalqın başındakı, ürəyindəki, qanındakı dili məhv edə bilməmişdir, dildəki min-min sözün yaddaşını poza bilməmişdir. Acı bir gerçəkliyi anlamışlar ki, nə qədər ki, söz var, dil var, demək keçmiş var, nəsil ilə nəslin bağlılığı var, vətən var, vətəndaşlıq var" (20, 6).

Ən əsası isə sevgi var! Bu elə kamillik və gözəl əxlaq demək deyilmi?!

Kitabda "bizim sözlərin gözəlliyi nədədir, görəsən?" sualına verilən cavab, "bizim sözlərin gözəlliyi doğruluğunda, istiqanlığında, sadəliyində, müdrikliyində, doğmalığındadır". Bu sayaq sözlərin gözəlliyi üçün ayar-ölçü yoxdur (20, 7).

Zənnimizcə, bu sayaq sözlərin ayar-ölçüsü yetişən kamil insan və onun gözəl əxlaqıdır.

Nümunələr:

Sən sözü at, yiyəsi götürər (s. 9)

Söz danışıqdan keçər (s. 9)

Babalar eləcə görmüş,
Atalar eləcə demiş.
Alim unutdu, qələm unutmadı (s. 233)

Ana kimi yar olmaz, Bağdad kimi diyar (s. 233)

Cana gələn mala gəlsin (s. 234)

Təkəbbürlük eyləyəni Tanrı sevməz (s. 239)

## "Kitabi-Dədə Qorqud" dastanlarında işlənmiş atalar sözləri və zərbi-məsəllər

Ağır yüklər zəhmin qatır bilir (s. 237)

Ağlamaqla nəsnəmi olur? (s. 237)

Alp ərə qorxu vermək eyib olur (s. 237)

Ana haqqı, Tanrı haqqı (s. 237)

Əzəldən yazılmasa, qul başına qəza gəlməz (s. 238)

Qarı düşmən dost olmaz (s. 238)

Kül təpəcik olmaz (s. 239)

Gəlimli-gedimli dünya! Son ucu ölümlü dünya! (s. 239)

Biz bir xalq olaraq, öz dilimizdə görünən, öz dilimizdə yaranan, el adamının dilindən qopan, el sənətkarlarının dilində el-el gəzən, Qurani-Kərim, hədis, qəlbə və ağıla nur saçan sözlərdən milli mənsubiyyətimizi, kimliyimizi və gözəl əxlaqımızı əxz etmişik.

Ədəbiyyat insan kamilliyini, kamillik isə ədəbiyyatın püxtələşməsini söz və məna arasındakı vəhdət şəklində tamamlayır, bəzən isə biri digərini üstələməyə cəhd edir.

Bir əsas məqamı qeyd etməyi zəruri hesab edirik. Bu da gözəl əxlaqın, kamilliyin təməl daşının uşaq tərbiyəsindən başlamasıdır. Uzun bir tarixi yaşama malik olan Azərbaycan xalqının çoxəsrlik ədəbiyyatı öz zənginliyini Azərbaycan ədəbiyyatının tarixi dövrləşməsində bariz şəkildə göstərir. Hər dönəm ədəbiyyatında o ədəbiyyata mənəvi bütövlük gətirən uşaq ədəbiyyatı da yer alıb. Bu, Azərbaycan ədəbiyyatının keçdiyi tarixi inkişaf, mənəvi təkamül prosesinin ayrılmaz tərkib hissəsidir. Bu anlamda türk yazıçısı Namiq Kamalın sözləri yerinə düşər: "Tərbiyə ana qucağında başlayır, hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir" (2, 449).

Millətin rifah halı, onun ruhu bugünkü yaşamının və gələcəyinin göstəricisidir. Gələcəyimiz isə bu gün ana qucağında tərbiyə edilən uşaqlarımıza bağlıdır.

Con Lokkun yazdıqları dediklərimizi təsdiqləyir: "Bütün millətin rifah halı uşaqların tərbiyəsindən asılıdır" (2, 448).

Tərbiyə, əxlaq, kamillik zirvəsinə çatmaq müqəddəs kitabımız olan Qurani-Kərimin əsas qayəsi, ana xəttidir. Bu anlamda Allahın Rəsulunun sözləri ailələr üçün bir örnək olmalıdır: "Heç bir ata-ana uşağına gözəl tərbiyədən daha yaxşı bir miras qoya bilməz" (2, 447).

Və ya: "Övladlarınıza ehtiram göstərin və onları yaxşı tərbiyə edin ki, gözəl tərbiyə nəticəsində bağışlanasınız" (2, 447).

Şair sözü, hər hansı mövzuya həsr edilirsə-edilsin, qəlblərə, insanın ruh və beyninə daha gözəl və anlaşıqlı şəkildə həkk olunur. Düşünürük ki, Sədi Şirazinin bu şei-

rinin də fikrimizi tamamlamaq və təkidli şəkildə ifadə etmək baxımından böyük rolu var: (2, 447)

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu istəsən hər şəkilə salasan
Od qurudub düzəldər o çubuğu nəhayət.

Jan Jak Russonun fikrini də qeyd etməmək yanlış olardı: "Uşağın tərbiyəsinə onu tanımaqla başlamalıyıq" (2, 449).

Bəli, hər bir uşaq özünəməxsus düşüncə tərzinə, özünəməxsus uşaq dünyasına malik olduğu üçün fərdi yanaşma çox önəmli məsələlərdəndir. Gəncliyə, onların həm fiziki, həm də təfəkkür-düşüncə sağlamlığına önəm verən Ulu Öndərimiz, Ümummilli liderin sözləri mənim üçün ən önəmli bir yanaşmadır: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər". (2, 447)

Gəncliyin tərbiyəsində böyük zəhməti olan bütün yazar və şairlərimizə dərin ehtiramımı bildirməklə, Rafiq Yusifoğlunun "Kötük" şeiri ilə bu fikrimi tamamlamaq istərdim. Çünki, şeirdə ilk öncə cocuqlar üçün təbiətin bir parçası olan ağac tərənnüm edilirsə, digər tərəfdən gəncliyə aşılanan ailə bütövlüyü, ailə şəcərəsi tərənnüm edilir. Cəmiyyət isə sağlam ailələr üstündə qurulub: (37, 161)

Elə düşünmə ki, qocadır kötük,
İstəsən, sən ondan dəyanət istə.

Alçaq boyuyla da ucadır kötük,
Neçə şiv doğranar bir kötük üstə.

Ömrünün o ötən, itən çağını
Necə ki, lazımdır, yaşayıbdır o.
Bir ağac ömrünün ağırlığını
Bir zaman çiynində daşıyıbdır o.

Kiçik zoğlar çıxıb hər tərəfindən,
Bürüyüb ətrafı yaşıl bir örtük.
Elə bil babadır, nəvələrini
Toplayıb başına qocaman kötük...

## ƏDƏBİYYAT


1. Ə.Səfərli, X.Yusifli. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, "Ozan", 2008
2. Muxtar Cəfərov, Samir Ramizoğlu. Ağıla və qəlbə işıq saçan sözlər (ikinci nəşr). Bakı, "Nurlar", 2011
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Əziz Mirəhmədov. Bakı, "Maarif", 1978
4. Əhmədağa Əhmədov. İslam əxlaqı. Bakı, "Maarif", 1993
5. Məhəmməd Füzuli. Əsərləri, I c. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1958
6. https://az.wikisource.org/wiki/M%C9%99n kim%C9%99m (%C6%8Fhm%C9%99d Cavad)
7. http://senet.az/m%C9%99n-kim%C9%99m-b%C9%xtiyar-vahabzad%C9%99/
8. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1973
9. Şah İsmayıl Xətai. Əsərləri, iki cilddə, II c. Bakı, Azərnəşr, 1976

10. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri, 2 cilddə, I c. Bakı, “Şərq-Qərb”, 2005

11. Akademik İsa Həbibbəyli. Böyük ideallar şairi (Ön söz). M.H.Quliyeva. Nəsimi və söz kitabı. Bakı, “Elm və təhsil”, 2019

12. M.H.Quliyeva. Nəsimi və söz. Bakı, “Elm və təhsil”, 2019

13. İsmayıl Umudlu. “Şeirin dövlət quşu qondu başıma”. İki xalqın oğlu Maqsud Şeyxzadə. Bakı, “Elm və təhsil”, 2019

14. Mahirə Quliyeva. Molla Pənah Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağında. Bakı, “Elm və təhsil”, 2018

15. H.Araslı. Səməd Vurğun klassik şeirimiz haqqında. S.M.Kirov adına ADU-nin Elmi əsərləri. Bakı, 1956, №5

16. نظامیگنجوی، کلیات نظامی گنجوی (مخزن الاسرار، خسرو و شیرین، لیلی و مجنون، هفت پیکر، اسکندرنامه (شرف نامه، اقبال نامه)، تصحیح: استاد وحید دستگردی، به اهتمام پرویز بابایی، تهران: مؤسسه انتشارات آگاه، 1388

17. Həmid Araslı. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. Bakı, “Gənclik”, 1998

18. Şah İsmayıl Xətai. Əsərləri, iki cilddə, I c. Bakı, Azərnəşr, 1975

19. https://mawdoo3.com/%D8%A3%D8%AC%D9B1

20. Kamil Vəliyev. Elin yaddaşı. Dilin yaddaşı. Bakı, “Gənclik”, 1987

21. Atalar sözü. Toplayanı, tərtib edəni və nəşrə hazırlayanı Əbülqasım Hüseynzadə. Bakı, “Yazıçı”, 1981

22. İsmayılzadə H.İ. Quran elmləri ensiklopediyası. Müqəddəs Qum şəhəri. Məhəmməd Hadi Mərifət. 18 Zül-hiccə (Qədiri-xum bayramı) (19/01/2006)

23. Mahirə Quliyeva. Aşıq yaradıcılığı və dastanlar Şərq poetikası və islami dəyərlər baxımından. Bakı, "Elm və təhsil", 2016

24. İslam Qəribli. Məhəmməd Hadi və mətbuat (1905-1920). Bakı, "Elm və təhsil", 2011

25. Həzrəti Məhəmmədin hikmət xəzinəsindən örnəklər. Bakı, "Şərq-Qərb", 2012

26. Hz. Peyğəmbər və Əhli-Beytindən möcüzələr

27. Hacı Sabir Həsənli. Haqqa doğru. Bakı, "Elm və həyat", 1998

28. Azərbaycan ədəbiyyatı tarixi, I c. Bakı, Azərbaycan Elmlər Akademiyası, 1960

29. Səməd Vurğun. Seçilmiş əsərləri, I c. Bakı, "Şərq-Qərb", 2005

30. İsa Həbibbəyli. Böyük ideallar şairi (Ön söz). M.H.Quliyevanın "Nəsimi və söz" kitabında. Bakı, "Elm və təhsil", 2019

31. Qabil. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005

32. Əli Kərim. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004

33. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri, 2 cilddə, I c. Bakı, "Şərq-Qərb", 2005

34. Cabir Novruz. Seçilmiş əsərləri: şeirlər, poemalar. Bakı, "Lider nəşriyyat", 2004

35. Qəzənfər Paşayev. Nəsimi irsi Molla Cümə yaradıcılığında. Bakı, "Ədəbiyyat qəzeti", 25 may, 2019

36. Qəzənfər Paşayev. Nəsimi və aşıq yaradıclığı. Bakı, "525-ci qəzet", 10 aprel 2019

37. Rafiq Yusifoğlu. Bulud fayton, Bakı, ADPU nəşriyyatı, 2017.

**Elçin ABBASOV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Folklor İnstitutu**

# EPİK QƏHRƏMANLIĞIN MƏNƏVİ MEYARLARI: “KİTABİ-DƏDƏ QORQUD” VƏ “KOROĞLU”

XÜLASƏ

Məqalədə Azərbaycan qəhrəmanlıq eposunda epik qəhrəman tipinin mənəvi meyarları müəyyənləşdirilir. Bu qənaətə gəlinir ki, Azərbaycan qəhrəmanlıq eposundakı epik qəhrəman tipində fövqəl fiziki güc və imkanlar mənəvi zənginlik kriteriyaları ilə qovuşur və bəzən məhz mənəvi (və ya mənəvi-ilahi) keyfiyyətlərin dominantlığı ən layiqli qəhrəmanı müəyyən edir.

***Açar sözlər:*** epik qəhrəman, Azərbaycan qəhrəmanlıq eposu, Kitabi-Dədə Qorqud, Koroğlu, mənəvi meyarlar

## THE MORAL CRITERIA OF EPIC HEROISM: “THE BOOK OF DEDE GORGUD” AND “KOROGLU”

SUMMARY

In the article the moral criteria of epic heroic type in Azerbaijani heroic epos is determined. It is concluded that, in epic heroic type in Azerbaijan heroic epos the extraordinary physical power and capabilities are combined with the criteria of spiritual wealth and sometimes the dominance of moral (or moral-divine) qualities determine the worthy hero.

***Key words:*** epic hero, Azerbaijani heroic epos, The Book of Dede Gorgud, Koroglu, moral criteria

**Giriş.** Azərbaycan xalqının sahib olduğu maddi və mənəvi mədəniyyətin əzəmətini, qədimliyini, hümanizmini

və spesifikliyini folklor irsini nəzərə almadan dəyərləndirmək, açıqlamaq, yaxud təsvir etmək mümkün deyildir. Ümumiyyətlə heç bir mədəniyyət faktında, hadisəsində xalqın daxili aləmi folklorda olduğu səviyyədə əksini tapmır. İnsan zəkası elmdə, maddi mədəniyyətdə özünü ifadə etdiyi, təsdiq etdiyi kimi, mənəviyyat da özünün bütün gözəlliyini – zərifliyini, həssaslığını, dərinliyini folklorda ifadə edir və folklorda öz təsdiqini tapır.

Əslində, həmişə formasız olana forma verən, təbii olandan mədəni olayyaradan məhz mənəviyyat, ruh olmuşdur. İstənilən mədəniyyət abidəsi həmişə insan mənəviyyatını, insan psixologiyasını və ruhunu nə dərəcədə əks etdirə bilmək baxımından dəyər qazanıb. Bu baxımdan xalq ruhunun və qəlbinin aynası olan folklor hər bir millətin qürur qaynağı olmaqla yanaşı, eyni zamanda milli kimliyi müəyyənləşdirən amillərdən biridir.

Folklor uzun müddət – minilliklər boyu xalqın həm ədəbiyyatı, həm tarixi, həm fəlsəfəsi, həm də qanun-normaları olmuşdur. Min illər insanlar qazandığı həyati təcrübəni, qənaət və bilikləri, nəyin vacib, nəyin toxunulmaz olduğunu məhz folklorda (sözün geniş mənasında folklor) nəsildən-nəslə ötürmüş, folklor etnosun yaşamasında, həyatın davamında fövqəladə önəmli funksiya daşımışdır. İnsan övladı uzun dövrlər məhz folklordan nəyin yaxşı, nəyin pis olduğunu öyrənmiş, folklordan tərbiyə almış, foklordan tarixə, sosial həyata dəyər vermişdir. Fransız filosofu Mirçe Eliadenin dediyi kimi, xalqlar üçün məhz mifdəki, mənəvi mədəniyyətdəki sakral arxetiplər sonralar real insanların –

tarixi qəhrəmanların bütün fəaliyyətinin dəyər etalonu olmuşdur.

**Epik qəhrəmanlığın mənəvi meyarları.** Azərbaycan folklorunda hər zaman obrazı xarakterizə edən başlıca meyar onun mənəvi keyfiyyətləridir. Obrazın müsbət və ya mənfi, dost və ya düşmən qütbdə yer almasında onun milli, irqi, dini və ya cinsi mənsubiyyəti əsas rol oynamaz. Əksinə onun yaradıcı və ya dağıdıcı, düzgün və ya yalançı, rəhmdil və ya zalım, cəsarətli və ya qorxaq, səmimi və ya məkrli, səxavətli və ya xəsis, vəfalı və ya xəyanətkar olması müsbət və ya mənfi cərgədə yer tutmasını şərtləndirər. Azərbaycan eposunda düşmən ona görə düşmən deyil ki, o yad etnosu, yad ölkəni və ya Təpəgöz kimi mistik, sehrli qüvvəni təmsil edir. O ilk növbədə ona görə düşməndir ki, o qəhrəmandan öncə haqq-ədalətə, nizama, yaşama və ya insan səadətinə qarşı durmuşdur.

Sözsüz ki, şifahi xalq ədəbiyyatı nümunələrimizdə, məsələn, "Kitabi-Dədə Qorqud" boylarında, "Koroğlu"da gördüyümüz "oğuzlar – kafirlər", "dəlilər – Osmanlı paşaları", "qızılbaşlar – osmanlılar" və başqa bu tip ümumqarşıdurmalar mifdən qaynaqlanan xaos – kosmos, pis-yaxşı, xeyir – şər kontiniumlarının folklor paradiqmalarını təzahür etdirir. Milli qəhrəmanlar xalqın nəzərində bütün müsbət keyfiyyətləri özündə cəmləyir və bütün mənfi keyfiyyətlərlə yüklənmiş düşmənə qarşı durur. Fiziki güc və imkanlar epik qəhrəman tipinin başlaca meyarları kimi cıxış etsələr də, mənəvi zənginlik, saflıq, düzgünlük, səxavətlilik və başqa bu kimi daxili məziyyətlər bu zaman fiziki güclə qovuşaraq ən layiqli qəhrəmanın xarakterini müəyyən edir.

Epik folklorumuzda qəhrəmanın mənəvi-psixoloji xarakteristikası çox zaman ilk növbədə onun adında və ya epitetlərində ifadə olunmaqla nəzərə çapdırılır:

"Ulaş oğlu, Tülü quşun yavrısı, bizə miskin umudu, Amit soyunun aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsü, Qalın Oğuzun dövləti, qalmış igid arxası Salur Qazan..." (8, 42).

İbtidai təsəvvürlərdən qaynaqlanan ad gizləmə magiyadan, cadudan qorunma vasitəsi olsa da, Azərbaycan eposunda bu belə qəhrəmanın qorxaqlığı və eybi kimi qiymətləndirilir:

"Sübh tezdən öz yerindən duran igid, nə igidsən?
Bədəvi atını oynadaraq gələn igid, nə igidsən?
İgidin igiddən ad gizlətməsi eyibdir,
Adın nədir, igid, söylə mənə" (8, 219) .

Magik rituallar evlilik, doğum, ölüm, ov və təsərrüfatla yanaşı savaşın da bəlanı zərərsizləşdirən və uğuru təmin edən vazkeçilməz tərkib hissəsi idi. Şəxsin adı insanla bağlı bütün magik praktikada ən vacib element sayılırdı: düşmən ad vasitəsilə cadu edə və qəhrəmanı zərərsizləşdirə bilərdi. İllərlə dustaq saxladıqları, tanınmaz hala düşən oğuz bəylərini başqa oğuz igidlərinin qarşısına döyüşə çıxaran "kafirlər" bu səbəbdən oğuz qəhrəmanlarının adlarını açıqlayacağını ağıllarına belə gətirmirlər.

Adgizləmə dünya xalqlarının folklorunda, xüsusən savaş, qarşıdurma epizodlarında tez-tez qarşımıza çıxır. Epik əsərlərdə döyüş zamanı ad gizləməyə bariz örnək kimi "Şahnamə"də Rüstəm və Söhrabın döyüşü səhnəsini göstə-

rə bilərik. “Koroğlu” dastanında qəhrəmanın özünün tanımadığı oğlu ilə qarşılaşma səhnəsində də bu motivlə qarşılaşırıq:

“Kürdoğlu bir güc verib, Koroğlunun dizlərini gətirdi yerə. Basıb altına çokdü sinəsinə. Dedi:

– İgid, adını de, kimsən?

Koroğlu heç dara düşəndə adını deməzdi. Həmişə ayrı ad deyərdi. Dedi:

– Adımı neynirsən? Basmısan kəs!

Kürdoğlu durdu. Dedi:

- Yox, adını deməsən, səni öldürmərəm....

...Söz tamama yetişdi. Kürdoğlu dedi:

– İndi ki, demirsən, demək qorxursan. Mənim də qorxaqlarla işim yoxdu.... (9, 335-336)

Savaşın ritual xarakteri “Dədə Qordud”la yanaşı “Koroğlu” eposunun şeirlərində xüsusilə aydın izlənilir. “Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik” elmi araşdırmalar toplusunun bininci cildində dərc olunmuş “Koroğlu” dastanında qəhrəmanlıq: ideyası, poetikası və milli identifikasiyada rolu” adlı yazıda biz Koroğlu şeirlərində savaşın toy-bayram adlandırılmasının hərbin ritual xarakterinə bağlı olduğuna geniş yer vermişik. “Koroğlu” dastanında savaşın toy-bayram sayılması birbaşa döyüş ritualına işarədir. Ən diqqət çəkən məqam ondan ibarətdir ki, bəzi Koroğlu şeirlərində hərbi toy-bayram ritualının təkcə adı çəkilmir. Burada şeir bütövlükdə hərbi ritualı təsvir edir. Bu, ilk baxışda görünməsə də, şeirlərin bəndlərinə diqqət etdikdə “səfər”, “köç”, “ər badəsinin içilməsi”, “əcəl kəfəninin geyilməsi” semantemləri buna işarə edir... “Bu semantemləri

sintaqmatik ardıcıllıqla düzdükdə "toy" adlanan hərbi ritual alınır. Bu halda belə bir sual meydana çıxır: necə olur ki, hərbi ritual "Koroğlu" eposuna aid şeirdə poetik məzmun təşkil edir. Bunun üçün bu şeirə onun arxetipik invariantı səviyyəsində yanaşmaq lazımdır. Ritualda sözlə öygü (öymə, tərənnüm) onun mühüm tərkib hissəsidir. Burada poetik söz magik məzmun daşıyır. Başqa sözlə, ehtimal etmək olar ki, təhlil etdiyimiz şeirin arxetipik invariantında hərbi ritual prosesi və onun tərkib elementləri təsvir-sadalanma yolu ilə "dualanır". "Kitabi-Dədə Qorqud"da Doqquz tümən Gürcüstandan gələn hərbi ləvazimat vergilərini yada salaq. Bəkil həmin silahları qəbul edib Oğuzun qarovulçusu olur. Bu, hərbi ritualdır. Tipi baxımından isə sərhəd qarovulçuluğunun təyin edilməsi ritualıdır" (2, 171-172).

Buradan çıxış edərək, deyə bilərik ki, epik qəhrəmanın bəzi situasiyalarda hərəkəti (adını gizlətmək, özünü tanınmaz hala salmaq, döyüşə toy-bayram demək, hərbəzorba gəlmək və s.) birbaşa ritualdan qaynaqlanır.

Azərbaycan epik qəhrəmanı üçün savaş heç də mədəni-mənəvi dəyərlərin, humanizmin qeyb olduğu zaman kəsiyi deyildir: "Qazan xan qaçanı qovmadı, "aman" deyəni öldürmədi" (8, 149). "Vəzir Quran gətirib, Koroğluya and verib, aman istədi. Koroğlu vəziri bağışlayıb, Dəli Mehtəri, dəliləri sakitləşdirdi" (10, 140).

"Kitabi-Dədə Qorqud" boylarında böyük ölçüdə qoca və yaşlılara hörmət, ağsaqqalıq institutu, onun bağlı olduğu atalar kultunun mövçudluğu aşkar görünür. Əcdadlara, ululara sayğı dastanda nəğl olunan hadisədən, mövzudan,

situasiyadan aslı olmayaraq qəhrəmanın dəyişməz mənəvi keyfiyyəti kimi çıxış edir:

“Atını sürüb, Səyrəyin üzərinə gəldi. Atından düşüb, yüyənini bir budağa ilişdirdi. Baxdı gördü ki, bu cavan on dörd geçəlik aya bənzəyir. Bu gözəl, ala gözlü gənc igid puçur-puçur tərləyib yatır. Gələndən-gedəndən xəbəri yox-dur. Əyrək dolanıb, cavanın başı üçuna gəldi. Gördü ki, belində qopuzu var. Çıxarıb əlinə aldı.... Oğlan gərnəşib ayağa durdu. Qılıncının dəstəyindən yapışdı ki, onu vura, gördü ki, əlində qopuz vardır. Dedi: “Ay kafir, Dədəm Qor-qudun qopuzuna hörmət edib vurmadım. Əgər əlində qopuz olmasaydı, qardaşımın başına and olsun, səni iki para edərdim...” (8, 211-212).

Azərbaycan eposunda qəhrəmanlar alp, döyüşçü, hərb adamı olduğu qədər də, şən, hazırcavab, əliaçıq, qonaq-qa-ranı sevən obrazlardır. “Koroğlu” dastanında Koroğlu dost-ların xətrinə dəyməz, son tikəsini də onlarla bölər və hamı-sının qayğısını çəkər. Dastanda Koroğlu həm də ağsaqqal, məsləhətçi, yolgöstərən, əxlaqi öyüdlər verən rəhbərdir:

Mənasın bilməyən sözü
Deməkdən deməmək yeydü.
Namərdin çörək-duzu
Yeməkdən yeməmək yeydü.

…Koroğlu saldun savaşı,
Meydanda kəsdürdün başı.
Bir yerə çağrılmamış kişi,
Getməkdən getməmək yeydü (10, 154-155).

Koroğlu azadlıq, vətən, yurd uğrunda mübariz, kasıbların və ümumiyyətlə ehtiyac içində olan insanların yardımçısı və xilaskarı, eyni zamanda düşmənə qarşı amansız və sərt, onların barışmaz düşmənidir. Koroğlu verdiyi sözdən dönməz, aman istəyəni öldürməz, ondan yardım istəyənə, təhlükəli olsa da, hər cür kömək edər. Koroğlu yurdunu qorumaq üçün hər cəfaya və çətinliyə hazırdır:

Qırram qayaları, yıxaram dağı,
Xanlar zəhər içər, sultanlar ağı,
Çənlibeldi qoç Koroğlu oylağı,
Şah da gəlsə, Çənlibelə qoymaram!

Sözsüz ki, vətənpərvərlik və azadlıq Azərbaycan qəhrəmanlıq dastanlarının əsas ideyasını təşkil edir. Vətənpərvərlik, azadlıq, qəhrəmanlıq kimi ideyalar bir ölkədəki və ya bir arealdakı etnik, dini və sosial qrup təmsilçilərinin bir arada toplanmasının başlıca şərtidir. "Koroğlu" dastanında, V.Ömərovun yazdığı kimi, Çənlibelin bütün daxili qayda-qanunları hər bir dəlinin qəhrəman kimi fəaliyyətini təmin edir, bu birliyin bərabərhüquqlu üzvü kimi bütün bacarıq və qabiliyyətlərini aşkara çıxmasına imkan yaradır, eyni zamanda, onlardan yüksək qəhrəmanlıq qanunlarına ciddi riayət etməyi tələb edir (11).

"Koroğlu"da qəhrəmanların ağlasığmaz, düşünülməmiş və bəzən hətta ağılsızlıq kimi görünən hərəkətləri, bu hərəkət onlara və ya ətrafındakılara zərər yetirsə belə, kənardakılar tərəfindən qınanmır. Yalnız qəhrəmana özü özünü tənqid etmək, təəssüflənmək "hüqüqu" verilir. "Dədə Qorqud" boylarında, "Koroğlu" dastanında, adətən, qəhrə-

manın "dəli" xarakteri onun belə "düşünülməmiş" hərəkətlərinin başlıca səbəbini təşkil edir. Qəhrəman öz hərəkətinin döğura biləcəyi təhlükəni anlasa belə, Azərbaycan epos qəhrəmanının əxlaq kodeksindən kənara çıxa bilmir. Lakin, bu kimi epizodlar Azərbaycan epik qəhrəmanını dərin zəka sahibi olması inkar etməz. Məsələn, Koroğlu özündən qat-qat artıq düşmən qoşunu ilə ölüm-qalım savaşına girir, burada öz cəsurluğu, fiziki gücü, qoçaqlığı ilə yanaşı həm də ağlı və təcrübəsi sayəsində qələbə qazanır.

"Koroğlu"da ideya gerçəkliyə qarşı durduğundan gerçək zaman və məkandan ideal və ya qeyri-müəyyən zaman və məkana keçdikdə qəhrəmanın cizgiləri və bəzən xarakteri dəyişir. "Koroğlu" dastanında "Koroğlunun gücü, qüdrəti, imkanları və ya xarici görkəmi hiperbolizə olunarkən bəzən fantastik şəkil alır. Belə mübaliğələr rəcəzlərdə (hərbə-zorbalarda) yer almaqla düşmən ürəyinə qorxu salmağa, qəhrəmanı fövqəladə güc və qüdrət sahibi kimi göstərməyə xidmət edir" (1, 74): Bir igid istərəm yayımı əyə, Qoç igidlər kəllə qalxana döyə. Çeynərəm poladı, püfkürrəm göyə, Gidi Reyhan, məgər dəli olmusan? (10, 43).

Real məkanda Koroğlu ağlasığmaz və fantastik yox, daha çox reallığa yaxın, mümkün həddə qüvvəyə, gücə malikdir. Onun insanların və dəlilərin köməyinə ehtiyacı var. Adətən, paşa və xanların hakim olduğu şəhərlərdən kənarlaşdıqda Koroğlunun da qüvvəsi fantastik şəkil almağa başlayır.

Çənlibellə İstanbul, Çənlibellə Toqat, Çənlibellə Bağdad və s. məkan ziddiyyəti, bir növ gerçəklikdən kənardakılarla ("dəlilər") gerçəklikdə yaşayanların ("ağıllılar")

qarşıdurmasıdır. Qəhrəman istər-istəməz bu məkan dəyişməsində xarakter dəyişikliyinə uğramalı olur. Bəzən bu dəlilik "dəli-dolu" məzmunundan "axmaq" məzmununadək dəyişir. Çünki Koroğlu gerçək aləmin insanları arasında özünü gerçək "dəliliyə", "axmaqlığa" vurur, yəni dəliliyin kütlə tərəfindən başa düşülən və qəbul olunmuş əsas mənasında çıxış edir. Beləliklə, triksterliyin mifdən epik qəhrəmana transformasiyasında özünü qoruyub saxlaya bilən elementlər sosial səbəblərlə izah qazana bilir

Azərbaycan epos qəhrəmanı üçün şərəf və namus, xüsusən ailə şərəfi və namusu hər zaman ön plandadır. Qeyd edək ki, Azərbaycan qaçaq folkloruna aid əsərində Füzuli Bayat da Epik Hobsbaumun müəyyən etdiyi yazılmamış qaçaq-əşkiya kodeksinə münasibətdə fikirlərini bölüşərkən bu məsələyə xüsusi diqqət yetirmişdir. Ona görə, qaçaqların xalq içərisində sevilməsinin ən başlıca səbəblərindən biri "namus məsələsində həssas olmalarıdır" (4, 152).

Padşah, bəy, xan qızları ilə evlənmək, adətən, ənənəvi epik qəhrəman bioqrafiyasının tərkib hissəsi olsa da (3, 66-67), Azərbaycan eposunda bu tip evlənmə, ayrıca bir motivlənməyə malikdir. "Koroğlu" qollarında qəhrəmanlar bəy, xan qızlarının "kişisənsə gəl, məni apar" sözünə görə (kişilik şərəfi uğrunda) naməlum və təhlükələrlə dolu qürbət ölkəyə yollanmağa məcbur olurlar:

"Nigar xanım dərhal öz dəsti-xətti ilə Koroğluya yazdı ki, "Ey Koroğlu, adın-sanın bütün Ruma yayılıb. Eşıtmişik Eyvazı Urfa şəhərindən götürüb qaçırmısan. Bilmirsənsə, bil ki, mən Rum xotkarı Sultan Muradın qızı Nigar xanımam. Çoxdandı sənə qovuşmaq həsrətindəyəm. Kişi-

sənsə İstanbula gəlib məni apar”. Nigar xanım naməyə möhür basıb Bəlli Əhmədə verdi. Bəlli Əhməd naməni oxuyub gördü ki, Nigar xanım Koroğluya mərdi-mərdanə yazıb ki, kişisənsə, gəl, məni apar.... Bəlli Əhməd Koroğlunu belə dalğın gördükdə Nigar xanımın naməsini çıxarıb ona verdi. Koroğlu oxuyub gördü ki, Nigar xanımın sözləri çox sərtdi” (10, 50). Ölməkdən qorxmaq, döyüşdə və ya öz amalı yolunda ölə biləcəyini hesaba almaq Azərbaycan-oğuz epik qəhrəman tipi üçün tam yaddır. Daha düzgün ifadə etsək, Azərbaycan epik təfəkkürü üçün ölməkdən qorxmamaq, ümumiyyətlə qorxu hissindən uzaq olmaq adi igid, qəhrəman hesab edilmənin ilkin şərtidir.

Qəhrəmanlıq eposunda, o cümlədən Azərbaycan-oğuz qəhrəmanlıq dastanlarında qəhrəman birinci növbədə elin-obanın, öz tayfasının, vətənin və ya xalqın himayədarı, qoruyucusudur. Təsadüfi deyil ki, “Kitabi-Dədə Qorqud”da Qazan xanın əsas epitetləri sırasında “Qalın Oğuzun dayağı”, “igidlərin arxası” da keçir.

“Bəkil oğlu Əmranın boyu”nda Oğuz sərhəddinin qoruyucusu olan Bəkil ovda ağır yara alıb yatarkən düşmənin ölkəyə basqınını təcili Bayandır xana və Qazana çatdırmağı oğluna tapşırır:

Dəmir Qapı Dərbənddən xəbər getmişdir.
Alaca atlı Şöklü Məlik Məlik bərk pusqu qurmuşdur.
Pusduöu vaxtdan uca dağlara duman düşmüşdür.
“Yatdığı yerdə Bəkil bəyi tutun!” – demişdir.
“Ağ əllərini qollarından bağlayın!” – demişdir.
“Qan töküb yerini-yurdunu çapın!” – demişdir.
“Ağ üzlü qız-gəlini əsir tutun!” – demişdir.

Oğul, qalxaraq yerindən dur gəl!
Qara yallı gözəl Qazlıq atını min!
Yalçın qayalı Ala dağı gecəylə aşıb
Ağ alınlı Bayındır xanın divanına get!
Ədəb-ərkanla Bayındır xana salam ver!
Bəylər bəyi olan Qazan xanın əlin öp!
“Ağ saqqallı atam xəstədir”, söylə!
“Qazan xan mütləq mənə yetişsin”, söylə!
“Gəlməsən, yurdumuz talandı!”, söylə,
“Qız-gəlinimiz əsir getdi özgə elə” (8, 204-205).

Təkcə Oğuz elinin sərhədlərini, insanlarını, maddi varidatını deyil, həm də şərəfini qorumaq “Kitabi-Dədə Qorqud” qəhrəmanlarının funksiyasıdır.

“Kitabi-Dədə Qorqud” da ərənliyin, qəhrəmanlığın tələbləri Qazan xanın kimi obrazlara münasibətdə bəzən elə yüksək səviyyəyə qaldırılır ki, bunun harada hüdudlandığını anlamaq, hətta fantaziyamızı işə salsaq belə, çətin olur. Qazan xanın kafirlərlə dialoqunda:

Bin-bin ərdən yağı gördümsə, oyunum dedim,
Yigirmi bin ər yağı gördümsə, yılamadım.
Otuz bin ər yağı gördümsə ota saydım.
Qırq bin ər yağı gğrdümsə, qıya baxdım.
Əlli bin ər gördümsə əl vermədüm.
Altmış bin ər gördümsə aytışmadım.
Səksən bin ər gördümsə, səksənmədim.
Toqsan bin yağı gördümsə tonatmadım.
Yüz bin ər gördümsə, yüzüm dönmədim.
Yüzi dönməz qılıcum əlimə aldım,

Məhəmmədin dini eşqinə qılıc urdum.
Ağ meydanda yumru başı topca kəsdim.
Anda dəxi ərəm, bəgəm deyü ögünmədim (8, 117)

Bundan başqa, Qazan xan üçün, düşmən qalalarını dağıtmaq, "altı qatla Oğuzun" ala bilmədiyi düşmən şəhərlərini altı ərlə almaq, "kilsələri yıxıb yerinə məscid tikmək", əjdaha ilə təkbətək döyüşə girmək hələ ona ərliyilə öyünmək üçün azlıq edir.

Azərbaycan-oğuz epik qəhrəmanı ədalətli olmalıdır. Epik təfəkkür bütün hallarda ədalət prinsipinin pozulmasını doğru saymır: hər-hansı qəhrəman qeyri-adil davranarsa, özü, el-obası və ya ailəsi bunun ağır nəticəsini görür. Qazan xanın Oğuz cəmiyyətdəki mövcud qayda-qanunları pozub, Dış Oğuzu "evinin yamğalanmasına" dəvət etməməsi oğuzlar üçün faciələrə, o cümlədən Bamsı Beyrəyin ölümünə səbəb olur.

Qəhrəmanın mənəvi zənginliyinin bir göstəricisi də onun saz (KDQ-də qopuz) çalıb oxuya bilməsidir. Qəhrəmanlığın bu göstəricisi "Kitabi-Qədə Qorqud" qəhrəmanları üçün zərurət deyilsə də, Azərbaycan epik yaradıcılğının sonrakı mərhələsində – "Koroğlu"da artıq fiziki güclə vəhdətdə çıxış edir və daha sonra məhəbbət (eşq) dastanlarında artıq qəhrəman olmanın binici şərtini təşkil edir.

"Kitabi-Dədə Qorqud"da mənəvi motivasiyadan uzaq olan və ya el-obaya, ailəyə xidmət etməyən şücaətlər qəhrəmanlıq sayılmır. "Kitabi-Dədə Qorqud"da bəylər və dəlilər kateqoriyalarına girməyən "Oğuzdan qopan" daha bir obraz var ki, fiziki gücü ilə əksər Oğuz qəhrəmanlarından irəlidə durur. Onun hərəkətləri dəlilərin hərəkəti kimi "anormal"

olsa da, onlardan fərqli olaraq, mənəvi motivasiyadan uzaqdır. Bu, Təpəgöz obrazıdır. Dünya folklorşünaslığında sikloplar, divlər və digər azmanlar axmaq güclüyə ən bariz nümunə sayılır. Amma "Kitabi-Dədə Qorqud"dakı siklop – Təpəgöz heç də axmaq deyildir. Hətta bəzən hiylə də işlətməyə qadirdir. Buna səbəb onun yarıinsan olmasıdır. Kamran Əliyev bu mövzudan bəhs edərkən maraqlı bir nüansa diqqət çəkir və göstərir ki, Təpəgöz yarıinsan-yarımifik məxluq olduğu üçün, ona qalib gələ biləcək igid də yarımifik mənşəyə malik olmalı idi (7, 64). Dastanda belə igid Basatdır, çünki onu "Qağan aslan" bəsləmişdir. Belə desək, Təpəgöz insan tərəfindən bəslənib-böyüdülmüş mifik varlıq, Basat isə mifik varlıq tərəfindən bəslənib böyüdülmüş insandır.

Burada biz ilahi, sakral mənşənin bəzi obrazlar, o cümlədən xaosu təmsil edən yarımifik qüvvələrlə mübarizə aparan qəhrəman obrazları üçün (Oğuz Kağan, Basat) zəruri meyar olduğunu görürük.

**Nəticə.** Azərbaycan qəhrəmanlıq eposundakı epik qəhrəman tipində fövqəl fiziki güc və imkanlar mənəvi zənginlik kriteriyaları ilə qovuşur və bəzən məhz mənəvi (və ya ilahi) keyfiyyətlərin dominantlığı ən layiqli qəhrəmanı müəyyən edir. Azərbaycan epik qəhrəmanı hər şeydən öncə vətənin, xalqın, haqq-ədalətin, azadlığın, yaşamın və insan səadətinin qoruyucusudur. Ağsaqqallara, əcdadlara hörmət, şərəf və namus, xüsusən ailə şərəfi və namusunu gözləmək onun zəruri mənəvi keyfiyyətidir. Döyüşdə və ya öz amalı yolunda mübarizədə ölə biləcəyini hesaba almaq Azərbaycan-oğuz epik qəhrəman tipi üçün tam yaddır. Azərbaycan-oğuz epik qəhrəmanı ölümdən qorxmaz və ölməkdən

qorxanlara nifrət edər. “Kitabi-Dədə Qorqud” və “Koroğlu” kimi epik əsərlərdə qəhrəmanın mənəvi zənginliyi, onun daxili dünyası, hisləri saz (qopuz) çalıb-oxuya bilməsi ilə də təzahür etdirilir.

**Ədəbiyyat:**


1. Abbasov E. Koroğlu: poetik sistemi və strukturu. Bakı: Nurlan, 2008.

2. Abbasov E. “Koroğlu” dastanında qəhrəmanlıq: ideyası, poetikası və milli identifikasiyada rolu / Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik. Bakı: Elm və təhsil, 2019, s.160-178.

3. Bayat F. Oğuz dünyasının epik qanunları və qəhrəmanın bioqrafiyası. Bakı: Elm və təhsil, 2019.

4. Bayat F. Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə. Bakı: Elm və təhsil, 2019.

5. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999.

6. Eposşünaslıq: problemlər müzakirələr. Bakı: Elm və təhsil, 2013.

7. Əliyev K. Çağdaş folklorşünaslığın problemləri. Bakı: Elm və təhsil, 2017, s.64ş

8. Kitabi-Dədə Qorqud. Çapa hazırlayanlar: F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 1988.

9. Koroğlu (çapa hazırlayanı və ön sözün müəllifi M.H.Təhmasib). Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1956.

10. Koroğlu. Paris nüsxəsi (çapa hazırlayan, ön söz qeyd və şərhlərin müəllifi İ.Abbaslı). Bakı: Ozan, 1997.

11. Ömərov V. Azərbaycançılığın qaynaqları: “Koroğlu” dastanı və azərbaycançılıq ideyası / “Səs” qəzeti, 2 mart 2012.

**Vidadi QAFAROV**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**

# AZƏRBAYCAN TEATRININ MİLLİ KİMLİK PROBLEMİ
# (XX əsr-XXI əsrin əvvəlləri)

XÜLASƏ

Məqalə Azərbaycan teatr tarixinin ən zəngin və eyni zamanda mürəkkəb dövrünü – XX əsrdən başlamış, XXI əsrin əvvəllərinədək olan böyük bir mərhələsini əhatə edir. Müəllif Azərbaycan teatrının milli kimliyini müəyyən etmək məqsədi ilə peşəkar teatrımızı formalaşdıran dramaturgiya, rejissor və aktyor sənətlərinin inkişaf yolunu xronoloji qaydada izləyir, teatr aləmində baş verən proseslərin və sənət hadisələrinin dövrün ictimai-siyasi-mədəni mühiti fonunda elmi şərhini verməyə çalışır.

***Açar sözlər:*** Azərbaycan teatrı, milli kimlik, dramaturgiya, rejissor, aktyor, pyes, qastrol, festival

# NATIONAL IDENTITY PROBLEM OF AZERBAIJAN THEATRE
# (20th century-the beginning of the 21st century)

SUMMARY

This article covers the rich and at the same time complex period of theatrical history of Azerbaijan - from the 20th century to the early 21st century. The author follows chronologically the development of dramaturgy, directing and acting which form our professional theater in order to determine the national identity of the Azerbaijan theatre, and trying to expla-

in scientifically the processes and events in the world theater against the background of socio-political and cultural environment of the era.

***Key words:*** Azerbaijan theatre, national identity, dramaturgy, director, actor, play, tour, festival

## ПРОБЛЕМА НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ТЕАТРА (XX век-начало XXI века)

РЕЗЮМЕ

Статья охватывает самый богатый и в то же время сложный период театральной истории Азербайджана, начиная с XX века, до начала XXI века. Пытаясь определить национальную идентичность азербайджанского театра, автор в хронологическом порядке прослеживает пути развития драматургии, режиссерского и актерского искусства, формирующие наш профессиональный театр, стремится дать научное объяснение процессам и событиям, происходящим в театральном мире, на фоне социальной, политической, культурной обстановки эпохи.

***Ключевые слова:*** азербайджанский театр, национальная идентичность, драматургия, режиссер, актер, спектакли, гастроли, фестиваль

Bu gün Azərbaycan incəsənəti – Şərq mədəniyyəti faktı olaraq dünya mədəniyyəti ilə, Qərb dünyagörüşü ilə inteqrasiya prosesini davam və inkişaf etdirir. Müasir Azərbaycan incəsənətində dünya mədəni prosesinin, az qala, bütün təmayülləri və formaları öz əksini tapır. Bəşəriyyətdə gedən qloballaşma və onun doğurduğu postmo-

dernist ab-hava milli özünüqoruma instinktini oyatdığından xalqlarda özünüdərkə, milli dəyərlərin öyrənilməsinə və qorunmasına tələbatı və marağı artırır. Bu isə Azərbaycan teatrının, eləcə də digər sənət növlərinin tarixi ilə yanaşı, onun elmi-nəzəri problemlərinin, poetikasının, etnomifoloji, dini köklərinin, bir sözlə, milli kimlik probleminin daha geniş, əhatəli və dərindən araşdırılmasını zəruri və aktual edir.

Digər tərəfdən, Azərbaycan teatrşünaslığının hazırki səviyyəsi, indiyədək daha çox diqqət yetirilmiş teatr tariximizin öyrənilməsi sahəsində əldə olunmuş nəticələr, yazılmış əsərlər nəzəri mövzuların araşdırılmasına şərait yaratmaqla teatrşünaslarımızın qarşısına yeni elmi vəzifələr qoyur.

Azərbaycan teatrının milli kimliyini müəyyən etmək, əslində, bütövlükdə milli teatr tarixini sərf-nəzər etmək deməkdir. Bu mənada, Azərbaycan teatr tarixini üç istiqamətdə təsnifləşdirmək və dəyərləndirmək daha məqsədəuyğundur. Birincisi, teatrın üzvi tərkib hissəsi saydığımız dramaturgiya baxımından, ikincisi, XX əsr teatrının hakimi olan rejissor sənəti baxımından, üçüncüsü, teatrın əbədi siması olan aktyor sənəti baxımından.

Azərbaycan teatrı, əsasən, üç bədii üslub – realist, romantik və lirik-psixoloji üslublar üzərində təşəkkül tapıb. Bu həm dramaturgiyada, həm rejissurada, həm də aktyor sənətində özünü göstərir.

Azərbaycan teatrının bəxti onda gətirib ki, M.F. Axundzadə təkcə milli dramaturgiyamızın banisi olmayıb, eyni zamanda teatr fikrinin də bünövrəsini qoymuş, Azər-

baycan dramaturgiyası və teatrı öz tarixi yürüşünə maarifçilik ideyaları ilə, tənqidi realizmlə başlamışdır. M.F. Axundzadənin pyesləri formaca Qərbdən, məzmunca Şərqdən qaynaqlanmaqla, Azərbaycan teatrının gələcək inkişaf konturlarını müəyyən etmişdir.

Maraqlıdır ki, XIX əsrin ikinci yarısından, Mirzə Fətəlidən başlayaraq bədii fikirdə dramaturgiya, dramaturgiyada isə komediya janrı dominantlıq edir. “M.F.Axundov maarifçiliyinin ümumbəşəri və ümumşərq əhəmiyyəti yalnız onunla şərtlənmir ki, o məhz klassik maarifçiliyin vətəni ilə səsləşir, həm də onunla şərtlənir ki, o özü Şərq üçün klassik nümunələr (formalar) verir!...” (6, 93). Bu isə özünü, ilk növbədə, Mirzə Fətəlinin dramaturgiyasında göstərir. M.F.Axundzadə 1850-1855-ci illər ərzində qələmə aldığı altı pyesi ilə Azərbaycan yazılı dramaturgiyasının, pərdəli teatrının təməlini qoymaqla yanaşı, onun inkişafının ideya-məzmun istiqamətlərini, nəzəri əsaslarını, janr-üslub-poetika xüsusiyyətlərini, bütövlükdə estetik prinsiplərini müəyyənləşdirir. Bütün obyektiv və subyektiv səbəblərdən çıxış edərək ədib ən optimal yol seçir: adaptasiya yolunu tutur.

Həm də bir məsələyə diqqəti çəkək ki, bu, Şərqin Qərbə deyil, Qərbin Şərqə adaptasiyası kimi baş verir. Təsadüfi deyil ki, dramaturq fransız Müsyo Jordanı – Qərbin təmsilçisini Azərbaycana gətirir, Şahbaz bəy isə Parisə gedə bilmir – bir Şərqli olaraq metafizik dairədən çıxa bilmir. Müəllif həm də bunu yalnız məzmun planında, fabula hadisəsi kimi təqdim etmir. Milli dramaturgiyamızın banisi üçün bu, konseptual səciyyə daşıyır, eyni zamanda

onun ideya-estetik prinsiplərindən irəli gəlir, janr-poetika xüsusiyyətlərinin daşıyıcısına çevrilir.

* * *

XX əsrin əvvəllərindən etibarən Azərbaycan teatrı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1905-ci il Birinci rus inqilabından sonra teatr prosesi, əsasən, bu illərdə yaradılan mədəni-maarif cəmiyyətləri və onların nəzdində təşkil olunan teatr truppalarının fəaliyyəti üzərində qurulmuş və geniş vüsət almağa başlamışdır. Bakıda "Müsəlman artistləri şirkəti", "Nicat", "Həmiyyət", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr dəstələri, "Hacıbəyov qardaşlarının müdiriyyəti" və s. truppalar, həmçinin, azərbaycanlı ziyalıların Tiflisdə təşkil etdiyi "Müsəlman artistləri", "İttihad", "İbrət" cəmiyyətlərinin truppaları, Aşqabadda "5 nömrəli teatr dəstəsi", İrəvanda "Müsəlman dram cəmiyyəti", Təbrizdə "Azərbaycan artistləri dəstəsi" kimi truppaların fəaliyyəti sayəsində teatr prosesi daha da intensivləşmiş, əhalinin teatra marağı artmışdır. Xalqın maariflənməsi, mədəni səviyyəsinin yüksəlməsi yolunda böyük işlər görən bu truppalar milli teatr və dramaturgiyanın inkişafında, yeni əsərlərin və milli teatr kadrlarının yaranmasında mühüm rol oynamışlar.

1905-ci ildən başlayaraq Azərbaycanın müxtəlif şəhər və rayonları ilə yanaşı, onun hüdudlarından kənara (Cənubi və Şimali Qafqaz, Orta Asiya, Həştərxan, Kazan, İran şəhərləri və s.) qastrol səfərlərinə çıxan bu truppalar, fəaliyyət coğrafiyasını genişləndirmiş, xüsusən, Orta Asiyada dünyəvi teatrın yaranmasında müstəsna xidmətlər göstərmişlər.

1908-ci il yanvar ayının 12-də nəinki Azərbaycan teatrının, bütövlükdə milli mədəniyyətimizin tarixində əlamətdar hadisə baş vermişdir. Həmin gün Tağıyev teatrının səhnəsində ilk tamaşası oynanılan dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" muğam-operası ilə təkcə Azərbaycanda deyil, ümumiyyətlə Yaxın Şərqdə opera sənətinin, eyni zamanda musiqili teatrın əsası qoyulmuşdur. Operanın quruluşunu böyük tragik Hüseyn Ərəblinski vermiş, ilk tamaşanın dirijoru görkəmli dramaturq və teatr xadimi Əbdürrəhim bəy Haqverdiyev olmuşdur. "Nicat" cəmiyyətinin teatr truppası tərəfindən hazırlanan tamaşada Məcnun partiyasını Hüseynqulu Sarabski, Leyli partiyasını Əbdülrəhim Fərəcov oxumuş, ikinci tamaşadan başlayaraq Leyli rolunu Əhməd Ağdamski ifa etmiş və uzun illər ərzində bu rolun mahir ifaçısı olaraq tanınmışdır.

1910-cu ildə Azərbaycanın mədəni həyatında yeni hadisə baş vermişdir. Premyerası 1910-cu il mayın 24-də Bakıda Nikitin qardaşlarının sirk binasının səhnəsində oynanılan Ü.Hacıbəylinin "Ər və arvad" musiqili komediyası ilə Azərbaycanda operetta janrının və musiqili komediya teatrının bünövrəsi qoyulmuşdur. Ü.Hacıbəylinin daha sonra bir-birinin ardınca yazdığı "O olmasın, bu olsun" ("Məşədi İbad", premyera: 25 aprel 1911-ci il) və "Arşın mal alan" (premyera: 25 oktyabr 1913-cü il) operettaları musiqisevər Azərbaycan xalqını teatra daha da yaxınlaşdırmaqla yanaşı, bəstəkara dünya şöhrəti qazandırmışdır. Təkcə onu demək kifayətdir ki, "Arşın mal alan" operettası dünyanın 67 dilinə tərcümə olunmuş, 120 teatrın səhnəsində göstərilmiş, 50 ölkədə tamaşaya qoyulmuş, 4 dəfə ekranlaşdırılmışdır.

Bakıda ilk məxsusi opera teatrı binası kimi tikilən "Mayılov teatrı"nın ("Mayılov qardaşlarının teatrı") açılışı 1911-ci il fevral ayının 28-də olmuşdur. Həmin gün yığma truppanın aktyorları bu teatrın səhnəsində M.Musorqskinin "Boris Qodunov" operasını göstərmişlər.

1910-cu illərdə musiqili tamaşalar, əsasən, "Hacıbəyov qardaşlarının müdiriyyəti" truppası tərəfindən hazırlanmışdır. Bu illərdə Azərbaycan musiqili teatrının repertuarını daha çox Ü.Hacıbəylinin opera və operettaları, Z.Hacıbəyov, M.Maqomayev, M.M.Kazımovski, M.C.Əmirov və başqalarının əsərləri təşkil etmişdir. Bakıda ilk dəfə balet tamaşası 1921-ci ildə oynanılmış Leo Delibin "Koppeliya" ("Mavi gözlü qız") baleti olmuşdur.

1918-ci ilə qədər Azərbaycanda teatrın mənzərəsini müxtəlif teatr truppalarının fəaliyyəti təyin etmişdir. Bu truppaların repertuarı əsasən, milli dramaturqların pyeslərindən tərtib olunmuş, həmçinin rus və Qərbi Avropa klassiklərinin əsərləri ilə zənginləşdirilmişdir. Yarandığı gündən maarifçilik və demokratik ideyalara sadiq olan Azərbaycan teatrının həmin dövr repertuarında M.F.Axundzadənin komediyaları ilə yanaşı, N.Vəzirovun "Müsibəti Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük", Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", N.Nərimanovun "Nadanlıq", "Nadir şah", C.Məmmədquluzadənin "Ölülər", F.Şillerin "Qaçaqlar", H.Heynenin "Əlmənsur", U.Şekspirin "Otello", J.B.Molyerin "Zorən təbib", N.V.Qoqolun "Müfəttiş", "Evlənmə", L.N.Tolstoyun "Əvvəlinci şərabçı" kimi pyesləri, eləcə də xarici müəlliflərin əsərlərindən edilən təbdillər mühüm yer tutmuşdur. XIX

əsrin sonuncu rübündə və XX əsrin ilk onilliyində bədii yaradıcılıqda dramaturgiya, teatr və dramaturgiyada isə komediya janrı dominantlıq təşkil etmişdir.

* * *

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının (ADR) qurulması ilə ölkənin tarixində, həmçinin teatr sənətində yeni era başlanmışdır. "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır" (1, 49). Bu fikirlər Ümummilli lider Heydər Əliyevə məxsusdur.

Həqiqətən də, bütün Şərqdə və İslam dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti iki ildən az müddətdə mövcud olmasına baxmayaraq, xalqın sosial rifahının yüksəlməsi, maariflənməsi, estetik zövqünün formalaşması, dünyagörüşünün genişlənməsi, mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində misilsiz işlər görmüşdür.

Mədəniyyətə, ədəbiyyat və incəsənətə çox böyük önəm verən Xalq Cümhuriyyətinin öndəri M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetinin 1919-cu il 7 iyul tarixli sayında yazırdı ki, "azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur". Görkəmli yazıçı və diplomat Y.V.Çəmənzəminli isə: "Bir də deyi-

rəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək", – deyə səslənirdi.

Bütövlükdə ideologiyası "türkləşmək, islamlaşmaq və müasirləşmək" konsepsiyası üzərində qurulmuş Xalq Cümhuriyyətinin mədəniyyət siyasəti də məhz bu ideyaya əsaslanırdı. O dövrdə "Müsavat" gənclər təşkilatının rəhbəri olan 19 yaşlı Cəfər Cabbarlı Cümhuriyyətin üçrəngli bayrağını "yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim" adlandırır və:

***Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,***
***Bir türk oğlu olmalı!***
***Yaşıl boya islamlığın sarsılmayan imanı,***
***Ürəklərə dolmalı!***
***Şu al boya da azadlığın, təcəddüdün fərmanı,***
***Mədəniyyət bulmalı!*** (2, 151-152) – deyirdi

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti üçün mədəniyyət onun bayrağında öz əksini tapmış, o səviyyəyə yüksəlmiş tale yüklü mühüm bir amil idi.

Bu baxımdan, 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis edilməsi, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi, mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarətinin, senzuranın ləğv olunması Cümhuriyyət hökumətinin cəmiyyətin demokratikləşməsi, xalqın mədəni inkişafı yolunda atdığı tarixi addımlar idi.

1918-1920-ci illərdə Azərbaycanda 100 adda mətbu orqan var idi ki, onlar da əhalinin müxtəlif siniflərinin maraqlarını əks etdirirdi. Onların səhifələrində milli dirçəliş

naminə təhsil, elm, maarif və mədəniyyətin inkişafına, milli ruhlu yeni nəslin yetişdirilməsinə, eyni zamanda, ölkədə baş verən ictimai-iqtisadi, siyasi hadisələrə həsr edilmiş məqalələr dərc olunurdu.

Mətbuatın cəmiyyətə təsirini yüksək qiymətləndirən Məhəmməd Əmin Rəsulzadə 1919-cu ildə "Azərbaycan" qəzetində yazırdı: "Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur... Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz" (1, 86).

1919-cu il avqustun 26-da "Yaşıl qələm" ədəbi birliyinin yığıncağının Parlament binasında keçirilməsi, M.Ə.Rəsulzadənin orada iştirak və çıxış etməsi də milli dövlətin ədəbiyyata və incəsənətə nə dərəcədə əhəmiyyət verdiyini göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət siyasətinin ən mühüm tərkib hissələrindən biri də teatr sənəti idi. Ölkədə milli respublikanın qurulması milli teatrın fəaliyyətinə də ciddi müsbət təsir göstərdi. Dövlətin xüsusi diqqəti və fəal dəstəyi Azərbaycan teatrında mühüm keyfiyyət dəyişikliklərinə səbəb oldu. Teatrın repertuarına ölkənin tarixi, milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər daxil edildi. Ölkənin ictimai həyatında teatrın rolu artdı.

Azərbaycan teatrının qabaqcıl nümayəndələri cəmiyyətin mütərəqqi qüvvələrinin yardımına arxalanaraq, teatrın ideya-bədii səviyyəsini qaldırmaq və onu təşkilati cəhətdən möhkəmləndirmək üçün pərakəndə teatr truppaları-

nın birləşdirilməsinə çalışırdılar. Məhz bunun nəticəsində aktyorların yaradıcılığının inkişafına, onların peşəkarlığının yüksəldilməsinə qayğı göstərən "Müsəlman artistləri cəmiyyəti" yaradıldı. Bütün bu truppalar milli dramaturgiyanın və dünya dramaturgiyasının ən yaxşı əsərlərini uğurla tamaşaya qoyurdular.

1918-ci il mart soyqırımı nəticəsində Bakıda olan teatr truppaları, demək olar ki, fəaliyyətlərini dayandırsalar da, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması onların yenidən təşkil edilməsinə imkan yaratdı. Cümhuriyyət dövründə Bakıda fəaliyyətini bərpa edən ilk truppa "Hacıbəyli qardaşları" oldu. Truppa tanınmış sənətkarlardan Hacağa Abbasov, Mirzağa Əliyev, Əhməd Ağdamski, Cəlil Bağdadbəyov, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Muxtar Məhəmmədzadə, Rza Darablı, Sidqi Ruhulla, Ələkbər Hüseynzadə, Məmmədtağı Bağırzadə, Bağır Cabbarzadə, Əbülhəsən Anaplı, Əhməd Anatollu, Mir Mahmud Kazımovski, Məğfurə xanım, Yeva (Yevgeniya) Olenskaya, Semnur xanım, Mina xanım və başqalarını bir yerə toplayaraq, həftədə üç gün növbə ilə dram, komediya, opera və operetta tamaşaları göstərir, repertuarını zənginləşdirməyə çalışırdı.

"Hacıbəyli qardaşları"nın teatr truppasında Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Pəri-cadu", "Ağa Məhəmməd şah Qacar", Şəmsəddin Saminin "Gaveyi-ahəngər", Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar", Mehdi bəy Hacınskinin "Sultan Əbdülhəmidin "xəl"i və yaxud zülm və istibdadın axırı", Cəfər Cabbarlının "Ənvər bəyin Ədirnə fəthi", İsa bəy Aşurbəylinin "Azərbay və Can" kimi dram əsərləri, Üzeyir bəy Hacı-

bəylinin “Arşın mal alan”, “O olmasın, bu olsun”, “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Şah Abbas və Xurşid banu”, Zülfüqar Hacıbəylinin “Aşıq Qərib”, “Evliykən subay”, Müslüm Maqomayevin “Şah İsmayıl” kimi operaları və operettaları dəfələrlə göstərilmişdir.

Bu dövrdə tamaşaların göstərilməsi üçün daimi teatr binasının olmaması, anti-demokratik qüvvələrin milli teatrın inkişafına əngəl törətməsi və s. maneələrə baxmayaraq, ölkənin mədəni həyatı canlanır, yenilik ovqatı hiss edilirdi. Cümhuriyyət Hökumətinin teatrın inkişaf etdirilməsi yolunda məqsədyönlü tədbirlərindən biri də Dövlət Teatrının təşkili oldu.

Hökumətin 1918-ci il 9 oktyabr tarixli qərarına əsasən teatr işi Maarif nazirliyinin sərəncamına verildi. Oktyabrın 18-də isə Hökumət Dövlət Teatrının təşkili haqqında Xalq Maarifi nazirinin məruzəsini dinlədi və Mayılov teatrının binasını (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) Dövlət teatrı üçün almaq barədə qərar qəbul etdi. Xatırladaq ki, 1918-ci ilin fevral ayında Tağıyev teatrının binası erməni daşnakları tərəfindən yandırıldığından və hələ təmir edilmədiyindən istifadəyə yararsız idi. Bu səbəbdən, Mayılov qardaşları teatrının binası daha münasib sayılaraq, Xalq Maarifi nazirinə bu teatrın binasını məcburi surətdə, lakin ədalətli qiymətlə nazirliyin sərəncamına almaq və bundan sonra onu Dövlət teatrı adlandırmaq tapşırılırdı. Yeni yaradılmış teatrın tərkibi Azərbaycan səhnə sənətinin xadimlərindən təşkil edildi. Dövlət Teatrının açılışı və fəaliyyəti Xalq Cümhuriyyətinin mədəni həyatında ən parlaq səhifələrdən birinə

çevrildi. Əgər bu vaxta qədər "Hacıbəyli qardaşları" truppası, əsasən, opera və operetta tamaşaları göstərirdisə, Dövlət Teatrı təşkil olnduqdan sonra onun repertuarı zənginləşdi, milli dramaturgiya ilə yanaşı, dünya klassiklərinin əsərləri də səhnəyə qoyuldu.

"Dövlət Teatrının açılmasını, onun tarixi əhəmiyyətini və vəzifələrini, aktyorluq sənəti və teatr qarşısında meydana çıxan bir sıra məsələləri ətraflı şəkildə işıqlandıran ictimai xadim, publisist Mirzəbala Məmmədzadə "Hökumət və teatro" məqaləsində milli və qüdrətli bir səhnəyə malik olmaq üçün yüksək səviyyəli əsərlər meydana qoya biləcək yazıçıların, həmçinin həmin səhnə əsərlərini mükəmməl sənətkarlıqla xalqa çatdırmağa qadir olan aktyorların yetişdirilməsini zəruri sayır və onların hər ikisinin mövcud olduğunu bildirirdi" (1, 98).

Dövlət Teatrının pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açıldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Teatrının binasında opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsertlərlə yanaşı, mühüm dövlət tədbirləri də keçirilirdi.

1919-cu il avqustun 22-də Bakı "Türk aktyorları ittifaqı" idarəsi ilə "Hacıbəyli qardaşları" müdiriyyətinin birgə iclasında "milli səhnəmizi daha müntəzəm bir hala salmaq" məsələsi müzakirə edildi və repertuardakı istər dramatik, istərsə də musiqili əsərləri həyat gerçəkliyinə uyğunlaşdırmaq, müqtədir aktyor və aktrisalar hazırlamaq, onların peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə dörd şöbədən ibarət "bədaye kursları"nın yaradılması qərara

alındı. Onun dram şöbəsinə Abbas Mirzə Şərifzadə, Hüseynqulu Sarabski, komediya şöbəsinə Mirzağa Əliyev, musiqi şöbəsinə Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları, Müslüm Maqomayev, Qurban Pirimov, ədəbiyyat şöbəsinə isə Əlabbas Müznib və Rza Zəki təsdiq olundular. Kurslara azərbaycanlı həvəskar aktyorlar, habelə müxtəlif millətlərdən olan aktrisalar cəlb edildilər.

Azərbaycan Hökuməti müsəlman teatr truppasını öz himayəsinə götürməyi qərara almışdı. Nazirlər Şurası 1919-cu il 17 noyabr tarixli iclasında maarif nazirinin türk opera-dram teatrının təşkili haqqında məruzəsini dinləyərək, Dövlət Türk Opera-Dram Teatrının yaradılmasını nəzərdə tutan qanun layihəsini bəyəndi və dövlət teatrının bərpası üçün 300 min 605 manat vəsait ayırdı. Beləliklə, Azərbaycan türk teatrı milliləşdirildi və dövlətin himayəsinə verildi.

Xalq Cümhuriyyətinin teatrla bağlı ən mütərəqqi addımlarından biri də verginin azaldılması ilə bağlı qərarı idi. Xalq Maarifi Nazirliyi teatrın inkişafına qayğı göstərərək, Parlamentə teatr kollektivləri və digər mədəniyyət müəssisələri üzərinə qoyulmuş vergilərin ləğv olunması barəsində məruzə təqdim etdi. Məruzədə həmin vergilərin hədsiz dərəcədə çox olmasını təsdiq edən faktlar göstərilirdi. Nəticədə, Parlament teatr tamaşalarına və digər kütləvi tamaşalara qoyulmuş dövlət vergilərini yarıbayarı azaltdı.

Dövlət Türk Teatrosu (o vaxt teatr belə adlanırdı) 1919-cu ildə teatr mövsümünü təntənəli şəkildə oktyabrın 24-də açdı. Parlament və Hökumət üzvlərinin iştirak etdiyi açılışda İsa bəy Aşurbəylinin “Azərbay və Can” adlı tarixi pyesi böyük uğurla oynanıldı. Dörd gün davam edən təntənəli

açılışın növbəti günlərində Şəmsəddin Saminin "Dəmirçi Gavə", Cəfər Cabbarlının "Bakı müharibəsi" və M.B.Məmmədzadənin "Bakı uğrunda mübarizə" əsərləri oynanıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət siyasəti, onun inkişafına göstərdiyi qayğı nəticəsində milli teatrın inkişafında nəzərəçarpan uğurlar qazanıldı. Azərbaycan teatrının repertuarında müstəqillik uğrunda mübarizə tarixinə həsr olunmuş dram əsərləri mühüm yer tuturdu. Teatrda tamaşaya qoyulan əsərlərin keyfiyyətinə, cəmiyyətin bədii zövqünün düzgün formalaşmasına ciddi diqqət yetirilirdi. Səhnə əsərlərinin seçilməsi və onların ədəbi və bədii keyfiyyətlərinə lazımi nəzarət edilməsi üçün ədəbi komissiya yaradılmışdı.

Xeyriyyə tamaşalarının təşkili teatrın fəaliyyətində, bir növ, ənənəyə çevrilmişdi. "Azərbaycan" qəzetində həlak olmuş döyüşçü ailələrinin xeyrinə təşkil olunan teatr tamaşaları barəsində tez-tez elanlar verilirdi. Bu işdə Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının truppası xüsusi fəallıq göstərirdi.

Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayırdı. Rəsmi hökumət qəzetlərinin səhifələrində teatr tamaşaları haqqında elanlar, rolların ifaçıları barədə məlumatlar və digər zəruri informasiyalar çap olunurdu. Hüseyn Ərəblinskinin 1919-cu ilin mart ayında faciəli surətdə ölümünün cəmiyyət və Hökumət dairələrində doğurduğu əks-səda dövlətin teatra necə böyük əhəmiyyət verdiyini göstərirdi. Böyük aktyor və rejissorun matəm mərasimindəki çıxışında Məhəmməd Əmin Rəsulzadə onun fəaliyyətini yüksək qiymətləndirmiş, Azərbaycanda səhnə sə-

nətinin inkişafında və çiçəklənməsində böyük xidmətlərini qeyd etmişdi. O, Hüseyn Ərəblinskinin ən böyük xidmətinin xalqa azadlıq və müstəqillik ruhunun və ideyalarının aşılanması ilə bağlı olduğunu, Azərbaycanın müstəqilliyi ideyasının mədəniyyət xadimlərinin fəaliyyəti hesabına gerçəkləşdiyini xüsusi olaraq vurğulamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti illərində maarif xadimləri, yaradıcı ziyalılar, ədib və mühərrirlər (Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Seyid Hüseyn, Hacı İbrahim Qasımov, Xəlil İbrahim, Mehdi bəy Hacınski və b.) teatr sahəsində baş verən prosesləri diqqətlə izləyir, teatr tənqidi ilə məşğul olur, yeni tamaşalar, rejissor işi və aktyor oyunu barədə fikirlər söyləyir, teatr sənətinin inkişaf problemlərinə dair məqalələr dərc etdirirdilər.

1919-cu il martın 11-də nəşrə başlayan "Övraqi-nəfisə" jurnalı Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənətdən bəhs edən ilk dövri mətbuat orqanı oldu. 1919-cu ilin mart-avqust aylarında Bakıda cəmi 6 nömrəsi nəşr edilmiş həmin jurnalın redaktoru Əlabbas Müznib, naşiri bəstəkar Zülfüqar bəy Hacıbəyli, rəssamı Əzim Əzimzadə idi. Jurnalın səhifələrində Firidun bəy Köçərli, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Zülfüqar Hacıbəyli, Əlabbas Müznib, Əmin Abid, Məhəmməd Hadi və başqa müəlliflər çıxış edirdilər. Jurnalda musiqi, teatr, memarlıq abidələri haqqında məqalələr və fotoşəkillər dərc olunur, aktyorların həyatı və səhnə fəaliyyəti barədə yazılar verilirdi.

Cümhuriyyət dövrü ədəbi prosesinin canlanmasında dramaturgiya da əhəmiyyətli rol oynayırdı. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi tanınmış sə-

nətkarlar daha məhsuldar çalışırdılar. Azərbaycan dramaturgiyasının şah əsərlərindən olan "Anamın kitabı" (C.Məmmədquluzadə), "İblis" (H.Cavid), "Aydın" (C.Cabbarlı) məhz bu dövrdə yaranmışdı. Cəfər Cabbarlının "Ədirnə fəthi" və "Trablis müharibəsi", yaxud "Ulduz" pyeslərinin mövzusu Yaxın və Orta Şərqdə, o cümlədən Türkiyədə milli azadlıq hərəkatından götürülmüşdü. Xüsusilə "Ədirnə fəthi" Balkan müharibələri dövründə türk xalqının istiqlal mübarizəsi ilə zəngin tarixinin parlaq bir səhifəsindən bəhs edir. İsa bəy Aşurbəylinin istiqlal mövzusunda yazdığı "Azərbay və Can" pyesi də böyük maraqla qarşılanmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti illərində teatr və dramaturgiya sahəsindəki dövlət siyasəti və həyata keçirilən mühüm tədbirlər ölkəmizdə teatr sənətinin inkişafında mühüm rol oynadı. Təəssüf ki, Xalq Cümhuriyyətinin ömrü az oldu. Lakin bu az müddətdə onun gördüyü işlər bu gün də öz bəhrəsini verməkdə, onun varisi olan, yenidən müstəqilliyinə qovuşan, müasir Azərbaycan Respublikasında da davam etməkdədir.

* * *

1920-ci ildə ADR-in süqutundan sonra hökumətin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı (BDT). Burada Bakıda fəaliyyət göstərən bütün truppalar və həvəskar aktyorlar birləşdirildi. 1922-ci ildə dram truppası BDT-dən ayrılaraq, müstəqil teatra çevrildi. Həmin il yanvarın 17-də M.F.Axundzadənin "Hacı Qara" komediyasının yanğından sonra təmir edilmiş Tağıyev teatrının binasında göstərilən yeni tamaşası ilə Azərbaycan Dövlət Dram Teatrının təntənəli açılışı oldu.

Azərbaycan teatrı getdikcə inkişaf edir, xalqın həyatında daha əhəmiyyətli rol oynayırdı. Onun xəritəsi ildən ilə genişlənir, yeni-yeni teatrlar yaradılırdı. 1920-ci ildə Bakıda rusdilli Dövlət Azad Tənqid və Təbliğ Teatrı ("Satiragit" teatrı) təşkil edildi. 1923-cü ildə Bakı İşçi Teatrına (Bakı Rus İşçi Teatrı) çevrilən kollektiv 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı (1956-cı ildən S.Vurğun adına) adı ilə fəaliyyətini davam etdirməyə başladı.

1921-ci ildə "Tənqid və təbliğ teatrı"nın yaranması Bakının mədəni həyatında əlamətdar hadisəyə çevrildi. 1925-ci ildə bu teatrın bazasında Bakı Türk İşçi və Kəndli Teatrı (sonralar Bakı Türk İşçi Teatrı) yaradıldı. 1933-cü ilin yanvar ayında dövlətin qərarı ilə Bakı Türk İşçi Teatrı Gəncəyə köçürülərək onun bazasında Gəncə (o vaxt – Kirovabad) Dövlət Dram Teatrı təşkil edildi və bu teatr respublikanın aparıcı teatrlarından biri oldu.

1923-cü ildə yerli həvəskarların qüvvəsilə yaradılan Naxçıvan Dövlət Dram Teatrı "Hacı Qara" (M.F.Axundzadə) tamaşası ilə fəaliyyətə başladı. 1923-cü ildə Azərbaycanın ilk peşəkar qadın opera müğənnisi Şövkət Məmmədovanın təşəbbüsü ilə Yaxın Şərqdə ilk teatr təhsili müəssisəsi olan Bakı Teatr Məktəbi açıldı. 1945-ci ildən Teatr İnstitutuna çevrilən (hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlanır) bu təhsil ocağı yetişdirdiyi görkəmli sənətkarlarla milli teatr sənətinin inkişafında mühüm rol oynadı.

1929-cu ildə Bakı Uşaq Teatrı (indiki Dövlət Gənc Tamaşaçılar Teatrı), 1931-ci ildə Dövlət Kukla Teatrı yaradıldı. 1937-ci ildə respublikanın bir neçə rayonunda təş-

kil olunan dövlət teatrlarının faəliyyəti uzun sürməsə də (1949-cu ildə əksəriyyəti bağlandı), teatr sənətinin xalq arasında yayılmasına xidmət etdi.

Azərbaycan mədəniyyətini təmsil edən Azərbaycan Dövlət Dram Teatrı ilk dəfə 1930-cu ildə SSRİ teatr olimpiadası çərçivəsində Peterburq (10-20 may), Kazan (6-15 iyun) və Moskva (22-30 iyun) şəhərlərində qastrol səfərlərində oldu. Teatrın qastrolda nümayiş etdirdiyi "Zaqmuq" (A.Qlebov), "Namus" (A.Şirvanzadə), "Hacı Qara" (M.F. Axundzadə), "Od gəlini", "Sevil" (C.Cabbarlı), "Hamlet" (V.Şekspir), "Gülən adam" (V.Hüqo) tamaşaları ilə Rusiya tamaşaçılarının Azərbaycan teatrı ilə ilk böyük tanışlığı baş tutdu.

1937-ci il aprelin 30-da milli opera sənətinin zirvəsi sayılan Ü.Hacıbəylinin "Koroğlu" operasının ilk tamaşası oynanıldı. Operada baş rolu Bülbül ifa edirdi. 1941-ci ildə Ü.Hacıbəyli bu möhtəşəm operaya görə Stalin (Dövlət) mükafatına layiq görüldü.

Azərbaycan teatrı Rusiya tamaşaçısı ilə növbəti dəfə 1938-ci ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında görüşdü. Bu dəfə milli teatr dekadada Ü.Hacıbəylinin "Koroğlu", M.Maqomayevin "Nərgiz", R.Qlierin "Şahsənəm" operaları və Ü.Hacıbəylinin "Arşın mal alan" operettası ilə təmsil olundu. Dekadanın sonunda Şövkət Məmmədova SSRİ xalq artisti fəxri adı ilə təltif edildi.

Dekadadan sonra hökumət Bakıda müstəqil Musiqili Komediya Teatrı yaratdı. Teatr 30 may 1938-ci ildə Z.Hacıbəyovun "Evliykən subay" operettası ilə pərdələrini aç-

dı. 1940-cı il aprelin 18-də Azərbaycanın teatr tarixində daha bir böyük sənət hadisəsi baş verdi: səhnədə ilk Azərbaycan baleti - Əfrasiyab Bədəlbəylinin “Qız qalası” əsəri nümayiş olundu.

* * *

1920-1930-cu illər milli teatr tarixində axtarışlar dövrü kimi səciyyələnir. Bu mərhələdə Azərbaycan Dram Teatrı, Tənqid-Təbliğ Teatrı, Türk İşçi Teatrının fəaliyyətində o dövrə xas müxtəlif təmayüllər öz əksini tapır.

1940-cı ilədək olan dövr Azərbaycan peşəkar teatrının həm təşkilati, həm də yaradıcılıq baxımından formalaşma dövrü kimi səciyyələnir. Həmin dövrdə milli peşəkar teatr kadrlarının azlığı, tamaşaların müxtəlif dəst-xəttə malik rejissorlar tərəfindən qoyulması yaradıcılıq üslubunda bir pərakəndəlik yaradırdı.

1920-1940-cı illərdə milli teatr prosesinə rus teatrının təsiri ciddi şəkildə hiss olunur. Bakının müxtəlif teatrlarında fəaliyyət göstərən A.İvanov, V.Lütse, A.Tuqanov, D.Qutman, V.Uqryumı, S.Mayorov, Y.Varşavski, V.Fyodorov, A.Ridal, K.Stepanov-Kolosov kimi rus teatr məktəbini təmsil edən rejissorlar Bakıda teatr mühitinin formalaşmasında mühüm rol oynayır və Azərbaycan teatrının rus teatr ənənələri əsasında təşəkkülünə rəvac verirdilər.

Bu sırada Aleksandr Tuqanovun adı xüsusi qeyd olunmalıdır. 1924-cü ildən qısa fasilə ilə ömrünün sonunadək (1960) Bakıda yaşayan A.Tuqanov on ilə yaxın Milli Dram Teatrının baş rejissoru oldu, Teatr məktəbində və institutunda pedaqoji fəaliyyət göstərərək milli teatr kadrlarının yetişməsində müstəsna xidmətlər göstərdi.

Bu ənənəni Moskva və Leninqradda (indiki Sankt-Peterburq) teatr təhsili alan milli kadrlar davam etdirdi. 1920-ci illərin sonlarından etibarən Rusiyada ali rejissor təhsili alıb Bakıya qayıdan milli kadrların hesabına bu sahədəki boşluq getdikcə aradan qalxmağa başladı. Yusif Yulduz, Əliağa Ağayev, Ağəli Dadaşov, Soltan Dadaşov, Ələsgər Şərifov, Məcid Zeynalov, Məhərrəm Haşımov, Adil İsgəndərov kimi ali təhsilli gənc rejissorların yaradıcılığı Azərbaycan teatrının inkişafına bir təkan oldu.

Ali rejissor təhsili olan ilk peşəkar kadr Yusif Yulduz Azərbaycanda V.Meyerholdun şərti teatr estetikasının davamçısı kimi tanındı. Rus teatr ənənələrinə əsaslansa da, Azərbaycanda teatr prosesi yekrəng deyildi. Burada müxtəlif bədii təmayüllər paralel şəkildə mövcud idi ki, bu da nəticədə milli teatr sənətinin rəngarəngliyini təmin edirdi. Ancaq bu proses uzun müddət davam etmədi. Çünki 30-cu illərin ortalarında sosrealizm metodunun təsbit olunması nəticəsində müxtəlif bədii cərəyanların paralel yaşamı mümkünsüz oldu.

1934-cü ildə Sovet Yazıçılarının Birinci Qurultayında sosialist realizminin vahid yaradıcılıq metodu kimi bəyan edilməsi ilə birpartiyalı Sovet dövlətində bədii mədəniyyət vahid metodun çərçivələrinə sıxışdırıldı. "...Konkret olaraq sovet ədəbiyyatının əsas yaradıcılıq metodu olan sosialist realizmi anlayışı rəsmi şəkildə 1934-cü ildə bəyan edilmişdir. Sosialist realizmi yaradıcılıq metodu haqqında təşəbbüsü Sovet Yazıçılarının Birinci Qurultayında Maksim Qorki irəli sürmüşdür. Proletar yazıçılarının ağsaqqalı hesab edilən Maksim Qorki sosialist realizmini yeni qurulu-

şun ədəbiyyatının vahid yaradıcılıq metodu, romantikanı isə onun tərkib hissəsi və ləqəbi adlandırmışdır" (5).

Adil İsgəndərovun (1910-1978) "Polad qartal" (A.Korneyçukun "Platon Kreçet" əsəri əsasında) tamaşası ilə başlayan və "Vaqif" (S.Vurğun) tamaşasında daha mükəmməl təzahürünü tapan monumental-romantik rejissurası mahiyyət etibarilə bu direktivə tamamilə uyğun gəlirdi. Bəlkə də, Adil İsgəndərovu Azərbaycan teatr sənətinin fenomeninə çevirən başlıca amil məhz bu idi. Danılmaz faktdır ki, A.İsgəndərova qədər rejissorların yaradıcılığı hər nə qədər milli teatrın inkişafına təkan versə də, böyük mənada, sıçrayış kimi qəbul edilə bilməz.

Ümumiyyətlə, milli teatr tarixinə müraciət etsək, rejissurada yalnız iki dəfə sıçrayış yaşandığının şahidi olarıq. Bunlardan biri A.İsgəndərovun, ikincisi isə T.Kazımovun Akademik Milli Dram Teatrında baş rejissorluq fəaliyyəti ilə bağlıdır. Yalnız onların teatra rəhbərlik etdiyi dövrlərdə ölkənin teatr həyatında, sözün əsl mənasında, sıçrayış baş verib.

1938-ci ildə Adil İsgəndərovun ölkənin aparıcı teatrı funksiyasını daşıyan və milli teatr sənətinin ideya-bədii istiqamətini müəyyən edən Azərbaycan Dram Teatrına baş rejissor təyin olunması ilə bu sənət ocağının repertuar siyasətində, yaradıcılıq üslubunda, janr axtarışlarında və aktyorlarla iş prinsipində ciddi islahatlar başlandı. Milli teatrda monumental-romantik üslubu formalaşdıran və bu üslubu teatrın aparıcı istiqamətinə çevirən A.İsgəndərov Azərbaycan Dram Teatrının səhnəsində M.İbrahimovun "Həyat" (1937 və 1954), S.Vurğunun "Vaqif" (1938),

“Fərhad və Şirin” (1941), C.Cabbarlının “Aydın” (1940), “1905-ci ildə” (1955), S.Rəhmanın “Nişanlı qız” (1953), M.Hüseynin “Nizami” (1942), “Cavanşir” (1957), Ə.Məmmədxanlının “Şərqin səhəri” (1947), İ.Əfəndiyevin “Bahar suları” (1948), V.Şekspirin “Otello” (1949), N.Hikmətin “Türkiyədə” (1953), H.Cavidin “Şeyx Sənan” (Ə.Şərifovla birgə. 1956) və s. pyeslərə verdiyi quruluşlar-la milli teatrı yeni mərhələyə yüksəltdi. A.İsgəndərovun rəhbərlik etdiyi dövr (1938-1960) ərzində iki dəfə (1948, 1959) Rusiya tamaşaçıları qarşısında yaradıcılıq hesabatı verən Azərbaycan Dram Teatrı SSRİ məkanında xüsusi nüfuz qazanaraq, öz şöhrətinin zirvəsinə ucaldı.

1948-ci il avqustun 20-dən sentyabrın 5-dək davam edən Moskva qastrolunda Dram teatrı S.Vurğunun “Vaqif”, Ə.Məmmədxanlının “Şərqin səhəri”, C.Cabbarlının “1905-ci ildə”, V.Şekspirin “On ikinci gecə”, A.Ostrovskinin “Günahsız müqəssirlər” və “Tufan” əsərlərinin tamaşalarını nümayiş etdirdi. Həmin ildə rejissor A.İsgəndərov, aktyorlar M.Əliyev, M.Davudova, S.Ruhulla, R.Əfqanlı, K.Ziya, İ.Dağıstanlı, rəssam N.Fətullayev “Şərqin səhəri” tamaşasına görə SSRİ Dövlət mükafatına layiq görüldülər.

1949-cu ildə Azərbaycan teatrının 75 illik yubileyi təntənə ilə qeyd edildi. SSRİ Ali Sovetinin Fərmanı ilə Azərbaycan aktyor məktəbinin görkəmli nümayəndələri Sidqi Ruhulla, Mirzağa Əliyev, Mərziyə Davudova SSRİ xalq artisti adı ilə təltif olundular.

Azərbaycan Dram Teatrının Moskvada növbəti uğur-lu çıxışı 1959-cu ildə (22-31 may) baş tutdu. Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak

edən teatr “Almas” (C.Cabbarlı), “Otello” (V.Şekspir), “Fərhad və Şirin” (S.Vurğun), “İliç buxtası” (C.Məcnunbəyov) tamaşalarını oynadı. Dekadada həmçinin Opera və Balet Teatrı “Koroğlu” (Ü.Hacıbəyli), “Sevil” (F.Əmirov) operalarını və “Gülşən” (S.Hacıbəyov), “Qız qalası” (Ə.Bədəlbəyli), “Yeddi gözəl” (Q.Qarayev) baletlərini nümayiş etdirdi. Qazanılan uğurlara görə balerina Qəmər Almaszadə, müğənni Rəşid Behbudov, bəstəkar Qara Qarayev, dirijor Niyazi və rejissor Adil İsgəndərov SSRİ xalq artisti fəxri adına layiq görüldülər.

1960-cı ilin sonlarında A.İsgəndərov Akademik teatrın baş rejissoru və direktoru vəzifələrindən çıxarıldı və ümumiyyətlə, teatrdan uzaqlaşdırıldı. Rejissoru yaradıcılıq üslubunun yüksək peşəkarlıq səviyyəsində formalaşdığı bir vaxtda – əlli yaşında teatrdan uzaqlaşdırmaq milli teatr mədəniyyətinə, ilk növbədə, Akademik Milli Dram Teatrına ciddi zərbə vursa da, müəyyən mənada, yeni sənət axtarışlarının başlanması ehtyacını doğurdu.

* * *

1960-cı illərin əvvəllərindən etibarən teatrda yeni forma və üslub axtarışları geniş vüsət aldı, fərqli estetikalara söykənən tamaşalar qoyulmağa başlandı. 1960-1963-cü illərdə Akademik teatrda baş rejissor vəzifəsində çalışan Mehdi Məmmədovun (1918-1985) yaradıcılığında fəlsəfi-romantik üslub davam və inkişaf etməkdə idi. Rejissorun yaradıcılığının hələ ilk dövrlərindən başlayan və tamaşalarında realizəsini tapan fəlsəfi-romantizm L.Tolstoyun “Canlı meyit” (1968), H.Cavidin “Xəyyam” (1970) və

“İblis” (1983), S.Vurğunun “İnsan” (1974), M.Qorkinin “Meşşanlar” (1975), C.Məmmədquluzadənin “Dəli yığıncağı” (1978) əsərlərinə verdiyi quruluşlarda kamil estetik formaya çataraq milli teatr tarixində hadisəyə çevrildi. M.Məmmədov “İblis” tamaşasına görə 1984-cü ildə Respublika Dövlət mükafatına layiq görüldü.

Mehdi Məmmədovun “İblis” tamaşası (1983) fəlsəfi-romantik üslubda qoyulmuş son tamaşa olaraq, həm rejissorun yaradıcılıq bioqrafiyasında, həm də Azərbayan teatrında böyük bir mərhələyə nöqtə qoydu.

1964-cü ildə Tofiq Kazımovun (1923-1980) Akademik teatra baş rejissor vəzifəsinə təyin edilməsi ilə teatrın yaradıcılığında yeni mərhələ başlandı. İlk tamaşası 1964-cü il, noyabr ayının 14-də oynanılan İlyas Əfəndiyevin “Sən həmişə mənimləsən” pyesinin səhnə təcəssümü ilə rejissor milli teatrda lirik-psixoloji üslubun əsasını qoydu. T.Kazımov sonrakı illərdə hazırladığı “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər” (1968, 1969, İ.Əfəndiyev), “Ölülər” (1966, C.Məmmədquluzadə), “Sənsiz” (1967, Ş.Qurbanov), “Antoni və Kleopatra”, “Hamlet” (1964, 1968, V.Şekspir) və s. tamaşaları ilə lirik-psixoloji üslubu Akademik Teatrın hakim estetikasına çevirdi və 80-ci illərə qədər bu üslub Azərbaycan teatrının bədii-estetik istiqamətini müəyyən etdi.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi təntənə ilə qeyd edildi. Həmin il 27 iyundan 10 iyula kimi teatr S.Vurğunun “İnsan”, İ.Əfəndiyevin “Mahnı dağlarda qaldı”, N.Poqodinin “Zamanın hökmü”, F.Şillerin “Məkr və məhəbbət”, V.Şekspirin “Fırtına”, C.Məmmədquluzadənin “Ölülər” əsərlərinin tamaşaları ilə Moskvada qast-

rolda oldu. Azərbaycan teatrının üç görkəmli sənətkarı – Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı SSRİ xalq artisti adına layiq görüldülər.

* * *

1960-cı illərin sonu 70-ci illərin əvvəllərində Azərbaycan teatrında baş verən əlamətdar hadisələrdən biri də müxtəlif bölgələrdə dövlət teatrlarının yaradılması oldu. Bu illər ərzində Ağdam, Sumqayıt, Mingəçevir, Lənkəran, Şəki şəhərlərində dövlət teatrları təşkil edildi. Respublikanın teatr şəbəkəsini genişləndirən bu sənət ocaqları qısa zamanda milli teatr prosesinə öz layiqli töhfələrini verdilər. Bu mənada, S.Rəhman adına Şəki Dövlət Dram Teatrını xüsusi qeyd etmək lazımdır. Rejissorlar Vaqif Abbasovun və Hüseynağa Atakişiyevin rəhbərliyi ilə fəaliyyət göstərən teatr təkcə Azərbaycanda deyil, həmçinin beynəlxalq arenada bir çox nailiyyətlər qazandı. Kollektiv 1977-ci ildə Bolqar dramaturgiyası festivalında R.Stoyanovun "Ustalar" əsərinin tamaşasına görə baş mükafata layiq görüldü. Daha sonra macar dramaturqu Ş.Petefinin "Pələng və kaftar" (1978), alman dramaturqu B.Brextin "Arturo Uinin karyerası" (1980), polyak dramaturqu K.Çapekin "Ağ xəstəlik" (1981), rumın dramaturqu M.Sebastyanın "Adsız ulduz" (1982) əsərlərinin səhnə təcəssümləri ilə çıxış etdiyi festivallarda qələbələr, 1984-cü ildə Moskva qastrolunda böyük uğurlar əldə etdi.

H.Atakişiyevin 1980-ci ildə Şəki teatrında B.Brextin eyniadlı pyesi əsasında hazırladığı "Arturo Uinin karyerası, hansı ki, olmaya da bilərdi" tamaşası Azərbaycan teatr mü-

hitində yeni estetikanın yaranmasından xəbər verirdi. "Hüseynağa Atakişiyevin tamaşası bir hakimiyyət oyununun tarixçəsini sərgiləyirdi... "Nuxlu"ların "Arturo Uinin karyerası" tamaşası bir tərəfdən kapital, cinayət, zorakılıq qarşısında mütiləşən insanın faciəsini görsədirdi. Digər tərəfdən isə burada fırıldaq, yalan, iftira və təcavüz üzərində formalaşmış bir dövlət tarixinin vahiməli məzhəkəsi öz bədii-estetik səhnə həllini tapırdı" (8, 307-308). H.Atakişiyev "alman rejissoru Bertolt Brextin epik teatr ənənələrini Azərbaycan meydan teatrının prinsipləri müstəvisində sınağa çəkirdi: nə yaşayırdısa, onu saxlayırdı; nə milli mədəniyyət kontekstinə uyuşmurdusa, ondan imtina edirdi. Hüseynağanın Şəki teatrı bayram ovqatlı sərgüzəşt teatrı idi. Bu teatrda musiqi, rəqs heç vədə müşayiətçi element olmurdu, tamaşanın sakinləri arasında bərabərhüquqlu personaja çevrilirdi. Şəki teatrında hətta faciələr belə sərgüzəşt biçimində, sərgüzəşt parametrlərində səhnələnirdi" (8, 303).

Şəki teatrının uğurlarına baxmayaraq, bütövlükdə, 1980-ci illərin əvvəllərində Akademik teatrın baş rejissoru Tofiq Kazımovun vaxtsız və faciəli vəfatından sonra Azərbaycan teatrında müəyyən boşluq yaranmışdı. Hüseynağa Atakişiyevin Akademik teatra baş rejissorluq etdiyi 1985-1989-cu illər maraqlı eksperimentlər dövrü kimi yadda qalsa da, teatr prosesində köklü dəyişikliyə səbəb olmadı. Bir müddət davam edən durğunluq prosesi SSRİ-də baş verən yenidənqurma və aşkarlıq dönəmində başa çatdı. Yeni sənət axtarışları ilə səciyyələnən həmin mərhələ əvvəlki dövrdən prinsipcə fərqli sənət düşüncəsinin yaranmasına rəvac verməklə, əski dəyərləri yeniləşdirib ya-

radıcı prosesə qatmaq imkanını yaratdı. "Belə ki, çılğın siyasi-ictimai proseslərin gedişatında ümumtürk mədəniyyəti, ənənəvi İslam mədəniyyəti və qabaqcıl Qərb mədəniyyətinin mənəvi və estetik dəyərlər sistemliyi bərpa olundu. Poetika məhz bu sintetik sistemlə müəyyənləşdirildi.

Yenidənqurmanın yeni iqtisadi siyasəti teatr prosesinin zahiri səciyyəsinə müsbət təsir göstərdi ki, Azərbaycanda, əsasən Bakıda yeni teatrlar yaranmağa başladı, amma kəmiyyətdən keyfiyyətə keçid o qədər də nəzərə çarpmadı: yeni açılan teatrlar yalnız öz azadlıq və müstəqillik hüquqlarından faydalandı: özəl poetika və yaradıcı metodlarıyla fərqlənən yalnız iki teatr – Milli Akademik Dram Teatrının nəzdində yaradılmış "Yuğ" və müstəqil "Gənclər" teatr studiyaları oldu" (4, 188-190).

1989-cu ildə H.Atakişiyev "Gənclər", V.İbrahimoğlu "Yuğ" teatrını yaratdı. Hər iki teatr öz təmayülü və estetik prinsipləri ilə fərqlənirdi. Professor M.Əlizadə haqlı olaraq, qeyd edir ki, "Tofiq Kazımovun təkbaşına başladığı köklü islahatları növbəti rejissor nəslinin nümayəndələri Azər Paşa Nemətov, Vaqif İbrahimoğlu və Hüseynağa Atakişiyev yaradıcılıqlarında hərəsi öz istiqamətində, amma eyni təmələ – müəlliflik prinsipinə əsaslanaraq, davam etdirdi. Bununla da, milli teatr prosesinin qırılmazlığı təmin olundu…" (4, 70).

1980-ci illərin sonlarından etibarən başlayan milli azadlıq hərəkatı, 1990-cı ilin əvvəllərində baş verən qanlı 20 Yanvar hadisələri, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının 20 faizinin erməni qəsbkarları tərəfindən işğalı teatr prosesinə də öz ciddi təsirini göstərdi. İrəvan Dövlət Azər-

baycan Dram Teatrı, Şuşa Dövlət Musiqili Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı doğma yurdlarından didərgin düşərək, fəaliyyətlərini qaçqın teatrlar kimi davam etdirmək məcburiyyətində qaldılar.

Tarixi-vətənpərvərlik mövzusu aktuallaşaraq, repertuarın əsasını təşkil etdi. Milli oyanış və özünüdərk prosesi teatr sənətində xalqın tarixi köklərinə, adət-ənənələrinə, oyun-tamaşa mədəniyyətinə müraciəti şərtləndirdi. Bu, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində milli rejissor sənətində meydana çıxan yeni tendensiyalarda da özünü göstərdi. Dövrün ağır ictimai-siyasi durumuna baxmayaraq, milli oyanış hərəkatının nəticəsi kimi, həmin illərdə Dövlət Gənclər Teatrı (H.Atakişiyev), Yuğ Dövlət Teatrı (V.İbrahimoğlu), Kamera Teatrı (C.Səlimova), Bakı Bələdiyyə Teatrı (A.Pənahova), Pantomim Teatrı (B.Xanızadə), Marionet Teatrı (T.Qorçuyev), Qazax Dövlət Dram Teatrı kimi yeni kollektivlər yarandı və sürətlə milli teatr prosesinə qoşuldu.

Bu illərdə Azərbaycan teatrında formalaşan yeni rejissor poetikaları, əsasən, üç böyük rejissorun – Hüseynağa Atakişiyev (1949-2006), Azər Paşa Nemət (1947) və Vaqif İbrahimoğlunun (1949-2011) adı ilə bağlıdır. 1989-cu ildə Gənclər Teatrını yaradan H.Atakişiyev milli teatrın səhnəsinə epik teatr ənənələrini gətirdi, meydan teatrının elementlərinə, təhkiyə prinsipinə söykənən fərqli teatr formalaşdırdı.

Yaradıcılığının Şəki Teatrı (1975-1985), Akademik Milli Dram Teatrı (1985-1989) dövrlərindən sonra 1989-cu ildə Hüseynağa Atakişiyev öz teatrını – Azərbaycan Dövlət Gənclər Teatrını təşkil etdi və bu teatrın səhnəsin-

də “Qətl günü”, “Məlikməmməd”, “Meydan”, “Onun iki qabırğası”, “Yeddi məhbusə”, “İyirmi ildən sonra”, “İtkin ər və ya ufoloji ehtiraslar”, “Xoşbəxt gün”, “Varlı qadın”, “Kişi və qadın”, “Hamlet”, “Herostratı unudun”, “Əbləhlərin toyu”, “Qara qutu” və s. onlarla əsərə verdiyi uğurlu quruluşlarla milli teatr mədəniyyətinin inkişafında xüsusi rol oynadı. H.Atakişiyevi Azərbaycan milli teatr prosesinin fenomeninə çevirən onun xalq-meydan teatrı, milli oyun-tamaşa mədəniyyəti ilə B.Brextin “epik teatr” prinsiplərinin sintezinə söykənən rejissurası idi. O, teatr tariximizə adını təkcə dəyərli tamaşaları ilə yazmadı, eyni zamanda Azərbaycan teatrına çox sayda dramaturq və aktyor bəxş etdi. H.Atakişiyevin teatrı onun vəfatından sonra uzun müddət yaşaya bilmədi və truppa Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdirildi.

Müasir Azərbaycan rejissor sənətinin inkişafında xüsusi payı olan isimlərdən biri də Azər Paşa Nemətdir. O, yalnız Bakıda deyil, Sankt-Peterburqda, Arxangelskdə, Tallində, Tiflisdə quruluş verdiyi tamaşalarla da böyük uğur qazanıb. A.Popov adına Ümumittifaq müsabiqəsinin laureatı (1985) olan Azər Paşa Nemət Bakıda Gənc Tamaşaçılar Teatrında Y.Şvartsın “İki ağcaqayın”, K.Meşkovun “Pin və Qvin”, V.Tendryakovun “Buraxılış gecəsindən sonrakı gecə”, Ş.Totun “Necəsən, cavan oğlan?”, Anarın “Keçən ilin son gecəsi”, A.Ostrovskinin “Oz adamımızdır, düzəlişərik”, R.İbrahimbəyovun “Təmas”, M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəlişah”, V.Zoşşenkonun “Şapkinin sərsəm günü”, K.Qotsinin “Yellər üzərində nəğməli külək”, C.Məmmədquluzadənin “Danabaş kəndi-

nin məktəbi", Ç.Aytmatovun "Fudzi dağında qonaqlıq", İ.Coşğunun "Komissarlar", R.Əlizadənin "Sabah çoxdan başlanıb", K.Aslanovun "Yuxulama", Akademik Milli Dram Teatrında R.İbrahimbəyovun "Biganələr oteli", Elçinin "Ah, Paris... Paris!..", "Mənim sevimli dəlim", "Diaqnoz "D"" ("Mənim ərim dəlidir"), U.Şekspirin "Hamlet", İ.Əfəndiyevin "Boy çiçəyi", Ə.Əmirlinin "Şah Qacar", C.Cabbarlının "Almaz" və s. əsərlərə verdiyi, yüksək peşəkarlığı, incə zövqü ilə seçilən quruluşlarla milli teatrımızın repertuarını zənginləşdirib. Öz tamaşalarında meydan teatrının ənənələrindən, xalq oyun-tamaşa mədəniyyətindən bəhrələnən, milli teatr düşüncəsi ilə çağdaş dünya teatr sənətinin qabaqcıl nailiyyətlərini üzvi şəkildə birləşdirməyi bacaran Azər Paşa Nemət bu gün də milli teatr prosesinin avanqardında dayanan rejissorlardandır.

Müasir Azərbaycan teatrının ən görkəmli xadimlərindən biri də rejissor Vaqif İbrahimoğlu olub. O, 1989-cu ildə "müəllif teatrı"nı – Akademik Milli Dram Teatrının nəzdində YUĞ teatr studiyasını, daha sonra (1992-ci il) Azərbaycan Dövlət YUĞ Teatrını yaradanadək mürəkkəb yaradıcılıq yolu keçib. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, Eksperimental Teatr studiyasında, Tədris Teatrında, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyor, rejissor, baş rejissor vəzifələrində çalışıb, onlarla tamaşa hazırlayıb.

YUĞ Teatrının yaranması teatr ideyalarını həyata keçirmək üçün V.İbrahimoğlunun qarşısında geniş yaradıcılıq imkanları açdı. YUĞ Teatrının adı türklərin ən qədim rituallarından olan "yuğ" mərasimlərindən götürülüb. Bir

çox türk xalqlarında, o cümlədən oğuzlarda ölümlə, dəfnlə bağlı mərasimlər sırasında "yuğ" ritual-ayini xüsusi yer tutur. "Yuğ", "qəbir üstündə söz", "nitq", "danışıq", "kədər", "çətinlik" deməkdir. Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya "yuğ" deyirdilər (yuğlama – "ağlamaq" sözündəndir). Toplananlar üçün qonaqlıq düzələrdi, xüsusi çağrılmış yuğçular isə ikisimli qopuz çalıb-oxuyardılar.

Bu gün yaxın tarixə boylanıb teatrın iyirmi beş illik fəaliyyətinə, əldə olunan nəticələrə nəzər saldıqda əmin oluruq ki, rejissor bu şəraitdən yetərincə səmərəli yararlanmağı bacardı və sonda "Psixosof" teatr poetikasını yaratdı. V.İbrahimoğlunun "Psixosof" teatr poetikası eyni zamanda Azərbaycan teatrının dünya teatr məkanında baş verən yaradıcı proseslərə refleksiyası idi.

"Ruhun hikməti" anlamına gələn "Psixosof" (psixe – "ruh", sofiya – "hikmət") konseptual teatr poetikası "rejissor V.İbrahimoğlunun teatrda 40 ilə yaxın praktiki işinin nəticəsində formalaşmışdır. Rejissor bu müddətin yarısını əsasını qoyduğu və rəhbərlik etdiyi Yuğ teatrında "Psixosof" teatr poetikasının realizəsinə həsr etmişdir. Konseptual teatr poetikası daha geniş şəkildə V.İbrahimoğlunun Yuğ teatrında quruluş verdiyi "Salam" (M.H.Şəhriyar), "Oğul", "Xatun" ("Kitabi-Dədə Qorqud"), "Açar" (N.Gəncəvi "Sirlər xəzinəsi"), "Dəhnamə" (Ş.İ.Xətai), "Leyli demə", "Dad", "Leyli və Məcnun", "Yol" (M.Füzuli), "Otello" (U.Şekspir), "Bir, iki, bizimki...", "Dəvə yağışı" (K.Abdulla), "Adam uşağı" (U.Minnur), "Gəl, gedək" (R.Rövşən),

"Ən gülməli ölü" (V.B.Ödər), "Güzgüdəki adam" (A.Mirseyid), "Can üstə" (A.Məsud), "Tas" (O.Fikrətoğlu), "Kafkadan salam" (F.Kafka), "Birinci akt" (A.P.Çexov) və s. tamaşalarda öz səhnə ifadəsini tapmışdır.

Azərbaycan teatrında məhz V.İbrahimoğlu konseptual milli poetika yaratmaq missiyasını öz üzərinə götürmüş və milli teatrda konseptual rejissuranın əsasını qoymuşdur" (3, 4).

Əməkdar incəsənət xadimi Bəxtiyar Xanızadənin yaratdığı, 2019-cu ildə 25 illik yubileyini qeyd edən Pantomim Teatrı milli teatr prosesinin son dövrünün uğurlu hadisələrindən sayıla bilər. Dil baryeri tanımayan bu teatr respublikamızı müxtəlif beynəlxalq festivallarda yüksək səviyyədə təmsil edərək teatr sənətimizin Avropa teatr məkanına inteqrasiya prosesində mühüm xidmətlər göstərir.

1990-cı illərdəki müstəqillik dönəmi teatr prosesini intensivləşdirdi, teatr düşüncəsini daha fəal işləməyə vadar etdi. Bu da onunla nəticələndi ki, Azərbaycanda 1992-ci ildən 2000-ci illərin əvvəllərinə qədər mütəmadi surətdə festivallar keçirildi. Festivalların əsas məqsədi teatr axtarışlarını stimullaşdırmaq, gənc nəslin istedadlı nümayəndələrini üzə çıxarmaq idi. Təsadüfi deyil ki, bu dövrdə hər bir teatr var gücü ilə çalışırdı ki, monotamaşalar, eksperimental tamaşalar, pantomim festivallarında iştirak etsin, bacardıqca orijinal proyektlərlə çıxış eləsin, özünü teatr ictimaiyyətinə tanıtsın.

Bu mənada, deyə bilərik ki, 1990-cı illərdə teatr festivalları, teatr prosesinin yönünü təyin edən qeyri-rəsmi institut funksiyasını yerinə yetirirdi. Həmin dövrün sonun-

cu festivalı 1998-ci ildə keçirildi. II Eksperimental Tamaşalar Festivalında cəmi on tamaşa göstərildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra milli teatrın dünya teatr məkanına inteqrasiyası üçün şərait yarandı, teatrlarımız xarici qastrol və festivallarda iştirak etməyə başladı.

2010, 2012, 2014, 2016, 2018-ci illərdə Bakıda Beynəlxalq Teatr Konfranslarının, 2011, 2013, 2015-ci illərdə Beynəlxalq Kukla Teatrları Festivallarının və s. keçirilməsi, bir sıra teatrların xarici festival və qastrollarda iştirakı, həmçinin Azərbaycanın Beynəlxalq Teatr İnstitutuna, Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasına, Beynəlxalq Musiqili Teatrlar Assosiasiyasına, ACCİTEJ və UNİMA kimi nüfuzlu təşkilatlara üzv qəbul edilməsi milli teatrın dünya teatr məkanına inteqrasiyasını daha da sürətləndirdi.

2000-ci illər yaradıcılıq prosesi ilə yanaşı, Azərbaycanda teatr fəaliyyətinin hüquqi-normativ bazasının formalaşdırılması ilə yadda qaldı. Ölkə Prezidentinin imzaladığı "Teatr və teatr fəaliyyəti haqqında" Qanun (2006), "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncam (2007), "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı (2009) və digər sənədlər ölkədə teatr prosesinin intensivləşməsinə və tənzimlənməsinə xidmət etdi.

Azərbaycan teatrının inkişafı naminə görülən işlərdən biri də Dövlət Proqramı çərçivəsində A.P.Çexov festivalının "İpək yolu" mərhələsinin məhz Azərbaycanda həyata keçirilməsi oldu. Bu əlamətdar hadisə Azərbaycan teatrının artıq dünya və Avropa teatr prosesinə qoşulması istiqamətində atılmış mühüm addım idi.

* * *

Bu gün Azərbaycan teatrı, dünya teatr ailəsinin üzvü, onun tərkib hissəsidir. Hazırda Azərbaycanda 26 dövlət, 2 bələdiyyə və 10-dan çox özəl teatr fəaliyyət göstərir.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində hazırda 4 Dövlət teatrı öz fəaliyyətini məcburi köçkünlük şəraitində davam etdirir. İrəvan Azərbaycan Teatrı və Şuşa Teatrı Bakıda, Füzuli Teatrı Horadizdə, Ağdam Teatrı isə Quzanlıda fəaliyyət göstərir. Qaçqın teatrlarına ciddi maddi ziyan dəyib, onların əmlakı, səhnə dekorasiyaları, rekviziti döyüş bölgələrində qalıb, binaları talan edilərək, dağıdılıb. Daimi yaşayış yerlərini tərk edən yaradıcı-texniki heyətlərin rifahı son dərəcə ağırlaşıb, onların fiziki və ruhu sağlamlığı pozulmuşdur.

Ölkənin teatr şəbəkəsində gedən proseslərə nəzər salanda tam məsuliyyətlə deyə bilərik ki, bu gün Azərbaycan teatrı yeni inkişaf mərhələsinə qədəm qoyub. Doğrudur, bu inkişaf prosesi daha çox paytaxt teatrlarında təmərküzləşib, amma son illərdə bölgə teatrlarında da zaman-zaman uğurlu işlərin şahidi oluruq.

Vurğulamaq lazımdır ki, Azərbaycanda yaradılmış dövlət teatrları şəbəkəsi təkcə azərbaycandilli teatrlardan ibarət deyil. Hələ XX əsrin əvvəllərində Bakıda Azərbaycan teatrları ilə yanaşı, rus, erməni, yəhudi və s. xalqların teatrları da fəaliyyət göstərib. Bakı hər zaman xarici teatr truppalarının sevimli qastrol məkanı olub. Eləcə də 1920-ci illərədək Azərbaycanın müxtəlif teatr truppaları Rusiyanın, Krımın, Şimali və Cənubi Qafqazın, Orta Asiya respublikalarının, Türkiyənin müxtəlif şəhərlərində dəfələrlə

qastrol səfərlərinə çıxıb, xüsusən də Orta Asiyada teatr sənətinin inkişafında böyük rol oynayıblar.

Bakıda 1921-ci ildə yaradılmış Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı bu günədək fəaliyyətini uğurla davam etdirir, maraqlı tamaşaları ilə paytaxtın ictimai-mədəni həyatında mühüm yer tutur. Bu teatrın özü Azərbaycanda multikulturalizmin təzahürünün bariz nümunəsidir. Belə ki, Dövlət Akademik Rus Dram Teatrının heyətində ölkəmizdə yaşayan az qala bütün xalqların – azərbaycan, rus, yəhudi, ləzgi, avar və s. nümayəndələri təmsil olunur və onlar burada birlikdə mehribancasına işləyirlər.

Azərbaycanda 1992-ci ildə təşkil olunmuş Qusar Dövlət Ləzgi Dram Teatrı bu gün də öz yaradıcılıq uğurlarını davam etdirir və tez-tez ölkəmizin şimal bölgəsində ləzgi xalqının kompakt yaşadığı digər rayonlara da qastrol səfərlərinə çıxır. Qonşu Qax rayonunda isə iki dövlət teatrı fəaliyyət göstərir. Bu teatrlardan biri, təməli dərnək kmi 1973-cü ildə qoyulan, 1976-cı ildə xalq teatrı, 1992-ci ildə isə qazandığı nailiyyətlərə görə Dövlət statusu alan Qax Dövlət Kukla Teatrıdır ki, uğurlarını bu gün də davam etdirir, səsi tez-tez beynəlxalq teatr festivallarından gəlir. Bu rayondakı digər teatr isə yəqin ki, kənddə yaradılması və fəaliyyət göstərməsi ilə analoqu olmayan Qax Dövlət Gürcü Dram Teatrıdır. 1981-ci ildə Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində gürcü dram dərnəyi kimi yaradılan bu teatr, 1985-ci ildə xalq teatrı adına layiq görülüb, 2004-cü ildən isə Dövlət statusu alıb.

Bu sırada son illər teatr prosesinə daha intensiv qoşulan Azərbaycan Teatr Xadimləri İttifaqının fəaliyyətini də

xüsusi qeyd etmək lazımdır. Yenidən festival ənənəsini bərpa edən Teatr Xadimləri İttıfaqının 2011 və 2013, 2018, 2019-cu illərdə keçirdiyi "2+1 Eksperimental Tamaşalar Festivalı" və "Boş məkanın dolğunluğu" teatr festivalı, gənc dramaturq və rejissorların üzə çıxarılmasına və püxtələşməsinə xidmət edən "M.F.Axundzadə dərsləri", "Rejissor labaratoriyası"ı və sair tədbirləri ölkəmizin ən qocaman yaradıcılıq təşkilatı olan bu qurumun milli teatrımızın gələcəyinə ünvanlanmış məqsədyönlü işi kimi qiymətləndirmək gərəkdir.

Milli dramaturqlarımızın pyesləri ölkə xaricində səhnələşdirilib. Elçinin "Şekspir" pyesi Moskvada, Krımda, Londonda, Edinburqda, "Qatil" əsəri Sankt-Petrburqda, Əli Əmirlinin pyesləri Özbəkistanda, Rusiyada, gənc dramaturqlardan İsmayıl İmanov və Natella Osmanlının "Lift" pyesi Gürcüstanda, İsmayıl İmanovun "Astara bağları" pyesi Rusiyada, Ülviyyə Heydərovanın "Uşaqlıq" pyesi Almaniyada tamaşaya qoyulub. Bir neçə teatrda xaricdən dəvət olunan rejissorların quruluşunda tamaşalar hazırlanıb. Bəhram Osmanov Rusiyada, gənc rejissorlar Mikayıl Mikayılov Rusiya, Qazaxıstan və Türkmənistanda, İradə Gözəlova Gürcüstan və Rusiya teatrlarında uğurlu quruluşlar verib. Gürcüstanda və Rusiyada keçirilən gənc rejissorların müsabiqəsində iştirak ediblər.

* * *

Zəngin və mürəkkəb tarixi yol keçən Azərbaycan teatrının müasir inkişaf səviyyəsinə çatmasında görkəmli dramaturqlar, aktyor və rejissorlar böyük rol oynayıblar.

M.F.Axundzadənin təməlini qoyduğu Azərbaycan dramaturgiyası N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, N.Nərimanov, S.M.Qənizadə, S.S.Axundov, H.Cavid, C.Cabbarlı kimi milli klassiklər tərəfindən davam və inkişaf etdirilib. Daha sonra bu missiyanı öz üzərinə götürən S.Vurğun, S.Rüstəm, S.Rəhman, M.İbrahimov, İ.Əfəndiyev, M.Hüseyn, Ə.Məmmədxanlı, İ.Səfərli, İ.Qasımov, Ş.Qurbanov, B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə və b. milli teatra dəyərli əsərlər bəxş ediblər. Müasir dövrdə isə Maqsud və Rüstəm İbrahimbəyovlar, Anar, Elçin, R.Əlizadə, K.Aslanov, K.Abdulla, C.Yusifzadə, Ə.Əmirli, F.Mustafa, A.Məsud, E.Hüseynbəyli, İ.Fəhmi, M.Musabəyli, İ.İmanov, P.Nurəliyeva və b. yazıçı-dramaturqlar müxtəlif mövzulu və janrlı pyesləri ilə milli dramaturgiyanı zənginləşdiriblər. Çağdaş milli dramaturgiyanın ümumi mənzərəsinə və inkişaf istiqamətlərinə nəzər salsaq, görərik ki, son dönəmlərdə tarixi və sosial-psixoloji mövzulara meyil artıb.

Azərbaycan teatrı hər zaman öz aktyor məktəbi ilə fəxr edib. Realist aktyor məktəbinin banisi C.Zeynalov, romantik aktyor məktəbinin yaradıcısı H.Ərəblinski, onların silahdaşları və davamçıları Ə.Vəli, M.Əlvəndi, Ə.Anaplı, M.Əliyev, H.Sarabski, A.M.Şərifzadə, Ü.Rəcəb, S.Ruhulla, K.Ziya, M.Davudova, Ə.Ələkbərov, İ.Hidayətzadə, M.Vəlixanlı, S.Hacıyeva, F.Qədri, H.Qurbanova, İ.Dağıstanlı, İ.Osmanlı, M.Sənani, R.Təhmasib, R.Əfqanlı, A.Geraybəyli, Ə.Zeynalov, Y.Vəliyev, A.Qurbanov, H.Salayev, L.Abdullayev, N.Zeynalova, B.Səfəroğlu, B.Şəkinskaya, L.Bədirbəyli, M.Sadıqova, S.Bəsirzadə, N.Məlikova, M.Şeyxzamanov, Ə.Ağayev, M.Dadaşov kimi korifey sənətkarların

yaratdıqları bənzərsiz obrazlar milli teatra böyük şöhrət qazandırıb.

1950-ci illərdən sonra yaradıcılığa başlayan S.Aslan, H.Turabov, S.İbrahimova, K.Xudaverdiyev, H.Qurbanov, H.Xanızadə, S.Rzayev, M.Mirzə, F.Poladov, A.Pənahova, R.Əzimov, H.İsmayılov, R.Məlik, Z.Ağakişiyeva, Y.Nuri, T.Adıgözəlov və b. aktyorlar, əsasən, realist və lirik-psixoloji məktəbin təmsilçiləri kimi canlandırdıqları rollarla tamaşaçıların yaddaşında silinməz izlər qoyublar. Azərbaycan səhnəsi bu gün də istedadlı aktyorlarla zəngindir. R.Dadaşov, A.Bəşirqızı, İ.N.Kamal, C.N.Kamal, Ş.Yusupova, S.Quliyeva, Q.Quliyev, B.Əliyeva, N.Mehdixanlı, F.Manafov, M.Məhərrəmov, R.Novruz, B.Cəfərova, F.Mütəllibova, Z.Nərimanova, L.Mustafayeva, K.Abdullayev, Ə.Həmidov, M.Əsədova, S.İsgəndərli, H.Nəsirova, M.Əliyeva, M.Atakişiyeva, P.Bağırov, E.Quliyev, M.Ağabəyli, T.Qasımov, Y.Qarayev, F.İsrafilov, M.Qasımov, S.Mikayılova, G.Qurbanova, A.Zeynalov, Q.Quliyeva, S.Mirzəyev, P.Qurbanova, A.Məmmədov, Q.İsmayılov, V.Həsənov, S.Məmmədov, M.Zəki, P.Məmmədrzayev, Ə.Əliyev, X.Həşimzadə, Q.Nağı, A.Qəhrəmanov, F.Hüseynov, A.Məmmədov, E.Rüstəmov, İ.Hüseynov, K.Müzəffər, Ş.Əliyeva, E.Kərimov, İ.Cahangir, Ş.Hüseynov, N.Allahverdiyeva, H.Mürvətova, N.Eldarova, Q.Məmmədova, A.Mustafayeva, A.Salmanlı, Y.Paşazadə, N.Qeybani, Ə.Zeynalov, Q.Məsimov, N.Vəliyev, M.Aslanqızı, M.Xanlarova, S.Əliyeva, N.Qəribova, R.Cəfərov, B.Vaqifoğlu və b. bu gün tamaşaçılara unudulmaz obrazlar bəxş edirlər.

Azərbaycanda rejissor sənəti də zəngin ənənələrə malikdir. Milli rejissor sənətinin sütunları A.İsgəndərov, M. Məmmədov, T.Kazımovla yanaşı, Y.Yulduz, S.Dadaşov, M.Haşımov, Z.Nemətov, Ş.Bədəlbəyli, Ə.Şərifov, Ə.Ələkbərov, N.Sadıqzadə, Ə.Quliyev, H.Sultanov, L.Məmmədbəyov, V.Babayev, B.Rzayev, R.Almuradlı və b. görkəmli rejissorlar Azərbaycan teatrının inkişafında böyük rol oynayıblar.

Bu gün Azərbaycan teatrında A.Kazımov, C.Səlimova, A.Nemət, M.Fərzəlibəyov, O.Qurbanov, A.Şarovski, B.Xanızadə, B.Osmanov, V.Şərifov, V.Əsədov, H.Quliyev, M.Ələkbərzadə, N.Ağayev, F.Məhərrəmov, M.Səlimli, L.Kərimov, A.İdrisoğlu, Ə.Əsgərov, G.Ömər, M.Mikayılov, İ.Gözəlova, N.Kazımov, K.Şahmərdan, T.Rəsulov, S.Ağayev, G.Səttarova, T.Mustafayev, Ə.Ələkbərov, A.Ağayev, Ə.Cahangirli, A.Babalı, A.Məmmədova, E.Əsgərov və b. bu kimi müxtəlif yaş nəslinə mənsub rejissorlar milli teatrın inkişafı naminə çiyin-çiyinə fəaliyyət göstərirlər.

Azərbaycan teatrşünaslığı bir elm sahəsi kimi XX əsrin 50-ci illərində formalaşsa da, milli teatrımızla birgə zəngin inkişaf tarixi yaşayıb. Bu illər ərzində həm 147 yaşlı Avropa üslublu peşəkar Azərbaycan teatrının, həm qədim köklərə malik ənənəvi xalq teatrının, meydan-oyun tamaşalarının tarixini, teatrın müxtəlif problemlərini tədqiq edən C.Cəfərov, M.Allahverdiyev, İ.Kərimov, M.Məmmədov, Y.Qarayev, Q.Məmmədli, C.Səfərov, N.Təhməzov, Ə.Əliyeva, A.İsmayılova, A.Səfərova, İ.Rəhimli, M.Əlizadə, İ.İsrafilov, A.Talıbzadə, A.İsmayıloğlu, İ.Qazızadə, V.Qafarov, N.Ağayeva və başqa teatrşünas-alimlərin əsərləri sayəsində Azərbaycan teatrının tarixi mənzərəsi yaradılıb.

1980-ci illərədək daha çox teatrımızın tarixini araşdıran, teatr tənqidi ilə məşğul olan, rejissor, aktyor və dramaturqlarımızın yaradıcılıq portretlərini işləyən alimlərimiz, həmin illərdən başlayaraq eyni zamanda, teatrın nəzəri problemlərini də tədqiqat obyektinə çeviriblər.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan teatrşünaslığı yeni mərhələyə qədəm qoyub. Bu dövrdə teatrşünaslarımız Azərbaycanın teatr tarixini, qarşılıqlı əlaqələrini öyrənməklə bərabər yeni mövzulara müraciət edərək, teatrın genezisini, poetika, janr, üslub xüsusiyyətlərini, forma axtarışlarını, milli teatr prosesində, aktyor, rejissor və dramaturqların yaradıcılığında əksini tapan müxtəlif bədii təzahür və istiqamətləri tədqiqata cəlb ediblər.

Müstəqillik dövründə Azərbaycan teatrşünaslığının müraciət etdiyi mövzu və janrlar dəyişdiyi kimi, teatrşünaslığın bədii-estetik parametrləri də köklü surətdə dəyişib. Son dövr teatr araşdırmaları daha çox multidissiplinar səciyyəsi daşıyır. Tarixi mövzulara yeni baxış, nəzəri araşdırmalara meyil çağdaş teatrşünaslığın xarakterik xüsusiyyətlərindəndir. Müasir Azərbaycan teatrşünaslığında yaşlı və orta nəslə mənsub teatrşünaslarla yanaşı, F.Cəlilova, E.Cəfərov, A.Dadaşova, K.Cəfərova, A.Süleymanova, X.Məmmədova, N.Pirimova, R.İsmayılova, E.Əliyev, D.Yusifov, Ə.Hacılı kimi gənclərin də yaradıcılığı teatr prosesinə təsir göstərməkdədir.

Bununla yanaşı, teatrın sintetik xassəsindən doğan keyfiyyətləri, incəsənətin digər növləri ilə əlaqələri, televiziya və radio teatrlarının tarixi, Cənubi Azərbaycanın teatr tarixi, teatrın sosioloji problemləri, teatrda bədii cərəyan

və təmayüllər, teatr menecmenti, teatrımızda Şərq kon-teksti və s. bu kimi mühüm mövzular teatrşünaslarımızın diqqətindən kənarda qalıb.

* * *

Bu gün Azərbaycan teatrı dünya teatr məkanına geniş-miqyaslı inteqrasiya prosesini yaşayır. Milli teatrımız müx-təlif beynəlxalq teatr qurumlarında təmsil olunur, teatrları-mız xarici festival və qastrollarda, teatrşünaslarımız beynəl-xalq konfranslarda fəal iştirak edir. Dünya teatr məkanında isə yeni proseslər baş verir – bütün müasir incəsənətdə ol-duğu kimi, gözün funksiyası, vizuallıq faktoru artır, Qərb teatrı Şərqə doğru gəlir – söz teatrından fiziki teatra meyil edir. Teatr postdramatik dövrünü yaşayır. Bəzi janrlarda ta-maşada mətnin funksiyası minimuma enir. Teatr-dramatur-giya münasibətləri yeni fazaya daxil olur. Janr təsnifatında ciddi dəyişikliklər müşahidə olunur – yeni qarışıq janrlar, teatr formaları yaranır. Teatrın sintetik təbiəti özünü daha qabarıq göstərir. Teatr tamaşalarında İKT resurslarından is-tifadə əmsalı getdikcə yüksəlir. İnternet teatrlar yaradılır. Teatr-tamaşaçı münasibətlərində fərqli meyillər hiss olunur, teatr kütləvilikdən elitarlığa doğru gedir və s.

Müasir teatrşünaslıqda "qeyri-postklassik teatrşüna-lıq" termini dövriyyəyə daxil olub ki, bu da teatra sosio-kulturoloji hadisə kimi baxmağı, qeyri-xətti təhlil metodları ilə yanaşmağı tələb edir. Eyni zamanda, dünyada gedən qloballaşma prosesi, postmodernist təzahürlər milli özünü-qoruma instinktini oyatmaqla hər bir xalqı özünüdərkə, milli dəyərlərin öyrənilməsinə və qorunmasına səsləyir, de-məli, həm də milli kimlik problemini aktuallaşdırır.

# ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, “Lider nəşriyyatı”, 2004, 440 səh.
2. Cabbarlı Cəfər. Ədirnə fəthi. Bakı: Elm, 1996,320 səh.
3. Cəfərov E.N. Vaqif İbrahimoğlu rejissurası və konseptual teatr poetikası. Sən. ü.fəl.dok.diss.avtoreferatı. Bakı:2018, 29 s.
4. Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. – B.: Elm, 1998. 352 s.
5. Həbibbəyli İsa. Sosialist realizmindən milli istiqlaladək. http://www.science.gov.az/news/open/7146
6. Qarayev Yaşar. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 256 səh.
7. Rəhimli İlham. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı. 3 cilddə. Bakı: Təhsil, 2013
8. Talıbzadə A.A. Teatral freskalar. Məqalələr toplusu: – Bakı, Təhsil, 2015, 416 səh.

**Gülnar OSMANOVA**
***Filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutu***

# POEZİYADA FOLKLORİZM VƏ MƏNƏVİ-ESTETİK TƏRBİYƏ MƏSƏLƏLƏRİ

XÜLASƏ

Məqalədə çağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndələri Bəxtiyar Vahabzadə və Məmməd Araz yaradıcılığında mənəvi-estetik tərbiyə məsələləri araşdırılır. Bu zaman şairlərin folklorizmdən bəhrələnmələri ön plana çəkilir. Qeyd edək ki, bədii əsərlərin məna-məzmun dərinliyi, bədii-estetik dəyəri bilavasitə onların məzmununa hopdurulmuş folklor ruhu, xalq düşüncə tərzi ilə bağlıdır. Məqalədə diqqətə çatdırmaq istədiyimiz əsas məsələ də adlarını çəkdiyimiz şairlərin əfsanə motivlərindən, mifoloji elementlərdən, ümumiyyətlə, müxtəlif folklor nümunələrindən istifadə edərək vətənpərvərliyi, milli-mənəvi dərki, bəşəri duyğuları tərənnüm etmələridir.

***Açar sözlər:*** poeziya, B.Vahabzadə, M.Araz, folklor, mifoloji obraz, simvol, estetik tərbiyə, milli-mənəvi dəyərlər, bəşəri duyğular

## ВОПРОСЫ ФОЛЬКЛОРИЗМА И ДУХОВНО-ЭСТЕТИЧЕСКОЕ ВОСПИТАНИЕ В ПОЭЗИИ

РЕЗЮМЕ

В статье исследуются вопросы духовно-эстетического воспитания в творчестве популярных представителей современной азербайджанской литературы Бахтияра Вахабзаде и Мамеда Араза. В то же время выводится на передний план обогащение поэтов фольклоризмом. Следует отметить, что

содержательно-смысловая глубина, художественно-эстетическая ценность художественных произведений напрямую связаны с фольклорным духом, народным мышлением, впитанными в их содержание. Основной вопрос, который мы хотим отметить в статье, заключается в том, что вышеназванные поэты, воспевают патриотизм, национально-духовное познание, человеческие чувства, используя мотивы легенд, мифологические элементы, в целом различные фольклорные образцы.

***Ключевые слова:*** поэзия, Б.Вахабзаде, М.Араз, фольклор, мифологический образ, символ, эстетическое воспитание, национально-духовные ценности, человеческие чувства

## THE ISSUES OF FOLKLORISM AND MORAL-AESTHETIC EDUCATION IN POETRY

SUMMARY

The article examines the issues of spiritual and aesthetic education in the works of popular representatives of modern Azerbaijani literature, Bakhtiyar Vahabzade and Mammed Araz. At the same time, the enrichment of poets from folklorism is brought to the front. It should be noted that the content-semantic depth, the artistic and aesthetic value of works of art are directly related to the folklore spirit, folk thinking, absorbed into their content. The main issue that we want to point out in the article is that the above poets praise patriotism, national-spiritual knowledge, human feelings, using the motives of legends, mythological elements, and in general various folklore samples.

***Key words:*** poetry, B.Vahabzade, M.Araz, folklore, mythological image, symbol, aesthetic education, national and spiritual values, human feelings

Xalqın həyatını, məişətini, işini onun bədii yaradıcılığından ayrı təsəvvür etmək olmur. İnsan dünyaya gələn-

dən dünyadan köçənədək layladan tutmuş ağıyadək xalq şeiri ilə mənəvi bağlanır, bu tükənməz xəzinədən qidalanır. Əgər bu insan yaradıcı şəxsiyyət olarsa, öz əsərlərində şifahi xalq ədəbiyyatına münasibətini bildirmədən keçinə bilmir, çünki folklor bütün sənət növlərinin örnəyidir. Xalq ədəbiyyatı bizdən əvvəl yaşayanların əsrlər boyu qazandıqları həyat və əmək təcrübəsini, eləcə də daxili, mənəvi aləmini əks etdirən əsl müdriklik xəzinəsidir.

Gənclərin vətənpərvərlik, milli-mənəvi özünüdərk ruhunda inkişaf etməsi xalqın bədii təfəkkürünü özündə ehtiva edən folklor nümunələrini dərindən öyrənib mənimsəməkdən də asılıdır. Belə ki, bu nümunələr gənc nəsildə namuslu və şərəfli həyat sürmək, sədaqətli, mərd, mübariz və vətənpərvər olmaq kimi mənəvi keyfiyyətlər tərbiyə edir. Haqqa, ədalətə inam bəsləmək, haqq işini müdafiə etmək, böyük sözünü eşitmək, ataya, anaya, bacı-qardaşa, övlada məhəbbət, sevgiyə sədaqət kimi dəyərləri aşılayır, bəşəri duyğular yaradır.

Folklor nümunələri yazılı ədəbiyyatın da bəhrələndiyi əsas mənbədir. Bədii əsərlərin məna-məzmun dərinliyi, bədii-estetik dəyəri bilavasitə onların məzmununa hopdurulmuş folklor ruhu, xalq düşüncə tərzi ilə bağlıdır. Bu ruhu, bu düşüncə tərzini biz çağdaş Azərbaycan poeziyasında, o cümlədən Bəxtiyar Vahabzadə yaradıcılığında da görə bilərik. Poeziyada vətənpərvərlik ruhunun qüvvətlənməsində, şeirimizin sənətkarlıq imkanlarının genişlənməsində xalq şairi Bəxtiyar Vahabzadənin xüsusi xidmətləri vardır. Onun istər fəlsəfi məzmun daşıyan ahəngdar lirikası, istər insan talelərinin güzgüsü olan poemaları, istərsə də həyati

konfliktlər əsasında qurulmuş pyesləri ədəbiyyatımızın parlaq bir səhifəsini təşkil edir. Çağdaş insan, onun taleyi, daxili aləmi haqqında incə duyğuların, narahat düşüncələrin tərənnümçüsü olan B.Vahabzadə hər şeydən əvvəl xalq ruhuna bağlılığı daima əsas meyar kimi götürmüş, qələmə aldığı hər bir əsərə məhz bu prizmadan yanaşmışdır. Prof. Kamran Əliyevin dediyi kimi: "Hər hansı bir folklor mətni xalq tərəfindən yaradılırsa və xalq həmin mətndə öz təfəkkür tərzini ortaya qoyursa, həmin xalqın sənətkar nümayəndəsinin qələmə aldığı bədii əsərdə də folklor nümunəsində müşahidə olunan müəyyən cizgilər özünü kifayət qədər büruzə verməlidir" (4, 122). B.Vahabzadə də məhz belə sənətkarlardandır. Onun yaradıcılığında biz xalq təfəkküründən süzülüb gələn folklor nümunələri ilə tez-tez rastlaşırıq. Bu cür folklorizmlərdən biri də nağıllarda görməyə adət etdiyimiz personajlardır ki, B.Vahabzadə bu obrazlardan bir növ bədii priyom kimi istifadə etmişdir.

Şair 1984-cü ildə yazdığı "Cavab" adlı şeiri ilə İran-da Azərbaycan xalqının milli varlığını danan, xalqımızı farslardan dönmə hesab edən "alimlər"dən milliyyətcə azərbaycanlı olan Yəhya Zəkanın cavabını vermiş oldu.

Altay dağlarını baban aşanda,
Ağan bu cürəti heç danmamışdı.
Qorqud öz dilində nəğmə qoşanda
Sədinin qəzəli yaranmamışdı.
Tarixlər yaradıb tarixdən qədim
Bu xalqın qılıncı,
Bu xalqın sözü.
Bəs necə oldu ki, ey dönük alim,

Biz olduq özgənin tör-töküntüsü?
Cırtdan nağılını danışdı nənən,
Bu nağıl qanana ibrətdir bu gün.
Divə əyilmədi Cırtdan...
Amma sən
Qarğa qabağında sərçəyə döndün (7, 206).

Burada şair Yəhya Zəkanı nağıllarımızdakı Cırtdan obrazı ilə müqayisə etmiş, onu Cırtdandan ibrət almağa səsləmişdir.

Böyük vətənpərvər, xalq mənafeyinin əsl müdafiəçisi, xalqın soy-kökünə, dilinə, mənəviyyatına həssaslıqla yanaşan şair digər bir şeiri – 1964-1965 illərdə yazdığı, lakin 1991-ci ildə çap etdirdiyi "Həyat-nağıl" şeiri haqqında yazır: "O dəhşətli illərdə çapa verə bilmədiyim, yalnız yazmaqla təsəlli tapdığım bu şeirlər qəlbimin fəryadı – yəni, o zamanın ağrı, acılarıdır. 1950-ci illərdən Sovetlər İttifaqı dağılana qədər yazılmış və arxivimdə gizlədilmiş bu şeirlərin bir qismi ilk dəfə "Nağıl-həyat" (1991), "Ümidə heykəl qoyun" (1993), "Körpü çaydan uzaq düşüb" (1996) kitablarımda, tam halda isə 7 cildlik "Əsərləri"min 6-cı cildində (2003) "Sandıqdan səslər" başlığı altında çap olunmuşdur" (3, 231). Şeirdə oxuyuruq:

Hardasan, ay ana, bir gəl, mən yenə
Bəlalı başımı qoyum dizinə.
Mənə nağıl danış, dayansın anlar,
Görüm, nağıldakı o qəhrəmanlar
Cütbaşlı divləri nə təhər yıxır,
Nə təhər gizlənib, tilsimdən çıxır.

Bir danış, hardadır, görüm, səadət?
Bizim yurdumuza o niyə gəlməz?
Danış, danış görüm, Məlik Məhəmməd
Zülmətdən işığa necə çıxdı bəs? (7, 233)

Bu şeirdə isə şair yaşadığı dövrdə baş verən hadisələrə, yurdunun başına gələn bəlalara işarə edir. "Məlik Məmməd" nağılında xeyirin şərə qalib gəldiyi kimi, ölkəsində də xeyirin qələbə çalmasını istəyir.

Bütün türk ellərini birliyə çağıran sənətkar 1992-ci ildə qələmə aldığı "Haqqı yox" şeirində də bu mövzuya müraciət edərək türkçülük ideyalarını tərənnüm etmişdir.

Tarix bizi imtahana çəkirkən
İmdad umur hamımızdan bu Vətən.
Dünya da haqq səsimizə kar ikən
Türkün türklə ədavətə haqqı yox.
Sındırıldı dəyirmanda pərimiz,
Əsir oldu divə bizim Pərimiz.
Dağılırkən ocağımız, pirimiz
Türkün türklə ədavətə haqqı yox (7, 286).

Burada şair türk ellərinin, o cümlədən öz ölkəsinin əsarətdə olduğunu üstüörtülü şəkildə vurğulayır. Necə ki, nağıllarda pərilər divə əsir olur, şairin vətəni də yad əllərdədir. Buna görə də bütün türk elləri səs-səsə verməli, çıxış yolu tapmalıdırlar.

B.Vahabzadənin ən qiymətli poemalarından biri "Muğam"dır (1975). İnsanın bir şəxsiyyət, ürək və ağıl sahibi kimi yetişməsində, onun vətənpərvərlik duyğularının

inkişafında, ümumiyyətlə, özünüdərk prosesinin sürətlənməsində mənəvi sərvətlərin, o cümlədən musiqinin rolu və əhəmiyyəti əsasdır. Bu poemanın da mövzusu adından da göründüyü kimi, Azərbaycan musiqisinin bir qolunu təşkil edən muğamlardır. Şair burada,

“Ürəyinin tellərindən
Tellər çəkib tara xalqın.
O tellərin nəğməsində
Öz ruhunu, öz qəlbini ara xalqın” (8, 178),

– deyərək xalq ruhu, xalq mənəviyyatını məhz musiqidə də yaşatmağı gələcək nəsillərə tövsiyə edir.

Bəlkə... Muğam bir nağıldır, əfsanədir.
Bilək, onun bu dünyaya sözü nədir, qəsdi nədir?
Nağıllarda bir göyərçin
Bir qəribi şah elədi.
Bu dünyanın kələ-kötür işlərini rəndələdi...
Ötənlərin dərdlərinə dola-dola
İnanaqmı bu nağıla?
Bu arzudur, bu diləkdir.
El deyir ki, arzularım
Gələcəkdir,
Güləcəkdir...
Bəlkə, düzgün böləmmədik
Biz o zaman
Göydən düşən üç almanı?
Bilək, niyə şüşədədir
Divin canı?.. (8, 177-178)

Poemanı oxuyarkən görürük ki, B.Vahabzadə nağıl motivlərinə də müraciət etmişdir. Burada divin canının şüşədə olması, göydən üç alma düşməsi, o cümlədən nağıllardakı yardımçı obrazların – göyərçinlərin qəhrəmanlara kömək etməsi göstərilir.

"Atılmışlar" poemasında (1976-1978) valideynlərinin atdığı körpələrlə, övladları tərəfindən atılan və qocalar evində sığınacaq tapan yaşlı insanlar qarşılaşdırılır. Poemanın məzmunundan aydın olur ki, bir qoca qadın hər həftənin bazar günü qocalar evindən körpələr evinə gələrək buradakı uşaqlara nağıl danışır, vaxtını onlarla keçirir:

Körpələr evində bir toy-büsat var,
Uşaqlar sevinir, əylənir yenə.
Ürəyi nisgilli körpə balalar
Toplaşıb qarının yan-yörəsinə,
Uşaqlar oynayır, atılıb-düşür,
Qarının qəlbində güllər öpüşür.
O, çilli körpəni basır bağrına,
"Cırtdan" nağılını danışır ona:
– Kim yatıb, kim oyaq?
Dillənir uşaq:
– Hamı çoxdan yatıb, tək Cırtdan oyaq.
Cırtdanın anası yoxmu, ay nənə?
Onun da anası...
– Nə deyim sənə?
Bilirsən, ay bala, Cırtdan...
– Hə, Cırtdan...
– İgiddir yaman.
O divi...

– Öldürər... Qorxmur heç nədən.
Böyüyüb Cırtdanla dost olacam mən.
– Yaxşı, mənim balam... (8, 250)

Bütün bu nümunələrdən göründüyü kimi, şair tez-tez nağıllara, onlardakı personajlara müraciət edərək fikirlərini məhz bu yolla çatdırmağa çalışmışdır. Nağıllarımızda olduğu kimi, Div obrazı burada da mənfi, Cırtdan isə müsbət planda verilmişdir. Belə ki, Azərbaycan və digər türk xalqlarının nağıl yaradıcılığında Div obrazı çox zaman şər qüvvələri təcəssüm etdirmiş, xtonik aləmə aid olduğu üçün buynuzlu təsvir edilmişdir. Div mifologiyadan gələn folklor obrazı olaraq xaosun daşıyıcısı, qaranlığın təmsilçisi olan demonik varlıq olaraq təsəvvür edilmişdir. Canı hər zaman özündən ayrı yerdə – şüşədə, göyərçində və s. olan divlər türk xalqlarının nağıllarına görə başlıca olaraq zülmətdə, yeraltı qalaçalarda, eləcə də dağlardakı böyük mağaralarda və ya suda yaşayırlar.

Azərbaycan nağıllarının tanınmış qəhrəmanı Cırtdan da mifoloji əsaslı obrazdır. Tədqiqatçıların qənaətinə görə, Cırtdan obrazı od ruhunun folklorda gerçəkləşən formalarından biridir. Prof. C.Bəydili qeyd edir ki, "Anadolu nağıllarındakı "Boyu bir qarış, saqqalı iki qarış" obrazının "Atəşli mərcimək" adı daşıması bu varlığın od ruhu ilə bağlılığından xəbər verir" (3, 79). Bəlkə, elə "Cırtdan" nağılında cırtdanın məhz itlər hürən tərəfə deyil, işıq yanan tərəfə getməsi onun bu xüsusiyyəti ilə bağlıdır.

Miflərdə göstərilir ki, cırtdanlar yeraltı mağaralarda yaşayırlar. Balacaboy və çoxbilmiş adamlar haqqında "elə çoxbilmişdir, elə bil yarısı yerin altındadır" deyirlər və

bəlkə də fərqinə də varmırlar ki, bu deyimin mifik kökü var. Cırtdanın mağarada, bir növ yerin altında yaşaması bu deyimin həqiqətinə işıq tutur. Türk xalqları nağıllarında da Cırtdan zülmət dünyası və ya qaranlıq dünya padşahının kiçik oğlu kimi təqdim olunur.

Beləliklə, özündə elinə, torpağına, kökünə bağlılığı, təkrarsız, fərdi, milli çaları yaşadan Bəxtiyar Vahabzadə poeziyası ədəbiyyatımızın tarixi-bədii faktına və hadisəsinə çevrilmişdir. Xalq yazıçısı Anarın təbirincə desək, "dilimiz, millətimiz durduqca Bəxtiyar Vahabzadə də əbədi yaşayacaqdır".

Müasir Azərbaycan ədəbiyyatında yeni tipli şeirin yaradıcılarından biri də Məmməd Arazdır. Onun şeirləri üçün incə lirizm, fikir və hissin pozulmaz vəhdəti, təbiəti duyum həssaslığı xarakterikdir. Mövzu baxımından da şairin əsərləri çox rəngarəngdir. Onun istər vətənpərvərlik, istər təbiətin tərənnümü, istərsə də fəlsəfi aspektdə yazdığı əsərləri özünəməxsusluğu ilə seçilir. Doğma vətənin tarixi, taleyi şairin yaradıcılığının baş mövzusudur. Azərbaycanın müstəqilliyi, milli varlığımızın təsdiqi bu mövzunun əsas və aparıcı motividir, onun mərkəzi ideyasıdır.

M.Araz poeziyası fəlsəfi lirikadır. Belə ki, dünya, insan, tale haqqında, insanın bu dünyada vəzifəsi haqqında fəlsəfi-lirik düşüncələr bu lirikanın əsasını təşkil edir. "Dünya sənin, dünya mənim, dünya heç kimin" deyən M.Araz insanlara üz tutaraq deyir ki, dünya yalnız sizin deyil, siz burada müvəqqətisiniz, əgər bu belədirsə, yaxşı insan olmaq, dünyada yaxşı əməllərlə yaşamaq sizin insanlıq borcunuzdur.

Milli yaddaşla üzvi və ruhi bağlı olan M.Araz poeziyasının özəlliyini müəyyənləşdirən əsas cəhətlərdən biri şifahi xalq yaradıcılığından bəhrələnmədir. A.Abdullayevanın da dediyi kimi, "xalq sənətindən yaradıcı surətdə bəhrələnən, bu həmişəsərin bulaqdan su içən müasir şairlərdən biri" olan Məmməd Araz bir çox şeirlərində və poemalarında folklorizmlərdən istifadə etmişdir. Buraya əfsanə motivləri, mifoloji elementlər, müxtəlif folklor nümunələri aiddir.

Məqalədə diqqətə çatdırmaq istədiyimiz əsas məsələ isə şairin rəqəmlərin simvolikasından məharətlə istifadə etməsidir.

Yunan filosofu Pifaqor demişdir: "Dünya ədədlər üzərində qurulub".

Kornelius Aqrippaya görə isə, ədədlər yalnız rəqəm və işarələrin ifadə etdiyi kəmiyyət göstəricisi deyil, onlarda başqa bir qüvvə də vardır. Ədədlərin ifadəsi olduğu bu qüvvə təbiətdə şeylərlə qaydalar arasında olan okkult əlaqələrdədir.

Tarixən bir çox xalqlarda müxtəlif rəqəmlər qutsal sayılmışdır. Məsələn, türklər 9-u, misirlilər və yunanlar 12-ni, ərəblər 3, 7 və 40 rəqəmlərini, monqollar 6 və 60 saylarını müqəddəs bilmişlər. Qədim şumerlərdə və skiflərdə 7 sayı qutsal idi. Belə ki, onlar 7 sayının yaradılışla bağlılığına, göyün və yeraltı dünyanın 7 qatdan ibarət olmasına inanmışlar.

Yeddi xalq təfəkküründə və mifologiyasında da əsas rəqəmlərdən sayılır. Göyün yeddi qatdan ibarət olması, həftədə yeddi günün, göy qurşağında yeddi rəngin mövcudluğu, musiqinin yeddi not üzərində yaradılması və s. buna əyani sübutdur.

Görünür, şairin "Yeddi bulaq əfsanəsi" poemasında məhz yeddi rəqəmindən istifadə etməsi bu rəqəmin müqəddəs olduğundan irəli gəlir. Bu da bir növ xeyir qüvvələrin – günahsız yeddi qızın qələbəsinin müqəddəsliyini göstərmək üçün bir priyomdur. Bu priyomdan tarix boyu bir çox sənətkarlar istifadə etmişlər. Maraqlıdır ki, iki əsas rəqəmin – üç və dördün toplanmasından alınan yeddi ilə bütün kainatın yeddiqatlı modeli qurulur: ona görə də mifoloji strukturlarda bu rəqəm səyyarələrin, planetlərin payına düşür. "Yeddi" rəqəminin sakrallaşmasına qədim türk-runik abidələrində, klassik Azərbaycan şairlərinin yaradıcılığında, nağıl və eposlarda təsadüf edilir. Buna dahi şairlərimiz N.Gəncəvinin "Yeddi gözəl", M.Füzulinin "Yeddi cam", böyük özbək şairi Ə.Nəvainin "Yeddi səyyarə" poemalarını misal göstərmək olar. Yeddi səyyarə dedikdə, Ayla yanaşı digər səyyarələr – Günəş, Zühəl – Saturn, Müştəri – Yupiter, Mərrix – Mars, Zöhrə – Venera, Utarid – Merkuri nəzərdə tutulur. Göy türk imperiyası dövründə də türklər arasında "yeddi" rəqəmi göylə yerin vəhdətini bildirirdi.

Folklorşünas alim Ramil Əliyev "Riyazi mifologiya" kitabında yeddi rəqəmi haqqında belə yazır: "Folklor nümunələrində də xüsusilə yeddi rəqəminin gen-bol işlənməsinin səbəbi bu rəqəmin yarandığı arxaik mifoloji düşüncədə son hədd olması, lap qədim ibtidai insanların saylarla bağlı biliyinin oraya qədər olması ilə bağlıdır. Yeddinin tanrı rəqəmi kimi şüurlarda yer alması folklor nümunələrində bu rəqəmin metaforik şəkildə işlənməsinə səbəb olmuşdur" (5, 59).

Belə ki, rəqəmlər xalq təfəkküründə və mifologiyasında da öz geniş əksini tapmışdır. Biz xalqımızın çoxəsr-

lik mənəvi mədəniyyətinin tərkib hissələrindən biri olan folklorda – “Üç bacının nağılı”, “Yeddi qardaşlar”, “Üç şahzadə”, “Yeddi dağ alması”, “Üç qardaş”, “İki yoldaş” və s. nağılların sərlövhəsində, bundan başqa bir sıra dastanların mətnində də bu rəqəmlərlə qarşılaşırıq. M.Araz da bundan çox məharətlə istifadə etmişdir. İki, üç, altı, yeddi rəqəmlərinə onun yaradıcılığında tez-tez rast gəlinir. Məsələn, “Şair, nə qazandın?” şeirində oxuyuruq:

Onu görməmişdim o illərdə ki,
Xəyanət yarğandı mərdanəliyə,
Zaman da ikili, zaman da iki,
Zaman da yorğandı mərdanəliyə (2, 81).

“Əgər mən özümlə üz-üzə gəlsəm” şeirində də iki rəqəmi aşağıdakı kimi verilmişdir.

Bu vəsiyyət! Bu, özündən özünə məktub!
Varlığı yox, “var” – desə də beləsi, vallah.
İkiləşsək “mənim” – biri ölümə məhkum,
O biri də öz-özünə öləsi, vallah!.. (2, 122-123)

Nümunələrdən də göründüyü kimi, şair dualizm məsələsinə toxunur. Belə ki, iki ilə xeyirlə şər, işıqla qaranlıq, yaxşı ilə pis qoşalaşır və dünyanın əksliklәri doğulur. Gündüz və gecə kimi əks anlayışların rəqəmi olan iki tarazlıq və kontrast mənasında işlənir, müsbət və mənfi keyfiyyətləri birləşdirərək tarazlıq yaradır.

“Altı qızın biri pəri” şeirində isə altı rəqəmi nəzərə çatdırılır.

Altı qızın biri Pəri...
Mənə elə gələrdi ki,
Harda isə küləklər də
Qoşulubdu altı qıza,
Bənövşələr, çiçəklər də
qoşulubdu altı qıza (1, 174).

Altı inam rəmzidir. O, həm tək, həm də cüt ədədlərə bölünərək sanki onları birləşdirir. Altı Oğuz türklərinin təsəvvüründə iki üçlüyün vəhdətini bildirir. Birinci üçlüklə Kosmos (Gün, Ay və Ulduz), ikinci üçlüklə isə Yer və onun orbiti (Dağ, Dəniz və Göy) yaranmışdır.

Şairin "Üç oğul anası" poemasındakı üç rəqəmindən də danışmaq istərdik. Üç dəyişkənlik deməkdir, keçmişin, indinin və gələcəyin rəmzi olan üçbucaqla işarə edilir. İstedad və şən əhvali-ruhiyyəni ifadə edir, uyğunlaşmaq rəmzidir.

Üç ilk say sistemini formalaşdırmaqla yanaşı, təkcə mütləq bütövlük, üstünlük, ağıl-yetkinlik (insanda ağıl, güc və görünüş) deyildi, həm də mifopoetik strukturların ilkin tam variantının başa çatması və sosial konstruksiya (hakimiyyət üç qardaşdan birinə çatır) idi.

Sözügedən poemada yuxu ilə bağlı səhnə verilmişdir. Gülsənəm ana yuxuda hana toxuduğunu və hananın od tutub yandığını görür, sanki baş verəcək hadisələr ona yuxusunda əyan olur. Bununla bağlı aşağıda verilmiş nümunə maraq doğurur. Çünki biz rəqəmlərin – sayların işlənməsinə M.Araz yaradıcılığında tez-tez rast gəlindiyini vurğulamışdıq. Burada yenə də həmin məsələyə qayıtmaq istərdik. Rəqəmlər özündə müəyyən sirləri daşıdığı üçün şair onlardan məharətlə istifadə etmiş, hətta bu bəhrələnmə

onun şeirlərinin daxili quruluşuna, poetik biçiminə də təsirsiz qalmamışdır.

Sonra da çox şeylər düşdü yadına,
Hicran mizrab vurdu xatiratına:
– Gülgəz, pis yuxular əl çəkə bircə...
Hana toxuyuram gördüm bu gecə (9).

Bu bənddə hana sözü işlənmişdir. Hana xalça toxumaq üçün lazım olan vasitədir. Qədim zamanlardan bizim günlərə qədər əllə toxunan xalçaları hana adlanan sadə dəzgahlarda toxuyurlar. Hana, paralel və əks tərəfləri olan dördbucaqlı şəklində toxucu dəzgahdır. Onun iki növü – şaquli hana və üfüqi hana olmuşdur. Hanada sanki göy qurşağının 7 rəngi – qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi rənglər mövcuddur.

Elə toxuduqca qalxır yuxarı,
Nə əvvəli vardır, nə də axırı...
Düşündüm: ay canım, nə hanadır bu,
Torpaqda bir ucu, göydə bir ucu... (9)

Şair şeirlərində bədii ifadə vasitələrini işlədərkən də saylardan istifadə etmişdir. Bədii təzad və təkrirlərin işlənməsi buna nümunə ola bilər. Məsələn, yuxarıdakı bənddə təzadlardan istifadə olunmuşdur ki, bu da məzmunca bir-birinə əks, zidd anlayışların köməyi ilə yaradılır. Nümunədə əvvəl-axır, torpaq, yəni yer-göy kimi sözlər qarşılaşdırılır. Ümumiyyətlə, M.Araz yaradıcılığında bu cür təzadlara çox rast gəlinir. Məsələn, "İnsan ürəyi" şeirini oxuyanda bunun şahidi oluruq:

Ürəkdə ay doğur, günəş də batır,
Göy qopur, ildırım çaxır ürəkdə.
Tufan da hayqırır, sükut da yatır,
Alov da, gurşad da yağır ürəkdə (1, 31-32).

Poemanın aşağıdakı bəndində isə şair dörd yana ifadəsini 4 cəhətə mənasında işlədərək sanki qəhrəmanının başına gələn hadisəninin qloballığını nəzərə çatdırmaq istəmişdir.

Ürəyim döyündü, qanım qaraldı:
Birdən göy kişnədi, hava qaraldı,
İldırım şığıyıb düşdü dörd yana,
Yandı toxuduğum yarımçıq hana... (9)

Poemada təkrirlər də verilmişdir. Aşağıdakı bənddəki təkrir – anafora ahəngdarlığı artırır və fikri qüvvətləndirir.

"Ay yandım, ay yandım" – qışqırdım birdən,
Yaxşı ki, ayıldım öz səsimə mən;
Gördüm ki, eləyəm qan-tər içində,
Ürəyim çırpınır qəhər içində (9).

Mifoloji ənənəyə görə gələcək hadisələrin bildirilməsi yolu yuxu vasitəsilə gerçəkləşir. Qeyd edək ki, yuxu ilə bağlı motivlərə daha çox Azərbaycan şifahi xalq ədəbiyyatının min illik yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir:

"Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi:

“Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara-qayğılı əhvalatlar gördüm. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm, Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!”

Qaragünə dedi: “Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan – qanqaralıqdır. Qalanın yoza bilmərəm, allah yozsun” (6, 47).

Buradan göründüyü kimi, yuxu insanın ilk mifi, dünyaduyumudur. Necə ki, Qazan xan gələcəkdə baş verəcək hadisələri yuxusunda görür, eləcə də M.Arazın qəhrəmanı da yuxuda gördüyü hadisəni pis xəbərlər eşidəcəyi kimi yozur. “Dədə Qorqud” kitabından da məlum olduğu kimi, oğuzlar yuxunu “kiçik ölüm” adlandırmışlar. M.Araz da xalqın qədim zamanlardan geniş yayılmış mifik inamlarını – qəzavü-qədərin yuxuda görülməsini, yuxunun ölüm aktı ilə eyni olmasını poemaya gətirmişdir. Bu da şairin doğma kökə bağlılığından, xalqımızın mifopoetik düşüncəsini yaxşı bilməsindən, daima ondan yararlanmasından irəli gəlir. O, insanın kökə, ilkinliyə, doğma yurda bağlılığını həmişə əsas meyar kimi götürmüşdür. Odur ki, mayası vətənpərvərliklə yoğurulmuş M.Araz poeziyası həmişə yaşayacaq və gələcək nəsillərə örnək olacaq.

# ƏDƏBİYYAT

1. Araz M. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, 224 s.

2. Araz M. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2004, 232 s.

3. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı, "Elm", 2003, 418 s.

4. Əliyev K. Romantizm və folklor. Bakı, "Elm", 2006, 160 s.

5. Əliyev R. Riyazi mifologiya. Bakı, "Nurlan", 2008, 182 s.

6. Kitabi-Dədə Qorqud Ensiklopediyası. 2 cilddə. I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000, 622 s.

7. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 s.

8. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı, "Öndər nəşriyyat", 2004, 320 s.

9. http://www.memmedaraz.az/?menu=224

# KİTABIN İÇİNDƏKİLƏR

**Muxtar Kazımoğlu-İmanov**
Mənəvi zənginlik baxımından mifoloji
düşüncə və yazılı sənət əlaqələri ..................................... 3

**Kamran Əliyev**
Azərbaycan "Oğuznamə"si və mənəvi
dəyərlər sistemi .......................................................... 26

**Əfzələddin Əsgər**
Oğuzların ulu əcdadı Bulca və onun mifoloji kimliyi........ 50

**Adil Əsədov**
Ev və geyim maddi və mənəvi mədəniyyət
nümunələri kimi: fəlsəfi yanaşma .................................. 70

**Adil Əsədov**
Təsviri sənət – mənəvi zənginliyin cismani
göstəricisi kimi ............................................................ 88

**Tahirə Məmməd**
Poeziyada milli kimlik probleminin vətənçilik və
milli birlik idealları ilə ifadəsi........................................ 104

**Mahirə Quliyeva**
Ədəbiyyat: əxlaq və mənəvi tövsiyələr ............................142

**Elçin Abbasov**
Epik qəhrəmanlığın mənəvi meyarları:
"Kitabi-Dədə Qorqud" və "Koroğlu"............................. 206

**Vidadi Qafarov**
Azərbaycan teatrının milli kimlik
problemi (XX əsr-XXI əsrin əvvəlləri) .......................... 221

**Gülnar Osmanova**
Poeziyada folklorizm və mənəvi-estetik
tərbiyə məsələləri.......................................................... 264

**Ədəbiyyat və incəsənət: milli kimlik və mənəvi zənginlik (II kitab).**
Bakı, Elm və təhsil, 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 284 səh.
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.